# Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası

# ATKE

## VIII cild

Bakı-2019

İdeya müəllifi:
**İbrahimov Bəhram Məhəmməd oğlu**

Redaktor və nəşrə hazırlayan:
**Zərbalı Mirzə**

Redaksiya heyəti:
Allahverdiyev Zərbalı Mirzə oğlu (Zərbalı Mirzə), Kazımov Əjdər Aşur oğlu, Poluxov Nazim Şamil oğlu, Məmmədzadə Rauf İbadulla oğlu, Şıxalıyev İkram Əli oğlu, Ağayev Seyfəddin Cüleyxan oğlu, Alıyev Məzahir Şahniyar oğlu, Məmmədov Yusif Xamməd oğlu.

**"Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası" (ATKE) VIII cild.**
Bakı, "Şərq-Qərb", 2019-cu il. 216 səh.

"Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası" (ATKE) kitabının 8-ci cildində Azərbaycan məmləkətini kərpic-kərpic tikib abadlaşdıran memar və inşaatçılarımızın həyat və ömür yollarından qısa və lakonik dillə oxuculara məlumat verilir. Onların arasında memarı da var, inşaatçısı da, naziri də var, fəhləsi, bənnası da, hamının tanıdığı məhşurları da var, çox az adamın tanıdığı, lakin böyük işlər görən tanınmamışlar da var. Kitabı bu şəkildə tərtib etdik ki, müstəqil Azərbaycanımızın bu günkü qurucularını hamı tanısın və hörmət eləsin.

Kitabda həmçinin milli memarlıq tariximizin inciləri olan qədim və müasir arxitektura tikililərinin, həm də hələ layihə olan gələcək memarlıq nümunələrinin foto-şəkilləri də oxuculara təqdim olunur.

Əminik ki, geniş tikinti ictimaiyyəti üçün nəzərdə tutulan bu ensiklopediya inşaatçı və memarlarımızın stolüstü kitabına çevriləcəkdir.

# ÖN SÖZ

Bəşər tarixinin başlanğıcı ibtidai insanların yaşadığı təbii mağaralardan başlayır. İlk insanlar yarandığı vaxtdan onun əzəli düşüncəsi özünə dalqalanmaq üçün yer tapmaq olub və onu yararlı hala çevirməklə tikinti fəaliyyətinə başlamışdır. Azərbaycan ərazisində Böyük və Kiçik Qafqaz dağlarının ətəklərində, Talış dağlarında, Naxçıvan MR-da, Zəngilan, Kəlbəcər, Gədəbəy, Xanlar, Şamaxı və nəhayət, Füzuli rayonu ərazisində aşkar edilmiş Azıx mağarası buna misaldır.

Qobustanda aşkar edilmiş ən qədim yaşayış yerləri (mağaralar, müxtəlif primitiv sığınacaqlar və s.) ilə yanaşı, meqalit memarlıq abidələri – kromlexlər, menhirlər (çoban daşı), dolmenlər və siklop tikililəri geniş yayılıb. Hündür daşlardan quraşdırılmış bu qurğular el arasında "qalaça", yaxud "hörükdaş" adlanır.

Azərbaycan ərazisində e.ə. IX-VII əsrlərdə şəhərlər əmələ gəlib, müdafiə tikililəri, əzəmətli qala divarları inşa edilib. VII əsrdən Azərbaycanda islam dininin yayılması ilə bağlı memarlığın da inkişaf yönü dəyişmişdir. Memarlıqda yeni tipli binaların – məscid, mədrəsə, türbə, karvansara və s. tikilməsi əsas xətt olmuşdur. XII-XIII əsrlərdə Azərbaycanda bir sıra möhtəşəm körpülər salınıb. XV-XVI əsrlərdə də Azərbaycan memarları başqa ölkələrdə də fəaliyyət göstərmiş, müxtəlif şəhərlərdə maraqlı sənətkarlıq örnəkləri yaratmışlar. XVII-XVIII əsrlərdə ticarətin inkişafı ilə bağlı, müxtəlif binaların tikintisi genişlənib.

Neft sənayesinin sürətli inkişaf etdiyi XIX-XX əsrlərin ayrıcında Azərbaycan memarlığında yeni təzahürlər müşahidə olunub. XIX əsrdə yaşayış binaları istisna olmaqla, ən xarakterik bina tipi ticarət binaları idi. Sovet dövrü Azərbaycan memarlığının ilk mərhələsi Bakı ətrafında fəhlə qəsəbələrinin (Binəqədi, Bakıxanov, Montin, Məmmədyarov) salınması ilə əlaqədar olub.

Müstəqillik qazanandan sonra da, Bakının ən görkəmli yerlərində gözəl memarlıq ansamblları yaradılmış, şəhərin simasını müəyyən edən müasir binalar, göydələnlər tikilmişdir.

Bu gün tikinti sözün əsil mənasında geniş əhatəli, mürəkkəb bir quruculuq sahəsidir. Ölkəmizdə inşaat işləri ilə məşğul olan, ölkə tikinti kompleksində və layihələndirmə sahəsində müstəsna əməyi olan, sözün əsil mənasında inşaatçı və memarların adlarını əbədiləşdirmək istəyimiz bu kitabın yazılmasına stimul verdi.

Ensiklopediyada ömür yollarına bələdçilik etdiyimiz inşaat mühəndislərinin, memar və layihəçilərin çoxu uzun illərdir ki, ölkə tikintisinin ayrı-ayrı bölmələrinə səriştə ilə

rəhbərlik etmiş insanlardır. Onlar öz ləyaqətləri, bacarıq və qabiliyyətləri ilə örnək olduqları kimi, həm də gənc inşaatçı və memar kadrların yetişdirilməsi naminə əllərindən gələni etmişlər və bu gün də xeyirxah missiyalarını davam etdirirlər. Onlar fərqli zaman kəsiklərində yaşayıb yaratsalar da, eyni məqsəd və amal naminə çalışmış və bu gün də çalışmaqdadırlar.

Dəyərli oxucularımıza təqdim etdiyimiz "Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası" kitabının VII cildində də belə seçilən insanların şərəfli ömür yolu və qazandıqları uğurlar qısa və konkret olaraq qələmə alınmışdır. Onu da qeyd edək ki, bir çox obyektiv və subyektiv səbəblər üzündən kitabın əvvəlki 6 cildində tikinti kompleksində böyük xidmətləri olan məşhur və tanınmış inşaatçıların bəziləri haqqında heç bir məlumat əldə edə bilmədiyimiz üçün onlara yer verə bilməmişik. Arxiv materiallarında dəqiq tərcümeyi-halların, şəkillərin olmaması, bir sıra təşkilat və qurumların tamamilə ləğv edilməsi, bir sıra səhmdar cəmiyyətlərin rəhbərliyinin bu məsələyə biganə münasibət göstərməsi və s. səbəblər ucbatından adlarını tarixin daş yaddaşına yazmış çox sayda memar və inşaatçılar haqqında "Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası" kitabının VII cildində də tam olaraq bəhs edə bilmədik. Ona görə də onlar haqqında kitabın sonrakı cildlərində bəhs edəcəyik.

Ancaq biz öz axtarış və tədqiqatlarımızı ardıcıllıqla davam etdirir, bir sıra qurumların, təşkilat və səhmdar cəmiyyətlərin rəhbərləri ilə danışıq aparır, vəfat etmiş dəyərli insanların ailə üzvləri və dost-tanışları ilə əlaqə yaradaraq doğma Azərbaycanımızın tikilib böyüməsində uzun zaman içərisində fədakar əmək nümayiş etdirmiş inşaatçı-mühəndislərimiz haqqında dolğun məlumatlar əldə etməyə çalışırıq. İnanırıq ki, yaxın gələcəkdə hörmətli oxucularımıza təqdim edəcəyimiz bu kitabın 8-ci cildində oxucularımızın hərtərəfli dəstəyi və köməyi ilə V.L.Pyatibrat, Ə.Ə.Əliyev, R.M.Abdullayev, R.Səlimzadə, M.B.Kabakov, F.Eyvazov, H.S.Şahsuvarov, R.Ağahüseynov, D.Qayıbov, M.N.Mərdanov, N.Ə.Məmmədov, N.Ə.Məmmədov, Ə.S.Həsənov, O.S.Əsədov, T.Məmmədov, M.Kasimov, Ş.Musayev, A.İ.Qulamov, S.Bədəlbəyli, O.M.Məmmədov, Ə.Q.Kərimov, Z.Ə.Mustafayev, K.Əliyarzadə, N.A.Sadıxov, Z.İ.Abdullayev, Dağkəsəmənski, R.İ.Rzayev, H.Rzayev, S.S.Sadıxov, X.M. Sadıxov, İ.Şaxverdiyev, Ş.Məmmədov, Z.Bənəniyarlı, M.Seyidov, M.Gözəlov, N.Z.Bekker, F.A.Qoltsman, D.Muğanlinski, A.Bədəlov, Q.M.Məmmədov, İ.R. Əfəndiyev, A.Qasımov, S. Hüseynov, Ə.R.Topçiyev, O. Zeynalov, O.Z.Hacıyev, O.M.Hüseynov, H.N. Həsənov və Azərbaycanımızın tikinti-quruculuq tarixində iz buraxmış digər yüzlərlə tanınmış inşaat korifeylərinin də həyat yolunu əbədiləşdirməyə nail olacağıq.

Çox istərdik ki, diqqətli oxucularımız vacib saydıqları və tikintidə əməyi olan ayrı-ayrı dəyərli insanlar-inşaat mühəndisləri haqqında bildikləri məlumatları bizə çatdırsınlar. Bunun üçün onlara əvvəlcədən minnətdarlığımızı bildirir və əlaqə telefonlarımızı xatırladırıq:

(050) 358 91 67
(077) 513 86 13

# A



**Abbasov**
**Tahir**
**Baba oğlu**

1948-ci il may ayının 30-da Tovuz rayonunun Düz Qırıxlı kəndində anadan olmuşdur. 1954-cü ildə Düz Qırıxlı kənd orta məktəbinin birinci sinfinə daxil olmuş, 1965-ci ildə həmin məktəbi bitirmişdir. Həmin ildə də Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuşdur. 1970-ci ildə ali təhsilini başa vurduqdan sonra "mülki və sənaye tikintisi" üzrə inşaatçı mühəndis ixtisası ilə Odessa hərbi dairəsində hərbi tikintidə iş icraçısı işləmişdir.

Tahir Abbasov 1972-ci ilin sentyabr ayından o zaman Gəncə şəhərində yerləşən Azərbaycan Politexnik İnstitutunun Kirovabad filialında laborant vəzifəsinə işə qəbul olunmuş, sonra laboratoriya müdiri, müəllim vəzifələrinə irəli çəkilmişdir.

1975-ci ildə Bakıda İnşaat Mühəndisləri İnstitutunun yaradılması ilə əlaqədar olaraq inşaat fakültəsi Bakıya köçürüləndə o, Gəncədə qalmış, həmin ilin oktyabr ayından 1980-ci ilin dekabr ayına qədər Azərbaycan SSR Sənaye Tikintisi Nazirliyinin Gəncə şəhərində yerləşən 3 saylı trestinin idarələrində ardıcıl olaraq iş icraçısı, texniki istehsalat şöbəsinin müdiri, baş mühəndis, tikinti idarəsinin rəisi, trest müdirinin birinci müavini vəzifələrində işləmişdir.

1980-ci ilin dekabrında Kirovabad şəhərinin Gəncə Rayon Xalq Deputatları Sovetinin İcariyyə Komitəsinin ilk sədri vəzifəsinə seçilmiş, bu vəzifədə beş il işləmişdir.

Tahir Abbasov 1985-ci ilin noyabr ayında Azərbaycan Kommunist Partiyası Gəncə Rayon Komitəsinin I katibi seçilmişdir.

1987-ci ilin iyun ayında Tahir Abbasov Kirovabad Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri seçilmişdir.

1988-ci ilin iyun ayında Tahir Abbasov Tovuz Rayon Partiya Komitəsinin birinci katibi seçilmişdir.

1990-cı ilin noyabr ayında Tahir Abbasov Azərbaycan Kommunist Partiyasının Təftiş Nəzarət Komissiyasının sədr müavini seçilmişdir. Həmim ildə o, həm də 1990-1995-ci illər üçün Azərbaycan Respublikasının Xalq Deputatı seçilmişdir.

Tahir Baba oğlu Abbasov millət vəkili olduğu 1990-1995-ci illərdə hər zaman seçicilərinin yanında olmuş, onları narahat edən problemlərin həlli



*Gəncə şəhərində Nzami rayon İcra Hakimiyyətinin inzibati binası Tahir Abbasovun rəhbərliyi altında inşa olunmuşdur.*

üçün əlindən gələn köməkliyi əsirgəməmişdir.

Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldıqdan sonra Tahir Abbasov 1991-ci ilin oktyabr ayından Azərbaycan Respublikası Nazirlər Kabinetinin tikinti şöbəsində aparıcı mütəxəssis kimi əmək fəaliyyətini davam etdirmişdir.

1992-ci ilin yanvar ayında Azərbaycan Respublikası Prezidenti yanında təşkil olunmuş Ali Nəzarət İnspeksiyasında Gəncə zona inspektoru vəzifəsinə təyin olunmuşdur.

Tahir Abbasov 1992-ci ilin sentyabr ayından Azərbaycan Texnologiya Universitetinə qayıtmış, orada assisent, baş müəllim, dosent, kafedra müdiri vəzifələrində işləmişdir. O, hazırda da həmin institutun dosentidir.

Tahir Abbasov işlədiyi bütün vəzifələrdə tikinti-abadlıq işlərinə böyük diqqət yetirmişdir. Azərbaycan SSR Sənaye Tikinti Nazirliyinin Gəncə şəhərində tikdirdiyi evtikmə kombinatının bünövrəsinin qoyulmasından istifadəyə verilməsinə qədər həyata keçirilən bütün işlərə o, şəxsən özü rəhbərlik etmişdir. Onun rəhbərliyi ilə tikintisinə 1980-ci ilin avqust ayında başlanılmış 50 min sakinin məskunlaşdırılması üçün nəzərdə tutulan Yeni Gəncə yaşayış massivinin inşasında həmin kombinatın istehsal etdiyi məhsullardan istifadə olunmuşdur.

Tahir Abbasovun Tovuzda işlədiyi dövrdə, 1988-ci ildə I Qarabağ müharibəsi başlanmışdır. Onun təşkilatçılığı sayəsində xalqla rayon rəhbərliyinin vahid birliyi yaradılmış, rayonun müdafiəsi yüksək səviyyədə təşkil olunmuşdur. Bundan başqa Tahir Abbasovun şəxsi təşəbbüsü ilə müharibə vəziyyətində olan rayonda vərəm dispanseri inşa edilmiş, əhalinin maddi vəziyyətini yaxşılaşdırmaq və onları torpağa bağlamaq üçün yeni fabrik və zavodlar tikilmiş, beş mindən artıq iş yeri yaradılmışdır. Ermənistandan deportasiya olunan soydaşlarımızın birgə yaşayışını təmin etmək üçün respublikamızda ilk olaraq qaçqınlar üçün yaradılan “Günəşli” qəsəbəsinin əsası qoyulmuşdur. Hazırda bu yaşayış sahəsi Tovuz rayonunun Hunanlar kəndi ilə birləşmişdir.

Tahir Abbasov harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq bütün bilik və bacarığını doğma Azərbaycanın çiçəklənməsinə sərf etmişdir. Onun bu vətənpərvərlik duyğuları və quruculuq işi Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilmiş və o, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən “Tərəqqi” medalı ilə təltif olunmuşdur.



**Abdullayev Elmidar Cümşüd oğlu**

06 fevral 1962-ci ildə Yevlax rayonunun Aran qəsəbəsində anadan olmuşdur. 1969-cu ildə Yevlax rayonunun “28 Aprel” qəsəbəsində 28 saylı orta məktəbin 1-ci sinfinə getmiş, 1979-cu ildə həmin məktəbin 10-cu sinfini müvəffəq qiymətlərlə bitirmişdir.

Elmidar Abdullayev 1980-ci ildə Rusiya Federasiyası Tomsk İnşaat Mühəndisləri İnstitutunun sənaye-mülki tikinti fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur.

O, 04 mart 1982-ci ildə Tomsk şəhəri Oktyabr RHK tərəfindən hərbi xidmətə çağırılmış, Almaniya Demokratik Respublikasının Naumburq şəhəri 82105 saylı hərbi hissədə manqa komandiri vəzifəsində müddətli həqiqi hərbi xidmət keçmiş və 27 aprel 1984-cü il tarixində ordu sıralarından tərxis olunmuşdur.

E.C. Abdullayev 1985-ci ildən 25 avqust 1988-ci ilədək Tomsk şəhəri “Manometr” zavodunda çilingər vəzifəsində işləmişdir. 1989-cu ildə Tomsk İnşaat Mühəndisləri İnstitutunu inşaatçı-mühəndis ixtisası üzrə bitirmişdir.

O, Tomskda ali təhsini tamamladıqdan sonra Azərbaycana qayıtmış, 2 oktyabr 1990-cı ildən 24 mart 1992-ci ilədək Gəncə pərakəndə ticarət müəssisəsində mühəndis vəzifəsində işləmişdir.

E.C. Abdullayev sonra – 01 aprel 1992-ci ildən 26 may 1995-ci ilədək Gəncə şəhəri “Əli-Əkbər” KM “Yaylaq” birgə müəssisəsində müdir vəzifəsində çalışmış, üç il ərzində Rusiya Federasiyasından inşaat materiallarının respublikamıza gətirilməsi istiqamətində fəaliyyət göstərmişdir. 02 iyun 1995-ci ildən 03 iyul 2001-ci ilədək Gəncə şəhəri “Gəncə-Çayı” MMC-də təchizatçı, 23 iyun 2001-ci ildən 10 avqust 2007-ci ilədək Gəncə şəhəri “Gəncə-Çayı” MMC-də mühəndis vəzifəsində işləmişdir. Burada çalışdığı zaman Elmidar Abdullayev əsasən Gəncə şəhərində ticarət mərkəzlərinin tikintisində çalışmış və eyni zamanda Rusiya Federasiyasından tikinti materiallarının təchizatı işləri ilə məşğul olmuşdur.

E.C. Abdullayev 11 avqust 2007-ci ildən FHN Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Dövlət Tikinti Müfəttişliyinin Qərb Regional Tikinti Müfəttişliyində baş mühəndis, baş məsləhət-



*Gəncə şəhəri, Nizami rayonu, Yeni Gəncə yaşayış massivi, Əbdülkərim Mehmandarov küçəsində “Gəncə Market” ticarət şəbəkəsi*

çi vəzifəsində, 11 sentyabr 2008-ci ildən bu günə qədər FHN Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Dövlət Tikinti Müfəttişliyinin Qərb Regional Tikinti Müfəttişliyində rəis vəzifəsində işləyir.

Elmidar Abdullayev AR Fövqəladə Hallar Naziri Kəmaləddin Heydərovun müvafiq əmrləri ilə 8 iyul 2009-cu il tarixində 3-cü dərəcəli dövlət qulluqçusu, 01 sentyabr 2011-ci il tarixində 2-ci dərəcəli dövlət qulluqçusu, 14 oktyabr 2013-cü il tarixində isə 1-ci dərəcə dövlət qulluqçusu ixtisas dərəcəsi almışdır.

E.C. Abdullayevin əməyi rəhbərlik tərəfindən hər



*Gəncə şəhəri, Kəpəz rayonu, Vəli Xuluflu küçəsində "Yeni Məkan" xidmət obyekti*

zaman yüksək qiymətləndirilib. 15 dekabr 2010-cu il tarixində AR FH Naziri Kəmaləddin Heydərovun əmri ilə "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 illiyi (2005-2010)" yubiley medalı ilə, 15.12.2015-ci il tarixində isə "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 10 illiyi (2005-2015)" yubiley medalı ilə təltif olunmuşdur.









*1. Gəncə şəhəri, Nizami rayonu, Mahrasa bağı adlanan yaşayış massivində "Bəyaz" şadlıq sarayı 2. Gəncə şəhəri, Kəpəz rayonu, Şah İsmayıl Xətai prospektində 3 mərtəbəli tikili. 3. Gəncə şəhəri, Kəpəz rayonu, Heydər Əliyev prospekti, "Maxi market"iaşə obyekti. 4. Gəncə şəhəri, Kəpəz rayonu, Sabit Rəhimov küçəsi, Avtozavod yolu ünavanında "Büllur saray" şadlıq evi*

Hazırkı vaxtda FHN Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Dövlət Tikinti Müfəttişliyinin Qərb Regional Tikinti Müfəttişliyinin rəisi kimi qərb regionu ərazisində tikilən yüksəkmərtəbəli yaşayış binalarının, şadlıq saraylarının, idman olimpiya komplekslərinin, məktəblərin, ictimai, iaşə və istehsalat binalarının tikinti işlərinə nəzarəti yerinə yetirir, aparılan tikinti-quraşdırma işlərinin müvafiq tikinti norma və qaydalarının, standartlarının tələblərinə və layihə sənədlərinə uyğunluğunu, qanunvericiliklə nəzərdə tutulmuş sənədlərin və razılaşdırılmaların mövcudluğu və tikinti obyektlərinin istismara qəbulunda müvafiq qaydalara riayət edilməsinə dövlət nəzarətini yüksək peşəkarlıqla həyata keçirir.

Elmidar Abdullayev ailəlidir, iki oğlu, bir qızı, iki nəvəsi var. Hər üç övladı ali təhsillidir. Böyük oğlu Azər Fövqəladə Hallar Nazirliyinin Gəncə şəhərindəki Dövlət Yanğın Nəzarəti Xidmətində kapitan rütbəsində böyük mühəndis vəzifəsində çalışır. Kiçik oğlu Anar isə Belarusiyada Fövqəladə Hallar Akademiyasında yanğın üzrə mühəndis ixtisası üzrə dördüncü kursda ali təhsil alır.



**Abdullayev Sərdar Süleyman oğlu**

1951-ci il yanvarın 21-də Azərbaycan Respublikasının Kəlbəcər rayonunun Yanşaq kəndində anadan olub. 1973-cü ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunu (indiki Azərbaycan Texniki Universiteti) "Hidromeliorasiya işlərinin mexanikləşdirilməsi" ixtisası üzrə bitirəndən sonra təyinatla Kalinin vilayətinin Belıy şəhərinə göndərilib, orada Kalinin vilayəti "Kalininmeliorasiya" İstehsalat Birliyinin 2 nömrəli Səyyar Mexanikləşdirilmiş Dəstəsində (PMK-2) mühəndis-mexanik, daha sonra baş mexanik vəzifələrində işləyib. 1977-1980-ci illərdə Sov.İKP Belski rayon komitəsinin təlimatçısı, 1980-1982-ci illərdə isə Kalinin vilayəti "Kalininmeliorasiya" İstehsalat Birliyinin 2 nömrəli Səyyar Mexanikləşdirilmiş Dəstəsinin (PMK-2) rəisi olub.

1982-ci ildə S. Abdullayev Kalinin (indiki Tver) vilayətindəki "Kalininselstroy" İstehsalat Birliyində işə dəvət edilib, 1982-1986-cı illərdə orada 1316 nömrəli İxtisaslaşdırılmış Səyyar Mexanikləşdirilmiş Dəstənin (SPMK-1316) rəisi, sonra isə "Kalininselstroymexanizasiya" trestinin müdiri olub.

1986-cı ildən S.Abdullayev "Kalininqrajdanstroy" vilayət İstehsalat Birliyi rəisinin müavini, sonra rəisin birinci müavini vəzifəsində işləyib. Özünü yüksək ixtisaslı mütəxəssis və texniki cəhətdən savadlı rəhbər kimi tanıtmış S.Abdullayev 1991-ci ilin may ayından bu birliyin rəisi təyin edilib, 1993-cü ilin iyul ayından bu günə qədər "Tverqrajdanstroy" Tikinti Şirkəti Qapalı Səhmdar Cəmiyyətinə rəhbərlik edir.

"Tverqrajdanstroy" şirkətinə S.Abdullayevin rəhbərlik etdiyi illər ərzində onun bilavasitə iştirakı ilə Tverdə və Tver vilayətində milyonlarla kvadratmetr mənzil sahəsi, sənaye və sosial əhəmiyyətli iri obyektlər istifadəyə verilib. Şirkətdə

Rusiyanın və xarici ölkələrin – Almaniya, Kanada, Böyük Britaniya, Finlandiya və Türkiyənin inşaat firmaları ilə işgüzar əməkdaşlığa, onların köməyi ilə yeni texnologiyaların və inşaat materiallarının istehsalatda tətbiqinə xüsusi diqqət yetirilir.

2000-ci ildə S.Abdullayev "İqtisadi informasiya əsasında istehsalatın idarə edilməsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Tikinti sahəsində xidmətlərinə görə 1994-cü ildə S.Abdullayevə "Rusiya Federasiyasının Əməkdar İnşaatçısı" fəxri adı verilib, 1998-ci ildə o, "Dostluq" ordeni ilə təltif edilib və ona "Rusiyanın Fəxri İnşaatçısı" adı verilib.

1998-ci ildə Rusiya İnşaatçılar İttifaqının təqdimatına əsasən, "Alfa Biznes Klub" tərəfindən S.Abdullayevə Londonda nüfuzlu beynəlxalq mükafat – "Yeni şəraitdə biznesin uğurlu tətbiqinə görə" Gümüş mükafat və Qızıl nişan təqdim edilib.

2001-ci ildə Amerika-Rusiya Sənaye-Ticarət Palatasının (ARCCI) Direktorlar Şurası S.Abdullayevə "Stabil yüksək istehsal göstəricilərinə şəxsi töhfəyə görə" nominasiyasında "Golden Galaxy" medalı verilməsi haqqında qərar qəbul edib.

S.Abdullayevin Tver diyarında çoxillik səmərəli işi layiqincə qiymətləndirilib:

2001-ci ildə Tver vilayətinin Qanunverici Məclisi onu Fəxri Fərmanla təltif etməyi qərara alıb. S.Abdullayev həm də xüsusi təltiflərə – 2001-ci ildə "Tver vilayətinin inkişafında xidmətlərinə görə" Tver vilayəti qubernatorunun döş nişanına və 2004-cü ildə "Tver vilayətinin inkişafına böyük töhfəyə, yüksək peşəkarlıq göstəricilərinə görə" Tver vilayəti qubernatorunun Fəxri Fərmanına layiq görülüb. S.Abdullayevin çoxillik səmərəli işi və tikinti sahəsinin inkişafına böyük şəxsi töhfəsi RF Dövlət Tikinti və Mənzil-Kommunal Kompleksi Komitəsinin və RF Dövlət İnşaat, Arxitektura və Mənzil Siyasəti Komitəsinin fəxri fərmanları ilə qeyd edilib.

Rusiya İnşaatçılar İttifaqı tərəfindən RF Regional İnkişaf Nazirliyi və Tikinti və inşaat materialları sənayesi işçilərinin Həmkarlar İttifaqı ilə birgə hər il keçirilən "Ən yaxşı tikinti təşkilatı" Ümumrusiya müsabiqəsinin yekunlarına görə S.Abdullayevə dəfələrlə "Rusiya inşaat kompleksi təşkilatının ən yaxşı rəhbəri" xüsusi sertifikatı təqdim edilib.

S.Abdullayev tanınmış istehsalat rəhbəri olmaqla bərabər, həm də görkəmli alim, iqtisad elmləri doktoru, Tver Dövlət Texniki Universitetinin (TDTU) Fəxri Professoru, Verxnevoljsk Mühəndislik Akademiyasının həqiqi üzvü, strateji uçot və iqtisadi informasiya əsasında inşaat kompleksinin idarə edilməsi sahəsində bir sıra məqalələrin müəllifidir.

S.Abdullayevin adı Rusiyada və xaricdə tərtib olunan "Luçşiye lyudi Rossii", "Who is who v Rossii" kimi nüfuzlu ensiklopedik nəşrlərə daxil edilib.

Fəal həyat mövqeyi ilə fərqlənən S.Abdullayev Sov.İKP Belski Rayon Komitəsinin üzvü, rayon sovetinin deputatı, Tver vilayət Xalq Deputatları Sovetinin deputatı seçilib.

Azərbaycan Politexnik İnstitutunun yetirməsi olaraq Sərdar Abdullayevin qonşu ölkədə – Rusiya Federasiyasının tikinti kompleksində qazandığı nailiyyətlər hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Təsadüfi deyil ki, o, 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub.



**Adıgözəlova Məhluqə Xanlar qızı**

1943-cü ilin iyul ayının 15-ində Tərtər rayonunun Borsunlu kəndində qulluqçu ailəsində anadan olub. Onun orta məktəb həyatı da uğurlu olub. Aşağı siniflərdə oxuyarkən "Azərbaycan pioneri" qəzetində ara-sıra yazıları dərc olunurdu. Sonralar "Azərbaycan gəncləri" qəzetndə bir sıra iri həcmli hekayələri nəşr olunmuşdur.

Məhluqə Adıgözəlova orta məktəbi müvəffəq qiymətlərlə bitirdikdən sonra Bakı şəhərinə gəlmiş və Bakı Politexnik Texnikumuna qəbul olunmuşdur. O, bu təhsil ocağını əla qiymətlərlə bitirdikdən sonra 1971-ci ildə təyinatla ölkənin aparıcı layihə təşkilatlarından biri olan Bakı Dövlət Layihə İnstitutuna gəlmişdir. Burda işləyə-işləyə ali təhsl alan Məhluqə xanım 1971-ci ildən 2011-ci ilə qədər Bakı Dövlət Layihə İnstitutunda mühəndis vəzifəsində çalışmışdır.

Hardasa uzun bir dövrdə – 40 il ərzində ölkənin ən öncül layihə qurumlarından birində təcrübəli layihəçi, memar, konstruktor və mühəndislərlə bir kollektivdə əlbir çalışmaq, yüzlərlə layihələrin işlənilməsində əmək sərf etmək Məhluqə Adıgözəlovanın taleyinə yazılmış və bu gün xatirə olan unudulmaz səhifələrdir.

Ailəlidir, bir qızı var.

Məhluqə Adıgözəlova iki şeirlər və poemalar kitabının müəllifidir. Onun bütün şeirlərində və bayatılarında da vətən eşqi, xalq, torpaq təəssübkeşliyi, yurda bağlılıq, doğma vətən üçün çalışmaq yanğısı, elə-obaya övlad bağlılığı və yüksək insani dəyərlər öz parlaq təcəssümünü tapır. İnsanlara və insanlığa olan böyük sevgi, bacı məhəbbəti, övlad arzuları və bu ülvi istəklərin fövqündə nəvə arzuları kövrək notlarla oxuculara təqdim olunur. Onun çoxillik yaradıcı axtarışlarının bəhrəsi olan "Bənövşəlinin sakinləri" sənədli romanı və "Tənhalıq" poeması da oxucular tərəfindən maraqla qarşılanmışdır.



**Ağayev Ömər Ağacahangir oğlu**

1928-ci ildə Şamaxının Leninabad (indiki Təklə) kəndində anadan olmuşdur. Əmək fəaliyyətinə 1944-cü ildən başlamışdır.

1952-ci ildən Bakı elektrik maşınqayırma zavodunda çalışmışdır. 1959-cu ildən Sov.İKP üzvü olmuşdur. 1960-cı ildən hopdurucular briqadasının briqadiri olmuşdur. AKP 28 və 29-cu qurultaylarında AKP MK-nın üzvü seçilmişdir. Sov. İKP 22 və 25-ci qurultaylarının nümayəndəsi olmuşdur.

3 yanvar 1974-cü ildə sənayenin inkişafında göstərdiyi xidmətlərə görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, 2 dəfə Lenin ordeni, Oktyabr İnqilabı ordenləri ilə təltif olunmuşdur.

Ömər Ağayev 2017-ci ilin oktyabrın 1-də vəfat edib və Şamaxı rayonunun Təklə kəndində dəfn olunub.



**Alıyev Əhməd İslam oğlu**

5 dekabr 1980-ci ildə Qazax rayonunun Oraq-Çəkic kəndində (hazırda Ağstafa rayonu Qaçaq Kərəm kəndi) ziyalı ailəsində anadan olmuşdur. 1998-ci ildə İbrahim Həsənov adına Qaçaq Kərəm kənd tam orta məktəbini bitirmişdir.

Ə.İ.Alıyev 2002-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Sənaye və mülki tikinti" ixtisası üzrə bakalavr pilləsini, 2004-cü ildə isə "Bina və qurğular nəzəriyyəsi və layihələndirilməsi" ixtisası üzrə magistr pilləsini fərqlənmə diplomları ilə bitirmişdir.

Ə.İ.Alıyev ilk əmək fəaliyyətinə istehsalatdan başlamışdır. O, 2003-2004-cü illərdə hələ magistratura təhsili alarkən "RƏMZ-1" Məhdud Məsuliyyətli Cəmiyyətində kiçik mühəndis vəzifəsində çalışmışdır. 2004-2005-ci illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində hərbi xidmətdə olmuşdur. Hərbi xitmətdən qayıtdıqdan sonra yenidən "RƏMZ-1" MMC-də baş mühəndis vəzifəsində çalışmışdır.

Ə.Alıyev 2006-cı ildən müxtəlif təşkilatlarda layihə sahəsində konstruktor kimi fəaliyyət göstərməyə başlamışdır. 2006-2007-ci illərdə "BakıMetroLayihə" institutunun "İnşaat konstruksiyaları və memarlıq" şöbəsində mühəndis-konstruktor vəsifəsində çalışmışdır. Həmin institutda çalışdığı dövrdə Ə.Alıyev tərəfindən Səməd Vurğun küçəsində, Rəşid Behbudov və Füzuli küçələrinin kəsişməsində, Bül-Bül prospekti ilə Füzuli küçəsinin kəsişməsində, Qara Qarayev prospektində, Bül-Bül prospekti ilə Nizami



*Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində müasir istirahət mərkəzlərindən biri olan "DALGA BEACH-AQUAPARK" İstirahət kompleksi*



*Ucar rayonu Gənclər Mərkəzi*



*Bakı şəhəri, Babək prospektində "DUCATI" və MASERATI" satış və servis mərkəzi*



*Bakı şəhəri, Yeni Yasamal yaşayış massivi, Kənar Dairəvi yolun yaxınlığında ofis, ticarət və avtomobil təmiri mərkəzi*

küçəsinin kəsişməsində, Səməd Vurğun və Nizami küçələrinin kəsişməsində və "AzNEFT" meydanında yeraltı piyada keçidlərinın konstruksiya layihələri işlənib hazırlanmışdır. Eyni zamanda "Dərnəgül", "Həzi Aslanov" və "Elmlər Akademiyası" metrostansiyalarının müxtəlif keçıd hissələrinin LİRA proqramında konstruktiv hesabatını aparmışdır.

2007-2008-ci illərdə "Akkord İnşaat Sənaye" MMC-də mühəndis vəzifəsində çalışmışdır. Həmin dövrdə Qazax rayonunda tikilən istehsalı ildə 1 milyon ton sement olan və ən müasir texnoloji avadanlıqlarla təchiz olunmuş Qazax Sement Zavodunun tikintisində fəal iştirak etmişdir.

01.05.2008-ci il tarixində "Bakı Dövlət Layihə İnstitutu"nun Konstruksiya şöbəsinə işə qəbul olunan Ə.İ.Alıyev, 2008-2009-cu illərdə 8-ci dərəcədən 10-cu dərəcəyə kimi yüksəlmişdir. İnstitutda çoxlu sayda yüksəkmərtəbəli yaşayış binalarının, qeyri-yaşayış obyektlərinin, təhsil müəssisələrinin konstruksiya layihələrinin işlənməsində yaxından iştirak etmişdir.

2009-2013-cü illərdə "Kristal İnşaat" MMC-nin "Konstruksiya və Arxitektura" Departamentinin konstruksiya şöbəsində konstruktor vəzifəsində çalışmışdır. Həmin illərdə o, bir çox dövlət əhəmiyyətli binaların konstruksiya layihələrini işləmişdir.

Azərbaycan İnşaat və Memarlıq Elmi Tədqiqat İnstitutu ilə əməkdaşlıq edərək bir çox qəzalı vəziyyətdə olan bina və qurğuların Bərpa-gücləndirmə işlərinin konstruksiya layihələrini işləyib hazırlamışdır. Eyni zamanda da "AzDövSuTəsLayihə" institutu ilə əməkdaşlıq edərək hidrotexniki və meliorasiya sahəsində də konstruksiya layihələri

ilə məşğul olur. Bölgələrdə 5000-10000 hektardan artıq kənd təsərrüfatı ərazilərinin suvarılması məqsədi ilə tikilən iri həcmli çoxlu sayda nasosxana binalarının konstruksiya layihələrini işləmişdir. Eyni zamanda bir çox Hidrotexniki qurğuların konstruktiv hesabatını işləmişdir.

Ə.Alıyev həm də Azərbaycanda böyük, müasir istirahət komplekslərindən biri olan, Türkiyə Respublikasının dünyaca məşhur Memarlıq Firması olan “ARTMİM HOTEL DESIGN GROUP” tərəfindən memarlığı işlənilən “DALGA BEACH – AQUAPARK” istirahət kompleksinin konstruksiya layihələrinin müəllifidir.

2013-cü ildə Ə.Alıyev “AzKoopLayihə” Texniki İstehsalat İnstitutuna Baş konstruktor vəzifəsinə təyin edilmiş və hazırda həmin vəzifədə olmaqla yanaşı həm də “QURĞU-BİNA LAYİHƏ” MMC -nin təsisçisi və direktorudur.



*Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində “DALGA BEACH-AQUAPARK” istirahət kompleksinin dəniz hissəsində “MAYAK-RESTORAN” kompleksi*



*Hacıqabul rayonu, Qazıqumlaq kəndində klassik memarlıq üslubunda malikanə*



**Alıyev**
**İsrayıl**
**İsmayıl oğlu**

5 dekabr 1963-cü ildə Tovuz rayonunun Xatınlı kəndində anadan olmuşdur. Orta təhsilini 1971-1981-ci illərdə Tovuz rayonunun Xatınlı kənd orta məktəbində almışdır. 1981-1986-cı illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun "İnşaat" fakültəsində "Sənaye və mülki tikinti" ixtisası üzrə təhsil almışdır. 1991-ci ildə Rusiya Federasiyasının Qroznı şəhərində Akademik Millionşikov adına Qroznı Netf Akademiyasında "Tikintinin idarə olunması" ixtisası üzrə ixtisasartırma kursu keçmişdir.

İş fəaliyyətinə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirdikdən sonra təyinatla Rusiya Federasiyasının Tümen vilayətinin Nyaqan şəhərində "Kondpetroleum" Səhmdar Cəmiyyətinin "Krasnoleninskneft" Neft Qaz Çıxarma İdarəsində başlamış, 1986-2004-cü illərdə şöbə rəisinin müavini vəzifəsində çalışmışdır. 2004-2009-cü illərdə "Azərtunelsutikinti" şirkətində Keyfiyyətə Nəzarət Departamentinin rəisi, Texniki İstehsalat Departametinin rəisi, baş mühəndis, Texniki direktor vəzifələrində çalışmış, fəaliyyəti dövründə Bakı Dərin Özüllər zavodunun 9 mərtəbəli yaşayış binası, Star Gulf şirkətinin Priçalın genişləndirilməsi, Keppel Kazaxstan Aktau şəhərində Priçalın layihələndirilməsi, 28 Mall Ticarət mərkəzi, Gəncə Alüminium zavodu, Sumqayıt İES və s. mühüm layihələrə cəlb edilmişdir.

2009-2014-cü illərdə "Sterling Group" MMC – də Layihə Meneceri vəzifəsində çalışmış, fəaliyyəti dövründə ABŞ-ın Raytheon şirkətinin sifarişilə 10 ədəd Bioloji Təhlükəsizlik laboratoriyaları, Pernix Group şirkətinin sifarişilə ABŞ-ın Azərbaycandakı səfirliyinin gücləndirilməsi, 28 Mall-da Cinema layihəsində, BP-nin siafrişilə Səngəçal terminalında müxtəlif layihələrdə çalışmışdır.

İsrayıl Alıyev 2014-cü ildən indiyədək "SMTS" MMC-də çalışmaqdadır. "SMTS" MMC-dəki fəaliyyəti dövründə Qalaaltı Otel və İstirahət Mərkəzi, Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin yeni inzibati binası, Kapital bankın Yasamal filialının İnzibati binası və s. layihələrdə Texniki İstehsalat Departamentinin meneceri kimi çalışmışdır, hazırda isə bu şirkətdə Keyfiyyətə Nəzarət Departamentinin Meneceri vəzifəsini daşıyır.

2015-ci ildən indiyədək paralel olaraq "Azinko" Holdinqdə çalışmaqdadır və Qafqazın ən hündür binası olan (52 mərtəbə, 277 metr) "Baku Tower" layihəsində Baş Podratçı tərəfindən Texniki İstehsalat şöbəsinin rəisi, texniki nəzarətçi vəzifəsində işləyir. İşlədiyi dövrdə Raytheon, Fluor İnc, Mace, Obermeyer, HİLL İnternational, Turner kimi beynəlxalq məsləhətçi və menecment şirkətlərinin də cəlb olunduğu layihələrdə müxtəlif vəzifələrdə fəaliyyət göstərmişdir.

Ailəlidir, 2 övladı var.



**Allahverdiyev Şamil Müseyib oğlu**

24 iyun 1948-ci ildə Qazax rayonunun Dağ-Kəsəmən kəndində anadan olmuşdur. Müharibədə göstərdiyi şücaətlərə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 24 mart tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş atası Müseyib Abdulla oğlu Allahverdiyev 1912-ci ildə Qazax rayonunun Dağ-Kəsəmən kəndində anadan olmuş, 1969-cü ildə vəfat etmişdir. Qazax və Ağstafa rayonlarının yeganə Sovet İttifaqı Qəhrəmanı olan Müseyib Allahverdiyev dövrünün ən hörmətli, nüfuzlu kişilərindən idi. Anası Allahverdiyeva Gülənbər Əhməd qızı, 1915-ci ildə Qazax rayonunun Dağ-Kəsəmən kəndində anadan olmuş, 1994-cü ildə vəfat etmişdir.

Şamil Allahverdiyev 1955-ci ildə Dağ-Kəsəmən kənd orta məktəbinin 1-ci sinfinə getmiş, 1966-ci ildə həmin məktəbin 11-ci sinfini müvəffəq qiymətlərlə qurtarmışdır.

O, 1966-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, 1971-ci ildə bu ali təhsil ocağının inşaat fakültəsini inşaatçı-mühəndis ixtisası üzrə bitirmişdir.

Şamil Müseyib oğlu 1971-ci ildə təyinatla Tovuz kolxozlararası tikinti idarəsinə (SMD-1) inşaat ustası göndərilmişdir. O, bu idarədə Tovuz rayonunun Azaflı kəndində 480 şagird yerlik məktəb binasının tikintisində çalışmış, tikintidə ilk kövrək addımlarını atmışdır.

1972-ci ilin may ayında Sənaye Tikinti Nazirliyinin 37 nömrəli Səyyar Mexanikiləşdirilmiş Dəstəsinin texniki istehsalat şöbəsinə mühəndis vəzifəsinə işə qəbul olunmuşdur. O, burada çalışdığı dörd ildə Qazax rayonunun II Şıxlı kəndində şərab zavodunun, Dağ-Kəsəmən



kəndində 1176 şagird yerlik orta məktəb binasının, Qazax şəhərində bir neçə 5 mərtəbəli 36 mənzilli yaşayış binalarının və digər çoxlu sayda sosial təyinatlı obyektlərin tikintilərində əmək sərf etmişdir.

Şamil Allahverdiyev 1976-ci ildə Azərbaycan KP Qazax rayon Komitəsinin təşkilat şöbəsinə təlimatçı göndərilmişdir.

O, 1977-ci ildə Kənd Tikinti Nəzirliyinin 71 nömrəli Səyyar Mexanikiləşdirilmiş Dəstəsinə rəis təyin olunmuş və 1981-ci ilə kimi burada yüksək peşəkarlıqla çalışaraq Qazax – Tovuz bölgəsinin tikinti quruculuq həyatında özünü təsdiq edə bilmişdir. Belə ki, o, bu illərdə Ağstafa rayonunun Muğanlı kəndində 420 şagird yerlik məktəb binasının, Daş Salahlı kəndində 1176 şagird yerlik məktəb binasının, Qazax raonunun Cəfərli kəndində ildə 10 milyon ting istehsal edən tingçilik sovxozunun, 71 nömrəli Səyyar Mexanikiləşdirilmiş Dəstəsinin işçiləri üçün 16 mənzilli yaşayış binasının, idarə binasının və istehsal bazasının, eləcə də sosial və kənd təsərrüfatı yönümlü onlarla digər obyektlərin həyata vəsiqə almasını təmin etmiş, tikintilərinə rəhbərlik etmişdir.

Şamil Allahverdiyev 1981-ci ildə Üzümcülük və Şərabcılıq Komitəsinin dəmir beton zavoduna direktor təyin olunub və 1987-ci ilə kimi burada çalışaraq ildə 1 mulyon ədəd beton dayaqlar istehsal edən zavodun işində dönüş yaratmış,













respublikamızda üzümçülüyün inkişafına öz töhfəsini vermişdir.

Şamil Allahverdiyev daha sonra – 1987-ci ildə Azərbaycan KP Qazax rayon Komitəsinin sənaye nəqliyyat şöbəsinin müdiri, 1989-cu ildə Qazax rayon XDS İcraiyyə Komitəsinin sədri, 1990-cı ildə Azərbaycan KP Ağstafa rayon Komitəsinin birinci katibi, 1991-ci ildə Ağstafa rayon İcra Hakimiyyətinin başçısı təyin edilmiş və bu illərdə Qazax və Ağstafa rayonlarının tikinti-quruculuq həyatında rayon əhəmiyyətli, xalqın sosial rifahını yaxşılaşdıran işlər görmüşdür.

O, 1994-cu ildə "Azərsutikinti" Konserninin "Qazaxsutikinti" trestinin rəisi təyin edilmiş və altı il



*Oxuculara təqdim etdiyimiz bu müxtəlif təyinatlı obyektlər ötən illərdə Şamil Allahverdiyevin rəhbərliyi altında inşa olunmuşdur. Bütün mühəndislik bacarıqlarından istifadə etməklə və yüksək məsuliyyət hissi ilə tikib ərsəyə gətirdiyi bu obyektlərin hər birinə Şamil müəllimin ürəyinin odu, qəlbinin hərarəti hopub. Ona görə də əməyi keçən hər obyekti ömrünün bir səhifəsi hesab edir.*

ərzində trestin qabaqcıllar sırasına çıxmasında gərgin əmək sərf etmişdir. Bu illər iqtisadiyyatın bütün sahələrində olduğu kimi ölkə tikintisinin bütün istiqamətlərində bir tənəzzül yaşanırdı, ölkədə demək olar ki, tikinti aparılmırdı. Ancaq Şamil müəllimin tresti o dövrün bütün çətinliklərinə baxmayaraq Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması Agentliyinin (AYBA) xətti ilə Kür çayının sahilində I pillə Nasos Stansiyasının, Ceyrançöl qoyunçuluq sovxozuna 1000 kubluq su anbarının və sair vacib, respublika əhəmiyyətli obyektlərin tikintilərini həyata keçirmişdir.

Şamil Allahverdiyev 2000-ci ildə Ağstafa Kənd Kimiya ASC-nin İdarə Heyətinin sədri vəzifəsinə təyin edilmişdir.

Şamil Allahverdiyev 2007-ci ildən "Fərhad" MMC-nin direktorudur. O, burada çalışdığı vaxtda Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Tikilməkdə olan meliorasiya və irriqasiya obyektlərinin birləşmiş müdiriyyətin sifarişi ilə "Qazax rayonunun sərhədyanı Xanlıqlar, Kəmərli, Aslanbəyli, Qaymaqlı, Birinci və İkinci Şıxlı kəndlərinin əkin sahələrini su ilə təmin etmək məqsədi ilə su nasos stansiyalarının və yeraltı suvarma şəbəkələrinin bərpası", " Qazax rayonunun sərhədyanı Abbasbəyli, Alpoud, Fərəhli və Ürkməzli kəndlərinin su təminatının yaxşılaşdırılması tədbirləri", cəmi 4045 hektarın su təminatının yaxşılaşdırılması obyektləri tikilmiş, "Ağstafa rayonunda Candar kanalın təmiri", "Ağstafa rayonunun Dağ Kəsəmən kəndinin yağış və sel sularından mühafizəsi tədbirləri" obyektləri tikilib istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin sifarişi ilə münaqişədən zərər çəkmiş və təmas xəttindən 3 kilometrlik məsafədə yerləşən Qazax, Ağstafa, Tovuz və Gədəbəy rayonlarının yaşayış məntəqələrində 5 ədəd tibb məntəqəsi, məktəblərin bərpası, 34 ədəd yeni fərdi evlər, 3000 pm mühafizə divarları tikilmiş, Qazax və Gədəbəy rayonlarında 100 və 60 yerlik körpələr evi-uşaq bağçaları tikilib istifadəyə verilmişdir.

Ş.M. Allahverdiyev 2010-cu ildən 2017-ci ilədək Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin Ağstafa və Tovuz şəhərlərinin Su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin tikintisi üzrə texniki nəzarət qrupunun rəhbəri işləmişdir.

Hal-hazırda "Gəncə – Qazax – Gürcüstan beynəlxalq yolunun tikintisi" və "Qazax şəhərinin su kanalizasiya sistemlərinin yenidən qurulması" layihələrinin tikintisində ictimayyətlə əlaqədar məsələlərin həlli üzrə "Akkord STİK" ASC-nin baş mütəxəssisi təyin edilmişdir.

Ş.M. Allahverdiyev 2004-cü ildən müharibə veteranıdır.

Həyat yoldaşı İradə Baba qızı evdar qadın olub, indi təqaüddədir. Böyük oğlu Rəşad hüquqşünasdır, kiçik oğlu Asif polis mayoru kimi təqaüdə çıxıb, hazırkı vaxtda sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Qızı Leyla xanım həkimdir, insanların sağlamlığının keşiyində dayanıb.

Şamil Allahverdiyev 48 ildir ki, ölkə tikintisindədir. Onun keçdiyi parlaq ömür yolu, örnək fəaliyyət illəri sözün əsil mənasında bu günün gəncləri üçün böyük bir məktəbdir. Vətəninə, torpağına, elinə-obasına, dövlətinə bağlı bir insan olan Şamil müəllim bu gün də öz təcrübəsini böyük səxavətlə ətrafında olan gənc inşaatçı-mühəndislərə sevə-sevə, həvəslə öyrədir və bundan qürur duyur.



**Allahyarov Ağalar Məmmədağa oğlu**

1967-ci il martın 18-də Cəlilabad şəhərində anadan olmuşdur. 1983-cü ildə Cəlilabad şəhər 1 saylı (Nizami adına) orta məktəbi bitirmişdir. 1984-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakültəsinin (Sənaye və mülki tikinti) əyani şöbəsinə daxil olmuşdur, 1989-cu ildə Azərbaycan İnsaat Mühəndisləri İnstitutunu bitirərək "İnsaatçı-mühəndis" ixtisası almışdır.

Ağalar Allahyarov 1989-cu il avqustun 10-dan təyinatla Cəlilabad rayonundakı 35 saylı Səyyar Mexanikləşdirilmiş Dəstədə ("Azərkəndtikinti" İB, ПМК-35) İş ustası kimi işə başlamışdır.

Həmin müəssisədə 12.12.1989-cu il tarixindən Plan İstehsalat Şöbəsində iqtisadçı, 04.05.1990-cı il tarixindən iş icraçısı, 28.09.1990-cı il tarixindən Plan İstehsalat Söbəsnin rəisi, 29.04.1994-cü il tarixindən 06.07.1995-ci il tarixinə kimi Baş mühəndis vəzifələrində çalışmışdır.

A.M. Allahyarov 1996-cı ildən 1999-cu ilə kimi Ukraynanın Zaparoji vilayətinin Enerqodar şəhərində yaşamışdır, 1997-ci ildən 1999-cu ilə kimi Zaparoji Atom Elektrik Stansiyasının nəzdində olan Layihə-Tikinti İdarəsində Texniki İstehsalat



*Bilgəh qəsəbəsində inşa edilən "JUMEYRAH BILGAH BEACH" Oteli*

Şöbəsinin rəisi vəzifəsində işləmişdir.

20.06.2000-ci il tarixindən 15.11.2003-cü il tarixinə kimi "Azpetrol" Neft Şirkətinin sifarişlərini yerinə yetirən "Tikinti Servis" MMC-də iş icraçısı, Reklam-Montaj sexinin rəisi və sahə rəisi vəzifələrində işləmişdir.

2004-cü ildən etibarən əvvəlcə fiziki şəxs, 2007-ci ildə "SMTS" MMC şirkətini təsis edərək hüquqi şəxs qismində fəaliyyət göstərir.

Eyni zamanda 2009-cu ildən etibarən "AZİNKO HOLDİNG" şirkətində Baş Direktorun müavini vəzifəsində çalışır.

Son on ildə Ağalar Allahyarovun rəhbərliyi altında respublikamızın paytaxtında və bölgələrimizdə respublika əhəmiyyətli onlarla unukal layihələrin tikintisi uğurla həyata keçirilmişdir.

Heydər Əliyev prospekti 109 ünvanında inşa edilən 50 mərtəbəli "Müasir İş Mərkəzi", Bakı şəhəri, Mərdanov Qardaşları 39 ünvanında inşa edilən 15 mərtəbəli yaşayış binası (keçmiş Bakı şəhəri Baş Polis İdarəsinin binasının yerində), Bakı şəhəri, Neftçilər prospekti 66 ünvanında inşa edilən "İş Mərkəzi", Bakı şəhə-



*"Baku Tower"*
*50 mərtəbəli "Müasir İş Mərkəzi" binası*

ri, Ü. Hacıbəyov küçəsi 57 ünvanında inşa edilən "Yaşayış kompleksi", Bakı şəhəri, Heydər Əliyev prospekri 117 ünvanında inşa edilən "Olimpiya Kəndi", Bakı şəhəri, Əlyar Əliyev küçəsi 26 ünvanında inşa edilmiş "Yaşayış



*"Qalaaltı Hotel & Spa" kompleksi*



*Əmlak Məsələləri Dövlət Komitəsinin "İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzi*

Kompleksi", Bakı şəhəri, S. Vurğun küçəsi 79 ünvanında inşa edilən 2 ədəd 25 mərtəbəli "Yaşayış Binaları" (keçmiş Bakı şəhəri Yol Polisinin binasının yerində), Bakı şəhəri, H. Zərdabi 59 ünvanında inşa edilən 2 ədəd 24 mərtəbəli "Yaşayış Binaları" və Qələbə meydanında "Baku Mall"-ın binası, Bakı şəhəri, Heydər Əliyev prospekti 102 ünvanında inşa edilən 33 mərtəbəli "İş Mərkəzi" binası, Bakı şəhəri, Bilgəh qəsəbəsində inşa edilən "JUMEYRAH BILGAH BEACH" Oteli, Bakı şəhəri, Heydər Əliyev prospekti 105 ünvanında inşa edilən Əmlak Məsələləri Dövlət Komitəsinin 33 mərtəbəli İnzibati Binası, "Qala-altı Otel və SPA" İstirahət Kompleksi və Bakı şəhəri, Səbail rayonu, Azadlıq 3 ünvanında inşa olunan "Kapital Bank" ASC-nin İnzibati binası kimi fərqli layihələr ölkə tikintisində SMTS MMC şirkətinin nüfuzunun təsdiqi, şirkətin təsisçisi və baş direktoru Ağalar Allahyarovun bacarıqlı inşaatçı-mühəndis və rəhbər keyfiyyətlərinin təcəssümüdür.



*S. Vurğun küçəsi 79 ünvanında inşa edilən 25 mərtəbəli yaşayış binası*



*"Çinar Plaza" Biznes Mərkəzi*



**Allahyarov Rahil Məmmədağa oğlu**

07 dekabr 1971-ci ildə Cəlilabad şəhərində anadan olmuşdur. Orta təhsilini 1979-1989-cu illərdə Cəlilabad şəhəri Nizami Gəncəvi adına 1 saylı orta məktəbdə almış, orta məktəbi müvəffəq qiymətlərlə bitirmişdir.

1991-ci ildə Rusiya Federasiyasında Mühəndis Pedaqoji İnistitutuna qəbul olmuşdur. 2015-2016-cı illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Sənaye və mülki tikinti" fakültəsində inşaat mühəndisliyi üzrə ixtisasartırma kursunu bitirmişdir.

2011-ci ildən "SMTS" MMC-yə işə qəbul olmuş və müxtəlif tikinti layihələrində çalışmışdır. 2014-2015-ci illərdə "Qalaaltı Hotel və SPA" mərkəzinin tikintisində Layihə direktoru vəzifəsində çalışmışdır.

Rahil Allahyarov 2017-ci ildən bu günədək "ƏMDK"-nın 33 mərtəbəli inzibati binasının tikinti layihəsində layihə rəhbəri vəzifəsində çalışır. Layihədə aparılan bütün işlərin, fəaliyyətlərin qəbul edilmiş beynəlxalq standartlara uyğun şəkildə aparılması, meydana çıxan maneələrin həll edilməsi, risklərin qarşısının alınması və layihədə birlik və komanda ruhunun yaradılması əsas prinsiplərdəndir.

Ailəlidir, bir oğlu, iki qızı var.



*Əmlak Məsələləri Dövlət Komitəsinin "İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzindən bir görüntü*



**Avalov Elturan Vəli oğlu**
1940-ci il avqust ayının 20-də Bakı şəhərində anadan olmuşdur. 1963-cü ildə Azərbaycan Politexnik İnstitutunun memarlıq ixtisasını bitirmişdir.

1973-ci ildən memarlıq namizədidir. 1981-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının "Memarlıq tarixi və nəzəriyyəsi" ixtisası üzrə baş elmi işçi adı almışdır. 1995-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Təsviri incəsənət" kafedrasının dossenti elmi dərəcəsinə, 2003-ci ildə isə professor elmi adına layıq görülmüşdür.

1991-ci ildə respublikada memarlıq və təsviri incəsənət sahəsindəki xidmətlərinə görə ona "Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi" fəxri adı verilmişdir.

1999-cu ildən Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının və Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvüdür. 2006-cı ildən Azərbaycan karikaturaçılar birliyi və Beynəlxalq (FEKO) karikaturaçılar cəmiyyətinin üzvüdür.

O, bir neçə kitabın, o cümlədən "Şuşa" şəhərinin memarlığı" (Bakı, 1977-ci il) və 4 rəsm albom-monoqrafiyalarının müəllifidir: "Memarın gözü ilə" (Bakı, 1978-ci il), "Elturan" (Bakı, 1986-cı il), "Şus. Qrafika" (Bakı, 2008-ci il) "O olmasın, bu olsun – rəssam Elturanın gözü ilə "Bakı 2008-ci il", 60-dan yuxarı Azərbaycan memarlığı və incəsənətinin tarixi haqqında elmi məqalələrin və kitabların müəlllifidir. 500-dən artıq qrafik işləri çap olunmuşdur. (Bakı, Vilnüs, Daşkənd, Kiyev, Moskva, Riqa, Strasburq).

2005-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. E. Avalov 30-dan çox beynəlxalq, respublika və fərdi sərgilərin iştirakçısıdır (Bakıda-1985, 1988, 1994, 2001, 2005 və 2006-cı il, Moskvada – 1985-ci il, İstanbulda – 1999-cu il). 1985-ci ildə Moskvada onun Üzeyir Hacıbəyovun 100 illiyinə həsr olunmuş fərdi yaradıcılıq sərgisində 100-dən artıq qrafik işi nümayiş edilmişdir.

2005-ci il Bakıda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İtifaqı, Beynəlxalq İttifaqı, Beynəlxalq Əlaqələr Mərkəzi "Azərbaycan Dünyası" qalereyasında Üzeyir Hacıbəyovun anadan olmasının 120 illiyinə həsr olunmuş "O olmasın, bu olsun", "Arşın mal alan" & Elturan" E. Avalovun fərdi sərgisini təşkil etmişdir.

Onun əsərləri Bakının müxtəlif muzeylərində, Moskva Şərq xalqları incəsənəti Dövlət muzeyi, eləcə də Bakının, Türkiyənin, Rusiyanın, ABŞ-ın, Yunanıstanın, İngiltərənin, İsrailin, Norveçin, İspaniyanın, Filippinin, Livanın, Hindistanın və s. şəxsi kolleksionerləri tərəfindən alınmışdır.

1996-cı ildən bu günə kimi professor E.V. Avalov Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Təsviri incəsənət" kafedrasının müdiridir, rəsm və rəngkarlıq fənnlərindən dərs deyir.



**Axundov Vəli Yusif oğlu**

1916-cı il mayın 13-də Bakı quberniyasının Saray kəndində kəndli ailəsində anadan olmuşdur. İlk təhsilini Saray kənd məktəbində almışdır. Xatirələrində həmin məktəbin yaşadığı yerdən bir neçə kilometr uzaqlıqda yerləşdiyini qeyd edirmiş. Uzaq olduğundan və dərsləri buraxmaq istəmədiyindən hər gün evdən məktəbə və məktəbdən evə piyada yol onun həmin məktəbdən əla qiymətlərlə məzun olmasına mane olmamışdır. 1929-cu ildə həmin məktəbi bitirərək Biləcəri stansiyasındakı fabrik-zavod məktəbində təhsilini davam etdirmişdir. 1931-ci ildə sənət məktəbini bitirib Bakı Sənaye texnikumuna daxil olmuşdur. 1935-ci ildə texnikumun kimya şöbəsini bitirib kimyaçı texnik peşəsinə yiyələnmişdir.

Təhsilini davam etdirmək və ali təhsil almaq məqsədi ilə əvvəlcə Azərbaycan Sənaye İnstitutunun hazırlıq kursunda oxumuş, 1937-ci ildə isə Azərbaycan Tibb İnstitutuna daxil olmuşdur. İnstitutda oxumaqla yanaşı ATİ-nin ictimai elmlər kafedrasının laborantı, “Tibbi kadrlar uğrunda” qəzetinin redaktoru və komsomol komitəsinin katibi vəzifəsində çalışmışdır.

1941-ci ildə ATİ-ni müvəffəqiyyətlə bitirərək orduya çağrılmışdır. 1941-1945-ci illər Böyük Vətən müharibəsində 20-ci atıcı diviziyanın tərkibində həkim-əsgərdən xüsusi tibbi-sanitar batalyonunun komandiri vəzifəsinədək yüksəlmiş, Rusiya, Belarus, Almaniya, Çexoslovakiya ərazisində gedən döyüşlərdə iştirak etmişdir.

1946-cı ildə ordudan tərxis olunmuş, ATİ-na qayıtmış, tibb tarixi kafedrasının assistenti qəbul edilmiş və Epidemiologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun elmi işçisi, direktoru olmuşdur. Az sonra Azərbaycan Tibb İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri seçilmiş və 1946-1949-cu illərdə bu vəzifədə çalışmışdır.

1949-1952-ci illərdə Azərbaycan SSR səhiyyə nazirinin müavini, 1952-1953-cü illərdə isə Bakı Vilayəti səhiyyə şöbəsinin müdiri olmuşdur.

1953-1954-cü illərdə Azərbaycan KP MK-da inzibati, ticarət-maliyyə və plan orqanları şöbəsi müdirinin müavini vəzifəsində işləmişdir. 1954-1958-ci illərdə isə Azərbaycan SSR səhiyyə naziri vəzifəsini tutmuşdur.

1958-ci ilin fevralında Azərbaycan KP MK katiblərindən biri seçilmiş, həmin ilin iyulunda isə Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsinə təyin edilmişdir. 1959-cu ilin iyuluna qədər bu vəzifədə çalışmışdır.

1959-1969-cu illərdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsini tutmuşdur. Onun dövründə Azərbaycan müharibədən sonra ən çox neft – 21,5 mln. ton istehsal etmiş, kənd təsərrüfatı məhsulları istehsalı çoxalmışdır.

1956-cı ildə namizədlik dissertasiyası müdafiə etmiş və SSRİ Ali Attestasiya Komissiyası ona tibb elmləri namizədi, 1964-cü ildə isə tibb elmləri doktoru elmi dərəcəsi vermişdir.

1969-cu il iyulun 14-də birinci katib vəzifəsindən azad edilmişdir. H.Əliyevin sədrliyi ilə keçirilən Azərbaycan KP MK bürosunun iclasında onun birinci katib olarkən istifadə etdiyi tibbi və məişət xidmətləri özündə saxlanılmışdır.

1969-cu ildə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir. 1969-1972-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti olmuş və akademiyanın səhiyyə sahəsinə rəhbərlik etmişdir. O dövrdə artıq kifayət qədər yaşlı olduğu zaman ingilis dilini sıfırdan öyrənməyə nail olmuşdu.

1972-1986-cı illərdə Q.M.Musabəyov adına Virusrologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru olmuşdur.

İctimai və siyasi fəaliyyət göstərdiyi dövrdə dəfələrlə AKP, Sov. İKP MK, Azərbaycan AKP MK bürosunun üzvü, Azərbaycan, SSRİ Ali sovetlərinin, Azərbaycan SSR Ali Soveti rəyasət heyətinin üzvü olmuşdur.

1986-cı il avqustun 22-də Bakı şəhərində vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

Mükafatları: “Lenin” ordeni, II dərəcəli Vətən Müharibəsi ordeni, “Qırmızı Ulduz” ordeni və müxtəlif medallar.

21 aprel 1996-cı ildə Azərbaycanın görkəmli alimi və ictimai-siyasi xadimi, akademik Vəli Yusif oğlu Axundovun 80 illik yubileyi ilə əlaqədar qərar qəbul edilmişdir.



**Axundov Ağa Əbdülxalıq oğlu**
21 mart 1882-ci ildə Şamaxı şəhərində anadan olmuşdur.

1900-cü ildə Bakı Real məktəbini bitirib, İmperator III Aleksandr adına Kiyev Politexnik Universitetinə daxil olur. Sonra Hacı Zeynalabdin Tağıyevin ilk təqaüdçülərindən biri kimi Belçikaya gedir, Lyec Universitetini mühəndis-elektrik ixtisası üzrə bitirir. Təhsilini başa vurduqdan sonra Sürixdə Erlikon mexanika zavodunda işləyir. Ağa Axundov Luqanoda ilk Su Elektrik Stansiyasının layihəsinin müəllifi kimi məşhurdur (layihənin müəllifi kimi bu gün də Luqanoda xatirə lövhəsi vardır).

Ağanın orijinal layihələrindən biri də Hollandiyada salınmış körpüdür. Körpü bu gün də turistlərin diqqətin cəlb edir. Cenevrə elmi cəmiyyətinin üzvü, 10 dil bilən poliqlot, Azərbaycanda elektrotexnika elminin, bu sahə üzrə ilk təhsil müəssisəsinin banisi (sonralar texnikum N.Nərimanovun adını daşımışdır), Azərbaycan dilində elektrotexnika dərsliklərinin, elektrotexniki terminlər üzrə ilk türkcə-rusca lüğətin müəllifi, Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) prorektoru, pedaqoji institutda ümumi elektrotexnika kafedrasının müdiri, Azərbaycan Sənaye İnstitutunda özünün yaratdığı energetika fakültəsinin ilk dekanı – bütün bunları o, 1938-ci ilə qədər, Krasnoyarsk düşərgəsinə sürgün olunana qədər görə bilmişdir. O, sürgündə də yorulmaz alim, müdrik filosof kimi çalışır, öyrədir, tətbiq edir, yaradırdı. Ağa həmin düşərgənin texniki şöbəsində rəis müavini işləyirdi. Alimin vəfatından sonra onun ailəsinə Krasnoyarsk düşərgəsinin rəisi tərəfindən başsağlığı göndərilmişdi. Başsağlığında yazılırdı ki, elm aləmi gözəl insan və böyük alimi itirmişdir.

Ağa Axundov 26 oktyabr 1949-cu ildə vəfat edib.

Ağa Axundov Tamara Axundova ilə ailə qurmuşdu. Onların Davud Axundov, Fuad Axundov adlı oğulları, Elmira Axundova adlı qızları vardı. Murad Axundov Ağa Axundovun nəvəsidir.

Ağa Axundov Avropadan təhsildən qayıtdıqdan sonra Aprel inqilabına qədər Bakıda ilk özəl elektrotexniki Lyumer kantorunu açır (Lyumerlərin kiçik qardaşı ilə dostluq xatirəsinə görə kantoru belə adlandırır). İtalyanın Fiat avtomobillərinin satışını təşkil edən ilk firmanı da Ağa Axundov açmışdır. Bu firma sürətlə böyüyüb bütün Zaqafqaziyada Fiatın rəsmi filialına çevrilmişdi. Ona, hətta, Turindəki Fiat zavodunun rəhbərliyini təklif etmişdilər. Lakin o, xanımı ilə məsləhətləşib, həmin təklifi qəbul etməmişdi. 1925-ci ildə Ağa Sovet Zaqafqaziyası tərəfindən Ümumdünya Paris sərgisinə ezamiyyətə göndərilmişdir. Almaniyadan keçərkən o, yolüstü Münhen Universitetinin tibb fakültəsini bitirmiş qardaşı İsmayıl Axundovla görüşmüşdü. İsmayılı tropik xəstəliklər üzrə gözəl mütəxəssis kimi Hamburqda işləməyə dəvət edirlər, orada o, dissertasiya müdafiə edir, Fransada, Əlcəzairdə, İsveçrədə keçirilən simpoziumlarda çıxışlar edir. Lakin 1928-ci ildə İsmayılı təkidlə Bakıya o zaman az qala milli fəlakətə çevrilmiş malyariya xəstəliyi ilə mübarizə aparmağa çağırırlar. O, parlaq karyerasından əl çəkib Azərbaycana qayıdır və tropik xəstəliklərə qarşı mübarizə işlərinə başlayır.



**Axundov Davud Ağa oğlu** 1918-ci il fevral ayının 14-də Bakı şəhərində anadan olub. 1942-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirib.1968-ci ildə namizədlik, 1980-ci ildə doktorluq dissertasiyasını müdafiə edib.

Dövlət mükafatı laureatı, Beynəlxalq Şərq Akademiyasının fəxri üzvü olan Davud Axundov tarixi abidələrin bərpası istiqamətində böyük işlər görüb. 1942-ci ildən layihəçi-memar kimi əmək fəaliyyətinə başlamış, Bakıda, Sumqayıtda, Ağdamda, Mingəçevirdə və digər şəhərlərdə bir sıra yaşayış binalarının müəllifi olmuşdur. 1949-1963-cü illərdə onun layihələri əsasında Bakı, Krasnovodsk, Mahaçqala, Həştərxan və s. şəhərlərdə 100-dən artıq çoxmərtəbəli yaşayış evləri, yataqxana, klub, sənaye binaları tikilmişdir. 1963-cü ildə Azərbaycan Politexnik İnstitutunda çalışmış, 1968-ci ildə namizədlik, 1980-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir.

1970-2003-cü illərdə Memarlıq konstruksiyaları kafedrasının müəllimi olmuş Axundov qədim Azərbaycan memarlığının nəzəri məsələlərinə dair bir çox elmi əsərin müəllifidir. Qafqaz Albaniyasının bütpərəstlik və xristianlıq dövrü memarlığının ilk tədqiqatçısı olan Axundov memarlıqda bu istiqamətin əsasını qoymuşdur. Onun “Qədim və orta əsrlər Azərbaycan memarlığı” (1986, rus dilində) adlı monoqrafiyasında Qafqaz Albaniyası dövründə Azərbaycan memarlığının inkişaf mərhələləri araşdırılmışdır.

Azərbaycan memarlığının inkişafındakı xidmətlərinə görə 1990-cı ildə Dövlət mükafatı laureatı olmuş, 2002-ci ildə “Şöhrət” ordeni ilə təltif edilmiş, elə həmin ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Davud Ağa oğlu Axundov 2003-cü il noyabr ayının 19-da 85 yaşında vəfat etmişdir.

Uzun illər alimlər Qız qalasının nə məqsədlə tikildiyini və onun tarixi barədə mübahisələr aparır. Belə bir müəyyən etmə var ki, qala

müdafiə və gözətçi funksiyasını yerinə yetirirdi, tikilmə vaxtı isə V-XlI əsrə aid olunur. Alim-arxitektor, professor Davud Axundov yeni sensasiyaya səbəb olan nəzəriyyə irəli sürüb. Onun nəzəriyyəsinə görə Bakının simvolu olan – Qız qalası – əslində zərdüştlük məbədi və qədim rəsədxanadır. Bu fikir əvvəl qəbul olunmuş, qalanın tikilmə məqsədi təsəvvürlərinin tam əksi idi.

Qədim Qafqaz Albaniyasının mədəniyyətinə və incəsənətinə aid olan çoxlu sayda elmi işlərin müəllifi, professor Davud Axundov kompyuter texnologiyalarının köməyi ilə qalanın tarixi barədə yeni baxışa nail olub. Diqqətlə qalanın konstruksiyasını öyrənməklə, Axundov elə nəticəyə gəldi ki, bu tikili gözətçi funksiyasını yerinə yetirə bilməzdi və müdafiə məqsədləri üçün də yararsız idi. Qalanın ön tərəfində yerləşən pəncərələri tədqiq edərkən, professor maraqlı bir faktla üzləşib. Belə ki əgər qala mudafiə funksiyasını yetirirdisə o zaman onun pəncərələri dörd tərəfə baxmalı idi. Bu pəncərələr isə yalnız bir tərəfə yönəlib, üstəlik aşağıya yonəlmək əvəzinə – hücumları dəf etmək üçün – yuxariya baxırlar. Bir maraqlı fakt daha – pəncərələrdən acılan mənzərə və onun kiçik ölçüləri hücumlardan mudafiə olunmaq üçün imkan vermir. Bu faktlara əsasən söyləmək olar ki, qaladan müdafiə olunmaq üçün istifadə edilməsi inandırıcı deyil.

Analojı qədim məbədlərə nəzər yetirməklə, professor tikilinin yeddi planet tanrılarının məbədi olduğu qənaətinə qəlib. Araştırmalara əsasən, qala 8 mərtəbəli konstruksiyadan ibarətdir. Məbədin birinci mərtəbəsi giriş, qalan 7-si isə müqəddəs mərtəbələr sayılırdı.

Qaz kəməri ilə birləşən mərtəbələrdə quraşdırılan ocaqlar, qalanın yuxarı meydançasında yeddigünbəzli tac təşkil edir. Məbədin yeddi yarusu sönməz od işığı ilə təmin edilmişdir, bu da zərdüşlərə baş səcdəgahları, simvolu od olan, Ormuza səcdə etməyə şərait yaradırdı.





*"Qəbələ" Beynəlxalq hava limanı*
*("AzVirt" MMC)*

# B



**Babayev
Əlizadə
Əhmədağa oğlu**

1966-cı il yanvarın 26-da Saatlı rayonunun Krasnoselski (indiki Qara Nuru) kəndində anadan olub. 1973-cü ildə Krasnoselski kənd orta məktəbinə daxil olub və 1983-cü ildə həmin məktəbi bitirib.

Əlizadə Babayev 1983-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakültəsinin qiyabi şöbəsinə daxil olub, eyni zamanda Saatlı rayonunda pambıq toxumçuluq sovxozunda fəhlə işləyib.

1984-1986-cı illərdə SSRİ Silahlı Qüvvələrində hərbi xidmətdə olub. 1986-cı ildən Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakültəsinin əyani şöbəsinə keçirilib.

Ə.Ə. Babayev 1991-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakültəsinin sənaye və mülki tikinti ixtisası üzrə tam kursu bitirərək inşaat mühəndisi ixtisası alıb.

O, 1991-ci ildə göndərişlə Azərbaycan Respublikası Orduya, Aviasiyaya və Donanmaya Könüllü Yardım Cəmiyyətinin Mərkəzi Komitəsinin Əsaslı tikinti şöbəsində mühəndis vəzifəsində işləyib.

1992-ci il iyulun 10-da Qaradağ rayon Hərbi Komissarlığından Azərbaycan Respublikası Silahlı Qüvvələrinə həqiqi hərbi qulluğa çağırılıb. Qulluq etdiyi dövrdə Mülki Müdafiə alayında tağım komandiri, Bakı Regional Mülki Müdafiə İdarəsinin Mühəndis-texniki tədbirlər şöbəsində şöbənin zabiti, həmin şöbənin rəisi və Nəsimi rayon Mülki Müdafiə Regional şöbəsi



rəisinin köməkçisi vəzifələrində xidmət edib.

Ə.Ə. Babayev 2001-ci il iyunun 27-də Daxili Qoşunların Baş İdarəsinin Təmir-tikinti şöbəsində mühəndis, 2007-ci il noyabrın 14-dən isə həmin şöbənin rəisi vəzifəsinə təyin olunub.

Əlizadə Babayev 2013-ci il dekabrın 6-dan Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Əsaslı Tikinti şöbəsinin rəisi vəzifəsində xidmət edir. Hərbi rütbəsi polkovnikdir.

Əlizadə müəllim xidmət etdiyi dövr ərzində 37 yeni hərbi hissənin, 1630 xidməti mənzili olan 52 yaşayış binasının və mövcud hərbi hissələrdə 650 adda müdafiə təyinatlı müxtəlif bina və qurğunun tikintisinin başa çatdırılmasında, müasir avadanlığın quraşdırılaraq istismara verilməsində iştirak edib.

Ailəlidir, bir oğlu var.

Məsuliyyətli və nümunəvi əməyinə görə Əlizadə Babayev hər zaman dövlət təltifləri almışdır. Azərbaycan Respublikası SQ-nin 90 illiyi yubiley medalı, Azərbaycan Respublikası SQ-nin 95 illiyi yubiley medalı, Azərbaycan Respublikası SQ-nin 100 illiyi yubiley medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli medalı, "Azərbaycan Respublikasının Silahlı Qüvvələr veteranı" medalı və digər mükafatlar onun çoxillik şərəfli əməyinə verilən qiymətdir.









*Əlizadə Babayev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Əsaslı Tikinti şöbəsinin rəisi vəzifəsində xidmət etdiyi dövr ərzində çoxlu sayda yeni hərbi hissələrin, yaşayış binalarının və mövcud hərbi hissələrdə müdafiə təyinatlı müxtəlif bina və qurğunun tikintisinin başa çatdırılmasında və istismara verilməsində iştirak edib. Bu obyektlər o tikililərin bir qismidir.*



**Babayeva Sürəyya Qasım qızı**

1957-ci ilin iyun ayının 15-də Bakı şəhərində fəhlə ailəsində anadan olmuşdur.1964-cü ildə 99 nömrəli orta məktəbə daxil olmuş, 1974-cü ildə həmin məktəbi bitirmişdir. 1974-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitunun memarlıq fakültəsinin axşam şöbəsinə daxil olmuş və 1980-ci ilin mart ayından təhsilini davam etdirə-etdirə “Azərdövlətsənayelayihə” İnstitutuna texnik kimi işə düzəlmiş, elə həmin ildə də Memar İnşaat Şöbəsində memar vəzifəsində işləmişdir. 1980-1990-cı illər ərzində sənaye binalarının layihəsində iştirak etmişdir.

Sürəyya Babayeva 2002-ci ildən Baş Plan şöbəsində işləyir və indiyə qədər bir çox iri həcmli obyektlərin layihələndirilməsi ilə əlaqədar işlərin yerinə yetirilməsində iştirak və rəhbərlik etmişdir.

Məcburi köçkün qəsəbələrindən – Ağcabədi rayonunun Ağabəyli kəndində 556 ailəlik, Goranboy rayonunda 688 ailəlik, Gəncə şəhərində 1500 ailəlik, Qazax rayonunda 300 ailəlik, Tərtər rayonunda 1170 ailəlik, Kürdəmir rayonunda 563 ailəlik, Bərdə rayonunda 1700 və 588 ailəlik 2 qəsəbə, Fövqəladə Hallar Nazirliyinin Mülki-Müdafiə qərargahları və Regional Mərkəzləri, Ağdam rayonunun Quzanlı kəndində qərargah, Qəbələ rayonunda Mülki-Müdafiə Alayı, Biləcəri qəsəbəsində Mülki-Müdafiə Alayı və onun stasionar xəstəxanası, Ağcabədi rayonunda, Ağdaş rayonunda, Balakən rayonunda, Şəki şəhərində, Zaqatala şəhərində və onun Çobankol və Əlibəyli kəndlərində, Gədəbəy, Qusar, Xaşmaz, Şabran, Hacıqabul rayonlarında Yanğınsöndürmə depoları, Azərbaycan Respublikasının FHN-nin Hövsan qəsəbəsində tələbə yataqxanaları, Yevlax rayonunda Olimpiya İdman kompleksi, Qəbələ şəhərində Beynəlxalq Hava Limanı, Bakı şəhəri, Nəsimi rayonunda 6 ədəd 20 mərtəbəli yaşayış binaları, Sabunçu rayonu, Xəstəxanayanı küçəsində 7 ədəd 20 mərtəbəli yaşayış binaları və s. layihələr bu qəbildəndir.

Sürəyya Babayeva 2012-ci ildə Azərbaycan İnşaat Kompleksi İşçilərinin Müstəqil Həmkarlar İttifaqının İcraiyə Komitəsi tərəfindən 10 aprel “İnşaatçılar günü” münasibəti ilə fəxri fərmanla təltif olunmuşdur.

Ailəlidir, üç oğlu var, hər üçü ali təhsillidir.



*Qazax rayonu ərazisində müvəqqəti məskunlaşmış 300 məcburi köçkün ailəsi üçün yeni yaşayış məhəlləsinin layihəsi*



**Baxışov Mübariz Mətləb oğlu**

11 sentyabr 1974-cü ildə ziyalı ailəsində anadan olub. Ömrünün sonuna qədər Kürdəmir rayon Su tikinti quraşdırma idarəsində mühəndis və iş icraçısı kimi çalışan, rayonun tikinti-quruculuq həyatında iz qoyan və 2000-ci ildə haqq dünyasına qovuşan atası – Baxışov Mətləb Xankişi oğlu rayonun sayılan, seçilən, nüfuzli kişilərindən olub. Anası Baxışova Fatmaxanım Kərim qızı isə evdar qadın olub və 2017-ci il dünyasını dəyişib. Bu ailədə üç oğlan, iki qız övladı böyüyüb, tərbiyə alıb və bu gün cəmiyyətdə layiqli yerlərini tutublar, hərəsi öz sahəsində Vətənə ləyaqətlə xidmət edirlər.

Mübariz Baxışov 1981-ci ildə Yenikənd 1 nömrəli, indiki Tahir İslamov adına orta məktəbi əla qiymətlərlə bitirmişdir.

O, 1992-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinə daxil olsa da ailə vəziyyətilə əlaqədar olaraq işləmək məcbiriyyətində qalmış və 1995-ci ildə akademik məzuniyyət götürərək təhsilini dayandırmış, Kürdəmir rayon qazanxanalar idarəsində çilingər kimi fəaliyyət göstərmişdir.

Mübariz Baxışov 1997-ci ildən bakalavr təhsilini davam etdirərək 1999-cu ildə ali təhsilini başa vurmuşdur. Elə həmin ildə də Azərbaycan Memarlıq və İnşaat Universitetinin magistr bölməsinə daxil olmuşdur. Lakin ailə vəziyyətilə əlaqədar təhsilini davam etdirə bilməmişdir.

M.M. Baxışov 2000-ci ildən 2002-ci ilə qədər müxtəlif işlərdə çalışmışdır. 2002-ci ilin aprel ayında həqiqi hərbi xidmətə çağrılmış və həmin ilin dekabr ayında hərbi rütbə almaq üçün Bakı şəhərindəki N saylı təlim tədris mərkəzinə göndərilmişdir. 2003-cü ilin aprel ayında hərbi xidmətdən leytenant rütbəsi ilə qayıtmışdır. 2004-cü ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı tərəfindən hərbi xidmətə çağrılaraq 2006-cı ilin iyul ayına qədər xidmət etmişdir. Hazırda ehtiyatda olan baş leytenantdır.

M.M. Baxışov 2006-cı ildə “Qara Qaya” Assosiasiyasında iş icraçısı kimi



*“Buta-3” layihəsi, 14 mərtəbəli yaşayış binası*

fəaliyyətə başlayaraq, az sonra sahə rəisi və daha sonra icraçı direktor vəzifəsində çalışmışdır. İşlədiyi bu müddət ərzində mühüm, strateji dövlət obektlərinin (sərhəd qoşunlarının inzibati və yaşayış binalarının) tikintisində çalışmışdır.

Mübariz Baxışov 2012-ci ilin yanvar ayından Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun xətti ilə məcburi köçkünlər üçün respublikamızın paytaxtında və bölgələrimizdə inşa olunan məcburi köçkün qəsəbələrinin tikintisində "İnşaatçı tikinti" firması ilə iştirak edərək 2015-ci ilin avqust ayına qədər fəaliyyət göstərmişdir.

Mübariz müəllim 2015-ci ilin avqust ayından 2017-ci ilin oktyabr ayına qədər "Condas" tikinti şirkətində Bakı və ətraf rayonlarda yaşayış və təhsil komplekslərinin tikintisində iş icraçısı kimi fəaliyyət göstərmişdir.

2017-ci ilin oktyabr ayından "RR-İnvstment" tikinti şirkətinin "Buta" layihəsində iş icraçısı kimi fəaliyyətə başlamış və bu günə qədər də öz işini uğurla davam etdirir.

Ailəlidir, iki övladı var.

Həyat yoldaşı Baxışov Könül Namət qızı ali təhsillidir və Bakı şəhər Xətai rayonu 257 saylı uşaq bağçasında tərbiyəçi işləyir.



*Gəncə şəhərində beşmərtəbəli yaşayış evləri*



*Masazır qəsəbəsində beşmərtəbəli yaşayış binası*



*Müşfiqabad qəsəbəsində məcburi köçkünlər üçün salınan qəsəbədə beşmərtəbəli yaşayış binası*



*"Su sonası" şadlıq sarayının binası*



*Sərhəd Qoşunlarının yaşayış kompleksi*

Atasının adını verdiyi oğlu Baxışlı Mətləb Mübariz oğlu Bakı şəhər Xətai rayonu 269 saylı orta məktəbin 6-cı sinif şagirdidir. Məktəbin fəalı olaraq "Şahmat Federasiyasının" məktəblərarası yarışlarında 2016-2017-ci illərdə birincilik əldə etməklə 2-ci dərəcəyə qədər yüksəlmişdir. Eyni zamanda Mətləb "Qara qaplan" idman klubunun karate idman növü üzrə tanınmış olimpiya cempionu Ayxan Mamayev və Avropa çempionu Asiman Qurbanlının rəhbərliyi altında qəhvəyi kəmər dərəcəsinə qədər yüksəlmişdir.

Qızı Baxışlı Minə Mübariz qızı Bakı şəhər Xətai rayonu 269 saylı orta məktəbin 5-ci sinif şagirdidir. Eyni zamanda Xətai rayon "Dəniz" tədris mərkəzində gimnastika ilə məşğul olur.

Mübariz Baxışov cavan olmasına baxmayaraq tikinti-quraşdırma işlərini səmərəli və keyfiyyətli aparmaq üçün tələb olunan bütün keyfiyyətlərə malik bir inşaat mühəndisi olduğunu əməli fəaliyyəti ilə təsdiq etmişdir.

Şübhə yoxdur ki, Mübariz Baxışovun ölkənin tikinti kompleksində qazanacağı ən böyük uğurlar qabaqdadır və o, bundan sonra da Azrbaycan Prezidenti cənab İlham Əliyevin ölkənin tikinti quruculuq yönümündə həyata keçirdiyi inkişaf strategiyasının uğurlar qazanmasına öz layiqli töhfəsini verəcəkdir.




*Ofis binası*



**Balakişiyev İlqar Mövlud oğlu**

29 aprel 1980-ci ildə Bakı şəhərində anadan olub. Orta təhsilini Bakıdakı 104 saylı orta məktəbdə alıb. 1997-2001-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Memarlıq bölməsində təhsil alıb, 2001-2003-cü illərdə memarlıq ixtisası üzrə magistratura bölməsini fərqlənmə diplomu ilə bitirib, diplom işini "əla" qiymətlə müdafiə edib. 2003-cü ildə tələbə və magistrantların elmi konfransında müsabiqənin qalibi olaraq əldə etdiyi nailiyyətlərə görə "Ən yaxşı tələbə" kimi birinci dərəcəli Diplomla təltif olunub. Elmi-pedaqoji fəaliyyətlə məşğuldur. 2001-ci ildən bu günə qədər Azərbaycan Memarlıq və İnşaat Universitetində çalışır. 2001-2007-ci illərdə AzMİU-da kiçik elmi işçi, 2007-2013-cü illərdə assistent, 2013-cü ildən isə Universitetin Memarlıq fakültəsində baş müəllim kimi fəaliyyət göstərir. Memarlıq konstruksiyaları, Binaların rekonstruksiyaları, Sənaye binaları fənləri üzrə mühazirə, məşğələ, kurs layihələri dərslərini aparır, əyani və qiyabi təhsil alan qruplarda diplom layihələrinə rəhbərlik edir.

Memarlıq ixtisası üzrə onun memarlıq fəaliyyəti üçün çoxşaxəlilik səciyyəvidir: çoxmərtəbəli yaşayış binaları, sənaye obyektləri, ictimai binalar, xəstəxanalar, sosial-məişət xidmətləri binaları, azmərtəbəli malikanə tipli evlər və bir çox digər qurğuların layihə müəllifidir.

O, ali təhsilli memar və inşaatçı-mühəndis kimi əmək fəaliyyətinə öz doğma şəhərində başlayıb. Qısa vaxtda özünü bacarıqlı və qabiliyyətli mütəxəssis kimi göstərib, tikinti meydançalarında uğurlar əldə edib. İşlədiyi hər kollektivdə nüfuz qazanıb, işinə son dərəcə məsuliyyətli yanaşması ilə seçilir.

İ. M. Balakişiyev 2003-2004-cü illərdə "Memarlıq İnşaat Dizayn" İctimai Birliyində icraçı-memar,







*Bakı şəhərinin Xətai rayonunda idman-sağlamlıq mərkəzi*

2005-2007-ci illərdə isə "Mideya" MMC-də memar vəzifələrində işləyib. 2008-ci ildən bu günə kimi elmi-pedaqoji fəaliyyətlə yanaşı memarlıq ixtisası üzrə "Kon-Lay Project" MMC-də memar olaraq çalışır.

İşgüzarlığı, zəhmətsevərliyi və layihələndirdiyi çoxsaylı binalar nəzərə alınaraq onu 2016-cı ildə Azərbaycan Memarlar İttifaqına üzv qəbul etmişlər.

İ. M. Balakişiyev hazırda namizədlik dissertasiyası üzrə materiallar toplayır və elmi-tədqiqat işləri üzərində çalışır. 15 elmi əsərin, o cümlədən özünün layihələndirdiyi bir sıra inşa olunmuş binaların müəllifidir.

Ailəlidir, 3 övladı – 2 oğlu, 1 qızı var.



*Bakı şəhərinin Nərimanov rayonundakı Akademik Həsən Əliyev küçəsində ofis və ticarət mərkəzi*



*Bakı şəhərinin Nizami rayonunda iaşə obyekti*



*Bakı şəhərinin Nərimanov rayonunda çoxmərtəbəli yaşayış binaları*



**Bayramov**
**Etibar**
**Musa oğlu**

1974-ci ilin aprel ayında Qədım Borçalı mahalının Çürük Qəmərli rayonunun Saraçlı kəndində müəllim ailəsində anadan olmuşdur.

1981-1991-ci illərdə Saraçlı kənd orta məktəbində oxumuş, orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra Bakı şəhərinə gəlmişdir.

Etibar Bayramov 1991-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Yol inşaat fakültəsi, avtomobil yollarının və təyyarə limanlarının tikintisi ixtisasına qəbul olmuş və 1996- cı ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirmişdir.

E.M.Bayramov son 10 il ərzində 2008-ci ilin aprel ayından "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-də çalışır. Bu müddət ərzində o, bir çox vəzifələrdə işləmişdir.

Belə ki, Etibar Bayramov 2008-ci ilin aprel ayından şirkətin inşa etdiyi beynəlxalq layihələrdən olan Bakı-Şamaxı/Muğanlı avtomobil yolunun yenidən qurulması layihəsində texniki ofis mühəndisi vəzifəsində işə başlamış və layihənin tikintisində yaxından iştirak etmişdir.

İşə başladıqdan 4 ay sonra rəhbərliyin göstərişi ilə şirkətin digər beynəlxalq layihəsi olan Bakı-Samur avtomobil yolunun yenidənqurulması layihəsinə texniki ofisin müdiri vəzifəsinə keçirilmiş və 2008-2010-cu illərdə bu vəzifədə işləyərək layihəni müvəffəqiyyətlə başa vurmuşdur.

2010-2013-cü illərdə E.M. Bayramov Akkord STİK ASC-nin





**Bəşirli Elbəy Xankişi oğlu**

1976-cı il aprel ayının 13-ündə Şamaxı rayonunun Göylər kəndində müəllim ailəsində anadan olmuşdur. Atası Bəşirov Xankişi Babakişi oğlu uzun müddət Şamaxı rayonu Göylər kənd orta məktəbində riyaziyyat müəllimi və direktor müavini vəzifəsində işləmişdir. E. Bəşirli 1982-ci ildə Göylər kənd orta məktəbinin 1-ci sinfinə getmiş, 1993-cü ildə orta məktəbi bitirmişdir və həmin il də Azərbaycan İnşaat Mühəndisləri Universitetinin "Sənaye və Mülki Tikinti" fakültəsinə qəbul olmuşdur. O, 1997-ci ildə unversitetin bakalavr pilləsini müvəffəqiyyətlə bitirdikdən sonra həmin il unversitetdə magistr dərəcəsi almaq üçün təhsilini davam etdirmiş, 1999-cu ildə "Bina və qurğular nəzəriyyəsi və layihələndirməsi"-ixtisaslaşması üzrə "Asma örtüklü istehsalat binalarının layihələndirilməsi" mövzusunda magistr dissertasiyasını əla qiymətlə müdafiə edərək magistr dərəcəsinə yiyələnmişdir.

Elbəy Bəşirli 2006-cı ildə Azərbaycan Memarlıq və İnşaat Universitetində "Bina və qurğuların zəlzələyə davamlılığı" mövzusunda tam ixtisasartırma kursunu bitirmişdir. 2017-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetində "Təbii fəlakətlər zamanı insan həyatının təhlükəsizliyi" mövzusunda elmi texniki konfransda çıxış etmiş və həmin cıxış kitabda dərc olunmuşdur.

1999-cu ildə təhsil alarkən "AZ-SA-EL" LTD şirkətində praktikant olaraq çalışmış, 2000-ci ildə "Rəşad-1" kiçik müəssisəsində mühəndis konstruktor vəzifəsində işləmişdir. Burda çalışdığı dövrdə Bakı yağ fabriki, çay fabriki, biskvit fabriki kimi SSRİ dövründən qalma zavod və fabriklərdə yerləşən qurğuların, istehsalat və inzibati binaların rekonstruksiya layihələri və onların icrası ilə məşğul olmuşdur.

E.X. Bəşirli 2004-cü ildən 2016-cı ilə qədər "İntercostruction" MMC-də inşaat mühəndisi, "Sun Qroup Menecment" MMC-də memar, "Azərsun Holdinq" MMC-də Baş memar vəzifələrində calışmışdır. Çalışdığı dövrdə bəzi iri həcmli layihələrdə (H.Z.Tağıyev qəsəbəsində kağız fabriki, Yağ fabriki, İmişli şəkər zavodu, Biləsuvar və Xaçmaz konserv zavodu, Nərimanov heykəli yaxınlığında yerləşən "Gümüş Plaza" müasir yaşayış kompleksində yaxından iştirak etmişdir.

E.X. Bəşirli 2016-cı ildən indiyə kimi Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərinşaatlayihə" Dövlət Baş Layihə Konstruktor və Texnoloji İnstitutunun texniki şöbəsinin rəisi vəzifəsində çalışır.

Elbəy Bəşirli ailəlidir, 3 oğlu var. Böyük övladı Toğrul Azərbaycan Memarlıq və İnşaat Unversitetinin tələbəsidir. Ortancıl oğlu Cavidan Rövşən Nəsirov adına 111 saylı orta məktəbin 9-cu sinfində təhsil alır. 2015-ci il təvəllüdülü övladı Nicat uşaq bağcasına gedir. O, övladlarını Vətənə və əməyə məhəbbət ruhunda tərbiyələndirir.



**Bilalov Məmmədrəsul Yaqub oğlu**

26 dekabr 1965-ci ildə Şəkidə ziyalı ailəsində anadan olmuşdur. 1983-cü ildə orta məktəbi bitirən kimi Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna (indiki AzMİU) daxil olub. 1984-1986-cı illərdə hərbi xidmətdə olub (Həmin illərdə əyani şöbədə oxuyanları da orduya aparırdılar). Məmmədrəsul Bilalov 1990-cı ildə həmin institutu müvəffəq qiymətlərlə bitirmişdir.

O, milli prinsipləri öz işindən üstün tutann vətənpərvər gənc kimi təyinatla göndərildiyi "Azəraqrartikinti" İB-dəki yeni işindən imtina edib, fakültə dekanının bir sözünə görə, o zaman Bakıda layihə institutlarına sahiblənən mənfur qonşularımızı sıxışdırmaq üçün "Azərsənayetikinti" İB-nin Layihə-Sazlama Kompleksinə işə qəbul olunmuşdur. 1993-cü ilin sonunadək həmin kompleksdə həm layihəçi kimi, həm də dəmir-beton zavodlarında avadanlıqların quraşdırılması üzrə texnoloq kimi fəaliyyət göstərmişdir.

Məmmədrəsul Bilalov 1993-cü ildən 1997-ci ilədək Dövlət Əmlak Komitəsində, tikinti sektorunun özəlləşdirilməsi üzrə sektor rəhbəri vəzifəsində işləmişdir. O zaman islahatların başlandığı dövr idi. "Azərsənayetikinti", "Azərkəndtikinti", "Azəraqrartikinti" Dövlət Şirkətələrinin, Bakı Baş Tikinti İdarəsinin, "AzQur" və "Tikinti Materialları" Dövlət Konsernlərinin və s. dövlət tikinti təşkilatlarının özəlləşdirilməsi konsepsiyalarının hazırlanmasında, qanunvericilik aktlarının yenilənməsi və mövcudlarının dəyişdirilməsində aktiv iştirak etmişdir. O zaman bəzi şirkət rəhbərləri inşaat sektorunun özəl fəaliyyət göstərərək inkişaf edə biləcəyinə inanmırdılar. Şirkət rəhbərləri ilə keçirilən bəzi toplantılarda tikinti sektorunun özəlləşəcəyindən söhbət düşəndə Məmmədrəsul Bilalova radikal islahatçı kimi baxır və söylədiklərini cəfəngiyyat adlandırırdılar. Bir epizod: Ulu öndər 1993-cü ildə ikinci dəfə ölkəmizə rəhbərliyə yeni gələndə bəzi şirkət rəhbərləri sevinərək deyirdilər ki, islahat sənədləri işıq üzü görməmiş arxivə gedəcəkdir. Lakin onların mühafizəkar və postsovet təfəkkürünün əksinə olaraq ölkə başçısı islahatların sürətləndirilməsi üçün yeni sərəncamlar imzalayaraq prosesin uğurlu aparılması istiqamətində işlədyi Dövlət Əmlak Komitəsinin səlahiyyətlərini artırdı. Məmmədrəsul Bi-



*Bakı telefon stansiyası*

lalov Komitədəki fəaliyyəti dövründə Bakı və respublika ərazisində olan yarımçıq tikililərin özəlləşdirilməsində, vaxtilə dövlət şirkəti olan və hazırda özəl sektorda fəaliyyət göstərən bir çox şirkətlərin özəlləşdirmə zərflərinin hazırlanmasında iştirak etmişdir.

M.Y. Bilalov 1992–1995-ci illərdə Dövlət Əmlak Komitəsində işləyə-işləyə Azərbaycan İqtisad Universitetində beynəlxalq iqtisadi əlaqələrin hüquqi tənzimlənməsi ixtisası üzrə ikinci ali təhsil almışdır.

M.Y. Bilalovun əmək fəaliyyətinin 1997-2004-cü illər dönəmi Rabitə Nazirliyi ilə bağlıdır. Rabitə sahəsi onun üçün yeni idi və ilk əvvəl burada işləmək çətin gəlirdi. Rabitə Nazirliyinin tikinti sektorunun və birgə müəssisələrdə dövlət payının idarə olunması, xarici investisiyaların rabitə sektoruna cəlb edilməsi, rabitə xidmətlərinə xüsusi icazələrin (lisenziyaların) verilməsi kimi vəzifələr ona həvalə edilmişdi. Yüksək idarəetmə qabiliyyəti olan və fəaliyyətini hər zaman vəzifələrə gəncləri təyin etmək prinsipi əsasında quran Rabitə Naziri Nadir Əhmədovla (onu Azərbaycan rabitəsinin atası adlandırırdılar) işləmək onun üçün böyük şərəf idi və



*Rabitə Nazirliyinin inzibati binası*



*Bakı – Böyük Kəsik dəmir yolunun elektrik təchizatının yenidən qurulması*

M. Bilalov onunla işləyərək idarəetmənin əsaslarına sahibləndi. Rabitə sektoru üçün ilk beynəlxalq layihə; Trans – Asiya – Avropa fiber optik kabel xəttinin tikintisində, Bakıda və ölkə ərazisində telefon qovşaqlarının yenidən qurularaq rəqəmsal avadanlıqla təchiz edilməsində, poşt şöbələrinin əsaslı təmirində, Bakı şəhərində stansiyalararası rabitənin optik kabel və rəqəmsal avadanlıqlarla təchizində və s. işlərdə məsul şəxs kimi iştirak etmişdir.

Azərbaycanda energetika sənayesinin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu təməl əsasında, 1969-cu ildə inşa edilən Bakı Mayesiz Transformatorlar zavodunu rekonstruksiya edərək ilk dəfə Azərbaycanda mayeli transformator istehsal edən isə tanınmış inşaatçı Talıb Əlixanbəyov olmuşdur. Məmmədrəsul Builalov

2004-cü ildə onun dəvəti ilə "ATEF" Şirkətlər Qrupuna sədr müavini vəzifəsinə keçmişdir.

"ATEF" ŞQ Azərbycanda 5 nəhəng zavod inşa edib və onların hər birinin istehsal etdiyi məhsullar strateji əhəmiyyətə malikdir. "ATEF" ŞQ ölkəmizin özəl sektorunda bəlkə də yeganə şirkətdir ki, əldə etdiyi gəlirləri hər zaman reinvestisiya edərək yeni istehsal sahələri yaradır və onun hədəfi xarici bazarlarda rəqabət apara biləcək məhsul çeşidini artırmaqdır. Bakı – Tbilisi – Qars dəmir yolunun rekonstruksiyası işində "ATEF" ŞQ həm Azərbaycanda, həm də Gürcüstanda elektrik təchizatı üzrə tenderlərin qalibi olmuş və qiyməti 100 milyonlarla manat ölçülən müqavilələrin icrasını uğurla həyata keçirmişdir. Azərişıq, SOCAR, Azərenerji və digər böyük istehlakçılar hər zaman "ATEF" ŞQ-nun sifarişçiləri olmuşlar. M.Y. Bilalov 2004-cü ildə vəzifəsinin icrasına başlayarkən ŞQ-da 450 nəfərə yaxın işçi çalışırdısa, 2016-ci ildə işçilərin sayı 1600 nəfəri keçmişdir. O, 2010-2011-ci illərdə və 2015-2016-cı illərdə Azərbaycanda Bakı-Böyük Kəsik dəmir yolu xəttinin rekonstruksiyası üzrə layihə rəhbəri, 2011-2014-cü illərdə isə Marabda – Axalkalaki-Qars dəmir yolu xəttinin rekonstruksiyası üzrə layihə rəhbəri işləmişdir. "ATEF" ŞQ-nun ümumi idarəetməsinin qurulmasında, xarici iqtisadi əlaqələrinin genişlənməsində yaxından iştirak etmişdir.



*ATEF Şirkətlər Qrupu tərəfindən inşa edilən Axalkalaki dəmir yolu vağzalının elektrik təchizatı*




*ATEF Şirkətlər Qrupunun Suraxanı rayonu ərazisində yerləşən transformator zavodu*

M.Y. Bilalov 2016-cı ildən ölkənin tikinti sektorunda həyata keçirdiyi unikal layihələrlə şöhrət qazanmış "6-cı Mərtəbə" özəl tikinti şirkətində Layihə rəhbəri vəzifəsinə təyin olunmuşdur və hazırkı vaxtda da bu vəzifədə çalışır.

Bu gün Azərbaycanda infrastruktur layihələrinin davamı oalaraq dəmir yolunun yenidən qurulması layihələri uğurla yerinə yetirilir. Fransanın Maliyyə Agentliyinin maliyyə dəstəyi ilə Azərbaycana 50 ədəd ALSTOM şirkətinin elektrik qatarının gətirilməsi planlaşdırılır. Bu məqsədlə Biləcəri qəsəbəsində və Gəncə şəhərində qatarla-

rın təmir depolarının inşası nəzərdə tutulur. Gəncə Lokomotiv Deposunun (GLD) inşası üzrə tenderin qalibi "6-cı Mərtəbə" özəl şirkətidir. Azərbaycanın tikinti sektorunda 1994-cü ildən etibarən uğurla fəaliyyət göstərən şirkətin Prezidenti tanınmış inşaat mühəndisi Ataş Təhməzovdur.

Bağladığı müqavilələrə uyğun olaraq tikinti obyektləərini sifarişçilərin müəyyən etdiyi müddətdə tamamlamaqda və binaların interyer-ekstrayer işlərini ən müasir zövqlə həyata keçirməkdə bu şirkət öncüllərdəndir.

M.Y. Bilalov şirkətdə fəaliyyətinə Gəncə Lokomotiv Deposunun (GLD) tikintisinə dair tender sənədlərinin hazırlanmasından başlamış və hazırda Gəncədə Layihə rəhbəri vəzifəsini icra edir. Layihə beynəlxalq standartların (FİDİC) tələblərinə uyğun həyata keçirilir və 2019-cu ilin sonunda tamamlanmalıdır.



*"6-cı Mərtəbə" Müstəqil Şirkətinin Bakı şəhərində yerləşən mərkəzi ofisi*



*Gəncədə 2019-cu ildə istismara verilməsi planlaşdırılan və "6-cı Mərtəbə" şirkəti tərəfindən inşa edilən lokomotov deposu*







*Dövlət Bayrağı Meydanına gedən yol*
*("AzVirt" MMC)*

# C



**Cabbarov Mahir Əmiraslan oğlu**

1958-ci il aprel ayının 18-də Tərtər rayonunun Səhləbad kəndində anadan olmuşdur. 1975-ci ildə Səhləbad kənd orta məktəbini fərqlənmə ilə bitirərək Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna (indiki Azərbaycan Memarlıq və İnşaat Universiteti – AzMİU) daxil olmuş, 1980-cı ildə isə institutu bitirmişdir. 1980-cı ildən 1987-ci ilədək Bakı Baş Tikinti İdarəsində müxtəlif vəzifələrdə çalışan M.Cabbarov 1980-1982-ci illərdə hərbi xidmətdə olmuşdur. 1987-1993-cü illərdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin Tikinti Təşkilatında baş mühəndis və rəis, 1993-1999-cu illərdə Azərittifaqın Eksperimental İstehsalat Reklam Kombinatında direktor, Eksperimental İstehsalat Sənaye Müəssisələri Birliyində baş direktor, 2001-2012-ci illərdə Dövlət Tikinti və Arxitektura Komitəsinin Sənaye Müəssisələri və Təmir-Tikinti Birliyi Mexanizasiya və Tikinti İstehsalat İdarəsinin rəisi vəzifələrində işləmişdir.

2012-ci ildən "Sahil İnşaat Qrup" MMC-nin təsisçisi və Baş direktoru vəzifəsində işləyir.

M.Ə.Cabbarov paralel olaraq, tikinti sektorunun inkişafı, tikintidə təhlükəsizliyin təmin edilməsi və s. istiqamətlərdə elmi araşdırmalar apararaq 2008-ci ildə "05.26.02 – Fövqəladə hallarda təhlükəsizlik (tikinti)" ixtisası üzrə AzMİU-nun doktoranturasına daxil olmuşdur. Doktoran-



*Bakı şəhəri, Nəsimi rayonu Nizami küçəsi 149 ünvanında 13+1 mərtəbəli yaşayış binası*

tura dövründə araşdırmaları davam etdirərək “Tikintidə həyat fəaliyyətinin təhlükəsizliyinə təsir edən risklərin qiymətləndirilməsi və idarə olunması” mövzusunda dissertasiya işini yerinə yetirmişdir. 2012-ci ildə M.Ə.Cabbarov tədqiqat işini uğurla müdafiə etdirərək texnika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Mahir Cabbarov tikintidə həyat fəaliyyətinin təh-



*Bakı şəhəri, Nərimanov rayonu, K. Rəhimov küçəsi, 822-823-cü məhəllədə 18 mərtəbəli yaşayış binası*



*Bakı şəhəri, Xətai rayonu, Y. Səfərov küçəsində 16 mərtəbəli yaşayış binası*

lükəsizliyi, risklərin qiymətləndirilməsi və idarə olunması, tikinti proseslərinin mənfi ekoloji təsirlərinin qarşısının alınması və s. istiqamətlərdə yerli və xarici elmi nəşrlərdə çap edilmiş 25 məqalənin və 1 dərs vəsaitinin müəllifidir.

M.Cabbarovun rəhbərlik etdiyi kollektiv Bakı şəhərində və respublikamızın müxtəlif regionlarında dövlət əhəmiyyətli bir sıra layihələri uğurla icra etməkdədir. Respublikamızda kommunikasiya sistemlərinin yenidən qurulması, ayrı-ayrı regionlarda hündürmərtəbəli binaların, müxtəlif sosial və infrastruktur obyektlərinin tikinti işlərində Mahir Cabbarovun və onun



*Gəncə şəhəri, H. Əliyev küçəsi, 31 ünvanında 10 mərtəbəli yaşayış binası*



*Bakı şəhəri, Nəsimi rayonu, Vidadi, S. Vurğun, D. Əliyeva küçələrinin kəsişməsində 325-ci məhəllədə 16 mərtəbəli yaşayış binası*

rəhbərlik etdiyi kollektivin böyük zəhməti vardır.

M.Cabbarov, həm də bir xeyriyyəçi kimi, yüksək insani keyfiyyətlərə malikdir. Bir vətənpərvər və xeyirxah insan kimi Mahir Cabbarov işğal edilmiş ərazilərimiz haqqında informasiyaların toplanması və nəşri, şəhidlərimizin adının əbədiləşdirilməsi, tanınmış ziyalıların həyat və fəaliyyətinin öyrənilməsi və təbliğində yaxından iştirak edir.




*Bakı şəhəri, Nərimanov rayonu, K. Rəhimov küçəsi, 822-823-cü məhəllədə Azərbaycan Turizm İnstitutunun binası*



*Bakı şəhəri, Nəsimi rayonu, Xətai prospekti 42 ünvanında yüksək mərtəbəli yaşayış binası*

Mahir müəllimi həm də tələbkar və qayğıkeş bir valideyn kimi də xarakterizə etmək olar. Onun iki oğlu, iki qızı var. Bir valideyn olaraq, Cabbarov təhsilə, elmə ciddi önəm verməsi, övladlarına "uğurun yalnız elmlə əldə edilməsi mümkündür" fikrini tez-tez xatırlatması ilə də bir çox həmkarlarından fərqlənir. Bunun nəticəsidir ki, Cabbarovun övladları ali təhsillidir və çalışdıqları sahədə öz sözlərini deyə bilirlər.

Mahir Cabbarovun ən böyük arzusu işğal edilmiş ərazilərimizin azad olunması, Kəlbəcərdə, Laçında, Şuşada və digər rayonlarımızda tikinti-quruculuq işlərində iştirak etməsidir.



*Bakı şəhəri, Nəsimi rayonu, Mirqasımov küçəsi 29 ünvanında 16+1 mərtəbəli yaşayış binası*



*Bakı Ağ Şəhər, Yaşıl Ada rayonu, Mərkəzi Bulvar küçəsində 7 mərtəbəli yaşayış binası*

## Cəbrayıl rayonunun tarixi abidələri

Cəbrayıl rayonu Azərbaycanın tarixi abidələri, eyni zamanda dini təyinatlı abidələri ilə zəngin rayonlarından hesab olunur. Rayonun köhnə qəbiristanlığında qədim yazılar yazılmış bir lövhə parçası aşkar olunmuşdur. Həmin yerdə, yolun qırağında isə iki başdaşı vardır. Başdaşılarının yuxarı hissəsində heyvan təsvirləri – dağ keçiləri və Qobustan qayaüstü təsvirlərini xatırladan müxtəlif tamqalar həkk edilmişdir. Cəbrayılın ətrafında müxtəlif bədii formaya malik qəbirdaşları vardır, onlardan qoç heykəli olan ikisi Azərbaycanın digər dağətəyi rayonlarındakı abidələrin analogiyasıdır. Cəbrayıl rayonunda müxtəlif türbələr – Dağtumas kəndində XIII-XVI əsrlərə aid türbə, Şıxlar kəndində yerləşən Şıxbaba türbəsi (XIV əsr), Xubyarlı kəndində XVI əsrə aid səkkizguşəli türbə və onlarla başqa tarixi-dini memarlıq nümunələri vardır.

Vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsü də Cəbrayıl rayonunda yerləşir. Bu körpü haqqında ilk məlumat VIII-IX əsrlərə aiddir. Xudafərin körpüsü Cənubi Azərbaycanla Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən, karvan yolunun üstündə tikilib. O, həm də mühüm hərbi-strateji əhəmiyyət daşıyır. Araz çayının ən dar, qayalıqla əhatələnən yerində inşa edilmiş ilk körpü VIII əsrin sonu – IX əsrin əvvəllərindən başlayaraq, XIX əsrə kimi fəaliyyət göstərmişdir. Kərpic körpü isə XII əsrdə tikilmişdir. 23 avqust 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində rayonun yaşayış məskənləri ilə yanaşı, tarixi-dini abidələri də məhv olunmuşdur.

**Mazan nənə türbəsi** – Cəbrayıl rayonunun Xudayarlı kəndində qərar tutur. Dəqiq tarixi bilinmir. Z.İ.Yampolski qəbri mədərşahlıq dövrünün yadigarı saymışdır.

El arasında Cəbrayıl rayonu ərazisindəki Diri dağına verilən ad da Nuh peyğəmbərlə əlaqələndirilir. Babalardan belə bir əfsanə qalmışdır: İnsanlar dağın sinəsində əkin-biçinlə məşğuldur. Mazan oğlan ətrafda oynayır, nənəsi çörək salır. Elə bu zaman Nuh tufanı, daşqın başlayır. Bunu görən nənə Mazana deyir ki, çıxsın dağın başına. Nənə özünün dağa çıxa bilməyəcəyini hiss etdiyi üçün çörəyi yarımçıq qoya bilməyəcəyini bəhanə edir. Oğlan çətinliklə dağın zirvəsinə qalxır və suyun getdikcə yaxınlaşdığını görür. Son ümid Dik daşdır, oğlan çətinliklə Dik daşın üzərinə qalxır. Bir neçə gündən sonra su yatmağa başlayır. Bu zaman bir qoca oğlana yanaşır. Bu, Nuh babadır. O, oğlanı Dik daşın üzərindən endirir, onun sağ qalmasına təəccüb edir. Gəzdiyi yerlərdən yalnız burada canlı-



*15 aşırımlı Xudafərin körpüsü*



*Hacı Qaraman ziyarətgahı*

ya, diriyə rast gəldiyi üçün qoca bu dağa "Diri" adı verir (diri – tir – yaşamaq, tiriq – canlı, diri sözləridir.) Nuhun gəmisi geri qayıdarkən qoca öz nəvəsi Sənəmi oğlana verir. Mazan böyüyüb güclü bir pəhləvan olur. Sənəmlə evlənir, oğul-uşaqları olur. Sonralar el sənətkarı Qurbani də bu nəsildən yaranır.

Diri dağının döşündə Mazan nənənin qəbri indi də durur. Onu da qeyd edək ki, bu əfsanə ilə bağlı Dik daşın, nənənin çörək taxtası, kündələri və s.-in Diri dağının döşündə daşa dönmüş şəkildə qalmaqda olduğu barədə də əfsanələr vardır.

**Şıxbaba ziyarətgahı** – Cəbrayıl rayonunda Şıxlar kəndinin ərazisində ziyarətgah.

Şıxbaba ziyarətgahı 1308-ci ilə aid kitabədə onun Qarabağda "Qədiriyyə" cəmiyyətinin şeyxi Şeyx Qiyasəddinli oğlu şeyx Əbdülsalmanın qəbrinə aid olduğu göstərilir. Qəbələ rayonunda Həmzəli kəndində "Şıx Baba" ziyarətgahının adı ilə mənaca eynidir. Şıxbabab ziyarətgahı XIV əsrə aid edilir. Ziyarətgahın yerləşdiyi Şıxlar kəndi də "Şıxbaba" ziyarətgahının adındandır.

**Hacı Qaraman ziyarətgahı** – Çələbilərin (Çələbi – Çələbi sozu dini və dunyəvi termin olub hakimiyyətlərin, şahzadələrin ləqəbi kimi işlənib, Allahı sevən, yazıcı, şair, bilici mənalarını verir). XIII əsrin birinci yarısında – Monqol yuruşləri dovrundə Kicik Asiyadan (əsasən Turkiyə ərazilərindən) məşhur Qaraman tayfasının (Qaraqoyunlu hokmdarı Qara Yusifin sərkərdəsi Qaraman, Qarabağ hakimi Əmir Yaəhməd, I Şah Abbasın Şamaxıya hakim təyin etdiyi Zulfuqar Xan da Qaraman tayfasından idilər) tərkibində Azərbaycana gəlmələri tarixdən məlumdur. Çələbilərin adlı-sanlı başçılarından olan Hacı Qaraman XIII-XIV əsrlərdə Cəbrayıl ərazisinə gəlmiş, əvvəlcə Niftalılar və Nusus kəndləri arasındakı yerdə özunə məskən salmış, sonralar Çələbilər kəndinə köcmuşdur. Ona gorə də Hacı Qaramanın dəfn edildiyi məzar sonralar "Ocaq" kimi muqəddəsləşdirilmişdir. Çələbilər kəndindəki məscid isə Məhəmməd ibn Hacı Qaraman Əhmədli tərəfindən Hicri 1088-ci ildə (Miladi 1678) inşa edilmişdir. Hacı Qaramanın adı məşhur oğuz turk tayfasından olan Qaraman tayfasının adından goturulmuşdur. Cəbrayılda Əli Çələbi adı ilə məşhur olan bu şəxs Cəbrayıl rayonunun dağlar qoynunda yerləşən Sirik kəndində 1928-ci ildə anadan olmuşdur. Omrunun sonunadək həmin kənddə xalqa ağsaqqallıq etmiş, təməli qoyulan xeyirxah işlərin duacısı, huzuruna pənah gətirənlərin yardımcısı olmuşdur.

**Cəbrayıl ata ziyarətgahı** – Cəbrayıl kəndinin şimalında Ata adlı məqbərə (uzunluğu 4,5 m, eni 2,4 m, hundurluyu 1,8 m). Cəbrayıl ata ümumi qəbiristanlıqda deyil, o dovrun adətinə uyğun olaraq ona məxsus torpaqların tam yuxarı başında, Alpaşa dağının hundur və tamaşalı bir yerində ayrıca dəfn edilmişdir. Rayon əhalisi tərəfindən ziyarətgah kimi qəbul edilir.

**Ağoğlan, Qurbantəpə ziyarətgahları** – Cəbrayıl rayonunun yaxınlığında Ağoğlan abidəsi bütpərəstlik dövrundən qalma abidədir. Mənbələrdə gostərilir ki, qeyri-bərabər doyuşdə öldürülən gözəl bir oğlan dəfn edilmişdir. İslam dini meydana gəldikdən sonra Ağoğlan abidəsi müsəlman ziyarətgahına çevrilmişdir. Ağoğlan kimi sonralardan pirə çevrilmiş yerlərdə Cəbrayıl rayonu ərazisində çox rast gəlinir. Məsələn, Cəbrayıl rayonunun Cənubunda Qurban təpə adlanan pir Qafqaz Albaniyası əhalisinin hələ Günəşə, Aya sitayiş etdikləri ilk tunc dövrunun sonlarının nişanəsidir. Yerli əhali təzə il gəlsin və məhsul bol olsun deyə bu təpədə qurbanlar kəsir, bişirdiyi xörəyin suyundan gundoğan tərəfə səpir, sonra xörəyi yeyir və Günəşə sitayiş etməklə kütləvi şadlıq edirdilər. Sonralar bu köhnə inam saxlanıldı, hətta XIX əsrin ortalarından başlayaraq Cəbrayıl qəzasının başqa yerlərindən kocub gedən Hacılı tayfasının bir hissəsi bu pirin yaxınlığında məskunlaşdı, onların saldıqları kənd Qurbantəpə kəndi adlandırıldı.

**Mazannənə, Mərmərnənə ziyartəgahı** – professor M. Seyidovun verdiyi məlumata gorə nənə qədim turkdilli tayfalarda Allahın anasının adı olmuşdur. Professor Z. İ. Yampolski Məzannənə abidəsi barədə gostərir ki, o sinfi cəmiyyətə kecid dovrunə qadınların ictimai istehsalda birinci dərəcəli rol oynadığı Madərşahlıq zamanının yadigarıdır və sonralar İslam dininə uyğunlaşdırılaraq “Ocaq” hesab edilmişdir. Həmin abidənin yaxınlığında indiyə qədər nişanələri qalan köhnə yaşayış məskəni Mazanənə kəndi adlanmışdır. Bu kəndin ətrafında qədim qəbiristanlıqda Əziz ibn Seyid Əl-məhəmməd sozləri olan qəbrin sinə daşında və başqa qəbirlərin ustundə yazılan hicri 750, 760 və 809-cu illər təsdiq edir ki, bu yerlərin ən qədim sakinləri azərbaycanlılar olmuşlar. Yerli əhali Hasanlı kəndi yaxınlığındakı Mərmərnənə abidəsində dəfn olunan qadını Mazannənənin anası hesab edir.

## Cəlilabad rayonunun abidələri

**Qazan köşkü** – Cəlilabad rayonunun Musalı kəndinin şimal-şərqində Talış dağlarının şimal qurtaracağında yerləşmiş tarixi abidə.

Qazan köşkü abidəsi stəkanvari, qala tipli müşahidə məntəqəsidir. Azərbaycan tarixinin zənginliyi ilə öyünməsinə baxmayaraq burda demək olar ki, dəqiq tarixi araşdırma aparılmamışdır. Bəzi məlumatlara görə və tarixi qaynaqlara gorə qazan köşkünün XIII əsrə, Hülaki hökmdarı Qazan xana (1295-1304) aid olduğunu deməyə əsas verir. Bu qala haqqında məlumata Qazan xanın vəziri olmuş tarixçi, alim Fəzlüllah Rəşidəddinin "Came ət-təvarix" ("Tarixlər toplusu") kitabında rast gəlinir. Qalanın hündür, strateji mövqedə inşa olunması onun müşahidə məntəqəsi kimi istifadə olunmasını sübut edir.

**Cəfərxanlı yaşayış yeri** – Azərbaycan ərazisində arxeoloji abidədir.

Cəfərxanlı yaşayış yeri Cəlilabad rayonunun eyniadlı kəndi yaxınlığında, İncəçayın sağ sahilin-

də yerləşir. Yaşayış yerinin yerləşdiyi ərazinin dəfələrlə şumlanması abidənin dağılmasına və planının itməsinə səbəb olmuşdur. Arxeoloji tədqiqatlarla, yaşayış yerinin 2 hektardan artıq sahəni əhatə etdiyi müəyyən edilmişdir. Yaşayış yerinin bəzi hissələrində gil qatları, daş və çiy kərpicdən tikinti qalıqları görünməkdədir. Kəşfiyyat qazıntıları ilə daşdan əmək alətləri və keramika məmulatı aşkar olunmuşdur.

Yaşayış yerindən aşkar olunmuş keramika üç qrupa bölünür. Birinci qrupa daxil olan küpə, çölmək və banka tipli qablar cilalama üsulu ilə, həndəsi motivdə naxışlanmışdır. Bəzi qabların gövdəsi konnelyur ornamentlidir. İkinci qrupa sarıqəhvəyi rəngli, qaba hazırlanmış qalın divarlı qablar daxildir. Gilinin tərkibinə qum və çınqıl qatılan bu qabların əksəriyyəti uzun boğazlı, genişağızlı küpələrdir. Qabların boğazı çəpinə çərtmələr və sünbülşəkilli ornamentlə naxışlanmışdır. Üçüncü qrupa monoxrom boyalı qablar daxildir.

Yaşayış yerinin dövrünün müəyyənləşdirilməsində Orta Tunc dövrünün erkən mərhələsində meydana çıxan və Kür-Araz mədəniyyəti ilə bağlantılı olan dirsəkşəkilli qulplar əhəmiyyətlidir. Bəzi qulpların yuxarı hissəsi zoomorf fiqurlarla tamamlanır. Aşkar olunmuş materiallar Cəfərxanlı yaşayış yerini e.ə. III-II minilliklərin qovşağına aid etməyə imkan verir.



*Göytəpə kilsəsi (Cəlilabad rayonu)*

**Mişarçay yaşayış yeri** – Azərbaycan ərazisində arxeoloji abidə.

Mişarçay yaşayış yeri Cəlilabad şəhərindən 1,5 km şimal-şərqdə, eyni adlı çayın sahilində yerləşir. Mişarçayın alt təbəqəsi Kür-Araz mədəniyyətinə, onun üzərində yerləşən təbəqəsi isə Orta Tunc dövrünə aid material vermişdir. Kür-Araz təbəqəsindən fərqli olaraq (4,5 m) Orta Tunc dövrü təbəqəsinin olduqca az yığılması, bu dövrdə yaşayış yerində həyatın yarımköçəri maldarlığa əsaslandığını göstərməkdədir. Yaşayış yerinin bu təbəqəsindən daş və sümük əmək alətləri, keramika məmulatı

aşkar olunmuşdur. Keramika məmulatı morfoloji və texnoloji xüsusiyyətlərinə görə iki qrupa bölünür. Birinci qrupa qəhvəyi rəngli, tünd ləkəli, kifayət qədər qaba hazırlanmış mətbəx qabları daxildir. Onların gilinin tərkibinə qum, çınqıl və gil ovuğu qatılmışdır. Bu qrupdakı qablar içərisində genişağızlı, silindr boğazlı, cüt qulplu küpələr fərqlənirlər. Onların üzəri sığallanaraq, yüngülcə cilalanmışdır. Gövdəsinin yuxarı hissəsi və çiyni cızma üsulu ilə həndəsi motivdə naxışlanmışdır. Boğazının altında yolkaşəkilli ornament, ondan altda isə ştrixlənmiş üçbucaqlar yerləşdirilmişdir.

**Göytəpə kilsəsi** – Cəlilabad rayonunun Göytəpə şəhərində yerləşən Rus Pravoslav Kilsəsi.

Cəlilabad rayonunun Göytəpə şəhərində yerləşən Rus Pravoslav Kilsəsi 1878-ci ildə tikilmişdir. Türkmənçay müqaviləsindən sonra Şimali Azərbaycan torpaqlarına, o cümlədən Cəlilabad rayonuna köçürülmüş xristian inanclı ruslar ibadət etməkdən ötrü burada əvvəlcə kiçik bir bina tikiblər. Amma həmin tikili rusların kütləvi ibadətləri üçün darısqal olduğundan cənub bölgəsində bu kilsənin inşa edilməsi qərara alınıb.

Altı günbəzdən ibarət olan bu qədim memarlıq abidəsinin tikinti işləri əsasən yerli memarlar tərəfindən aparılıb. Məhz elə buna görə kilsənin pəncərə və divarlarında Azərbaycanın milli memarlıq üslubunun çalarları açıq-aşkar nəzərə çarpır.

Kilsə Turizm və Mədəniyyət Nazirliyinin sərəncamındadır. Yerli əhəmiyyətli abidə kimi 4177 saylı inventarla rəsmi qeydiyyata alınan kilsənin birinci mərtəbəsində hazırda Göytəpə şəhər kitabxanası yerləşdirilib.

# Ç



**Çıraqov Nizami Qəfər oğlu**

3 iyul 1960-cı ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Laçın kəndində anadan olmuşdur. 1977-ci ildə Kəlbəcər şəhər 1 nömrəli orta məktəbi bitirmişdir. 1978-1980-ci illərdə hərbi xidmətdə olmuşdur. 1981-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstituna daxil olmuş və 1987-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirmişdir.

N. Çıraqov əmək fəaliyyətinə 1977-ci ildə Tikinti Təmir İdarəsində fəhlə kimi başlamışdır. O, 1981-1984-cü illərdə Kəlbəcər Kommunal Müəssisələri Kombinatında mühasib, 1987-ci ilədək isə kombinatın direktoru vəzifəsində işləmişdir. 1987-1990-cı illərdə Kəlbəcər Şəhər Sovetinin sədri vəzifəsində əmək fəaliyyətini davam etdirmişdir. Bu müddətdə Kəlbəcər şəhərində yeni tipli 2 ədəd kommunal məişət binası, 57 çarpayılıq mehmanxana, 3 ədəd 32 mənzilli yaşayış binası, şəhərin yeni yaşayış massivində mərkəzi istilik sistemlərinin, şəhər mərkəzinə 2-ci su xəttinin çəkilməsi, vertolyot meydançasının tikintisi, yeni küçələrin salınması və şəhərin digər abadlıq işlərində Nizami müəllimin xüsusi əməyi olmuşdur. 1990-cı ildə isə o, daha məsul vəzifəyə, Kəlbəcər rayon Xalq Nəzarəti Komitəsinin sədri vəzifəsinə təyin edilmişdir.

1991-2007-ci illərdə N. Çıraqov "Azəravtoyol" Dövlət Şirkətinin Kəlbəcər Yol İstismarı İdarəsinin rəisi vəzifəsində işləmişdir.

Nizami müəllim Kəlbəcər rayonunun müdafiəsi uğrunda görülən tədbirlədə də yaxından iştirak etmiş-



*Kəlbəcər yolu*



Kəlbəcər-Laçın yolundakı tunel



Mingəçevir-Bəhramtəpə avtomobil yolu

dir. Gecə və gündüz növbələri ilə yol işçiləri və yol texnikalarını səfərbər edərək, düşmənin hərbi hissələrimizin yerləşdiyi mövqelər istiqamətində müdafiə xəttini yarmaq cəhdlərinin qarşısının alınmasında milli ordumuzun döyüşçülərinə yaxından köməklik göstərmişdir. Kəlbəcər rayonunun müdafiəsi uğrunda 1993-cü ilin martın 27-dən aprelin 3-nə kimi gedən son döyüşlər zamanı rayonun dinc əhalisinin çətin və yüksək dağ aşırımdan keçən Kəlbəcər-Gəncə avtomobil yolu ilə maneəsiz və sağ salamat çıxarılmasında böyük fəallıq göstərmişdir.

Nizami müəllim 2007-ci ildən hal-hazıra kimi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "2 nömrəli Regional Avtomobil Yollarının Yaşıllaşdırılması və Ekologiyası" MMC-nin direktoru vəzifəsində işləyir. O, üzərinə düşən vəzifələri yüksək peşakarlıqla yerinə yetirir və göstərilən ehtimadı əməli işi ilə doğruldur. O, hələ uzun illər ərzində həm insanlara rahatlıq, həm də ölkə iqtisadiyatının hərtərəfli inkişafında mühüm rol oynayan avtomobil yolları sahəsinin inkişafına daha böyük töhfələr vermək əzmindədir.

Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020 Gələcəyə Baxış" İnkişaf Konsepsiyasının əsas hədəflərindən biri ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa nail olmaqdır. Biomüxtəlifliyin qorunması, yanacaq-enerji kompleksinin ətraf mühitə mənfi təsirinin neytrallaşdırılması, təbiətin çirklənməsinin azaldılması və qorunması, yaşıl ərazilərin bərpası və mövcud resursların səmərəli mühafizəsi istiqamətində zəruri tədbirlərin gələcəkdə də davam etdirilməsi, yolkənarı ərazilərdə atmosfer havasının çirklənmədən qorunması, eləcə də nəqliyyatın hərəkətindən yaranan səs-küyün

azaldılması məqsədi ilə yolqoruyucu yaşıllıqların salınması nəzərdə tutulur. Bu baxımdan avtomobil yollarının qorunma (mühafizə) zolağında yaşıllıqların salınması, becərilməsi, bərpası və artırılması, salınmış yaşıllıqların mühafizəsi ilə bağlı zəruri işlər aparılır. Belə ki, yerli bitmə şəraitinə uyğun yerli və introduksiya olunmuş ağac və kol sortlarından istifadə etməklə, müasir dizaynla hazırlanmış layihələr əsasında yaşıllıqlar salınır, salınmış yaşıllıqlara xidmət və suvarma işləri təşkil edilir, onları xəstəlik və ziyanvericilərdən, eləcə də yanğından və digər təsirlərdən qorunması ilə bağlı müvafiq tədbirlər həyata keçirilir. Bu işlərin aparılmasında əsas məqsəd ərazidə yaşıllıq zolağını genişləndirmək, ərazinin ekoloji tarazlığının bərpasına, ekoloji mühitin sağlamlaşdırılmasının surətləndirilməsinə, buradakı mövcud torpaq qatının münbitləşdirilməsinə töhfə vermək, insanlar arasında ekologi mədəniyyəti və təbiətə qayğı hissini tətbiq etməkdən ibarət olmuşdur.

Azsərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədlərindən biri də ekoloji tarazlığın təmin olunması, indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin qorunması və təbii sərvətlərdən səmərəli isrifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir. Buna görə də regionlarda meşəsalma və meşəbərpa tədbirlərinin davam etdirilməsi, yaşıllıq sahələrinin artırılması əsas istiqamətlərdən biridir. "Dövlət Proqramı"nın icrası ilə əlaqədar Gəncə, Yevlax, Goranboy, Mingəçevir, Naftalan, Samux, Göygöl, Şəmkir, Gədəbəy, Tovuz və digər rayonların avtomobil yollarının kənarında yaşıllıq sahələrinin həcminin dəfələrlə artırılması, yolkənarının yaşıllıqlar məskəninə çevrilməsi də Nizami müəllimin rəhbərlik etdiyi "2 nömrəli Regional Avtomobil Yollarının Yaşıllaşdırılması və Ekologiyası"





*Yolkənarı yaşıllıqlar*

MMC tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər hesabına mümkün olmuşdur. Avtomobil yollarının istismarında, mühafizə və ayırıcı zolaqlarının yaşıllaşdırılması ilə onların külək və su eroziyasından, qar yığıntısından mühafizəsi, ətraf mühitin sağlamlaşdırılması və avtomobil yollarının estetik görünüşünün yaxşılaşdırılması təmin edilir, mənfi təbii, antropogen və texnogen hallardan mühafizə olunur. Ekoloji balansın bərpası, ətraf mühitin qorunması, atmosferin oksigenlə zənginləşdirilməsi də "2 nömrəli Regional Avtomobil Yollarının Yaşıllaşdırılması və Ekologiyası" MMC-nin diqqətdə saxladığı məsələlərdən biridir. Bu məqsədlə, MMC tərəfindən yolkənarının yaşıllaşdırılması istiqamətində vacib addımlar atılır. Nizami müəllimin rəhbərlik etdiyi Cəmiyyət tərəfindən xidmət göstərilən 461 km magistral və respublika əhəmiyyətli avtomobil yolunun kənarlarında bu gün də məqsədyönlü yaşıllaşdırma işləri davam etdirilir, yol kənarları yaşıllaşır və gündən-günə gözəlləşir.

Artıq Nizami müəllim Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin böyük kollektivində bacarıqlı mütəxəssis kimi tanınmışdır. O, işlədiyi müddət ərzində özünü təşəbbüskar, təcrübəli mühəndis, yüksək təşkilatçı kimi göstərmişdir. İnsanlarla ünsiyyətdə nəzakətli, təvazökar və siyasi-ideoloji cəhətdən savadlı insan kimi o, öz işini daim layiqincə yerinə yetirir. Dövlətinə, xalqına sədaqətlə xidmət etmək, doğma Azərbaycanımızın çiçəklənməsinə dayaq olmaq həmişə onun ən böyük arzusudur.

İşlədiyi dövr ərzində dəfələrlə Cəmiyyətin rəhbərliyi tərəfindən fəxri fərman və digər hədiyyələr ilə mükafatlandırılmışdır. Azərbaycan Respublikasında avtomobil yollarının tikintisi və istismarı sahəsində fərqlənən bir qrup şəxsin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 20 fevral 2017-ci il tarixli 2682 nömrəli Sərəncamı ilə Azərbaycanda yol-nəqliyyat infrastrukturunun inkişafında xidmətlərinə görə Çıraqov Nizami Qəfər oğlu "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində uzunmüddətli, səmərəli əmək fəaliyyəti və Azərbaycanda yol infrastrukturunun inkişafında xidmətləri nəzərə alınaraq, Nizami Çıraqov "Azərbaycan avtomobil yolları – 100 il (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunmuşdur.

1993-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

Ailəlidir. Dörd övladı vardır.

# E



**Eynullayev**
**İlham**
**Fətulla oğlu**

1964-cü ildə Cəlilabad rayonunda anadan olmuşdur. Orta təhsilini 1970-1981-ci illərdə Cəlilabad rayonunda Nizami Gəncəvi adına 1 saylı məktəbdə almışdır.

1981-1984-cü illərdə hərbi xidmətdə olub vətənə xidmət borcunu yerinə yetirmişdir. 1984-1986-cı illərdə texnikum təhsili almışdır.

1986-cı ildən iş fəaliyyətinə başlamışdır. 1986-1994-cü illərdə Bakı fəhləsi zavodunda iş icraçısı vəzifəsində çalışmışdır. 1994-1999-cu illərdə 2 nömrəli Tİ-də iş icraçısı vəzifəsində işləmişdir. 1999-cu ildə “Azpetrol” LTD-nin tikinti şöbəsində iş icraçısı vəzifəsində işləmişdir. İşlədiyi dövrdə Zərifə Əliyeva adına liseyin, Maştağa idman kompleksinin, Bərdə rayonunda İdman kompleksinin, Lənkəran rayon İdman kompleksinin, “Space” telekanalının binasının, Bakı Ceyhan magistralı üçün boru izolyasiya edən zavodun və Sumqayıt şəhərinin Alminium zavodunun 1-ci korpusunun tikintilərində çalışmışdır.

İ.Eynullayev 2005-2010-cu illərdə “Azinko" şirkətində iş icraçısı işlədiyi dövrdə Olimpiya kəndinin, yaşayış binalarının və Bilgəh qəsəbəsində “Jumeirah Bilgah Beach Hotel”-in tikintisində çalışmışdır.

2010-cu ildən “SMTS” MMC-nin müxtəlif layihələrində çalışmışdır. İşlədiyi müddətdə dünyanın bir çox qabaqcıl şirkətlərindən “Obermeyer”, “Hill International”, “Turner” menecment şirkətlərinin nəzarət etdiyi layihələrdə məsul vəzifələrdə çalışmışdır. İşlədiyi müddət ərzində “Property Tower Baku”, “Galaalty Hotel and Spa”, “Baku Tower”, “Kapital Bank Badamdar”, “Hillside Aparments” layihələrində müəssisəsinin icraçı direktoru vəzifəsini icra etmişdir.

Ailəlidir, üç övladı var.



*Kapital Bank Badamdar*



**Eyvazov Səfər Savər oğlu**

1983-cü ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini 1989-1999-cu illərdə Bakı şəhərində almışdır. Bakı şəhəri Yasamal rayonunda yerləşən 286 saylı orta məktəbin məzunu olmuşdur. 1999-2003-cü illərdə Azərbaycan Texniki Universitetinin "Mühəndis Biznesi və Menecment" fakültəsinin "Mühəndis İqtisadiyyatı və İdarəetmə" ixtisası üzrə bakalavr təhsili almış və fərqlənmə diplomu almışdır. 2003-2005-ci illərdə Azərbaycan Texniki Universitetinin "Mühəndis Biznesi və Menecment" fakültəsinin "Mühəndis İqtisadiyyatı və idarəetmə" ixtisası üzrə magistr təhsili almış və fərqlənmə diplomu almışdır. 2005-2008-ci illərdə Azərbaycan Kooperasiya Universitetində "Xalq Təsərrüfatı" ixtisası üzrə aspirantura təhsili almışdır. 2015-2016-cı illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetində "İnşaat Mühəndisliyi" ixtisası üzrə ixtisasartırma kursu keçmişdir.

Səfər Eyvazov iş fəaliyyətinə "İstilik Sistemləri Xidmət Mərkəzi" MMC-də başlamış, 2005-2007-ci illərdə bu şirkətdə layihə meneceri vəzifəsində çalışmışdır. Sonra 2007-2013-cü illərdə Finlandiyanın dünya şöhrətli lift markası olan KONE liftlərinin Azərbaycandakı rəsmi nümayəndəliyində, "İKMA Services" MMC-də layihə meneceri vəzifəsində çalışmış, fəaliyyəti dövründə "Hilton Baku", "Four Seasons Baku", Heydər Əliyev Mərkəzi, Milli Gimnastika Arenası, Azərbaycan Dövlət Neft Fondunun yeni inzibati binası, Zərifə Əliyeva adına Göz Klinikası və s. mühüm layihələrə cəlb edilmişdir.

2013-cü ildən indiyədək SMTS MMC-də çalışmaqdadır, SMTS MMC-dəki fəaliyyəti dövründə Qalaaltı Otel və İstirahət Mərkəzi, Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin yeni inzibati binası və s. layihələrdə layihə meneceri kimi çalışmışdır, hazırda isə bu şirkətdə Baş Layihə Meneceri vəzifəsi daşıyır. 2015-ci ildən indiyədək paralel olaraq Azinko Holdingdə çalışmaqdadır və Qafqazın ən hündür binası olan (52 mərtəbə, 277 metr) "Baku Tower" layihəsində baş podratçı tərəfdən layihə meneceri vəzifəsində işləyir. Həmçinin 2018-ci



*Four Seasons Hotel Baku*

ilin əvvəlindən etibarən təsisçisi olduğu "Esdescon" MMC şirkətində direktor vəzifəsində çalışmaqdadır. Hündür mərtəbəli binalar üzrə tədqiqatlar aparan beynəlxalq "CTBUH" (Council on Tall Buildings and Urban Habitat) təşkilatının beynəlxalq konfranslarının iştirakçısıdır və bu konfranslarda "SMTS" MMC-ni təmsil edir. ABŞ, Səudiyyə Ərəbistanı, BƏƏ, Çin, Yaponiya, Avstraliya, Almaniya, Finlandiya, Qətər və s. kimi bir neçə ölkədə hündür binalarda araşdırmalar aparmış və təcrübə keçmişdir. İşlədiyi dövrdə Mace, Obermeyer, HİLL İnternational, Turner kimi beynəlxalq məsləhətçi və menecment şirkətlərinin də cəlb olunduğu layihələrdə layihə meneceri kimi fəaliyyət göstərmişdir.

Ailəlidir, iki övladı var.



*Heydər Əliyev Mərkəzi*



*"Hilton Baku"*



*Milli Gimnastika Arenası*







*Yasamal Yaşayış Kompleksindən görüntülər*
*("MİDA" MMC)*

# Ə



**Əhədov**
**Adil**
**Əhməd oğlu**

22 fevral 1953-cü ildə Lənkəran şəhərində anadan olmuşdur. 1970-ci ildə Lənkəran şəhər 1 nömrəli orta məktəbi bitirmişdir. Əmək fəaliyyətinə 1970-ci ildə Dəmiryol körpü idarəsində fəhlə kimi başlamışdır.

O, 1972-1974-cü illərdə hərbi xidmətdə olmuşdur. 1975-ci ildə Rusiya Federasiyasının Rostov şəhərində Mühəndislər İnstitutuna (hazırki Rostov Mühəndislər Akademiyası) daxil olmuş və 1981-ci ildə həmin İnstitutu müvəffəq qiymətlərlə bitirmişdir.

1981-ci ildə Azərbaycan Dəmiryolu İdarəsinin 13 nömrəli "Körpütikinti" İdarəsində iqtisadçı-mühəndis vəzifəsinə qəbul edilmişdir. 1983-cü ildə həmin idarədə rəis müavini vəzifəsinə təyin edilmişdir. İşlədiyi dövrdə dəmiryol körpülərinin tikintisində və təmirində çox böyük işlər görmüşdür. 1985-ci ildə Zəyəm çayında baş verən güclü daşqın nəticəsində sel suları Şəmkir rayonunun Dəllər stansiyasında dəmiryol körpüsünün gediş hissəsini dağıtmış və həmin vaxt tez bir zamanda yeni dəmiryol körpüsünün tikintisində şəxsən Adil müəllim özü iştirak etmiş və bir ay müddətində yeni körpü tikilərək istifadəyə verilmişdir.

Adil Əhədov 1990-cı ildə 300 saylı YMS İdarəsinə rəis vəzifəsinə təyin edilmiş və 2003-cü ilə qədər bu idarəyə yüksək peşəkarlıqla rəhbərlik etmişdir.

A.Ə. Əhədov 2003-cü ildə Nəqliyyat Nazirliyinin "Yolnəqliyyatservis" Departamentinin 64 saylı Yol İstismarı idarəsinə rəis vəzifəsinə təyin edilmiş və







bu vəzifədə 2015-ci ilə qədər işləmişdir. İşlədiyi dövr ərzində dəfələrlə Nəqliyyat Nazirliyi tərəfindən fəxri fərmanlar və digər qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

O, idarə və müəssisələrə rəhbərlik etdiyi 1990-2015-ci illərdə 150-yə yaxın avtomobil və dəmiryolu körpüsü tikmiş və 90-a yaxın körpünü təmir etmişdir.

Adil Əhədov 26 avqust 2015-ci il tarixindən hal-hazıra kimi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində Avtomobil Yollarının İstismarı və Təmiri İdarəsinin Süni qurğuların istismarı və təmiri şöbəsinin rəisi vəzifəsində işləyir. Artıq Adil müəllim Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin böyük kollektivində bacarıqlı mütəxəssis kimi tanınmışdır. O, işlədiyi müddət ərzində özünü təşəbbüskar, təcrübəli mühəndis, yüksək təşkilatçı kimi göstərmişdir. İnsanlarla ünsiyyətdə nəzakətli, təvazökar və siyasi-ideoloji cəhətdən savadlı insan kimi o, öz işini daim layiqincə yerinə yetirir. Dövlətinə, xalqına sədaqətlə xidmət etmək, doğma Azərbaycanımızın çiçəklənməsinə dayaq olmaq həmişə onun ən böyük amalıdır. İşlədiyi dövr ərzində dəfələrlə Cəmiyyətin rəhbərliyi tərəfindən fəxri fərman və digər hədiyyələrlə mükafatlandırılmışdır.

Adil müəllim Qarabağ müharibəsi veteranıdır. O, Şuşa rayonunun müdafiəsi uğrunda döyüşlərdə fəal iştirak etmişdir.

Adil Əhədov Azərbaycan Dövlət Dəmiryolu İdarəsinin 15 oktyabr 1997-ci il tarixli 86 nömrəli əmri ilə bu sahədə layiqli xidmətlərinə görə “Fəxri Dəmiryolçu” nişanı ilə təltif edilmişdir. “Azərbaycan Respublikasında avtomobil yollarının tikintisi və istismarı sahəsində fərqlənən bir qrup şəxsin təltif edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 21 fevral 2011-ci il tarixli 1348 nömrəli Sərəncamı ilə Azərbaycanda yol-nəqliyyat infrastrukturunun inkşafında xidmətlərinə görə Adil Əhməd oğlu Əhədov “Tərəqqi” medalı ilə təltif olunmuşdur. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində uzunmüddətli, səmərəli əmək fəaliyyəti və Azərbaycanda yol infrastrukturunun inkşafında xidmətləri nəzərə alı-

naraq, Adil Əhədov 2018-ci ildə "Azərbaycan avtomobil yolları – 100 il (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunmuşdur.

Hal-hazırda da Adil Əhədov Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində əmək fəaliyyətini uğurla davam etdirir. O, üzərinə düşən vəzifələri yüksək peşəkarlıqla yerinə yetirir və göstərilən etimadı əməli işi ilə doğruldur. O, hələ uzun illər ərzində həm insanlara rahatlıq, həm də ölkə iqtisadiyyatının hərtərəfli inkişafında mühüm rol oynayan avtomobil yolları sahəsinin inkşafına daha böyük töhfələr vermək əzmindədir.

Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020 gələcəyə baxış" inkişaf konsepsiyasının əsas hədəflərindən biri kimi sosial-iqtisadi inkşafa nail olmaqdır. Bu baxımdan avtomobil yollarının layihələndirilməsi məqsədi ilə hazırlanan texniki-iqtisadi hesabatların tərtib edilməsi zamanı Adil Əhədov tərəfindən formalaşmış geoloji, hidroloji və digər təbii şəraitin qorunması maksimum səviyyədə təmin edilir.

2002-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

Ailəlidir. Bir övladı, iki nəvəsi vardır.





*İdarə və müəssisələrə rəhbərlik etdiyi 1990-2015-ci illərdə 150-yə yaxın avtomobil və dəmiryolu körpüsü tikmiş və 90-a yaxın körpünü təmir etmiş bacarıqlı inşaat mühəndisi Adil Əhədov bu gün də insanlara rahatlıq, həm də ölkə iqtisadiyyatının hərtərəfli inkişafında mühüm rol oynayan avtomobil yolları sahəsinin inkşafına daha böyük töhfələr vermək əzmi ilə çalışır. Təqdim olunan bu körpülər müxtəlif illərdə onun rəhbərliyi altında inşa olunmuşdur.*



**Əhmədova Cəmilə Şahsuvar qızı**

28 sentyabr 1956-cı ildə Füzuli rayonunun Arayatlı kəndində anadan olmuşdur. 1963-cü ildə Füzuli rayonu Arayatlı kənd orta məktəbinin 1-ci sinfinə getmiş, 1973-cü ildə həmin məktəbin 10-cu sinfini bitirmişdir. 1973-cü ildə Azərbaycan Texniki İnstitutunun Texnologiya fakültəsinə daxil olmuş, 1979-cu ildə həmin institutun mühəndis mexanik texnoloq ixtisasına yiyələnmişdir. 1979-cu ildə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində mühəndis, 1985-ci ildə böyük mühəndis vəzifələrində çalışmışdır.

1989-cu ildən isə “Azərdövlətsənayelayihə” DLİ-da ixtisası üzrə iş fəaliyyətinə başlamışdır. Müxtəlif vəzifələrdə çalışaraq çoxsaylı sənaye müəssisələrinin layihələndirilməsində aktiv iştirak etmişdir.

2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin “Azərdövləttikintilayihə” Dövlət Layihə İnstitunun texnoloji layihələndirilmə şöbəsinə baş mütəxəssis vəzifəsinə təyin olunmuş, hal-hazırda həmin şöbədə sektor müdiri vəzifəsində calışır.

Cəmilə Əhmədova bu illər ərzində Qəbələ şəhərində Hava Limanı kompleksi, Hövsan qəsəbəsində FHN-nin Akademiya kompleksi, Səngəçal, Lənkəran, Masallı, Şirvan, Ağdam, Qəbələ şəhərlərində FHN-nin Mülki Müdafiə Alayı kompleksləri, Gəncə avtomobil zavodu, Bakı şəhərlərarası avtovağzalı, “Boing” tipli təyyarələrə xidmət üçün anqar kompleksi, “Şimal” QRES-in yenidən qurulması, Müdafiə Sənayesi Nazirliyinin inzibati binası, Maştağa qəsəbəsində kinoloji mərkəz kompleksi, Abşeron rayonu Görədil qəsəbəsində 500 yerlik sanatoriya binası, Nazirliyin müxtəlif strukturları üzrə rayonlarda regional mərkəzlər, Hacıqabul, Zirə, Binə və digər rayonlarda Yanğından mühafizə depoları, Xızı rayon İcra Hakimiyyətinin inzibati binası, Ağcabədi, Goranboy, Qazax, Tərtər, Kürdəmir rayonlarında, Gəncə şəhərində, Masazır qəsəbəsində və s. rayonlarda məcburi köçkünlər üçün qəsəbələr, Sabirabad, Kürdəmir, Yevlax şəhərlərində Olimpiya İdman kompleksləri, Bakı Beynəlxalq Multikulturalizm mərkəzinin inzibati binası, elecə də Bakı şəhərində Nərimanov adına kinoteatr, Dostluq k/t, Rus dram teatrı, Mingecevir dram teatrı binalarının yenidən qurulmasında, Keşlə qəsəbəsində yerləşən tütün zavodunun



*Tərtər rayonu ərazisində 1170 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsinin layihəsi*

istehsalat korpusunda avadanlıqların və kommunikasiya şəbəkələrinin yenidən qurulması, "İqlim Elmi – istehsalat müəssəsində" həssas tökmə obyektində, Şəki şəhərində kərpic zavodu, "Sumqayıt Kimya Sənaye parkı" ərazisində sənayedə istifadə üçün FFS polietilen kisələrinin istehsalı binası, Pirallahı qəsəbəsində balıq yetişdirmə kompleksi, Binəqədi qəsəbəsində "FAB" boya istehsalat binası, Sumqayıt şəhəri, Corat istirahət binası, Qaradağ rayonunda yerləşən "NORM SEMNT" zavodunun ərazisində 15000 kub. m.-lik (6 bölməli) yeni çoxkomponentli sement silosu layihələrinin adaptasiya edilməsi və digər bir çox layihələrin işlənməsində onun böyük zəhməti olmuşdur.

2016-cı ildən Azərbaycan Respublikasının FHN-nin TTNDA Təsisatdankənar Dövlət Baş Ekspertiza İdarəsində müqavilə ilə ekspert işləyir.

Ailəlidir, 2 övladı var. Ali təhsillidilər. Oğlu ümumi cərrah, qızı tərcüməcidir. Hər ikisi işləyir. 4 nəvəsi var.

Cəmilə xanım hazırda ölkəmizin bütün şəhər, qəsəbə və kəndlərində müasir səhiyyə ocaqlarının, sənaye obyektlərinin, istehsalat binalarının texnologiya planlaşmasının layihələndirilməsi işini uğurla davam etdirir.



**Əhməd-zadə Aqil Camal oğlu**

23 iyun 1948-ci ildə Gəncə şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1956-1966-cı illərdə Gəncə şəhərində orta təhsil almışdır. 1966-cı ildə Azərbaycan Politexnik İnstitutunun Memarlıq fakültəsinə qəbul olunmuş və 1973-cü ildə həmin institutu memarlıq ixtisası üzrə bitirmişdir.

Aqil Əhməd-zadə 1975-ci ildən o vaxtkı 26 Bakı Komissarı rayonu üzrə (indiki Səbail rayonu) Layihə Smeta Bürosunun rəhbəri vəzifəsində çalışmışdır.

Bu müddətdə Bakı şəhərində bir sıra tarixi abidələrin, bina və qurğuların hazırlanmasına rəhbərlik etmişdir.

Aqil Əhməd-zadə 1979-cu ildən SSRİ Memarlar İttifaqının və Azərbaycan Memarlar İttifaqının üzvü olmuşdur.

O, SSRİ Nazirlər Sovetinin 21. 08. 1986-cı il tarixli, 114 saylı Qərarı ilə 1986-cı ildən SSRİ Memarlar İttifaqının "Arxproekt" Ümumittifaq Birliyinin tərkibində "Azərbaycan Memar Layihə" Respublika Yaradıcı Memarlıq Birliyinin baş direktoru olmuşdur. Azərbaycan Respublikası öz dövlət müstəqilliyini elan etdikdən sonra bu idarə Azərbaycan Memarlar İttifaqının tərkibində "Azərmemarlayihə" RYM Birliyi kimi öz fəaliyyətini davam etdirmişdir.

Eyni zamanda Baş İdarənin Gəncə şəhərində yerləşən təşkilatları – Təmir Tikinti Bərpa İdarəsi, "Kəpəz" Yaradıcılıq Mərkəzi, "Azərmemarlayihə"nin Gəncə filialı da səmərəli fəaliyyətdə olmuşlar.

"Azərbaycanmemarlayihə" Respublika Yaradıcılıq Memarlıq Şirkəti layihə və istehsalat fəaliyyəti dövründə mindən artıq ictimai, yaşayış və istehsalat binalarının layihələrini hazırlamış və onların əksəriyyəti inşa olunmuşdur. Bunlardan Gəncə şəhərində Nizami Mavzoleyi, Respublika Əmanət Bankının 18 mərtəbəli binası, Xocalı şəhərinin baş planı, respublikanın bir sıra rayonunun icraiyyə komitələrinin binaları, Belarusun Qrod-



*Respublika Doğum Evinin layihəsi Aqil müəllimin yaradıcılıq məhsuludur.*

no şənərinin ticarət mərkəzi, Leninqradın Pulkovo-2 hava limanının layihələndirilməsində iştirak, Bakı şəhərində çoxmərtəbəli yaşayış binaları, Azərbaycan Respublikası Rəssamlıq Akademiyasının binası, Bakı şəhərində Olimpiya Atıcılıq Kompleksi, Bakı şəhəri Əhmədli qəsəbəsində çoxmərtəbəli yaşayış binaları, Bakı şəhərində SSR Müdafiə Nazirliyinin elmi-tədqiqat institutunun binası, Bakı şəhəri Bül-bülə qəsəbəsində xəstəxana, Respublika Doğum evinin yenidənqurma layihəsi və respublikanın müxtəlif rayonlarında xəstəxanalar, məktəblər və sair tikililəri qeyd etmək olar. Həmçinin sadalanan obyektlərin bəziləri şirkət tərəfindən inşa edilmişdir.

O, “Memarlıq, tikinti, dizayn” jurnalının nəşrinə başlamaq istəyirdi və jurnalın fəaliyyətinin əsas istiqaməti kimi orta və cavan memarlar nəslinin yaradıcılığının təbliğini, həmçinin tikinti materiallarının istehsalı, dizaynda olan fəailiyyətlərin hərtərəfli işıqlandırılmasını nəzərdə tutmuşdu.

Onun Azərbaycan memarlığının inkişafı ilə bağlı özünə aid olan düşüncələri var idi. O, memarlıq layihələrinin ictimai müzakirəsi üçün Memarlar İttifaqının nəzdində Memarlar birliyinin yaradılmasını məqsədəuyğun hesab edirdi və müvafiq qərarın çıxması üçün hökumətə bu təklif ilə müraciət etmək barədə düşünürdü.

O, həmçinin Memarlar Birliyi nəzdində İqdisadi Birlik yaradılmasını, Memarlar İttifaqnın maddi bazasının möhkəmləndirilməsi üçün İttifaqın tərkibinə şirkətlərin, institut və fırmaların rəhbərləri, onların (gəlirləri) vəsaitləri ilə birlikdə cəlb olunmasını və Memarlar İttifaqının da buna uyğun olaraq öz üzvlərinin hüquqlarını bütün instansiyalarda qorumasını, (Beynalxalq) Dünya Memarları İttifaqının üzvü olan digər ölkələrin memarlar ittifaqları ilə beynalxalq əlaqəni bərpa etməyi, Azərbaycan memarlığının səviyyəsini yüksəltmək üçün cavan memarların irəli çəkilməsini, Azərbaycan memarlığının təbliği üçün sərgi salonu internet saytının yaradılmasını, peşəkar məsələlərin birgə həlli üçün 1-ci tikinti təşkilatlarının rəhbərlərini Memarlar İttifaqına cəlb etməyi vacib sayırdı və o, bununla İttifaqın yaradıcılıq və iqdisadi bazasının möhkəmləndirməsi yolu ilə Azərbaycan memarlarının sosial problemlərinin həlli üçün geniş şərait yaranacağını düşünürdü.

Aqil Əhməd-zadə eyni zamanda Azərbaycan Mədəniyyət Assosiasiyasının və “Şərq Memarlığı” Beynəlxalq Assosiasiyasının təsisçilərindən biridir.

“Akademik Mikayıl Useynov” medalı ilə təltif olunmuşdur.

19 aprel 2000-ci ildə Azərbaycan memarlığının inkişafındakı xidmətlərinə görə "Əməkdar Memar" fəxri adı almışdır.

23 yanvar 1991-ci ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının memarlıq doktoru seçilmişdir.

Qaradağ rayonunda məcburi köçkünlər üçün "Ümid" qəsəbəsinin layihələndirilməsi və tikintisinə görə 22 aprel 2000-ci ildə "Bakılı" Beynəlxalq Mədəniyyət Cəmiyyətinin qərarı ilə Aqil Əhməd-zadə memarlıq sahəsində "Humay ilahəsi" Milli mükafatına layiq görülmüşdür.

Aqil müəllim bir yaradıcı memar olaraq Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin üzvü kimi Birliyin fəaliyyətində aktiv iştirak etmişdir. Bu səbəbdən 50, 55, 60 illik yubileylərində və digər vaxtlarda Aqil Əhməd-zadə Azərbaycan Memarlar İttifaqının fəxri fərmanları ilə təltif olunmuşdur.

Aqil Əhməd-zadə bir sıra beynəlxalq tədbirlərdə və işgüzar səfərlərdə iştirak etmişdir. (Yaponiya, Rusiya Federasiyası, Avropa ölkələri).

Aqil Əhməd-zadə 30-dan çox memarlıq abidələrinin, inzibati və yaşayış binalarının və s. müəllifi olmuşdur. Və digər çoxsaylı layihələrin tərtib olunmasında Baş İdarənin direktoru kimi bilavasitə iştirak etmişdir. O, eyni zamanda bu layihələrin bəzilərinin tikintilərinə də birbaşa rəhbərlik etmişdir.

Aqil Əhməd-zadə Əməkdar Memar olmaqla bərabər böyük təşkilatçılıq qabiliyyətinə malik xoşxasiyyətli, insanları başa düşən və dinləməyi bacaran, yumoru sevən, təmkinli, gözəl bir insan idi. Hər bir kəsi daima xoş bir təbəssümlə qarşılayan Aqil Əhməd-zadə eyni zamanda etibarlı, inanılmış bir dost olmuşdur. Vətəninə və dövlətinə həmişə sadiq olmuşdur.

2 övlad atasıdır.

05 iyun 2016-cı ildə istedadlı memar, gözəl insan və etibarlı dost Aqil Əhməd-zadə Bakı şəhərində haqq dünyasına qovuşdu.

Aqil Əhməd-zadə eyni zamanda Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda və Rəssamlıq Akademiyasında müəllim fəaliyyətində də olmuşdur.

O, bir böyük müəllim olaraq respublikamızda bu gün onlarla tanınmış memarların yetişməsində və özlərini təsdiq etmələrində gərgin əmək sərf etmişdir.



*Gəncə şəhərində dahi Nizami Gəncəvinin əzəmətli Məqbərəsi onun layihəsi ilə inşa olunmuşdur.*



*Bakı Rəssamlıq Akademiyasının layihəsi və tikintisi Aqil Əhmədzadəyə məxsusdur.*



**Əkbərov**
**Fəqani**
**Aydın oğlu**

24 sentyabr 1965-ci ildə Lənkəran rayonunun Sağlaser kəndində ziyalı ailəsində anadan olmuşdur. 1982-ci ildə Sağlaser kənd orta məktəbini müvəffəq qiymətlərlə bitirmişdir.

Fəqani Əkbərov 1983-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakültəsinin Sənaye və mülki tikinti ixtisasına daxil olmuşdur. O, 1984-cü ildə təhsilini yarımçıq saxlayaraq 1986-cı ilə kimi Belarusiya Respublikasında Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur. Ordudan tərxis olunduqdan sonra o, yenidən Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakültəsində təhsilini davam etdirmiş və 1990-cı ildə bu ali təhsil ocağını sənaye və mülki tikinti ixtisası üzrə bitirərək inşaatçı-mühəndis ixtisası almışdır.

Fəqani Aydın oğlu Əkbərov əmək fəaliyyətinə 1990-cı ildə Lənkəran rayonundakı 12 nömrəli təmir-tikinti idarəsində başlamış, burada müxtəlif vəzifələrdə çalışmış, rayonun tikinti-quruculuq həyatında gərgin əmək sərf etmişdir.

Fəqani Əkbərov sonralar 12 nömrəli Səyyar Mexanikləşdirilmiş Dəstənin rəisi, daha sonralar isə tikinti yönümlü müxtəlif idarə, təşkilat və müəssisələrdə baş mühəndis, sahə rəisi, layihə rəhbəri və direktor vəzifələrində çalışmışdır.

F.A. Əkbərov hal-hazırda “Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası” ASC-də Tikinti direktorunun layihələr üzrə müavini vəzifəsində çalışır.

Fəqani Əkbərov ölkə tikintisində keçən fəaliyyət illərində tikinti quruculuq dövründə respublikamızın paytaxtında və bölgələri-



*Azərbaycan Texniki Universitetinin fasad hissəsinin aqlayla üzlənməsi*

mizdə çoxlu sayda müxtəlif təyinatlı sosial obyektlərin, inzibati binaların, olimpiya idman komplekslərinin, məktəb, uşaq bağçası və xəstəxanaların, çoxlu sayda hündürmərtəbəli yaşayış binalarının tikintilərinə rəhbərlik etmişdir.

Bunlardan Biləsuvar rayonunda Olimpiya İdman Kompleksinin, Ağdaş rayonunun Qəribli kəndində 180 şagird yerlik orta məktəb binasının, Cəlilabad rayonunun su təchizatı və kanalizasiya sitemlərinin yenidən qurulması layihəsinin tikintilərini, Qazax rayonunun Yuxarı Salahlı kənd orta məktəbinin əsaslı təmirini, Tovuz rayonunun Qovlar şəhərində 100 yerlik uşaq bağçasının tikintisini, Bakı şəhərində Elmlər Akademiyası binasının əsaslı təmirini, Bakı şəhərinin rayonlarında 18 mərtəbəli yaşayış binalarının tikintilərini, Azərbaycan Texniki Universitetinin binalarının fasadlarında yenidənqurma işləri, fasadın aqlay daşla üzlənməsini, Bakı şəhərində çoxlu sayda binalarının fasadlarının üzlənməsini, həmçinin şəxsi evlərin tikintilərini və sair obyektləri qeyd etmək olar.

Fəqani Əkbərov harda, hansı vəzifədə işləməsindən asılı olmayaraq həmişə üzərinə düşən bütün vəzifələri yüksək peşəkarlıqla icra edərək etimadı doğrultmuş və buna adekvat olaraq əməyi rəhbərlik tərəfindən yüksək qiymətləndirilmişdir.



*Biləsuvar Olimpiya İdman Kompleksi*



*Qazax rayonunun Yuxarı Salahlı kəndində 640 şagird yerlik tam orta məkəb*

O, bu gün "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-də Tikinti direktorunun layihələr üzrə müavini kimi Akkord"un respublikamızda və onun hüdudlarından kənarda tikdiyi bütün layihələrin icrasına nəzarət edir və rəhbərliyin etimadını doğruldur.

F.A. Əkbərov ailəlidir, üç övladı, Mələk və Nigar adlarında iki nəvəsi var. Həyat yoldaşı Qərənfil Əzizağa qızı evdar qadındır.

Qızı Turanə Fəqani qızı Lənkəran Dövlət Universitetinin kimya və biologiya fakültəsini bitirib, hazırda kimya müəllimi işləyir. Ailəlidir, iki övladı var.

Oğlu Famid Fəqani oğlu Azərbaycan Texniki Universitetini Kompüter mühəndisliyi ixtisası üzrə bitirib və mühəndis işləyir.

Kiçik oğlu Elvin isə Nizami rayonundakı 220







nömrəli orta məktəbdə təhsil alır.

O, övladlarını əməyə, Vətənə və torpağa məhəbbət ruhunda tərbiyə edir.

Fəqani Əkbərov tikntidə olduğu 29 ilə yaxın bir dövrdə tikinti quraşdırma işlərini keyfiyyətlə və daha səmərəli təşkil etmək üçün rəhbər şəxsdən tələb olunan bütün idarəetmə metodlarını dərindən mənimsəmiş, peşəkar inşaat mühəndisi olduğunu əməli işi ilə təsdiq etmişdir. Və Fəqani müəllimin çoxillik zəngin mühəndislik təcrübəsi bu gün “Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası” ASC-də Tikinti direktorunun layihələr üzrə müavini kimi onun uğurlar qazanmasına yardımçı olur. O, bundan sonra da tikinti-quruculuq fəaliyyəti ilə Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadi-inkişaf strategiyasının uğurlar qazanmasına öz layiqli töhfəsini verəcəkdir.



*Bakı şəhərinin girişində Salyan şossesinin kənarında inşa olunmuş 5 mərtəbəli yaşayış evlərinin fasadlarının üzlük işləri*



*“Cəlilabad şəhərinin Su Təchizatı və Kanalizasiya Sistemlərinin Yenidən Qurulması” layihəsi obyektinin tikintisindən bir görüntü*



**Əliyev**
**Əli**
**Məhəmməd oğlu**
01 noyabr 1952-ci ildə Tərtər rayonunun Hacıqərvənd kəndində anadan olmuşdur. 1972-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirib, inşaatçı-mühəndis ixtisasına yiyələnib. O, Bakı Ali Partiya məktəbini fərqlənmə diplomu ilə bitirərək partiya-siyasi iş ixtisası almışdır.

Ə.M. Əliyev 1972-1974-cü illərdə Qazaxıstan Respublikasının Baykanur şəhərində (kosmodromda) leytenant rütbəsi ilə hərbi xidmətdə olmuşdur.

O, əmək fəaliyyətinə Rayon Komsomol Komitəsində təlimatçı işi ilə başlamış, 1978-1980-ci illərdə Rayon Partiya komitəsinin büro üzvü olmaqla, komsomolun birinci katibi işləmişdir. Ə.M. Əliyev 1982-1983-cü illərdə Rayon Partiya komitəsində təlimatçı olmuş, 1983-1987-ci illərdə Tərtərçay Hidroqovşağı İstismarı İdarəsinin rəisi vəzifəsində çalışmışdır.

Əli Əliyev 1987-1990-cı illərdə Tərtər rayon XDC İcariyyə Komitəsinin sədri seçilmişdir. Həmin illərdə rayonda tikinti-quruculuq işləri geniş vüsət almış, rayonda onun təşəbbüsü ilə yeni istehsal sahələri yaradılmış və bir sıra idarə-müəssisələr açılmış, yeni iş yerləri yaradılmışdır. Rayon mərkəzində və kəndlərdə 100 hektar torpaq sahəsi əkin dövrüyəsindən çıxarılaraq fərdi mənzil tikintisi üçün vətəndaşlara paylanmışdır. Respublika Hökumətinin qərarı ilə mənzil tikintisi üçün 20 milyon rubl vəsait alınmış və fərdi ev sahiblərinə bölünmüşdür. Bu məsələdəki şəffaflıq bu gün də rayonda xatırlanır.

Həmin dövrdə şəhər mərkəzində 2 ədəd beş mərtəbəli və 4 ədəd iki mərtəbəli yaşayış binası tikilib istifadəyə verilmişdir. Rayonun Səhləbad və Hacıqərvənd kəndlərində müasir tipli çoxmərtəbəli orta məktəb binaları tikilib istifadə verilmiş, şəhər 1 nömrəli orta məktəbin təməli qoyulmuş və sonralar tikintisi tamamlanmışdır.

Rayonda əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini yüksəltmək üçün yeni poliklinika tikilmiş və Mərkəzi rayon xəstəxanası yenidən qurulmuş, Bəyim Sarov kəndində 50 çarpayılıq 2 mərtəbəli xəstəxana inşa edilib istifadəyə verilmişdir. Rayonun Xoruzlu, Hacıqərvənd və Qaradağlı kəndlərində həkim-ambulatoriya məntəqəsi tikilib təhvil verilmişdir.

Bundan başqa Seydimli və Qaradağlı kəndlərində müasir tipli 2 mərtəbəli uşaq baxçası tikilmiş, rayonun bütün kəndlərinə rahat asfalt örtüklü yollar çəkilmişdir.

Ə.M. Əliyev 1990-1992-ci illərdə Tərtərçay Hidroqovşağının İstismarı İdarəsinin rəisi vəzifəsində işləmişdir. Sonradan kö-



*Tərtər rayon mərkəzi xəstəxanası*

çürmə yolu ilə Mingəçevir Su Hövzəsi İstehsalat İstismar Birliyinə rəis təyin olunmuşdur. Həmin birlik respublikanın suvarılan torpaqlarını su ilə təmin edən Yuxarı Qarabağ və Yuxarı Şirvan kanallarını əhatə etməklə 11 inzibati rayon üzrə 27 idarəni özündə birləşdirirdi.

Sonralar struktur dəyişikliyi ilə əlaqədar Əli Əliyev Bozdağ Qış otlaqlarının suvarma sistemlərinin İstismarı İdarəsinin rəisi vəzifəsinə köçürülmüş və 2013-cü ilədək həmin vəzifədə işləmişdir.

Ə.M. Əliyev 2013-cü ildən Tərtər Subartezian Quyularının İstismarı İdarəsinin rəisi vəzifəsində çalışır. Məlum hadisələrlə əlaqədar Tərtər rayonunun təbii suvarma mənbəyi olan Tərtər çayının erməni seperatçılarının işğalı altında olduğundan artıq 25 ildən çoxdur ki, rayonun bütün yaşayış məntəqələrinin və kənd təsərrüfatının suya olan tələbatı mövcud 474 ədəd subartezian quyularının üzərinə düşür. Əli Əliyevin rəhbərliyi ilə idarə öz işini yüksək səviyyədə qurmuş və əhalinin suvarma və kommunal-məişət suyuna olan tələbatının fasiləsiz ödənilməsi işinin öhdəsindən layiqincə gəlir.

İşlədiyi müddətdə Əli Əliyev çoxsaylı fəxri fərmanlar, fərqlənmə döş nişanları almış, rayon əhalisinin yüksək hörmətini və rəğbətini qazanmışdır.

2016-cı ildə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə "Tərəqqi" medal ilə təltif edilmişdir.

Ailəlidir, 4 övladı, 9 nəvəsi vardır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.



*Tərtər rayon Seydimli kənd körpələr evi uşaq bağçası*



*Tərtər şəhəri 1 saylı tam orta məktəb*



**Əsədullayev Şəmsi**

1840-cı ildə Bakının Əmircan kəndində anadan olmuşdur. Cavanlıqda kənddə atasının əkin-biçininə kömək edir, araba ilə biçilmiş taxılı daşıyır, xırman salır, bir sözlə, hər şeydə atasına kömək edirdi. Bu illərdə əmircanlıların əsas taxıl yerləri Suraxana torpaqlarında idi. 19-cu əsrin əvvələrində neft sənayesinin inkişafı ilə əlaqədar olaraq, bu torpaq sahələrinin mühüm bir hissəsi Suraxanada neft çıxarılması və kerosin emalı ilə məşğul olan rus tacirlərindən Kokorev və Qubonin tərəfindən ucuz qiymətə alınmışdı. Onlar Suraxanada Atəşgahın yanında kerosin emal edən bir zavod tikdirmişdilər. Torpaqsız qalan Suraxana və Əmirhacıyan kəndliləri neft mədənlərində işləməyə məcbur oldular. Şəmsi Əsədullayev də əkinçiliyi buraxaraq, neft işinə qurşanır. O, 1860-cı ildə Kokorevin yanında işlər müdiri vəzifəsinə yüksələ bilir. Bir müddətdən sonra o neft və duz podratçılığı ilə məşğul olur. 15 il müddətində o xeyli qazanc əldə etdikdən sonra podratçılığı buraxaraq, kerosin zavodu açır. 1890-cı illərdə neft işi ilə məşğul olan bir neçə nəfər ilə birlikdə şirkət təşkil edir. Əldə edilən neftin Rusiya bazarlarına çıxarılması onu daha çox düşündürürdü. Nəhayət, 1891-ci ildə neftin Xəzər vasitəsi ilə daşınması sahəsində Bakı neft kapitalistləri içərisində ilk dəfə olaraq, buxar şxunu (iki və üç dorlu yelkənli gəmi) sifariş verir.

1895-ci ildə təzə aldığı torpaq sahələrindən birində böyük fantan vurur. Fantan 56 gün davam edir. Fantan hər gün bir milyon altı yüz min pud neft verirdi. Bu, Bakı neft sənayesi tarixində ən məşhur fantanlardan biri idi.

Əsədullayevin neft hasilatı artdıqca onun Volqaboyu şəhərlərində, Moskvada, Polşada, habelə Orta Asiyada, İranda neft anbarlarının sayı artırdı. Xəzər dənizi sahillərinə və Volqaboyu şəhərlərə öz gəmilərində neft daşıtdırıb satdırardı. Camaat arasında Şəmsi Əsədullayevə Nobellərin qənimi deyirdilər. Çünki bütün Rusiyada, Türküstanda, İranda, hətta Finlandiyada belə Nobellərin dükanı və kontorları ilə üzbəüz, ya da ki, yanaşı kontor və dükan açıb Nobellərdən ucuz qiymətə neft satar və ona mane olardı. Oktyabr ayının axırlarında Volaqada naviqasiya bağlananda Bakıda neftin qiyməti xeyli aşağı düşürdü; böyük neftxudalar, o cümlədən Şəmsi də xırda mədən sahiblərindən nefti ucuz alıb anbarlara vurur, yazda naviqasiya açılanda daşıtdırardı Rusiyaya.

Neftin ecazkar qüdrətindən milyonçu olur, həm neft mədəni, həm də neft daşıyan dəniz və çay donanması düzəldir. Şəhərin mərkəzində əsas fasadı Qoqol küçəsinə, digər iki yan fasadların biri Gimnaziya (Tolstoy) küçəsinə, digəri Karantin (Həzi Aslanov) küçəsinə baxan əzəmətli bina tikdirir. Başqa binaları da vardı.

Şəmsinin Bakıda bir müsəlman arvadı, iki oğlu və iki qızları vardı. İkinci dəfə Mariya Petrovna adlı bir rus qadınına evlənəndə arvadı Ümsəlmə, oğlanları Mirzə, Əli və qızları Sara, Xadicə və Ağabacı ilə onun arasında narazılıq baş verir və Şəmsi 1903-cü ildə Moskvaya köçməyə məcbur olur.

Mariyanın atası çar ailəsinə yaxın senator idi. Ba-

kı neftinin tükənməz qızılı, bir də qohum senatorun köməyi ilə bağlı qapılar Şəmsinin üzünə taybatay açılırdı. Bütün bunların hesabına Peterburqda Neva çayı sahilində, Qış sarayı yaxınlığındakı məhəllədə əzəmətli bina ucalda bilmişdi. Moskvada Mariya üçün içərisində çarhovuz və oranjereya olan təmtəraqlı mülk almışdı. Hər il Avropa şəhərlərinə, yaylaqlarına istirahətə, səyahətə gedirdilər. Peterburqda və Moskvada bir neçə yerdə mülklər tikdirir, xeyriyyə işləri ilə məşğul olur.

Şəmsi Əsədullayev demək olar ki, bütün qış aylarını Moskvada və Peterburqda keçirirdi. Bakıda onun neft işləri ilə böyük oğlu Mirzə Əsədullayev məşğul olurdu. Volqada noviqasiya açılan kimi Bakıya gələr və neçə ay müddətində anbarlarda toplanmış nefi Rusiyaya öz müştərilərinə göndərməyə başlardı.

Şəmsi Əsədullayevin Mərdəkanda əzəmətli bir bağı vardı. Bu bağ özünün çox böyük sahəsi və əzəmətli arka qapısı ilə fərqlənirdi. Bağ 19-cu əsrin axırlarında salınmışdı.

Sovet hökuməti bu bağı müsadirə edib, sanatoriyaya çevirmişdi. Əsədullayev 1913-cü il 21 apreldə Yaltada günvurmadan 72 yaşında vəfat etmişdir. Onun meyiti Bakıya gətirilərək dəfn edilmişdir.

Əsədullayevin böyük oğlu Mirzə Musa Nağıyevin qızına, kiçik oğlu Əli isə H.Z. Tağıyevin qızı Leyla ilə evlənmişdilər. Qızı Sara atasının işlər müdiri Zal Həsənovun arvadı olub.

Bu yaxın zamanda Paris şəhərində vəfat etmiş azərbaycanlı yazıçı Ümmülbənin Mirzə Əsədullayevin qızıdır. Əsərlərini fransız dilində yazırdı. O, iki milyonçu babanın – Şəmsi Əsədullayevlə Musa Nağıyevin nəvəsidir.

# H



**Haxıyev Niftalı Şövkət oğlu**

1949-cu ilin mayın 5-də Şamaxı rayonunun Dağ Kolanı kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1956-cı ildə Şamaxı rayonunun Quşçu kəndində birinci sinfə getmiş, səkkizinci sinfə qədər bu məktəbdə oxumuşdur. 10-cu sinfi isə Şamaxı rayonunun Nərimankənd məktəbində əla qiymətlərlə bitirmişdir.

O, orta məktəbi bitirdikdən sonra 1966-cı ildə Bakı şəhərinə gəlmiş və sənədlərini Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinin "Sənaye mülki tikinti" şöbəsinə vermiş, qəbul mtahanlarından müvəffəq qiymətlər alaraq qəbul olunmuşdur. Həmin ildə əlaçı tələbələrdən təşkil edilmiş "Sənaye və mülki tikintilərin konstruktorları" şöbəsinə keçirilmişdir.

Niftalı Haxıyev 1971-ci ildə institutun həmin şöbəsini əla qiymətlərlə bitirib inşaat mühəndisi ixtisasına yiyələnmişdir.

O, təyinatla "İttifaqsukanallayihə" İnstitutunda konstruktor kimi əmək fəaliyyətinə başlamış, sonra ordu sıralarına çağrılmış və 1973-1975-ci illərdə Sovet Ordusu sıralarında zabit kimi hərbi xidmətdə olmuşdur.

Niftalı Haxıyev ordu sıralarından tərxis olunduqdan sonra respublikanın tikinti sahəsində iş ustası vəzifəsindən başlayaraq baş mühəndis və idarə rəisi vəzifələrinə qədər yüksələrək çoxlu sayda obyektlərin tikintilərinə rəhbərlik etmişdir.

Müxtəlif illərdə Kənd Tikinti Nazirliyində və "Azəraqrartikinti" Baş İdarəsində Əsaslı tikinti şöbəsində aparıcı mühəndis kimi vəzifələrdə işləmişdir. O, işlədiyi müddətdə respublikamızın ərazisində dövlət əhəmiyyətli obyektlərin tikintilərində – dəyirman komplekslərinin, şərab zavodlarının və quşçuluq fabriklərinin tikintilərində məsul vəzifələrdə çalışmışdır.

Niftalı Haxıyev hazırkı vaxtda özəl inşaat müəssisəsində məsləhətçi mühəndis kimi çalışır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəancamı ilə inşa olunan Saatlı Olimpiya İdman Kompleksinin tikintisinə rəhbərlik etmişdir.

Niftalı Haxıyev hal-hazırda "Xəzri-A" MMC-nin Masazır qəsəbəsində inşa etdiyi çoxmərtəbəli binaların tikintisində mühəndis vəzifəsində çalışır.

Ailəlidir, bir qızı var, ali təhsilli həkimdir, Bakıdakı Mikrobiologiya Elmi-Tədqiqat İnstitutunda laboratoriya müdiri vəzifəsində çalışır.



**Həbibov Nizami Nüsrəddin oğlu**

07 fevral 1950-ci ildə Quba rayonunun Zizik kəndində müəllim ailəsində anadan olmuşdur. 1957-ci ildə Zizik kənd 8 illik məktəbinin 1-ci sinfinə daxil olmuş, 1967-ci ildə Quba şəhər 2 nömrəli orta ümumtəhsil məktəbini əla qiymətlərlə bitirmişdir. Həmin il də müvəffəqiyyətlə qəbul imtahanları verib Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinin "Sənaye və mülki tikinti" şöbəsinin 287 "a" qrupuna daxil olmuşdur.

1969-cu ilin fevral ayında "Sənaye və mülki tikinti" ixtisası üzrə təhsil alan 6 qrupun tələbələrindən 23 əla və çox yaxşı oxuyan tələbələri bir yerə toplayaraq "Sənaye və mülki tikintilərin konstruktorları" ixtisası üzrə yeni qrup yaratdılar. Bu qrupun da nömrəsi 287 "a" saxlanıldı. N.N. Həbibov da köhnə 287 "a" qrupunda təhsil alan dörd əlaçı tələbələrlə (Məmmədzadə Rauf, Əliyev Şakir, Bağırov Rafiq və Abbasov Abbas) birlikdə yeni əlaçılar qrupunda özlərinə yer aldılar.

Nizami Həbibovun dediklərindən: "287 "a" qrupunun qpup nümayəndəsi (starostası-"ağsaqqalı") Rauf Məmmədzadə yeni əlaçılar qrupunda da "ağsaqqal" seçildi. Xüsusi insani keyfiyyətlərə malik, dərin bilik sahibi, səmimi, profesor-müəllim heyətinin sevimlisi və digər çoxsaylı müsbət xüsusiyyətləri ilə seçilən Rauf Məmmədzadə bu gün də keçmiş tələbə yoldaşlarının rəhbəridir. Bütün tədbirlər (həm xeyir, həm də şər) bilavasitə onun rəhbərliyi və iştirakı ilə həyata keçirilir.

Rauf Məmmədzadə, Şakir Əliyev, Rafiq Bağırov, Abbas Abbasov (Allah rəhmət eləsin!), Tofiq Hacıyev (Allah rəhmət eləsin!), Nadir Adıgözəlov və sair dostlarla yaratdığımız ünsiyyət sonradan ailəvi dostluğa çevrilmişdir".

1972-1974-cü illərdə Sovet Ordusu sıralarında zabit kimi qulluq etmişdir. Qeyd etmək lazımdır ki, Nizami Həbibov hərbi qulluğa institutdan təyinatla göndərilmiş, təsadüfən yaxın tələbə dostu Tofiq Hacıyevlə eyni hərbi hissəyə düşmüş və Rusiyanın Penza şəhərində bir yerdə qulluq etmişlər. Bu hadisə onların dostluğunun sonradan daha da möhkəmlənməsinə stimul olmuşdur.

Ordu sıralarından tərxis olunduqdan sonra 1974-1982-ci illər arasında Bakı şəhəri İK-nin Əsaslı Tikinti İdarəsində böyük mühəndis, şöbə müdiri, Tikilməkdə Olan Müəssisələr Müdiriyyətində direktor vəzifəsində çalışmış, eyni zamanda həmin idarənin ilk partiya təşkilatının katibi olmuşdur.

1979-cu ildə Marksizm-Leninzm Universitetinin partiya quruculuğu şöbəsinə daxil olub 1981-ci ildə həmin universiteti müvəffəqiyyətlə bitirmişdir.

1982-1995-ci illər arasında Bakı şəhər İcraiyyə Komitəsinin 10 saylı təmir-tikinti idarəsində iş icraçısı və baş mühəndis vəzifələrində çalışmışdır. Bu zaman Bakı şəhərinin mərkəzində yerləşən çoxsaylı memarlıq abidələrinin və köhnə yaşayış evlərinin fasadlarına yeni həyat bəxş edən işlərin yerinə yetirilməsində əvəzsiz xidmətləri olmuşdur.

1995-2000-ci illərdə "Azərnəqliyyattikinti"

Dövlət Şirkətinin 836 saylı idarəsində baş mühəndis işləmişdir.

N.N. Həbibov Bakı şəhərində çoxmərtəbəli yaşayış evlərinin tikintisini yerinə yetirən ilk mühəndislərdən biridir və 2000-ci ildən bu vaxta qədər müxtəlif tikinti şirkətləri və idarələrində yüksək mərtəbəli yaşayış binalarının tikintisində məsul vəzifələrdə çalışmış və bu gün də həmin missiyanı yerinə yetirir.

Atası Həbibov Nüsrəddin Piroğlan oğlu 1922-ci ildə Zizik kəndində anadan olmuş və 1976-cı ildə vəfat etmişdir. Ömrü boyu dil-ədəbiyyat müəllimi işləmiş Nüsrəddin müəllim Zizik kəndində böyük hörmət sahibi olmuşdur. Anası Töhfə xanım 1925-ci ildə anadan olmuş, evdar qadın olmuş və 1973-cü ildə dünyasını dəyişmişdir.

Ailədə dörd qardaş olmuş, hamısı da ali təhsil almışlar.

Nizami Həbibov 1979-cu ildə ailə həyatı qurmuşdur. Həyat yoldaşı Dilbər xanım hal-hazırda Bakı şəhərindəki uşaq bağçalarından birində müəllimə işləyir.

Nizami Həbibovun üç övladı, dörd nəvəsi var, övladlarının hamısı ali təhsil alıblar və ailəlidirlər.



*Abdulla Şaiq adına Dövlət Kukla Teatrı*



*Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi*



*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin binası*

*Nizami Həbibov Bakı şəhər İcraiyyə Komitəsinin 10 saylı təmir tikinti idarəsində baş mühəndis vəzifəsində çalışdığı zaman Bakı şəhərinin mərkəzində yerləşən çoxsaylı memarlıq abidələrinin və köhnə yaşayış evlərinin fasadlarının təmir və tikintisinə rəhbərlik etmişdir.*



**Həsənov Şahin Hümmət oğlu**

30 sentyabr 1962-ci ildə Azərbaycan Respublikasının Kəlbəcər rayonunun Laçın kəndində anadan olmuşdur. 1969-cu ildə Laçın kənd ibtidai məktəbinin birinci sinfinə qəbul edilmişdir. 1979-cu ildə Zülfüqarlı kənd orta məktəbinin onuncu sinfini müvəffəq qiymətlərlə bitirmişdir. Həmin ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun "Avtomobil yolları üzrə mühəndis-inşaatçı" fakültəsinə qəbul olmuşdur və institutu müvəffəqiyyətlə bitirmişdir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

1984-1985-ci illərdə Azərbaycan Respublikası Meşə Təsərrüfatı Nazirliyi sistemində məsul vəzifədə işləmişdir.

Şahin Həsənov 1985-1993-cü illərdə Avtomobil Yollarının Tikintisi və İstismarı Nazirliyində texniki idarənin eksperti, Yol hərəkətinin təşkili və təhlükəsizlik texnikası şöbəsinin böyük mühəndisi, Nəzarət-Təftiş İdarəsində mühasib-təftişçisi, aparıcı mütəxəssis, rəis müavini və rəis vəzifələrində işləmişdir.

1993-2003-cü illərdə "Azəravtoyol" Dövlət Şirkətinin birinci vitse-prezidenti vəzifəsində çalışmışdır.

Ş.H. Həsənov Avtomobil Yollarının Tikintisi və İstismarı Nazirliyində və "Azəravtoyol" Dövlət Şirkətində işlədiyi illərdə Texniki Şuranın, Tender Komissiyasının, Avtomobil yollarının və körpülərin mühafizəsi və istismarı zamanı fövqəladə hallar üzrə komissiyanın sədri, uzun müddət (12 il ərzində) Kollegiya üzvü, Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvü kimi, Baş nazirin yanında yol hərəkətinin təhlükəsizliyi üzrə komissiyasının üzvü olmuşdur.

1994-1996-cı illərdə Azərbaycan İnşaat Mühəndisləri İnistitutunda Dövlət İmtahan Komissiyasının sədri olmuşdur.

Ş.H. Həsənov 1996-cı ildə "Avtomobil yollarında çatların inkisafının konstruktiv dayandırılması mexanikası məsələləri" mövzusunda namizədlik disertasiyasını müdafiə etmişdir. Rusiya, Finlandiya, Almaniya və Yaponiyada



*Dövlət Bayrağı Meydanına gedən yol...*

Ali inşaat tədris kursları keçmişdir.

Ş.H. Həsənov 2010-cu ildə “Yol örtüyünün gərgin deformasiya vəziyyətinin və dağılmasının modernləşməsi” mövzusunda doktorluq disertasiyasını müdafiə etmişdir. Ali Attestasiya komissiyasının Rəyasət Heyətinin 04.02.2011-ci il tarixli qərarı ilə Texniki elmlər doktoru adı almışdır.

10 avqust 2010-cu ildə Beynəlxalq Nəqliyyat Akademiyasının həqiqi üzvü seçilmişdir.

Şahin Həsənov Almaniya Azərbaycan şirkətində Beynəlxalq layihələr üzrə məsləhətçi, Birləşmiş Millətlər Təşkilatının (BMT) İnsan Haqqları İnstitutunun Azərbaycan üzrə koordinatorudur. TACİS VƏ TRASECA proqramlarının Azərbaycanda ilk koordinatoru olmuşdur.

“AzVirt” şirkəti inşaatçılarının Serbiya Respublikasında “E763 Belqrad-Juzni Jadran magistral yolunun Ljig-Prelina hissəsinin tikintisi” layihəsi çərçivəsində 4 il ərzində inşa etdiyi uzunluğu 40,36 kilometr olan 4 zolaqlı ikitərəfli yolun, üç yol qovşağının, hər birinin uzunluğu 200 metrdən 890 metrə qədər olan 4 tunelin, 23-ü çoxyaruslu olmaqla 66 körpünün, sü-



*H. Əliyev Hava Limanında yeni Aerovagzal kompleksindən müxtəlif görüntülər...*



*Serbia, E 763 Belqrad – Juzni Jadran magistral yolunun tikintisindən görüntülər... Bu obyektlərin tikilib istifadəyə verilməsində Şahin Həsənovun böyük zəhməti vardır.*

rüşmə zonalarında uzunluğu 6 kilometr olan dayaq divarlarının tikintisinin, 22 kilometr məsafədə çayın deltasının dəyişdirilməsi işlərinin yerinə yetirilməsində Şahin Həsənovun gərgin əməyi vardır.

Ş.H. Həsənov hal-hazırda Azərbaycan Texniki Universitetində "Avtomobil daşımaları və yol hərəkətinin təhlükəsizliyi" kafedrasında professor vəzifəsində işləyir.

Şahin müəllim eyni zamanda bu gün "Azvirt" MMC-nin Qırğızıstan Respublikasındakı filialının rəis müavini kimi şirkətin Qırğızıstan Respublikasındakı layihələrinə rəhbərlik edir. Hazırkı vaxtda Mədəniyyət-Cəlilabad avtomagistralında Bişkek-Oş koridorunun (67 km-lik ikinci dərəcəli yol) 4-cü fazasının tikintisinə hazırlıq işləri görülür. Qeyd edək ki, 67 km-lik yolun üzərində (11 körpu) mövcud 9 körpünün rekonstruksiyası və 2 körpünün tikintisi həyata keçiriləcəkdir. Tikinti müddəti üç ildir.

Ş.H. Həsənov 9 səmərələşdirici təklifin, 111 elmi əsərin (bunlardan 92-si elmi məqalə, 19-u kitab, dərslik, fənn proqramı və dərs vəsaitləridir) və bir neçə fənn proqramının müəllifidir. 55 elmi məqaləsi bir sıra xarici ölkələrin, (52 yerli nəşr) Ali Attestasiya Komissiyalarında qeydiyyatdan keçmiş nüfuzlu jurnallarında (İnfofacts) dərc edilmişdir (Qeyd: 04 yanvar 2019-cu ilə olan məlumat).

Ş.H. Həsənovun əməyi hər zaman rəhbərlik və dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, o, ölkənin tikinti quruculuq yönümündə və elmi-pedaqoji sahədəki çoxillik səmərəli fəaliyyətinə və qazandığı nailiyyətlərə görə dəfələrlə fəxri fərmanlarla təltif olunmuşdur.

O, 16.06.2011-ci il tarixində Azərbaycan Respub-

likasının Fəxri Yol İşçisi adına layiq görülmüşdür.

28 noyabr 2012-ci ildə avtomobil yollarının tikintisi və istismarı sahəsində çoxillik səmərəli fəaliyyətinə görə Müstəqil Dövlətlər Birliyinin Hökumətlərarası yol işçiləri Şurasının fəxri Şəadətnaməsi ilə təltif edilmişdir.

Şahin Həsənov "Xudafərin" Ali Yol Mükafatı ilə təltif olunub. Azərbaycanın Fəxri Yol inşaatçısıdır.

Ş.H. Həsənov ölkənin yol inşaatı sahəsindəki səmərəli fəaliyyətinə görə Azərbaycan Avtomobil Yolları – 100 il "Yubiley medalı" ilə təltif olunmuşdur.

Ş.H. Həsənov ailəlidir, iki övladı var.

Ş.H. Həsənov bütün əmək fəaliyyəti illərində ictimai fəallığı ilə seçilmiş və respublikanın inkişafı üçün öz sahəsində əzmlə çalışmışdır və o, bu gün də eyni amalla çalışır.

Ş.H. Həsənov yüksək təşkilatçılıq keyfiyyətlərinə malik alim, özünə və ətrafındakı insanlara qarşı çox diqqətcil və qayğıkeş, nəzakətli, ciddi və mənəvi dəyərlərin daşıyıcısı, saf əqidəli, torpağına, vətəninə, dövlətə və dövlətçiliyə bağlı bir insandır.

Ani və vaxtında düzgün qərarlar vermək bacarığı olan alim və yüksək səviyyəli mütəxəssis kimi onunla ən mürəkkəb məsələləri müzakirə etmək mümkündür.

Ş.H. Həsənov həm də sevilən müəllimdir və bu sevginin arxasında onun yaxşı insan olması amili dayanır. Bu gün onun yetirmələrindən respublika tikinti kompleksinin bütün qollarında aparıcı mütəxəssislər vardır və o, bu gün də bir müəllim kimi öz çoxsaylı ardıcıllarına yol göstərir.

Ş.H. Həsənov düzgünlüyü sevən dürüst, əsilzadə və nəcib insandır. Belə insanlar həyatda istədikləri ucalığa çata bilirlər. Əminik ki, Şahin Həsənov istər müəllim kimi, istərsə də, tikinti sahəsinin rəhbər kadrlarından biri kimi qarşıya qoyduğu bütün hədəflərə çatacaqdır.





*Serbia, E 763 Belqrad – Juzni Jadran magistral yolu*



**Həsənov Vilayət Tapdıq oğlu**

1963-cü ildə Tovuz rayonunda anadan olmuşdur. Orta təhsilini 1971-1981-ci illərdə Tovuz rayonu, İsakənd kənd tam orta məktəbində almışdır. Orta təhsilini başa vurduqdan sonra, 1981-1982-ci illərdə Tovuz şəhəri 155 nömrəli Texniki Məktəbi Fərqlənmə diplomu ilə bitirmiş və 1982-1984-cü illərdə həqiqi hərbi xidmərdə olmuşdur. Hərbi xidmətdən sonra 1984-cü ildə Ukraynanın Dnepropetrovsk şəhərində yerləşən, Dneprpetrosk Dövlət Universitetinin "İqtisadiyyat" fakültəsinin İqtisadçı Sosioloq ixtisası bölümünə daxil olmuş, 1991-cu ildə həmin ixtisas üzrə məzun olmuşdur.

Universiteti bitirdikdən sonra 1991-ci ildə Azərbaycan Respublikası "Metallurgiya Dövlət Şirkəti" tərəfindən gənc mütəxəssis kimi Azərbaycana dəvət edilmişdir.

İş fəaliyyətinə Gəncə şəhəri, Azərbaycan Əlvan Metallar Emalı zavodunda (indiki "Gəncə Əlvan Metal Emalı" ASC) başlamış, 1991-1992-ci ilərdə bu zavodda baş mühasibin müavini, 1992-2015-ci illərdə baş mühasib vəzifəsində çalışmışdır. İşlədiyi müddətdə maliyyə və mühasibatlıq sahəsi ilə bağlı təcrübi biliklərə yiyələnmişdir.

2015-2016-cı illərdə respublikamızın Qərb zonasında, Şəmkir şəhərində yerləşən Çörək istehsalı üzrə ən böyük olan "Platek Pact" MMC–NƏFİS ÇÖRƏK zavodunda baş mühasib vəzifəsində çalışmışdır.

2017-ci ildən etibarən isə "SMTS" MMC-də baş mühasib vəzifəsindən Maliyyə departamenti meneceri vəzifəsinə qədər yüksəlmişdir. Hal hazırda da həmin şirkətdə öz fəaliyyətini davam etdirməkdədir.

"SMTS" MMC-də işlədiyi müddət ərzində "Property Tower Baku", "Baku Tower", "Kapital Bank Badamdar", "Hillside Aparments" layihələrində müəssisəsinin maliyyə mühasibatlıq işlərinin idarə olunmasına, müasir tikinti şirkətlərinin idarəetmə sistemi (ERP) olan LOGO,TİGER və 1C ERP proqramlarının qurulması işinə birbaşa rəhbərlik etmişdir.

Ailəlidir, 3 övladı, 2 nəvəsi var.



*Əmlak Məsələləri Dövlət Komitəsinin 33 mərtəbəli yeni inzibati binasının tikintisi*



**Hünbətov**
**Əli**
**Hüseyn oğlu**

30 dekabr 1959-cu ildə Ermənistan Respublikasının Yexeqnadzor rayonu Qabaqlı kəndində anadan olmuşdur. 1976-cı ildə Yexeqnadzor rayonun Qovuşuq kənd orta məktəbini bitirmişdir. 1978-1980-ci illərdə hərbi xidmətdə olmuşdur. 1982-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş və 1987-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirmişdir.

Əli müəllim əmək fəaliyyətinə 1976-ci ildə Yexeqnadzor rayonu Qovuşuq sovxozunda fəhlə kimi başlamışdır. 1984-cü ildə həmin sovxozda zootexnik, 1985-ci ildən 1988-ci ilə qədər ferma müdiri vəzifəsində işləmişdir. 1988-ci ildə məlum hadisələrlə əlaqədər onlar da öz yaşayış yerlərindən məcburi köçkün düşmüş və Sumqayıt şəhərində məskunlaşmışdır. O, 1989-1991-ci illərdə Üzvi Sintez zavodunda dispetçer vəzifəsində işləmişdir. 1991-1994-cü illərdə “Azərkimya” Elmi İstehsalat Kompleksində işlər müdiri vəzifəsində işləmişdir.

Əli Hünbətov 1994-cü ildə ildə "Azəravtoyol" Dövlət Şirkətinin Avtomobil Yollarının Yaşıllaşdırılması Trestinin 94 saylı Yol Yaşıllaşdırma Sahəsinin rəisi vəzifəsinə təyin edilmiş və 2000-ci ilə kimi o, bu Sahəyə rəhbərlik etmişdir. Daha sonra Əli müəllim 2000-ci ildən 1 nömrəli Yol İstismar İdarəsinin 7 nömrəli İstehsalat sahəsinin rəisi, 2010-2015-ci illər ərzində isə 1 nömrəli Yol İstismarı İdarəsində iş icraçısı işləmişdir.

Əli müəllim 2016-cı ildən hal-hazıra kimi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "1 nömrəli Avtomobil Yollarının Yaşıllaşdırılması" MMC-nin direktoru vəzifəsində işləyir. O, üzərinə düşən vəzifələri yüksək məsuliyyətlə yerinə yetirir və göstərilən etimadı işi ilə doğruldur. O, hələ uzun illər ərzində həm insanlara rahatlıq, həm də ölkə iqtisadiyyatının hərtərəfli inkişafında mühüm rol oynayan avtomobil yolları sahəsinin inkişafına daha böyük töhfələr vermək əzmindədir.

Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020 Gələcəyə Baxış” İnkişaf Konsepsiyasının əsas hədəflərindən biri ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa nail olmaqdır. Biomüxtəlifliyin qorunması, yanacaq-enerji kompleksinin ətraf mühitə mənfi təsirinin neytrallaşdırılması, təbiətin çirklənməsinin azaldılması və qorunması, yaşıl ərazilərin bərpası və mövcud resursların səmərəli mühafizəsi istiqamətində zəruri tədbirlərin gələcəkdə də davam etdirilməsi, yolkənarı ərazilərdə atmosfer havasının çirklənmədən qorunması, eləcə də nəqliyatın hərəkətindən yaranan səs-küyün azaldılması məqsədi ilə yolqoruyucu yaşıllıqların salınması nəzərdə tutulur. Bu baxımdan onun rəhbərlik etdiyi MMC tərəfindən avtomobil yollarının qorunma (mühafizə) zolağında yaşıllıqların salınması, becərilməsi, bərpası və artırılnması, salınmış yaşıllıqların mühafizəsi ilə bağlı zəruri işlər aparılır. Belə ki, yerli bitmə şəraitinə uyğun yerli və introduksiya olunmuş ağac və kol sortlarından istifadə etməklə, mü-



asir dizaynla hazırlanmış layihələr əsasında yaşıllıqlar salınır, salınmış yaşıllıqlara xidmət və suvarma işləri təşkil edilir, onları xəstəlik və ziyanvericilərdən, eləcə də yanğından və digər təsirlərdən qorunması ilə bağlı müvafiq tədbirlər həyata keçirilir. Bu işlərin aparılmasında əsas məqsəd ərazidə yaşıllıq zolağını genişləndirmək, ərazinin ekoloji tarazlığının bərpasına, ekoloji mühitin sağlamlaşdırılmasının surətləndirilməsinə, buradakı mövcud torpaq qatının münbitləşdirilməsinə töhfə vermək, insanlar arasında ekologi mədəniyəti və təbiətə qayğı hissini tətbiq etməkdən ibarət olmuşdur.

Azsərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədlərindən biri də ekoloji tarazlığın təmin olunması, indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin qorunması və təbii sərvətlərdən səmərəli isrifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir. Buna görə də regionlarda meşəsalma və meşəbərpa tədbirlərinin davam etdirilməsi, yaşıllıq sahələrinin artırılması əsas istiqamətlərdən biridir. "Dövlət Proqramı“nın icrası ilə əlaqədar M-4 Bakı-Şamaxı-Yevlax və R-11 Ağsu-Kürdəmir-Bəhramtəpə avtomobil yollarının kənarında yaşıllıq sahələrinin həcminin dəfələrlə artırılması, yolkənarının yaşıllıqlar məskəninə çevrilməsi də Əli müəllimin rəhbərlik etdiyi "1 nömrəli Avtomobil Yollarının Yaşıllaşdırılması” MMC tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər hesabına mümkün olmuşdur. Avtomobil yollarının istismarında, mühafizə və ayırıcı zolaqlarının yaşıllaşdırılması ilə onların külək və su eroziyasından, qar yığıntısından mühafizəsi, ətraf mühitin sağlamlaşdırılması və avtomobil yollarının estetik görünüşünün yaxşılaşdırılması təmin

edilir, mənfi təbii, antropogen və texnogen hallardan mühafizə olunur. Ekoloji balansın bərpası, ətraf mühitin qorunması, atmosferin oksigenlə zənginləşdirilməsi də "1 nömrəli Avtomobil Yollarının Yaşıllaşdırılması" MMC-nin diqqətdə saxladığı məsələlərdən biridir. Bu məqsədlə, MMC tərəfindən yolkənarının yaşıllaşdırılması istiqamətində vacib addımlar atılır. Əli müəllimin rəhbərlik etdiyi Cəmiyyət tərəfindən xidmət göstərilən 294 km magistral və respublika əhəmiyyətli avtomobil yolunun kənarlarında bu gün də məqsədyönlü yaşıllaşdırma işləri davam etdirilir, yol kənarları yaşıllaşır və gündən-günə gözəlləşir. Bundan başqa, Cəmiyyət tərəfindən Bakı şəhəri ərazisində də bir çox yolötürücüsü və yol qovşaqlarının yaşıllıq sahələrinə aqrotexniki xidmət göstərilir.

Artıq Əli müəllim Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin böyük kollektivində bacarıqlı mütəxəssis kimi tanınmışdır. İşlədiyi dövr ərzində dəfələrlə Cəmiyyətin rəhbərliyi tərəfindən fəxri fərman və digər qiymətli hədiyyələrlə mükafatlandırılmışdır. Bu müddət ərzində o, özünü təşəbbüskar, təcrübəli mühəndis, yüksək təşkilatçı kimi göstərmişdir. İnsanlarla ünsiyyətdə nəzakətli, təvazökar və siyasi-ideoloji cəhətdən savadlı insan kimi o, öz işini daim layiqincə yerinə yetirir. Dövlətinə, xalqına sədaqətlə xidmət etmək, doğma Azərbaycanımızın çiçəklənməsinə dayaq olmaq onun ən böyük arzusudur.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində uzunmüddətli, səmərəli əmək fəaliyyəti və Azərbaycanda yol infrastrukturunun inkişafında xidmətləri nəzərə alınaraq, Hünbətov Əli Hüseyn oğlu "Azərbaycan avtomobil yolları – 100 il (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilmişdir.

2003-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

Ailəlidir. Üç övladı var.



*Əli müəllimin rəhbərlik etdiyi "1 nömrəli Avtomobil Yollarının Yaşıllaşdırılması" MMC tərəfindən xidmət göstərilən 294 km magistral və respublika əhəmiyyətli avtomobil yollarının kənarlarında bu gün də məqsədyönlü yaşıllaşdırma işləri davam etdirilir, yol kənarları yaşıllaşır və gündən-günə gözəlləşir.*



**Hüseynov**
**Əyyub**
**Saday oğlu**

07 yanvar 1971-ci ildə Kəlbəcər rayonunda anadan olmuşdur. 1987-ci ildə Kəlbəcər rayon 2 nömrəli tam orta məktəbini bitirmişdir. Elə həmin il Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olmuş və 1992-ci il bu ali təhsil ocağını "Avtomobil yolları" ixtisası üzrə bitirərək inşaat mühəndisi ixtisasına yiyələnmişdir.

Əyyub Hüseynov 1992-ci il tarixdən Milli Ordu sıralarına qoşulmuş, Kəlbəcər və Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Ə.S. Hüseynov 1998-ci il tarixdən etibarən Kəlbəcər rayonundakı 27 saylı Yol İstismar İdarəsində mühəndis vəzifəsində işləmişdir.

O, 2003-cu ildən 2006-cı ilin oktyabrına kimi Şəmkir-Qazax avtomobil yolunun yenidən qurulması layihəsi çərçivəsində ABŞ-ın "Louis Berger" şirkətində əvvəlcə sahə inspektoru, sonra isə material mühəndisi vəzifələrində çalışmışdır.

Ə.S. Hüseynov 2006-cı ilin oktyabr ayından bu günə kimi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində Layihə İşçi Qrupunda mühəndis vəzifəsində çalışır.

Ələt-Astara avtomobil yolunun 9-31 km hissəsinin dörd zolağa genişləndirilməsi və təkmilləşdirilməsi, Ələt–Astara avtomobil yolunun 0-9 km hissəsinin tikintisi, Tovuz dairəvi yolunun tikintisi, Hacıqabul-Bəhrəmtəpə yolunun 0-113 km hissəsinin yenidən qurulması, Hacıqabul-Bəhrəmtəpə avtomobil yoluna birləşən 6 ədəd kənd yollarının yenidən qurulması, Bakı-Şamaxı avtomobil yolunun 15-45 km hissəsinin dörd zolağa genişləndirilməsi və digər bir sıra layihələr onun nəzarət etdiyi layihələrdir.

Ə.S. Hüseynov hal-hazırda Bakı-Şamaxı avtomobil yolunun 91-107 km hissəsinin dörd zolağa genişləndirilməsi layihəsinə nəzarət funksiyalarını məsuliyyətlə yerinə yetitrir.

Ailəlidir, iki qızı, bir oğlu var.



**Hüseynov**
**Firdovsi**
**Məhərrəm oğlu**

24 fevral 1962-ci ildə Lənkəran rayonu, Sütəmurdov kəndində anadan olmuşdur. 1969-cu ildə Sütəmurdov kənd orta məktəbinin 1-ci sinfinə getmiş, 1979-cu ildə həmin məktəbi bitirərək tam orta təhsil almışdır.

1980-ci ildə Sovet Ordusu sıralarına hərbi xidmətə çağırılaraq Almaniya Demokratik Respublikasında SSRİ Müdafiə Nazirliyinin tərkibindəki hərbi hissədə sıravi əsgər kimi qulluq etmişdir. 1982-ci ildə həmin hərbi hissəni baş serjant kimi başa vurmuşdur.

1983-cü ildə təhsilini davam etdirmək üçün Rusiya Federasiyasının Leninqrad (indiki Sankt-Peterburq) şəhərinə getmişdir. 1985-ci ildə həmin şəhərin "Ленинградский Строительно-Архитектурный Техникум" ("Leninqrad İnşaat-Memarlıq Texniku-

mu") – nun Sənaye və Mülki tikinti fakültəsinə daxil olmuşdur. 1988-ci ildə həmin texnikumu müvəffəqiyyətlə bitirərək inşaat mühəndisi ixtisasına layiq görülmüş və sonra doğma elinə – Azərbaycan Respublikasının Lənkəran rayonuna qayıtmışdır.

02.04.1990-14.12.1993-cü illərdə Lənkəran rayonunda 6 saylı İxisaslaşdırılmış Tikinti Quraşdırma İdarəsində iş ustası vəzifəsində işləmişdir. Bu müddətdə o, Lənkəran şəhəri və Kərgəlan kəndində yanacaq doldurma məntəqələri, Liman şəhərində inzibati bina və sair obyektlərin tikintisində fəal iştirak etmişdir.

2008-ci ildə "Tərəqqi" MMC (Gilan İnşaat)-yə iş icraçısı kimi işə qəbul olunmuşdur. 2013-cü ilədək bu müəssisədə işləmiş və bu illər ərzində Lənkəranda bir sıra sənaye və mülki binaların tikintisini müvəffəqiyyətlə həyata keçirmşdir. Bunlardan Lənkəran rayonu Sütəmurdov kəndində konserv zavodu, Qurumba kəndində tam orta məktəb binası, Lənkəran şəhərində 7 mərtəbəli yaşayış binaları kompleksi, Liman şəhərində yanğınsöndürmə deposu və s. göstərmək olar.

2013-cü ildən – 2015-ci ilədək "Azəraqrartikinti" ASC-də iş icraçısı vəzifəsində çalışmış və Lənkəran şəhərində Kənd Təsərrüfatı Nazirliyinin sifarişi ilə Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasını inşa etmişdir.



*Lənkəran şəhərində 7 mərtəbəli yaşayış kompleksi*



*Lənkəran rayonu Liman şəhərində yanğınsöndürmə deposu*

2016-cı ildən yenidən "Tərəqqi" MMC (Gilan İnşaat)-yə dəvət olunmuşdur.

Hal-hazırda həmin təşkilatda iş icraçısı vəzifəsində çalışıraraq Lənkəran şəhərinin 1 və 2-ci mikrorayonlarında mövcud 5 mərtəbəli yaşayış binalarında gücləndirmə-bərpa işlərinin həyata keçirilməsində fəal iştirak edir.

Ailəlidir, iki oğlu vardır.

Böyük oğlu Hüseynzadə Emin Firdovsi oğlu 2010-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə şöbəsinə daxil olub, 2014-cü ildə oranı bitirmişdir. 2014-2015-ci illərdə Azərbaycan Mülki Müdafiə Qoşunlarında hərbi xidmətdə olmuşdur. 2017-cü ildən Türkiyənin İstanbul şəhərində Marmara Universitetində magistratura səviyyəsində təhsilini davam etdirir.

Kiçik oğlu, Hüseynzadə Elçin Firdovsi oğlu, 2012-ci ildə Azərbaycan İnşaat Memarlıq Universitetinin Nəqliyyat fakültəsinə daxil olmuşdur. 2017-2018-ci illərdə Azərbaycan Müdafiə Nazirliyinin ordu sıralarında hərbi xidmətdə olmuşdur. Hazırda həmin Universitetin nəqliyyat fakültəsində təhsilini davam etdirir.




*Lənkəran rayonu, Sütəmurdov kəndində konserv zavodu*



*Lənkəran rayonu, Qurumba kəndində tam orta məktəb*



*Lənkəran şəhərində Dövlət Aqrar İnkişaf Mərkəzi*

# X



**Xudiyev Veyis Həmid oğlu**

1944-cü ilin noyabr ayının 10-da Gürcüstan Respublikasının Marneuli rayonunun Sadaxlı kəndində anadan olmuşdur. 1961-ci ildə Sadaxlı orta məktəbini bitirmiş və Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1963-cü ildə hərbi xidmətə çağrılmış, daha sonra təhsilini davam etdirib, 1969-cu ildə ali məktəbi qurtararaq tikinti mühəndisi peşəsinə yiyələnmişdir.

Veyis Xudiyev 1969-cu ildən 1985-ci ilə kimi tikintinin ayri-ayri sahələrində, Sənaye Tikintisi Nazirliyinin tərkibində olan müəssisələrdə usta vəzifəsindən idarə rəisi vəzifəsinə qədər yüksəlmişdir.

1986-cı ildən 2004-cü ilə kimi Dövlət Əlvan Metallurgiya və Metallurgiya Dövlət Şirkətində (Metallurgiya Nazirliyi) idarə rəisi, trest müdiri, Təmir Tikinti İstehsalat Birliyinin baş direktoru vəzifələrində çalışmışdır.

Veyis Xudiyev 2005-2006-cı illərdə Azərbaycan Respublikasında zəlzələdən ziyan çəkmiş obyektlərin bərpası və yenidən qurulmasında, Tikilməkdə Olan Obyektlərin Birləşmiş Müdiriyyətində baş direktor vəzifəsində, 2007-2010-cu illərdə Ədliyyə Nazirliyi, Ədliyyə sistemində müasirləşdirilmə layihəsində baş mütəxəssis kimi fəaliyyət göstərmişdir.

Bütün bu illər ərzində respublika əhəmiyyətli obyektlərin tikintisində, o cümlədən, Bakı Dərin Özüllər zavodunun, "İkinci Kür su kəməri"nin və Su Təmizləyici qurğularının, "Böyük Bakı" Kanalizasiya xəttinin və çirkab su təmizləyici qurğularının, Ceyranbatan Su Təmizləyici qurğularının, Sumqayıtda "Azərkimya" Dövlət Şirkətinin tərkibində olan əksər kimya müəssisələrinin tikintisində, Bakıda, Sumqayıtda, Gəncədə, Daşkəsəndə, Qazaxda, Naxçıvanda və respublikanın başqa bölgələrində ixtisaslaşdırılmış təmir-tikinti işlərinin qüsursuz yerinə yetirilməsində iştirak etmişdir.

1990-2000-ci illərdə Sumqayıt şəhər sovetinin deputatı kimi təsərrüfatın müəyyən sahələrinə, sosial obyektlərin tikintisinə böyük kömək göstərmişdir.

Bakı şəhərində Yasamal Rayon Məhkəməsi, Gəncə şəhərində Nizami Rayon Məhkəməsi, Oğuz Rayon Məhkəməsi və Gədəbəy Rayon Məhkəməsi binalarının layihə-smeta sənədlərinin tərtib olunması və həmin binaların tikilməsi bilavasitə Veyis Xudiyevin adı ilə bağlıdır.

V.H. Xudiyev 2010-cu ildən fərdi təqaüdə çıxıb. Hazırda təqaüdçüdür.





*Bilgəh-Novxanı-Sumqayıt avtomobil yolu*
*("AzVirt" MMC)*

# İ



**İbrahimov Elçin Məhəmməd oğlu**

27 yanvar 1980-ci ildə Mingəçevir şəhərində anadan olmuşdur. 1986-1997-ci illərdə Mingəçevir şəhəri 12 saylı məktəbində orta təhsil almışdır. 1997-2001-ci illərdə Bakı Dövlət Universitetinin "Beynəlxalq hüquq və beynəlxalq münasibətlər" fakültəsində "Hüquqşünas" ixtisası üzrə təhsil almışdır. 2001-ci ildə Milli Məclisin "Dövlət quruculuğu üzrə qanunvericilik" şöbəsində təcrübə keçmişdir.

İş fəaliyyətinə 2003-cü ildən Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və stansiyaların tikintisi layihəsində 2-ci Nasos Stansiyasının (Yevlax) tikintisi üzrə Amec Spie & Petrofac Ltd. Birgə Müəssisəsində (ABŞ) İctimaiyyətlə Əlaqələr üzrə Məsul şəxs vəzifəsində başlamışdır.

2005-2006-cı illərdə "Hacıqabul-Kürdəmir" Yol Layihəsinin Tikintisi layihəsi üzrə "Todini Costruzioni Generali S.p.A" (İtaliya) şirkətinin Azərbaycan filialında ingilis dili üzrə texniki tərcüməçi vəzifəsində işləmişdir.

2006-cı ildə BTC və SUPSA Boru kəmərlərinin Ekoloji Təhlükəsizliyi Əməliyyatları layihəsi üzrə "Seacor Environmental Services International Ltd. (ABŞ)" şirkətində Əməliyyat üzrə Koordinator vəzifəsində çalışmışdır.

2006-2011-ci illərdə "Kürdəmir-Ucar" Yolunun Tikintisi və "Bakı-Şamaxı" Yolunun Yenidənqurulması layihələri üzrə "Todini Costruzioni Generali S.p.A" (İtaliya) şirkətinin Azərbaycan filialında İctimaiyyətlə Əlaqələr üzrə Məsul şəxs vəzifəsində işləmişdir.

2011-2014-cü illərdə həmin şirkətdə "Ələt-Masalli" Yolunun Tikintisi Layihəsində Layihə Koordinatoru/ Layihə Rəhbərinin Köməkçisi vəzifəsinə yüksəlmişdir. Yolların və körpülərin tikintisi və yenədənqurulması layihələri üzrə iş fəaliyyəti zamanı ictimaiyyətlə əlaqələrin yüksək səviyyədə təşkili, podratçı, subpodratçı və üçüncü şəxslərlə münasibətdə şirkətin maraqlarının qorunması, iş prosesinin müqavilələrə uyğun aparılması və təqibi lazımi qaydada təmin edilmişdir.

Elçin İbrahimov 2014-cü ildən "SMTS" MMC-də hüquqşünas vəzifəsinə işə götürülmüşdür. Sonra həmin şirkətdə Hüquq və Kadrlar Şöbəsinin rəisi vəzifəsinə yüksəlmiş, hazırda isə Hüquq və Sənədlərə Nəzarət Departamentinin Meneceri vəsifəsində çalışır.

"SMTS" MMC-də işlədiyi dövrdə müəssisənin həyata keçirdiyi dövlət və özəl sektora aid mühüm layihələrin, "Property Tower Baku" layihəsi adlandırılan ƏMDK-nin 33 mərtəbəli İnzibati Binası", "Qala-altı Otel və SPA" İstirahət Kompleksi, ƏMDK-nin İT və Mİ Mərkəzinin inzibati binası, "Baku Tower" layihəsi adlandırılan 50 mərtəbəli Biznes Mərkəzinin Binasının tikinti layihələri, "Kapital Bank" ASC-nin İnzibati binasının tikintisi və təmiri, "Azadlıq 3" layihəsi üzrə Binaların Mansardında gücləndirmə işləri, "Hillside Apartments" Layihəsi adlandırılan yüksəkmərtəbəli yaşayış binalarının təmir və tikintisi layihələrinin inşasına cəlb edilmişdir. İşlədiyi dövr ərzində müqavilələrin idarə olunması, qanunverici və normativ sənədlərin idarəolunması, sənədlərə nəzarət və məlumatların idarə olunması işinin təşkilində və tətbiqində, o cümlədən müəssisənin "Mülki və Sənaye Tikinti-Quraşdırma İşləri" sahəsində Beynəlxalq İdarəetmə sisteminin ISO 9001:2015, ISO 14001:2015, ISO 45001:2018 tələblərinə uyğunluğunun audut və sertifikatlaşmasında mühüm rol oynamışdır.

Ailəlidir, 1 övladı var.



**İmanov**
**Əli**
**Məmməd oğlu**

21 yanvar 1933-cü ildə Cəbrayıl rayonunun Əmirvarlı kəndində anadan olmuşdur. 1951-ci ildə Soltanlı kənd orta məktəbini bitirib, Azərbaycan Dövlət Universitetinə qəbul olunmuşdur. 1956-cı ildə Universitetin "Faydalı-qazıntı yataqlarının geologiyası və kəşfiyyatı" ixtisasını bitirmişdir.

Həmin ildən Elmi-Tədqiqat Tikinti Materialları və Qurğuları İnstitutunda əmək fəaliyyətinə başlayıb, əvvəlcə institutun geoloji-kəşfiyyat ekspedisiyasında baş texnik, geoloq, Alatava Geoloji Kəşfiyyat partiyasının rəisi sonra "İqtisadi tədqiqatlar" laboratoriyasında böyük mühəndis, "Fiziki-kimyəvi tədqiqatlar" laboratoriyasında böyük elmi işçi və "Xammal" bölməsinin rəhbəri vəzifələrində çalışıb.

1977-ci ildən ömrünün sonuna qədər "Xammal və kimyəvi analiz" laboratoriyasının rəhbəri vəzifəsində işləmişdir. Beləliklə onun bütün əmək və elmi fəaliyyəti S.Ə. Dadaşov adına institutla bağlı olmuşdur.

"Xammal" bölməsi institutun texnoloji laboratoriyalarını yerli xammallardan səciyyəvi nümunələrlə təchiz etmiş, kimyəvi-mineraloji tərkiblərin və onlardan istehsal olunmuş materialların və məmulatların tədqiqi ilə yanaşı, yerli xammalların öyrənilməsi, gətirilmə xammalların yerli xammal mənbələri ilə əvəz olunması istiqamətində çox saylı tədqiqatlar aparmış ki, bununla da keçmiş nazirliyin müəssisələrinin xammal bazaları genişlənmiş və möhkəmlənmişdir.

Ə.M.İmanov institutun geoloji-kəşfiyyat ekpedisiyasında işlədiyi dövrdə bir sıra faydalı-qazıntı yataqlarının-Mingəçevir qum-çınqıl, Güzdək, Qaradağ əhəngdaşları, Zığ və Zaqatala-gil sənaye ehtiyatlarının artırılması üçün kəşfiyyat işləri aparmışdır. Onun fəaliyyəti ilə inşaat xammal bazası bir sıra yeni yataqların kəşfi ilə

zənginləşmişdir. Cəbrayıl gil-gips (gəc) və Göyərçin-Veysəlli vulkan külütufu yaraqları Ə.M.İmanov tərəfindən 1957-ci ildə aşkarlanmış, 1958-ci ildə orada kəşfiyyat işləri aparıb, hər iki yatağın sənaye əhəmiyyətli olduğunu müəyyən etmişdir. Sumqayıtçay hidroslyuda tərkibli gil-piqment və opokaya bənzər süxurları (Abşeron r-nu), Çobanı, Dzerjinovka-2, Dzerjinovka, Çəngi oksonioyarozit və karbonatlı piqment (Şamaxı r-nu), Fətəlipəyə-2 oxra (Laçın r-nu), Fətəlipəyə-1 silikat piqmenti, Aznabyurt gilli piqment, Vayxır silikat piqmenti, Ordubad oksonioyarozit (Naxçıvan MR), Daş Veysəlli silikat piqment yataqları da Ə.M.İmanov tərəfindən kəşf olunmuşdur. Təkcə Sumqayıtçay gil piqment yatağının sənaye ehtiyatı 3 milyon tondan artıqdır. Sumqayıtçay yatağı bazasında Sumqayıt yüngül doldurucular zavodu inşa olunub və fəaliyyət göstərmişdir. Bu xammal eyni zamanda 0-4 növlü oxraya uyğundur və keramikada əridici kimi yararlıdır. Sumqayıtçay gil-piqmentlə təbaşirəbənzər əhəngdaşı ununun müəyyən nisbətlərinin çox yüksək keyfiyyətli polimer doldurucu olduğu da müəyyən olunmuşdur.

Qaradağ sement zavodunda aparılmış təcrübə-sınaq işləri ilə Göyərçin-Veysəlli yatağından götürülmüş nümunələrin aktiv mineral əlavə kimi yararlı olduğunu təsdiq etmişdir. Ə.M.İmanovun təşəbbüsü və rəhbərliyi ilə yataq 1960-cı ildən istismar olunmağa başlanmış, ermənilər rayonu işğal edənə qədər davam etmişdir. Adları çəkilən xammallar yeni olduqları üçün institutun texnoloji laboratoriyaları onların tədqiqi ilə hərtərəfli məşğul olublar. Bir sıra elmi işçilər isə o xammalları daha dəqiq tədqiq edərək, yeni effektliv texnologiya işləmiş, elmlər namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişlər.

Göyərçin-Veysəlli vulkan külünün sement üçün aktiv mineral əlavədən başqa, digər istehsal sahələri üçün də (turşuya davamlı sement, şüşə istehsalında alüminium oksidi komponenti kimi və s.) yararlı olması Ə.M.İmanov tərəfindən müəyyən olunmuşdur.

1966-1970-ci illərdə "Tikinti materialları sənayesinin yerləşdirilməsi və inkişafının əsas istiqamətləri" mövzusunu Ə.M.İmanov institutun "İqtisadi tədqiqatlar" laboratoriyasında yerinə yetirmişdir. Tədqiqat işində Azərbaycan SSR ərazisində 1965-ci ilə qədər məlum olan tikinti materiallarının xammal yataqlarını və təzahürlərini pasportlaşdırmış və bu materiallar əsasında tikinti materiallarının inkişaf və yerləşdirilməsinin əsas istiqamətlərini müəyyənləşdirmişdir.

Azərbaycan, Qırğızıstan və Tacikistan Respublikalarının xammal ehtiyatlarının inkişafının icmalını tərtib etmiş, dörd cildlik Azərbaycan SSR-nin xammal ehtiyatları sorğu kitabının həmmüəlliflərindən olmuşdur.

1965-1970-ci illərdə Ə.M.İmanov "Fiziki-kimyəvi tədqiqatlar" laboratoriyasında "Xammal" bölməsinin rəhbəri vəzifəsində fəaliyyət göstərərkən o, xammalların mineroloji analizi ilə yanaşı, süni daşların petroqrafiyası ilə də məşğul olmuşdur. İlk dəfə texniki petroqrafiya elminin əsası fiziki-kimyəvi tədqiqatlar laboratoriyasında qoyulmuşdur.

Ə.M.İmanov apardığı tədqiqatlarda, öyrənilən obyektdə həmişə yenilik axtarmışdır. Məsələn, tra-

vertinin mineralogiyası və əmələgəlmə şəraitini tədqiq edərkən, onun tərkibindəki mübahisəli dalğavari teksturanın daşlaşmış göy-yaşıl yosun olduğunu təyin etmişdir. Kəlbəcər tuflarını öyrənərkən onların bişmiş, bitişmiş tuflara aid olduğunu müəyyənləşdirmişdir.

Ə.M.İmanov S.A.Fətəliyevlə birgə apardıqları tədqiqatlarda portlandsementlə hazırlanmış beton və məhlullarda qeyri-üzvü maddələrin təsirindən yaranmış mikrostruktura və faza tərkiblərində maraqlı nəticələr almışdır. Alınmış nəticələri 1972-ci ildə Leninqradda (indiki Sankt-Peterburqda) VII Ümumittifaq beton və dəmir-betona aıd konfransda məruzə olunmuş, mütəxəssislər tərəfindən maraqla qarşılanmışdır.

Dəniz suyu mühitində istifadə olunan portlandsement daşında araqonit mineralı ilk dəfə Ə.M.İmanov tərəfindən aşkar olunmuşdur. Sonrakı tədqiqatlarda araqonitin əmələ gəlməsində dəniz suyunda olan $MgSO_4$ inisiator rolu oynadığı müəyyən olunmuşdur. Müxtəlif istismar mühiti təsirinə məruz qalmış sement daşlarının öyrənilməsi nəticəsində hər mühit üçün xarakter mineral assosiasiyaları müəyyən olunmuşdur. Bu tədqiqatlardan istifadə edərək portlandsement daşının istismar olunduğu şəraiti təyin etmək olar.

Azərbaycan ərazisi vulkan püskürmələri meydanı olduğundan, burada maqmatik süxurlarla yanaşı, vulkandan çökmə (piroklastik) süxurlar da geniş yayılmışdır. Bu süxurlar sement və yüngül doldurucular sənayeləri üçün xammal kimi böyük əhəmiyyət kəsb etdiyi üçün onların tədqiqi Ə.M.İmanovun fəaliyyətində əhəmiyyətli yer tutmuşdur. Laboratoriyada aparılan tədqiqatlar və ədəbiyyat araşdırmaları ilə müəyyən olunmuşdur ki, piroklastik materialın seolitə və montmorillonitə çevrilməsi ilk növbədə piroklastik materialın əmələ gəldiyi maqmanın təbiətindən asılıdır. Orta və əsas maqmanın (silisium az olduğu) doğurduğu piroklastik materialdan bentonit, orta (silisiumla zəngin) və turş maqmaların doğurduğu piroklastik materialdan isə müvafiq seolitlər əmələ gəlir.

Süxurlarda şüşənin tərkibini təyin etmək tikinti materialı texnologiyası üçün əhəmiyyətlidir.Lakin çox vaxt şüşənin dəyişməsi onun tərkibini təyin etməyə imkan vermir (və ya onu çətinləşdirir). Şüşənin tərkibini təyin etmək üsullarının araşdırılması və onun mümkün yolları da Ə.M. İmanov tədqiqatlarında göstərmişdir.

Qaradağ sement zavodunda vulkan mənşəli iki növ aktiv əlavədən-vulkan külü (Cəbrayıl r-nu Göyərçin-Veysəlli yatağı) və tras (Tovuz r-nu Koroğlu yatağı), hasıların ki, aktivlik mənbəyi müvafiq olaraq, şüşədən və linoptilolitdən ibarətdir. Tədqiqatların nəticəsi aktiv mineral əlavə kimi şüşə tərkibli əlavənin daha effektli olduğunu göstərmişdir.

Ə.M.İmanov Azərbaycan ərazisində geniş yayılmış yarozit qrupu minerallarını dəqiq tədqiq etmiş, əvvəllər ədəbiyyatda pirit və hidroyarozit adı ilə təsvir olunmuş minerralların oksonioyarozit olduğunu dəqiqləşdirmişdir. O, müəyyən etmişdir ki, yarozitli süxurlar mineroloji-geokimyəvi əhəmiyyəti ilə yanaşı, həm də tikinti sənayesi üçün giymətli xammaldır. Belə ki, onlar lakboya istehsalı üçün oxra və mumiya kimi, klinker istehsalında mineralizator və dəmir tərkibli kompo-

nent kimi istifadə etmək olar. Oksonioyarozit əsasında hidrosulfoferrit genişlənmə mexanizminə malik komponent kimi sement istehsalında da istifadə oluna bilər.

Ə.M.İmanov istehsalatla sıx əlaqə saxlayır və onun tələblərinə uyğun axtarışlar aparırdı. 1980-cı illərdə Qaradağ sement zavodunda yarozit tərkibli süxurların və Azərbaycan boru yayma zavodunun törəmə dəmir qabığının dəmir tərkibli komponent kimi istifadə olunmasını təklif etmiş, axırıncının zavod şəraitində təcrübə-sınaq işlərinin təşkilində iştirak etmişdir. Zavod törəmə dəmir qabığından istifadə etməklə, 10 ilə yaxın müddətdə klinker istehsal etmişdir.

Bakı Şüşə zavodu və Sumqayıt Polimer Tikinti Materialları kombinatında gətirilmə xammalların yerliləri ilə əvəz olunması istiqamətində Ə.M.İmanov xeyli iş görmüşdür. Şüşə istehsalında istifadə olunan Al2O3 tərkibli xammalın əvəzinə, Göyərçin-Veysəlli vulkan külünü təklif və tətbiq etmişdir. SPTMK-da gətirilmə doldurucular (təbaşir, kaolin, asbest) əvəzinə, hələ 1970-ci illərdə öyrənilmiş əhəngdaşı, seolit tullantıları və Sumqayıtçay piqmentini tətbiq etmiş və müsbət nəticələr almışdır. Göstərilən tədqiqatların nəticələri müəlliflik şəhadətnaməsi səviyyəsində işlənmişdir.

Respublika ərazisində yayılmış 25 piqment (rəngli süxur) yataqları (bunlardan 15-i Ə.M.İmanov tərəfindən kəşf olunub). Ə.M.İmanovun rəhbərlik etdiyi laboratoriyada kompleks şəkildə tədqiq olunmuş, bir neçə istehsal sahələrində – polimer tikinti materialları, rəngli beton, asbestşifer və i. tətbiq edilmişdir.

Ə.M.İmanov fəaliyyətində sənaye tullantılarının tədqiqi və onlardan tikinti materialları kimi istifadəsinə geniş yer vermişdir.

Respublikada tikinti materialları istehsalı üçün maraq doğuran tullantılar küllü miqdarda kimya, neft-kimya, dağ-mədən, maşınqayırma, metalurgiya və c. sənaye sahələrində əmələ gəlir. Dağ-mədən sənayesi tullantıları içərisində daşçıxarma sənayesi tullantıları həcminə və istifadə sahəsinin genişliyinə görə çox əhəmiyyət kəsb edir.

Qaradağ kombinatında əmələ gələn tullantı eyni adlı əhəng zavodunda emal olunur və nəticədə butdaşı, çınqıl və qum alınır. Ən xırda ovuntu hissəsi sement zavodunda karbonat komponenti kimi istifadə olunur. Tullantıdan alınan butdaşı divar materialı, səkilər, meydançalar üçün döşəmə düzəltmək və əhəng istehsalında istifadə oluna bilər, çınqıl beton doldurucusu, qum isə suvaq və hörgü məhlullarının hazırlanmasında istifadə olunur.

Əhəngdaşı tullantılarından polimer materialları üçün doldurucu, təbaşirəbənzər əhəngdaşı tullantısı unundan ,habelə Bakı üzlük materiallar kombinatının lil tullantısından yazı təbaşirinin texnologiyası işlənmişdir. Əhəngdaşı tullantılarının tətbiqini asanlaşdırmaq məqsədi ilə texniki şərtlər işlənib hazırlanmışdır. (ТУ Аз.ССР 71-88, Əhəngdaşı üyüdülmüş, Daş çıxarma sənayesi tullantısından alınmış). Bu texniki şərtlərə müvafiq əhəngdaşı unu üç növdə buraxılır; И-1; ИМ-2; ИМ-3.

Balıqqulaqlı əhəhgdaşı tullantısının heyvanlar (o cümlədən quşlar üçün) yem hazırlanmasında kalsium tərkibli əlavə kimi istifadəsi tədqiqatlar və təcrübə-sınaq işləri ilə

təsdiq olunmuşdur. (ТУ Аз ССР 81-90-Мука известняковая для производства комбикормов и подкормки животных и птиц). Portlandsement istehsalı üçün maraq doğuran əhəmiyyətli tullantılarından biri də Azərbaycan Boru prokat zavodunun prokat və boru prokat sexində əmələ gələn törəmə dəmir qabığıdır. (вторичная окалина). Təcrübəsınaq işləri və istehsalat şəraitində törəmə dəmir qabığının portlandsement klinkeri istehsalında dəmir tərkibli komponent kimi tam yararlı olduğu sübut olunmuş və texniki şərtlər işlənib hazırlanmışdır. Qaradağ sement zavodu törəmə dəmir qabığından istifadə etməklə on ilə yaxın klinker istehsal etmişdir.

Üzlük tavalar istehsalının tullantıları da tədqiq olunmuşdur. Onun lil tullantısı beton istehsalında mikrodoldurucu kimi effektliyi istehsalat şəraitdə isbat olunmuş və texniki şərtlər hazırlanmışdır.

ТУ 21 Аз ССР 7789. Müəyyən olunmuşdur ki, lil tullantısı betona 10% əlavə olunarsa o qədər sementə qənaət olunur.

Lil tullantısı əsasında yeni keyfiyyətli şpaklyovkanın texnologiyası işlənmiş və texniki şərtlər hazırlanmışdır. (Сухая шпаклевочная масса (опытная партия) ТУ 21 АзССР-89).

Göstərilənlərdən əlavə, lil tullantısı keramik tavallar istehsalında təbaşir əvəzi, polimer tikinti materialları istehsalında doldurucu kimi istifadə oluna bilməsi də Ə.M.İmanov tərəfindən öyrənilmişdir.

Lil tullantısı Boksid və Alunit Gəncə gil-torpaq zavodunda da əmələ gəlir ki, bundan da rəngli tikinti materialları istehsalında piqment, klinker istehsalında dəmir və aliminium tərkibli komponent və polimer materiallar üçün doldurucu kimi istifadə etmək olar.

Deyilənlərdən əlavə, bir sıra sənaye tullantıları da Ə.M.İmanov tərəfindən hərtərəfli öyrənilmiş, istifadə sahələri təklif olunmuşdur. Məs. Bakı neft zavodu tullantıları Kirmaki neftli qumları sement zavodu tozu, marten posaları, xlor tərkibli gellər, neft şlamı, Daşkəsən yatağının 2-li kvarsitləri və başqaları.

Ə.M.İmanov , S.A.Fətəliyev və F.A.Bayramov tərəfindən "Azərbaycan Respublikasında tikinti materiallarının xammal ehtiyatları" məlumat kitabçası hazırlanmışdır. Kitabda Azərbaycanın bütün rayonlarında yerləşən tikinti materiallarına yararlı mineral xammal ehtiyatları göstərilmişdir. Hər bir yataq üçün süxurların maddi tərkibi, fiziki-mexaniki xassələri, istifadə sahələri əks olunmuşdur.

Tikinti materialları nazirliyinin bir sıra müəssisələrinə: Qaradağ sement, şüşə zavodu və başqalarına kuratorluq edib, 50-dən çox müxtəlif dərəcəli elmi-texniki kömək göstərmişdir.

Ə.M.İmanovun rəhbərlik etdiyi laboratoriya sərbəst tədqiqatlarla yanaşı digər institut və sahə laboratoriyaları ilə də kompleks işlər aparmışdır. Elmi-tədqiqat Sement institutu ilə birgə aparılan işdə "Orqsintez" tullantısı və " Üçtərə" yatağı yarozit tərkibli gilin Qaradağ sement zavodunda tətbiqi belə işlərdəndir.

Ə.M.İmanov bir çox ictimai işlərdə iştirak etmişdir. 1960-1965-ci illərdə Respublika Tikinti Materialları Nazirliyində elmi-texniki şuranın "Xammal" seksiyasının sədri, 1975-1980-cı illərdə Respublika Təbiəti Mühafizə Komitəsinin elmi texniki şurasının üzvü, institut partiya təşkilatının katibi və Xalq nəzarəti komitəsinin səd-

ri seçilmiş, 1975-ci ildən institutun elmi şurasının üzvü olmuşdur.

1980-cı ildə S.Ə. Dadaşov adına ETLKİMİ-nun 50 illik yubileyinin təşkili və keçirilməsində aktiv iştirak etmişdir.

1981-ci ildə Bakıda keçirilən XII Beynəlxalq Mendeleyev qurultayının "Silikatların kimyası və texnologiyası" seksiyasının təşkilat bürosunun üzvü və elmi katibi kimi həmin seksiyanın institutda yüksək səviyyədə keçirilməsinə çalışmışdır və məruzələrlə çıxış etmişdir. Ümumi və tətbiqi kimyaya həsr olunmuş VIII (1984 Leninqrad) Mendeleyev qurultayının iştirakçısı olmuşdur.

Ə.M.İmanov yüksək ixtisaslı mütəxəssis və bacarıqlı təşkilarçı kimi gənc mütəxəssislərin hazırlanmasında fəal rol oynamış, bir neçə dissertantın elmi rəhbəri olmuşdur. Onlardan üçü müvəffəqiyyətlə dissertasiya müdafiə edib elmi dərəcə almışlar.

1979-cu ildə Oktyabr rayon komsomol komitəsi "Gənc alim və mütəxəssislərin "Ən yaxşı elmi işinə görə, 1983-cü ildə Azərbaycan Tikinti Materialları Sənayesi Nazirliyinin, 1989-cu ildə D.İ.Mendeleyev adına Ümumittifaq kimya cəmiyyətinin fəxri fərmanları ilə təltif olunmuşdur. 1991-ci ildə "Изобретатель СССР" döş nişanı almışdır. Azərbaycan Tikinti Materialları Sənayesi Nazirliyi kollegiyasının qərarı ilə beş illiyin (1981-1985) zərbəçisi olmuş, B.İ.Leninin anadan olmasının 100 illiyi medalı almışdır. 1988-ci ildə suhazırlıq işlərində seolit tullantılarından istifadə texnologiyasının işlənməsinə və ən yaxşı elmi-tədqiqat işlərinə görə kimya cəmiyyətinin diploma layiq görülmüşdür. Əmək veteranı olmuşdur.

1971 (Bakı), 1975 (Yerevan), 1977 (Bakı), 1981 (Yerevan) və 1984 (Tbilisi) illərdə keçirilmiş Zaqafqaziya respublikalarının İnşaat Elmi-Tədqiqat İnstitutlarının VII, VIII, IX, X və XI birləşmiş sessiyalarında iştirak etmiş və məruzələrlə çıxış etmişdir.

1980-cı ildə məhsuldar elmi-istehsalat fəaliyyəti və institutun 50 illiyi münasibəti ilə Respublikanın "Əməkdar geoloqu" fəxri adına layiq görülmüşdür.

İnstitut elmi əsərlər toplusundan əlavə Azərbaycan Elmlər Akademiyasının "Xəbərlər" və Leninqradda nəşr olunan "Tətbiqi kimya" jurnallarında onun çox saylı məqalələri çap olunmuşdur.

Olduqca məhsuldar işləyən və apardığı saysız hesabsız tədqiqatlardan zövq alan Ə.M.İmanov 300-dən çox işin, o cümlədən 76 sanballı elmi-texniki hesabatın, 240 elmi məqalənin, 50 müəlliflik şəhadətnaməsinin (onlardan dördü istehsalata tətbiq olunmuşdur.), iki kitabın, bir patentin, çox saylı informasiya vərəqələri və informasiya icmalarının müəllifidir.

Ə.M.İmanov yüksək səviyyəli mütəxəssis, ciddi insan idi. O, həm də müəllim idi. Bu gün onun yetirmələri aparıcı elmi işçilər kimi fəaliyyət göstərir.

O, yaradıcı alim olmaqla yanaşı, nəcib, ədalətli, qayğıkeş insan, yaxşı yoldaş, gözəl ailə başçısı idi.

Bütün ömrünü tikintidə istifadə olunan xammalların aşkarlanmasına və öyrənilməsinə həsr etmiş, elmi axtarışları ilə yeni-yeni nailiyyətləri və elmə verdiyi töhvələrlə yadda qalan unudulmaz qeoloq, dəyərli tədqiqatçı Əli Məmməd oğlu İmanov 2005-ci il martın 11-də uzun sürən xəstəlikdən sonra vəfat etmişdir.



**İsmayılov Vüqar Tariyel oğlu**

1988-ci ildə Füzuli şəhərində anadan olmuşdur. Orta təhsilini 1994-2005-ci illərdə Bakı şəhəri, Maştağa qəsəbəsi, Əliağa Vahid adına 293 saylı tam orta məktəbdə almışdır. Orta məktəbi başa vurduqdan sonra, həmin il Qafqaz Universitetinin "İqtisadi-İdarəetmə Elmlər Fakültəsinin" "Dövlət və bələdiyyə idarəetmə" bölümünə daxil olmuş, 2010-cu ildə menecer ixtisası üzrə məzun olmuşdur. 2015-2016-cı illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Sənaye və mülki tikinti" fakültəsində inşaat mühəndisliyi üzrə ixtisasartırma kursunu bitirmişdir.

Universiteti bitirdikdən sonra 2010-2011-ci illərdə hərbi xidmətdə vətənə xidmət borcunu layiqincə yerinə yetirmişdir.

İş fəaliyyətinə 2011-ci ildən Sumqayıt Şəhər İcra Hakimiyyətində nəzarətçi inspektor olaraq başlamışdır. 2012-2013-cü illər ərzində Qafqazın ən böyük böyük boya zavodu olan "NB Qrup" ASC-də inşaat materialları üzrə marketinq mütəxəssisi kimi çalışmışdır. İşlədiyi müddətdə inşaat bazarını araşdırmış, materialların xüsusiyyəti ilə bağlı təcrübi biliklərə yiyələnmişdir.

Vüqar İsmayılov 2013-cü ildən etibarən "SMTS" MMC-də işə başlamış, planlama mütəxəssisi vəzifəsindən Satınalma və planlama Departamenti meneceri vəzifəsinə qədər yüksəlmişdir. Hal-hazırda da həmin şirkətdə öz fəaliyyətini davam etdirməkdədir.

"SMTS" MMC-də işlədiyi müddətdə bir çox beynəlxalq layihələrdə əməyi keçmiş, dünyanın qabaqcıl şirkətlərindən "Obermeyer", "Hill International", "Turner" menecment şirkətlərinin nəzarət etdiyi layihələrdə məsul vəzifələri tutmuşdur.

"SMTS" MMC-də işlədiyi dövrdə müəssisənin həyata keçirdiyi döv-



"Property Tower Baku" Lay... Əmlak Məsələləri Dövlət Kom... 33 mərtəbəli yeni "İnzibati B...

"Baku Tower Project", 50 mərtəbəli "Müasir İş Mərkəzi" Binası

"Qala-altı Otel və SPA" İstirahət və Müalicə Kompleksi

lət və özəl sektora aid mühüm layihələrin, “Property Tower Baku” layihəsi adlandırılan ƏMDK-nin 33 mərtəbəli İnzibati Binası”, “Qala-altı Otel və SPA” İstirahət Kompleksi, ƏMDK-nin İT və Mİ Mərkəzinin İnzibati Binası, “Baku Tower” layihəsi adlandırılan 50 mərtəbəli Biznes Mərkəzinin binasının tikinti layihələri, “Kapital Bank” ASC-nin İnzibati binasının tikintisi və təmiri, "Azadlıq 3" layihəsi üzrə binaların mansardında gücləndirmə işləri, “Hillside Apartments” layihəsi adlandırılan yüksəkmərtəbəli yaşayış binalarının təmir və tikintisi layihələrinin inşasına cəlb edilmişdir. İşlədiyi dövr ərzində inşaat materiallarının təhcizatı, şirkətin satınalma departamentinin idarə olunması, inşaat layihərinin plan-qrafik işinin təşkilində və tətbiqində, o cümlədən müəssisənin “Mülki və Sənaye Tikinti-Quraşdırma İşləri” sahəsində Beynəlxalq İdarəetmə sisteminin ISO 9001:2015, ISO 14001:2015, ISO 45001:2018 tələblərinə uyğunluğunun audit və sertifikatlaşmasında mühüm rol oynamışdır.

Ailəlidir, 2 övladı var.



**İsmayılova Məhbubə Əli qızı**

22 mart 1913-cü ildə Şuşa şəhərində anadan olmuşdur. Orta məktəbi Şuşada bitirmişdir. O, sonra təhsil almaq üçün Tiflisə getmiş və Gürcüstan Sənaye İnstitutuna uğurla imtahan verib “Silikatlar texnologiyası” fakültəsinə daxil oldu. Oxuduğu müddətdə ixtisas fənlərinin sirlərini dərindən mənimsədi, tələbələr arasında fərqləndi və nəhayət 1937-ci ildə bu ali təhsil ocağını “Kimya texnologiya mühəndisi” ixtisası üzrə əla qiymətlərlə bitirib təyinatını paytaxt Bakı şəhərinə aldı.

Əmək kitabçasının ilk səhifələri Bakı Şüşə Zavodunda yazıldı. Lap ilk günlərdən gənc texnoloqun bacarıq və qabiliyyəti müəssisə rəhbərliyinə də məlum oldu və o, istesalat şöbəsinə rəis vəzifəsinə təyin olundu. Burada işlədiyi dövr ərzində Məhbubə xanım həm də bu sahənin elmi əsasları ilə maraqlanmağa başladı. Çox keçmədi ki, istehsalatda və elmi axtarışlardakı uğurları barədə bir çox nazirliklərdə, zavod və fabriklərdə onun haqqında xoş sözlər eşidildi. Həmin vaxtlarda ali məktəblərdə, xüsusən də elmi-təqdiqat institutlarında gənc mütəxəssis kadrlar çatışmırdı. Belə bir vaxtda Azərbaycan Elmi Təqdiqat Tikinti Materialları İnstitutunun rəhbərliyi bu gənc texnoloqun işi ilə maraqlandı və onu aparıcı mütəxəssis kimi institutda işləməyə dəvət etdi.

Məhbubə xanım az bir müddət ərzində bu institutda da öz şəxsi və yaradıcılıq keyfiyyətlərini ortaya qoyaraq bacarıqlı mütəxəssis olduğunu sübut elədi. Ona görə də yaradılması nəzərdə tutlan Keramika labaratoriyasını təşkil etmək ona həvalə olundu. Məhbubə xanım işin öhdəsindən bacarıqla gəldi və müxtəlif avadanlıqlarla təchiz edilmiş nümunəvi bir labaratoriya yaratdı.

Həmin illərdə respublikamızın tikinti sənayesi çox sürətlə inkişaf etməyə başlamışdı. Lakin Böyük Vətən Müharibəsinin başlaması bütün sahələrdə olduğu kimi tikinti sahısində

lət və özəl sektora aid mühüm layihələrin, “Property Tower Baku” layihəsi adlandırılan ƏMDK-nin 33 mərtəbəli İnzibati Binası”, “Qala-altı Otel və SPA” İstirahət Kompleksi, ƏMDK-nin İT və Mİ Mərkəzinin İnzibati Binası, “Baku Tower” layihəsi adlandırılan 50 mərtəbəli Biznes Mərkəzinin binasının tikinti layihələri, “Kapital Bank” ASC-nin İnzibati binasının tikintisi və təmiri, "Azadlıq 3" layihəsi üzrə binaların mansardında gücləndirmə işləri, “Hillside Apartments” layihəsi adlandırılan yüksəkmərtəbəli yaşayış binalarının təmir və tikintisi layihələrinin inşasına cəlb edilmişdir. İşlədiyi dövr ərzində inşaat materiallarının təhcizatı, şirkətin satınalma departamentinin idarə olunması, inşaat layihərinin plan-qrafik işinin təşkilində və tətbiqində, o cümlədən müəssisənin “Mülki və Sənaye Tikinti-Quraşdırma İşləri” sahəsində Beynəlxalq İdarəetmə sisteminin ISO 9001:2015, ISO 14001:2015, ISO 45001:2018 tələblərinə uyğunluğunun audit və sertifikatlaşmasında mühüm rol oynamışdır.

Ailəlidir, 2 övladı var.



**İsmayılova Məhbubə Əli qızı**

22 mart 1913-cü ildə Şuşa şəhərində anadan olmuşdur. Orta məktəbi Şuşada bitirmişdir. O, sonra təhsil almaq üçün Tiflisə getmiş və Gürcüstan Sənaye İnstitutuna uğurla imtahan verib “Silikatlar texnologiyası” fakültəsinə daxil oldu. Oxuduğu müddətdə ixtisas fənlərinin sirlərini dərindən mənimsədi, tələbələr arasında fərqləndi və nəhayət 1937-ci ildə bu ali təhsil ocağını “Kimya texnologiya mühəndisi” ixtisası üzrə əla qiymətlərlə bitirib təyinatını paytaxt Bakı şəhərinə aldı.

Əmək kitabçasının ilk səhifələri Bakı Şüşə Zavodunda yazıldı. Lap ilk günlərdən gənc texnoloqun bacarıq və qabiliyyəti müəssisə rəhbərliyinə də məlum oldu və o, istesalat şöbəsinə rəis vəzifəsinə təyin olundu. Burada işlədiyi dövr ərzində Məhbubə xanım həm də bu sahənin elmi əsasları ilə maraqlanmağa başladı. Çox keçmədi ki, istehsalatda və elmi axtarışlardakı uğurları barədə bir çox nazirliklərdə, zavod və fabriklərdə onun haqqında xoş sözlər eşidildi. Həmin vaxtlarda ali məktəblərdə, xüsusən də elmi-tədqiqat institutlarında gənc mütəxəssis kadrlar çatışmırdı. Belə bir vaxtda Azərbaycan Elmi Tədqiqat Tikinti Materialları İnstitutunun rəhbərliyi bu gənc texnoloqun işi ilə maraqlandı və onu aparıcı mütəxəssis kimi institutda işləməyə dəvət etdi.

Məhbubə xanım az bir müddət ərzində bu institutda da öz şəxsi və yaradıcılıq keyfiyyətlərini ortaya qoyaraq bacarıqlı mütəxəssis olduğunu sübut elədi. Ona görə də yaradılması nəzərdə tutlan Keramika labaratoriyasını təşkil etmək ona həvalə olundu. Məhbubə xanım işin öhdəsindən bacarıqla gəldi və müxtəlif avadanlıqlarla təchiz edilmiş nümunəvi bir laboratoriya yaratdı.

Həmin illərdə respublikamızın tikinti sənayesi çox sürətlə inkişaf etməyə başlamışdı. Lakin Böyük Vətən Müharibəsinin başlaması bütün sahələrdə olduğu kimi tikinti sahısində

də gerilməyə səbəb oldu. Ancaq Məhbubə xanım yorulmadan, böyük səy və fədakarlıqla çalışır, dövlət sifarişlərini layiqincə yerinə yetirir və elmi axtarışlarını davam etdirirdi.

Müharibə başa çatdıqdan sonra Məhbubə xanım elmi işini tamamlayaraq 1949-cu ildə uğurla müdafiə elədi, texnika elmləri namizədi, alimlik dərəcəsi aldı.

Məhbubə xanım İsmayılova keramika labaratoriyasına rəhbərlik etdiyi ilk vaxtlarda tikintidə istifadə olunan keramika məmulatlarının, ilk növbədə kərpicin keyfiyyəti o qədər də yaxşı deyildi. Bunun da əsas səbəbi tələb olunan xammal ehtiyatlarının azalması idi. Elə əlavələr – aktiv materiallar tapmaq lazım idi ki, onlarınköməyi ilə gilin fiziki-kimyəvi tərkibi yaxşılaşsın. Bu işlə bağlı Məhbubə xanımın institutun superilastifikator və yapışdırıcı maddələr bölməsi ilə əməkdaşlığı öz bəhrəsini verdi, labaratoriya şəraitində sınaqlar uğurla keçdi. Alınan əlavələrin Bakı, Sumqayıt və Lənkəran kərpic zavodlarının xammal kimi istifadə etdikləri gilə təsiri gözəl nəticələr verdi. Və bu elmi nəticələri bilavasitə istehsala köçürmək nəzərdə tutuldu.

...Bakı Odadavamlı və Keramika Məmulatları Kombinatında istehsal olunan döşəmə plitələri müəssisəyə çox baha başa gəlirdi. Əsas xammal sayılan perlit respublikamıza Yerevandan gətirilirdi. Məhbubə xanımın və onun əməkdaşlarının əməyi tezliklə öz bəhrəsini verdi. Labaratoriya rəhbərinin təklifi ilə perlit əvəzinə Bakının “Elektrosentrolit” zavodunun tullantılarından – dənəvər şlaklardan istifadə edilməsi həm metlax plitələrin maya dəyərini aşağı saldı, həm də keyfiyyəti daha da yaxşılaşdırdı.

Öz sahəsi üzrə artıq respublikada tanınmış mütəxəssislərdən biri kimi Məhbubə İsmayılovanı 1952-ci ildə Azərbaycan Politexnik İnstitutuna müəllimliyə dəvət etdilər. Məhbubə xanım əvvəlki iş yerindən ayrılmamaqla buna razılıq verdi və düz 26 il ərzində “Silikat texnologiyası və inşaat materialları” fənnindən tələbələrə mühazirələr oxudu. Bu müddət ərzində neçə-neçə ixtira və səmərləli təklifin müəllifi oldu. İki yüz on beş elmi əsər yazıb çap etdirdi, müntəzəm olaraq elmi konfrans və sessiyalarda məruzələrlə çıxışlar etdi. Onun çapa hazırladığı “Azərbaycanın gilləri” monoqrafiyası və “Kərpicin istehsalı” əsəri tələbə və müəllimlərin tez-tez müraciət etdiyi stolüstü kitab idi.

Ümumiyyətlə, Məhbubə xanımın səmərələşdirici təklifləri, təqdiqat və araşdırmaları xalq təsərrüfatının bərpasında və inkişafında, sənaye və quruculuq işlərində çox böyük bəhrəsini verdi. Onun təqdiqatları nəticəsində yeni keramikanın-kvars tikinti keramikasının kvars çöl şpatı əsasında alınmasının mümkünlüyü müəyyən edildi. Respublikamızda iri müəssisələrin əksəriyyəti onun rəhbərliyi ilə yerinə yetirilmiş işlər əsasında tikildi.

Məhbubə xanım 1988-ci ilə qədər – təqaüdə çıxana qədər S.Ə. Dadaşov adına Azərbaycan Elmi Təqdiqat Tikinti Materialları İnstitunda çalışdı və bu illərdə institutun həyatında mühüm, aparıcı rol oynadı, Azərbaycan tikinti sənayesinin inkişafında və mühəndis kadrlarının hazırlanmasında xüsusi xidmətləri oldu. Onlarla tələbəsi – Oqtay Mustafayev, Nailə Paşayeva, Zülfüqar Allahquliyev, Sevinc Ağabəyova, Səlim Səlimov, Naibə Səmədova, Məmmədəmin Əfəndiyev, Növrəstə Quliyeva, İsmayıl Qafarov, Roza Quliyeva və başqaları Məhbubə xanımın yolu ilə getdilər, elm sahəsində

yüksək zirvələr fəth etdilər, müxtəlif rəhbər vəzifələr tutdular.

Məhbubə İsmayılovanın əməyi dövlət tərəfindən yüksək qiymətləndirilib, “Şərəf Nişanı” ordeni ilə, bir çox medallarla təltif olunub, 1980-ci ildə o, Azərbaycanın Əməkdar Mühəndisi fəxri adına layiq görülüb.

Məhbubə xanımın ailəsini haqlı olaraq “alimlər ailəsi” adlandırırlar. Dörd nəfərlik ailədə dörd eləmlər namizədi yetişib. Həyat yoldaşı Vəli Avalov və qızı Elnarə texnika elmələri namizədi, oğlu Elturan isə memarlıq namizədidir.

Bütün həyatını elmi-pedaqoji fəaliyyətə həsr edən istedadlı alim, gözəl pedaqoq, bacarıqlı təşkilatçı Məhbubə xanım İsmayılova həm də mehriban, güləruz, son dərəcə saf, məsum, utancaq bir qadın idi. Azərbaycan qadınlarına başucalığı gətirən bütün milli keyfiyyətlər onun simasında cəmlənmişdi.

Elinə, obasına, xalqına, layiqli, şərəfli və uzun bir ömür yaşayan Məhbubə Əli qızı İsmayılova 80 illik həyatında bir gün də olsa Şuşanı unutmadı. Ömrünün son günlərini torpaq həsrəti ilə keçirən Məhbubə xanım 2 fevral 1993-cü il tarixdə haqq dünyasına qovuşdu.



**İsmayılov Hümbət Şaban oğlu**

6 aprel 1937-ci ildə Gürcüstan Respublikası Bolnisi rayonunun Faxralı kəndində anadan olub. 1956-cı ildə orta məktəbi bitirdikdən sonra hərbi xidmətə gedib.1960-cı ildə Azərbaycan Politexnik İnstitutunun Sənaye və Mülki Tikintisi fakültəsinə daxil olub. 1965-ci ildə institutu bitirdikdən sonra “Azərdövlətsənayelayihə” İnstitutuna mühəndis vəzifəsinə işə qəbul olunub. 1973-cü ildə işdən çıxıb və Gürcüstan Respublikası Bolnisi rayonunda Layihə bürosunda rəis vəzifəsində işləyib.

1992-ci ilin oktyabr ayından 2006-cı ilin iyun ayınadək Azərbaycan Respublikası “Azərdövlətsənaye” DLİ institutunun baş konstruktoru vəzifəsində çalışdığı 15 il müddətində Hümbət müəllim respublikanın sənaye və mülki tikintiləri, hərbi və səhiyyə, təhsil və sağlamlıq infrastrukturlarına malik müxtəlif layihələndirmə işlərinin konstruktiv hesabatlarını bilavasitə özü yerinə yetirmiş və bu layihələr üzrə yerinə yetirilən tikinti işlərində müxtəlif nəzarət xətti ilə iştirak etmişdir.

Baş konstruktor kimi rəhbərlik etdiyi layihələndirmə işləri və onların əsasında yerinə yetirilən tikinti işləri demək olar ki, respublikamızın bütün şəhər, rayon və qəsəbələrini əhatə etmişdir.

Belə ki, respulikanın milli aviasiyasının yenidən qurulması xətti ilə Naxçıvan və Gəncə hava limanlarının layihələndirlməsi və tikintiləri, Bakı şəhərində Heydər Əliyev Beynəlxalq Hava Limanında mövcud Aerovağzal Kompleksinin yenidən qurulması, “BOİNG-767” tipli təyyarələr üçün və son modelli helikopterlər üçün Anqar Kompleksləri, Karqo Terminalı, dəmir-beton və asfaltbeton örtüklü UEZ, Elektron Hasar, Zabrat Hava limanının yenidən qurulması və bir sıra digər yerinə yetirilən işlər üzrə layihə-smeta sənədlərinin hazırlanması, respublikanın Müdafiə Sənaesi Nazirliyi xətti ilə Bakı şəhərinin müxtəlif rayon və qəsəbə-

lərində və həmçinin Şirvan şəhərində mövcud keçmiş tikililərin Hərbi Müdafiə Sənayesi üçün bütün infrastrukturları ilə yenidən qurulması layihələrinin hazırlanması və onların əsasında yerinə yetirilən tikinti işləri, aqrar sənaye kompleksinin inkişafı və yenidənqurulması xətti ilə respublikanın 25 rayonunda "Aqrolizinq" komplekslərinin layihələndirilməsi və müxtəlif nəzarət xətti ilə tikinti işləri, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu və Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidənqurulması Agentliyinin (AYBA) sifarişləri əsasında Fizuli rayonunda hər birində 200 ailəlik olmaqla 10 qəsəbənin layihələndirilməsi, respublikanın Müdafiə Nazirliyinin tapşırığı ilə Bakı şəhəri, Qaradağ rayonuda "Qara Heybət" hərbi hissəsinin kompleks yenidənqurulması layihəsinin hazırlanması və tikinti işlərində bilavasitə iştirakı, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tapşırıqları əsasında Bakı şəhərində bir sıra xəstəxana komplekslərinin yenidənqurma layihələrinin və həmçinin bir neçə özəl klinikaların işçi layihələrinin hazırlanması işlərində bilavasitə iştirak etmişdir.

Bütün bunlardan başqa Sabirabad, Qax və Oğuz rayonlarında Olimpiya İdman Komplekslərinin, Yevlax şəhərində Milli Bankın filialının, Bakı şəhərinin Sahil qəsəbəsində 12 və 16 mərtəbəli yaşayış binalarının, Bakı şəhərinin Zorge küçəsində 22 mərtəbəli, Dilarə Əliyeva küçəsində 13-15 mərtəbəli, İnşaatçılar prospektində 12 və 14 mərtəbəli, Təbriz küçəsində 15 mərtəbəli yaşayış binalarının, Xətai rayonunda "Ortopedik Bərpa Mərkəzi" xəstəxanasının, Binəqədi, Yasamal və Səbail rayonlarında 12-14 mərtəbəli binalardan ibarət yaşayış komplekslərinin, respublikamızın Şamaxı, Ağsu rayonlarında, Gəncə şəhərində "Bakcell" Telekomun tapşırığı əsasında 60-80 m hündürlüyündə metal konstruksiyalı ötürücü qüllələrinin kompleks layihələrinin və s. saysız-hesabsız iri və xırda miqyaslı obyektlər üzrə işçi layihə sənədlərinin hazırlanması məhz Hümbət İsmayılovun gərgin əməyi və yüksək peşəkarlığı sayəsində vaxtında işlənib sifarişçilərə təhvil verilmişdir.

# K



**Kazımov Məsim Musa oğlu**

1944-cü il sentyabr ayının 15-də Tovuz rayonunun Qovlar kəndində (hazırkı Qovlar şəhərində) anadan olmuşdur. 1952-ci ildə Qovlar kənd orta məktəbinin birinci sinfinə daxil olmuş və 1962-ci ildə həmin məktəbin onuncu sinfini bitirmişdir. Elə həmin ildə də Azərbaycan Neft və Kimya İnstitutunun geoloji kəşfiyyat fakültəsinə daxil olmuş, 1967-ci ildə həmin institutda təhsilini metro-tunel ixtisası üzrə başa vurmuşdur.

Təhsilini bitirəndən sonra Məsim Kazımov təyinatla Qazax rayonunun Daş Salahlı kəndindəki daş karxanasında mühəndis vəzifəsində ilk əmək fəaliyyətinə başladı. 1970-ci ildə onu 3 saylı tikinti trestinin Qovlarda yerləşən tikinti idarəsinə iş icraçısı göndərdilər. Məsim Kazımov orada 1977-ci ilə qədər işlədi. 1977-ci ildə onu Qovlar qəsəbəsindəki Mirbəşir Qasımov adına sovxoza tikinti mühəndisi vəzifəsinə təyin etdilər.

1988-ci ildə Məsim Kazımov Qovlar qəsəbə icraiyyə komitəsinin sədri seçildi. 2000-ci ildə öz ərizəsi ilə bu işdən azad olundu.

2006-cı ildə Məsim Kazımov Gəncə 3 saylı təmir-tikinti idarəsinə iş icraçısı vəzifəsinə dəvət olundu. Burada işləyərkən o, Tovuzda I Qarabağ müharibəsi əlilləri üçün inşa edilən üçmərtəbəli binaların tikintisinə rəhbərlik etdi.

2007-ci ildə Məsim Kazımovu Tovuzda yaradılan tikinti MMC-yə mühəndis vəzifəsinə təyin etdilər. Həmin ildən başlayaraq o, Tovuz şəhərində və rayonun kəndlərində aparılan tikinti-abadlıq işlərinin həyata keçirilməsində yaxından iştirak etdi. Onun başçılığı ilə Tovuz Rayon İcra Hakimiyyətinin binası yenidən quruldu. Nəsirəddin Tusi



*Tovuz rayonunda Heydər Əliyev parkının giriş layihəsi Məsim Kazımova məxsusdur.*

adına Tovuz şəhər tam orta məktəbinin binası, Qazqulu kənd tam orta məktəbinin binası və bir çox başqa tikililər onun rəhbərliyi altında inşa olundu.

Xalq arasında Alman parkı adı ilə məşhur olan Tovuz şəhər parkının girişindəki Butalar adlanan arkaların layihəsi Məsim Kazımov tərəfindən hazırlanmışdır. Həmin arkaların tikintisi və parkda aparılan abadlıq işləri də onun nəzarəti altında həyata keçirilmişdir.

Tovuz şəhərində "Turan" şadlıq evinin qabağındakı, Öysüzlü döngəsindəki, Dağ yolundakı ornamentli tikinti-bəzək işləri də Məsim Kazımovun yaradıcılığının məhsullarıdır.

Məsim Kazımov Qovlar şəhərinin giriş layihəsini hazırlamış, onun tikintisinə rəhbərlik etmişdir.

Məsim Kazımovun mühəndislik fəaliyyətinin ən gözəl incilərindən biri də Tovuz şəhərinin şərq girişində yaradılan park-tikinti kompleksidir. Bu kompleksin ayrı-ayrı komponentləri bir-birini harmonik şəkildə tamamlayaraq bənzəri olmayan bir gözəllik yaradır.

Məsim Kazımov hazırda təqaüdçü olsa da, Tovuzda inşa olunan bütün tikintilərdə yenə də öz faydalı məsləhətlərini əsirgəmir.



**Kəngərli Nəsrulla Yaqub oğlu**

1913-cü il noyabr ayının 25-də Naxçıvanda anadan olmuşdur.

Babası İsmayıl ağa rus-türk müharibəsində hünər göstərmiş 200 nəfərlik süvari döyüşçüyə rəhbərlik etmiş, şücaətinə görə çar hökuməti ona poruçik rütbəsi və Naxçıvanda mülk vermişdir. Atası Yaqub Paşa cəmi dörd sinif oxusa da, elmlərə bələd, siyasətdən baş çıxaran bir adam kimi tanınmış, ərəb, fars, rus dillərini və osmanlıcanı bilməsi ilə seçilmişdi. İran və Osmanlı ziyalıları ilə əlaqələr saxlayan, zəngin kitabxana yaradan Yaqub Paşa Kəngərli rus şərqşünası Konstantin Smirnova "Naxçıvan elinin tarixi və etnoqrafiyasına dair materiallar" kitabını yazmaqda kömək göstərmişdir. 1918-ci ilin qanlı erməni basqınlarının qarşısının alınmasında ağıl və hünəri ilə fərqlənmişdi. Belə bir mühitdə və huşyar ailədə böyüyən Nəsrulla sovet dovrünün ilk illərində məktəb təhsili almış, 1929-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra muxtar respublikanın kəndlərində dərs demişdi.

Yaqub Paşa isə sovet quruculuğunda fəal iştirak etsə də İran vəTürkiyə ilə əlaqə saxlamaqda şərlənib 1939-cu ildə güllələnmişdi. Ailə Qazaxıstana sürgün olunmuş, yalnız 1964-cü ildə vətənə qayıda bilmişdi. Təhsil alması ilə bağlı Naxçıvandan kənarda olması Nəsrullanı bu sürgün və cəzadan xilas etmişdi. O,1932-ci ildə Gəncə Toxuculuq İnstitutuna daxil olmuş, 1 il sonra təhsilini Bakıda Sənaye İnstitutunun memarlıq-inşaat fakültəsində davam etdirmişdi. Gənc memar 1941-ci ildə fəaliyyətini yarımçıq qoyaraq II Dünya müharibəsinə getmiş, 416-cı Azərbaycan diviziyasının tərkibində Qafqazdan Berlinədək yol keçmişdi.

Cəbhədən orden-medallarla qayıdan Nəsrulla Kəngərli 46 il "Azərdövlətmemarlayihə", "Bakıdövlətlayihə", "Azərdövlətlayihə" institutlarında çalışaraq ömrünü sevimli məşğuliyyətinə həsr etmişdir. Bu dövrün istedadlı və aparıcı

memarları olan Mikayıl Hüseynovun, Ənvər Qasımzadənin, Davud Axundovun və başqalarının sırasında peşəkarlığı, çalışqanlığı ilə seçilən Nəsrulla Kəngərli tezliklə bir sıra diqqətçəkən layihələrin müəllifi kimi tanınmışdır. 1945-ci ildən "Azərdövlətmemarlayihə", "Bakıdövlətlayihə", "Azərdövlətlayihə" institutlarında çalışmış, Bakıda bir çox yaşayış evlərinin və ictimai, inzibati binaların layihələrini vermişdir. Bakıda Nizami küçəsində, İnşaatçılar prospektində, Nərimanovun heykəlinin ətrafındakı yaşayış binaları klassik və müasir memarlığın sintezi nümunələri kimi memarı şöhrətləndirmişdir. Neftçilər və Azadlıq prospektlərində, şəhərin digər yerlərində tikilmiş məktəb binaları da milli memarlıq elementlərinin zənginliyi, yaraşıqlığı və möhtəşəmliyi ilə bu gün də baxanları heyran qoyur. Bakıda Mərkəzi Univermağın, Tibb Universitetinin korpusunun və idman kompleksinin, Gəncədə Dəmiryol vağzalının, Xankəndində inzibati binanın layihələri Azərbaycan memarlığının seçilən nümunələri sırasında yer alaraq Nəsrulla Kəngərli adına böyük nüfuz gətirmişdir. Onun layihələndirdiyi binaların tam siyahısı çox uzundur.

Təkcə onu demək kifayətdir ki, Sumqayıt şəhərinin ən gözəgəlimli binaları da daxil olmaqla, baş planını Nəsrulla Kəngərli layihələndirmişdir. Bu ağır və orijinal işə görə memar SSRİ Nazirlər Sovetinin mükafatına layiq görülmüşdür. Onun, nədənsə, həyata vəsiqə ala bilməmiş əsərlərindən Kənd Təsərrüfatı Nazirliyinin binası, Ticarət evi, inzibati korpus və s. parlaq memar təxəyyülünün məhsulu kimi indi də xatırlanır.




*Bakı şəhəri, Mərkəzi Univermaq*

Ümumiyyətlə, 1968-1985-ci illərdə şəhərin baş planı, yaşayış məhəllələrinin, ictimai və digər təyinatlı binaların layihələri “Azərdövlətlayihə” institutunda onun başçılıq etdiyi emalatxanada işlənib hazırlanmışdır.

1951-ci ildən respublikanın orta ixtisas və ali məktəblərində dərs demiş, 1968-1990-cı illərdə Azərbaycan Politexnik İnstitutunda (indiki Azərbaycan Texniki Universiteti), sonralar isə İnşaat Mühəndisləri İnstitutundakı (indiki Memarlıq və İnşaat Universiteti) Memarlıq konstruksiyaları kafedrasının dosenti olmuşdur.

Nəsrulla müəllim sənətini həddən artıq çox sevirdi. Bircə faktı qeyd etmək olar ki, müharibədən qayıdanda Berlindən gətirdiyi yeganə “qənimət” memarlıq albomu olmuşdu. Tez-tez bu toplunu vərəqləyir, dağıdılmış gözəl binalara görə təəssüflənirdi. O, öz layihələrinin həyata keçirilməsinə ciddi nəzarət edir, çox vaxt tikintilərdən toz-torpaq içində gəlirdi. Bu insan memarlığa milli varlığımızın əzəmətli görüntüsü, milli kimliyimizin güc və qüdrəti kimi baxırdı. Bir də o, ömrü boyu Azərbaycanın müstəqilliyi ideyasını qəlbində yaşatmışdı. Nə yaxşı ki, o günü görmək ona qismət oldu. Bu sevinc, sanki, nəslinin başına açılmış oyunların ağrı-acısını ona unutdurdu. Dünyadan ölkəmizin taleyi sarıdan nigaran köçmədi.

Nəsrulla Kəngərli “Qırmızı Ulduz“ ordeni, digər orden və medallarla təltif edilmişdir. 1960-cı ildə Azərbaycan Respublikasının “Əməkdar inşaatçısı” fəxri adına layiq görülmüş, 1972-ci ildə SSRİ Dövlət Mükafatı laureatı olmuşdur. Nəsrulla Kəngərli 1991-ci il fevral ayının 25-də Bakıda vəfat etmişdir. Böyük oğlu Tələt geoloq alim, oğulları Aqşin və Aydın isə tanınmış həkimdirlər.

# Q

**"Qarabağ E.R." Məhdud Məsuliyyətli Cəmiyyəti**

2010-cu ildə "Azərsutikinti" Açıq Səhmdar Cəmiyyətinin Tərtər rayonundakı "Qarabağsutikinti" törəmə müəssisəsinin bazasında ölkə tikintisində ilk əmək fəaliyyətinə Kənd Tikinti Nazirliyindən başlayıb, hardasa 45 ilə yaxın bir dövrdə respublikamızın tikinti kompleksində ayrı-ayrı nazirlik və təşkilatlarda çalışaraq adını tikinti tariximizdə tikib ucaltdığı çoxsaylı binalarla tarixləşdirən respublikanın Əməkdar Mühəndisi Vəli Nəbi oğlu Albəndov tərəfindən təsis edilmişdir və artıq 9-cu ildir ki, cəmiyyət ölkə tikintisində inamla addımlayır. Qeyd edək ki, əsil inşaatçı-mühəndis ömrü yaşayan Vəli Albəndov çağdaş nəsil inşaatçılar üçün nümunə və örnək olacaq rəhbər kadrlardandır.

"Qarabağ-E.R." MMC-nin kollektivi son illərdə respublikamızda çoxlu sayda infrastruktur layihələrini reallaşdırmışdır.

Əvvəlcə "Qarabağ-E.R." MMC-nin təsisçisi və yaradıcısı Vəli Albəndov haqqında oxucularımız üçün yığcam məlumat verək.

Albəndov Vəli Nəbi oğlu 20 yanvar 1952-ci ildə Tərtər rayonunun Ələsgərli kəndində anadan olub. 1958-ci ildən Tərtər rayonunun Ələsgərli kənd 8 illik məktəbində təhsil alıb. 1968-ci ildə Tərtər şəhər 1 nömrəli məktəbin 10-cu sinfini bitirib. 1969-cu ildə Gəncə şəhərindəki İnşaat texnikumunun "Sənaye və Mülki Tikintilər" fakültəsinə qəbul olub, 1972-ci ildə həmin texnikumun tam kursunu bitirib "İnşaat texniki" ixtisasını alıb.

1972-1976-cı illərdə "Kəndtikinti" Nazirliyinin Tərtər rayonundakı 61 saylı Səyyar Mexanikləşdirilmiş Dəstəsində iş ustası vəzifəsində çalışıb. 1976-cı ildə Azərbaycan Respublikası Meliorasiya və Su Qurğuları İdarəsinin Tərtər rayonundakı 15 saylı TQİ-də iş icraçısı vəzifəsinə qəbul edilmiş, 1977-ci ilin avqust ayında nazirliyin göndərişinə əsasən Bərdə rayonundakı 17 nömrəli SMD-nə iş icraçısı vəzifəsinə təyin olunmuşdur.

Vəli Albəndov 1977-1980-ci illərdə "Azərsutikinti" Dövlət Konserninin Bərdə rayonundakı 17 nömrəli SMD-də və 32 nömrəli TQİ-də baş iş icraçısı, 1980-1983-cü illərdə həmin təşkilatda baş mühəndis vəzifəsində işləmişdir.

O, 1981-ci ildə təhsilini artırmaq üçün Özbəkistan Respublikasının Daşkənd



*Prezidentlə hər görüş növbəti əmək qələbələrinə stimul verir...*

şəhərində Abu Reyhani Beruni adına Politexnik İnstitutunun İnşaat Mühəndisləri fakültəsinə qiyabi yolla qəbul olub və 1987-ci ildə həmin institutu bitirmişdir.

1983-cü ilin oktyabr ayında Bərdə rayon Partiya Komitəsinin göndərişləri əsasında Bərdə rayonundakı Pambıq Zavodları üzrə "Əsaslı tikinti" şöbəsinin rəisi, 1984-cü ilin noyabr ayında Baş Kolxoz və Sovxozlararası Tikinti Birliyinin Bərdə rayonundakı 46 nömrəli SMD-nə baş mühəndis, 1987-1992-ci illərdə "Azərsutikinti" Dövlət Konserninin Bərdə rayonundakı 32 nömrəli TQİ-nin rəisi, 1992-1996-cı illərdə "Qarabağsutikinti" Trestinin müdiri, 1996-1998-ci illərdə "Azərsutikinti" Dövlət Konserninin Tərtər rayonunda yerləşən 15 nömrəli TQİ-nin müdiri, 1998-2010-cu illərdə Azərbaycan Respublikası Prezidentinin 851 nömrəli Sərəncamı ilə yaradılmış "Azərsutikinti" Səhmdar Cəmiyyətinin Tərtər rayonundakı "Qarabağsutikinti" törəmə müəssisəsinin müdiri vəzifəsində işləmişdir. 2010-cu ildə "Qarabağsutikinti" törəmə müəssisəsinin bazasında "Qarabağ E.R." MMC yaradılmış və həmin vaxtdan Vəli Albəndov cəmiyyətin direktoru vəzifəsində çalışır.

Vəli müəllim istehsalatda qazandığı əmək uğurlarına görə dəfələrlə "Sosializm yarışının qalibi" olmuş, Azərbaycan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətinin "Sosial İqtisadi-İnkişaf Proqramının yerinə yetirilməsindəki fəal işinə, mərdliyinə və Vilayət əhalisinin həyat şəraitinin yaxşılaşdırılmasına göstərdiyi böyük köməyinə görə Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1991-ci il tarixli, 269 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının "Fəxri fərmanı" ilə təltif edilmişdir.

Vəli müəllim həmçinin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 04 iyun 2012-ci il tarixli 2265 nömrəli Sərəncamla Azərbaycanda meliorasiya və su təsərrüfatının inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunmuş, 10 aprel 2017-ci ildə isə ölkə tikinti kompleksi-

nin inkişafındakı xidmətlərinə görə "Əməkdar Mühəndis" fəxri adı almışdır.

Qeyd edək ki, "Qarabağ E.R." MMC-nin kollektivi son illərdə respublikamızda çoxlu sayda infrastruktur layihələrini reallaşdırmışdır.

Belə ki, Azərbaycan Respublikasının Dövlət proqramlarında nəzərdə tutulan sosial infrastrukturların yaxşılaşdırılması proqramlarında büdcə vəsaiti hesabına nəzərdə tutulan əsaslı tikinti, yenidənqurma, meliorasiya və irriqasiya layihələrinin, eləcə də Dünya Bankının, İslam İnkişaf Bankının və Azərbaycan hökumətinin ayırdığı kredit və qrant vəsaitləri hesabına bir sıra layihələrin icrası "Qarabağ E.R." MMC-nin inşaatçıları tərəfindən həyata keçirilmişdir.

Hazırkı vaxtda Vəli müəllimin rəhbərlik elədiyi özəl müəssisə ölkə tikintisində lazımı səviyyədə iş həcmi yerinə yetirə bilən təşkilatlar sırasındadır.

Bərdə şəhərində "Uşaq incəsənət məktəbi", Ağcabədi rayonunda Qarqar çayında sahil bərkitmə işləri, Bərdə rayonunda qaçqın və məcburi köçkünlər üçün 7 mərtəbəli 42 mənzilli yaşayış binası, Bakı şəhəri Müşfiqabad qəsəbəsində qaçqın və məcburi köçkünlər üçün 5 mərtəbəli 80 mənzilli yaşayış binası, Bərdə şəhərində sahil bərkitmə işləri və sair yüzlərlə obyektlər, "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sifarişləri əsasında – Bərdə rayonu ərazisində torpaq sahələri-



*"Qarabağ-E.R." MMC-nin təsisçisi və direktoru Vəli Albəndov Tərtər şəhərində 100 yerlik uşaq bağçasının açılışında çıxış edərkən...*





nin əkinə yararlığının yaxşılaşdırılması tədbirləri, 680 hektar əkinə yararlı sahələrdən qrunt silarının kənarlaşdırılması, çox saylı layihələrin tamamlanması, Bərdə şəhərinin, Tərtər çayı ərazisində çay məcrasında layihə əsasında 2 ədəd hər biri 3200 kvadrat metr olan su hövzəsi tikilmiş və insanların istifadəsi üçün 2 ədəd dayaqsız troslarla asma körpü və çay məcrasında Tarixi Abidənin mühafizəsi və abadlaşdırılması işləri, (Tikintinin gedişi zamanı Azərbaycan Prezidenti cənab İham Əliyev tikinti sahəsində olmuş, səmərəli təkliflər vermiş və həmin tikinti obyektinin açılış mərasimində iştirak etmişdir), Ağcəbədi rayonunun Taxtakörpü ərazisində Laçın rayonundan olan qaçqın və məcburi köçkünlərin təsərrüfatlarının su təminatının yaxşılaşdırılması





*Ölkəmizin tanınan və böyük nüfuz sahibi olan, tikintidə çoxillik zəngin təcrübəyə malik inşaat mühəndisi, respublikanın Əməkdar Mühəndisi Vəli Albəndovun respublikamızın müxtəlif ünvanlarında ərsəyə gətirdiyi obyektlərin sayı yüzlərlədir. Oxuculara təqdim olunan bu foto-görüntülər Tərtər şəhərində ötən ilin sonunda açılışı olan 100 yerlik uşaq bağçasıdır. Hazırkı vaxtda da "Qarabağ E.R." MMC-nin inşaatçıları Vəli müəllimin rəhbərliyi altında bir sıra vacib obyektlərin tikintisini yüksək əzmkarlıqla həyata keçirməkdədir.*

məqsədi ilə beton kanal, hidrotexniki qurğu və körpülər, Goranboy rayonunun ərazisində suvarılan torpaqların su taminatının yaxşılaşdırılması məqsədi ilə Xanarx kanalının, hidrotexniki qurğuların, körpülərin və selötürücülərin tikinti işləri, Tərtər rayonunun ərazisində Tərtər çayının sağ sahilində sel sularından mühafizə məqsədi üçün sahilbərkitmə işləri, hidrotexniki qurğular, körpülər və selötürücü qurğular, Tərtər rayonunun Evoğlu, Küçərli və Qaraqoyunlu kəndlərində əkin sahələrinin yeraltı qaynama sularından təmizlənməsi və torpaqların meliorativ yaxşılaşdırılması üçün: "Qrunt sularının səviyyəsinin aşağı salınması" layihəsi üzrə işlər, Bərdə rayonunun yeraltı qaynama sularından təmizlənməsi və torpaqların meliorativ yaxşılaşdırılması məqsədi ilə "Qrunt sularının səviyyəsinin aşağı salınması" layihəsi üzrə işlər, Ağdam rayonunun Ergi massivində əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədi ilə Qarabağ kanalına baş suqəbuledici qurğunun tikintisi, Agcəbədi rayonunun Xocavənd kəndi ərazisindən keçən Qarqar çayında sel sularından mühafizə məqsədilə beton qoruyucu bənd, 24 metr aşırımında metal körpü və 1 ədəd səviyyəendirici qurğunun tikintisi, Bərdə şəhərində Heydər Əliyev adına milli parkın ərazisindən keçən Tərtər çayında beton sahilbərkitmə işləri, 2 ədəd səviyəendirici qurğu, 85 m uzunluğunda müasir üslubda tikilmiş asma körpü, 2 ədəd 120 min kub metr tutumunda gölün tikintisi Vəli Albəndovun rəhbərliyi ilə "Qarabağ E.R." MMC-nin inşaatçıları tərəfindən aparılmışdır.

Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişləri əsasında Bakı şəhəri, Muşfiqabad qəsəbəsində müasir üslubda 5 mərtəbəli, 80 mənzilli yaşayış binası və Bərdə şəhərində muasir uslubda 7 mərtəbəli, 42 mənzilli yaşayış binasının istismara verilməsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmişdir.

2014-cü ildə "Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında Bərdə şəhərində müasir üslubda, yeni 4 mərtəbəli, 450 yerlik incəsənət məktəbi tikilib istifadəyə verilmiş və İncəsənət məktəbinin açılışında cənab İlham Əliyev iştirak etmiş, inşaatçıların əməyini yüksək qiymətləndirmişdir.

Həmçinin Tərtər rayon İcra Hakimiyyətinin sifarişi əsasında Tərtər rayonunun Kəngərli kəndində, 220 yerlik 2 mərtəbəli tam orta məktəb binası, Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin (AYBA) sifarişi əsasında Tərtər çayının Bərdə rayonunun Zümürxan kəndi ərazisindən keçən hissəsində sahilbərkitmə işləri, Tərtər rayonunun Qapanlı kəndində Tibb məntəqəsinin binası və sair obyektlər son vaxtlar Vəli Albəndovun rəhbərlik elədiyi "Qarabağ E.R." MMC-nin kollektivi tərəfindən həyata vəsiqə almışdır.

Hazırkı vaxtda da "Qarabağ E.R." MMC-nin inşaatçıları bir sıra vacib obyektlərin tikintisini yüksək əzmkarlıqla həyata keçirməkdədir.

V.Albəndov ailəlidir, üç övladı – iki oğlu, bir qızı var, hər üçü ailəlidir, səkkiz nəvəsi var. Vəli müəllim övladlarını da bu Vətən üçün gərəkli vətəndaşlar kimi böyüdüb tərbiyələndirib.

45 ildən çox tikinti təcrübəsi olan Vəli müəllimin 1972-ci ildən başlanan tikinti-quruculuq yolu hallıq üzərindən başladığı üçün onun 2010-cu ildə yaratdığı "Qarabağ E.R." MMC bu gün bir-birinin ardınca böyük inşaat uğurlarına imza atmaqdadır.



**Qasımov Vüqar Manaf oğlu**

1964-cü il iyulun 25-də Lənkəran şəhərində anadan olmuşdur.

O, 1971-ci ildə Lənkəran şəhər 3 nömrəli orta məktəbin birinci sinfinə qəbul olunmuş, 1981-ci ildə həmin məktəbin 10-cu sinfini fərqlənmə ilə bitirmişdir. 1982-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun "Sənaye və mülki tikinti" fakültəsinə qəbul olunmuşdur.

1984-1986-cı illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur. 1989-cu ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun "Sənaye və Mülki tikinti" fakültəsini müvəffəq qiymətlərlə bitirmişdir.

Vüqar Qasımov 1989-cu ildən "Kəndtikinti" Nazirliyinin Lənkərandakı 38 nömrəli SMD-də əmək fəaliyyətinə başlamış, 1990-cı ildən həmin nazirliyin Lənkərandakı 34 nömrəli SMD-də iş icraçısı və 1995-ci ildən böyük iş icraçısı vəzifələrində çalışmışdır.

V.M. Qasımov 1996-cı ildən struktur birləşmələri nəticəsində "Azərkəndtikinti" ATSC-nin Lənkəran 2 nömrəli Sənaye Kombinatında iş icraçısı vəzifəsində işə başlamış, 2004-cü ildən həmin kombinatında Aparıcı mühəndis və Baş mühəndis vəzifələrində çalışmışdır.

Vüqar Qasımov 12. 04. 2013-cü ildən "Azərkəndtikinti"ATSC-nin Lənkəran 2 nömrəli Sənaye Kombinatının rəisi vəzifəsinə təyin edilmişdir və hal-hazıra kimi həmin vəzifədə çalışır.

O, 2004-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. Hazırkı vaxtda ilk partiya təşkilatının katibidir və partiyanın tədbirlərində yaxından iştirak edir.






V.M. Qasımov ailəlidir, iki övladı var.

Əmək fəaliyyəti illərində Vüqar Qasımovun bilavasitə rəhbərliyi altında tikilib istifadəyə verilmiş yüzlərlə sosial mədəni obyektlər bu gün onun üçün əsil qürur mənbəyi olan ünvanlardır. Çünki bu obyektlərdə onun gərgin keçən zəhmət dolu illəri vardır.

Liman şəhərində uşaq bağçası, Lənkəran 4 nömrəli çay fabriki, Lənkəran şahmat məktəbi, Lənkəran şəhərində 56 mənzilli yaşayış binası, Lənkəran şəhərində Mülki Müdafiə qoşunları üçün hərbi şəhərcik, Cəlilabad rayonunun Qasımbəyli kəndində Seysmologiya İdarəsi, Lənkəran rayonu Şağlaküçə kəndində 240 yerlik orta məktəb, Masallı şəhərində Ticarət mərkəzi, Lənkəran Yanğından Mühafizə İdarəsi, Masallı şəhərində mebel evi, Lənkəran şəhərində şadlıq sarayı, Liman şəhərində şadlıq sarayı və cənub bölgəsində digər onlarla tikililər Vüqar Qasımovun fəaliyyət illərinin yadigarlarıdır.

O, bu gün də ölkənin tikinti yönümündə quruculuq fəaliyyətini uğurla davam etdirir.







*"Azərkəndtikinti"ATSC-nin Lənkəran 2 nömrəli Sənaye Kombinatının rəisi Vüqar Qasımovun tikintisinə rəhbərlik etdiyi obyektlərdən görüntülər...*



**Qasımov Salam Vəli oğlu**

1974-cü il dekabr ayının 20-də Tovuz rayonunun Qoşa kəndində andan olmuşdur. 1990-ci ildə Qoşa kənd natamam orta məktəbini, 1992-ci ildə isə Bakı Dövlət Universitetinin nəzdində fəailiyyət göstərən 1 saylı Fizika-Riyaziyyat və İnformatika təmayülü litseyi bitirərək orta təhsili başa vurmuşdur. 1997-ci ildə Azərbaycan İnşaat Mühəndisləri Universitetinin "sənaye və mülki tikinti" ixtisasına yiyələnmişdir.

1998-2003-cü illərdə müxtəlif tikinti təşkilatlarında müqavilə əsasında işləmişdir. 2003-2008-ci illərdə tanınmış konstruktor Nazim Poluxovun rəhbərliyi altında çox sayda iri həcmli obyektlərin layihələndirilməsində yaxından iştirak etmiş, yüksək təcrübə qazanmışdır. Bu təcrübənin nəticəsi olaraq 2008-ci idə Azərbaycan Respublikasında qocaman layihə müəssisələrindən biri "Bakı Dövlət Layihə İnstitutu"nda konstruktor şöbəsinə 10-cu dərəcəli mühəndis kimi qəbul olmuş və işdə fərqləndiyinə görə tezliklə ona 11-ci dərəcəli mühəndis vəzifəsi verilmişdir. 08.09. 2009-cu ildə öz xahişi ilə işdən azad olunmuşdur.

2009-2015-ci illərdə müstəqil layihələndirmə fəaliyyəti ilə məşğul olmuş, çox sayda yaşayış binalarının, məktəblərin, baxçaların, qeyri-yaşayış obyektlərinin, habelə hərbi hissələrin layihələndirilməsində konstruktor olmuş və tikinti zamanı müəllif nəzarətini həyata keçirmişdir.

2015-ci ildən tikinti və layihə təşkilatı olan "Məkan-İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətini yaratmışdır. Hal-hazırda həmin təşkilatda direktor və baş konstruktor vəzifələrini yerinə yetirir. Bu təş-



*Bakı şəhəri, Neftçi Qurban küçəsində yerləşən çoxmərtəbəli yaşayış binası*

kilatla "Kristal-Abşeron" MTK, "Xəzər-İnşaat XXI əsr", "Melisa-Park" MTK və digər iri həcmli yaşayış binaları tikən təşkilatların tikdiyi yaşayış binalarının layihələrini yerinə yetirmiş və tikintisinə nəzarət edir.

Bakı şəhəri Binəqədi rayonu Azadlıq prospeki ilə S.S. Axundov küçəsinin kəsişməsində, Nəsimi rayonu Hüseynbala Əliyev küçəsində, Neftçi Qurban küçəsində, Səbail rayonu Bibiheybət qəsəbəsində,Yasamal rayonu Abbasmirzə Şərifzadə küşəsində yerləşən çoxmərtəbəli yaşayış binaları və həmçinin Qaradağ rayonu Qobu qə-



*Bakı şəhəri, Yasamal royonu, Abbasmirzə Şərifzadə küçəsində yerləşən çoxmərtəbəli yaşayış binası*



*Bakı şəhəri, Səbail rayonu, Bibiheybət qəsəbəsində yerləşən çoxmərtəbəli yaşayış binası*

səbəsi ərazisində məcburi köçkünlər üçün yaşayış binaları S.V. Qasımovun layihələndirdiyi binalardandır.

Eyni zamanda elmi işlə də məşğul olur, Azərbaycan Memarlıq və İnşaat Universitetinin doktorantıdır. ”Mühitin müqavimətini nəzərə almaqla çoxmərtəbəli binaların özül konstruksiya elementlərinin dayanaqlılığının tədqiqi” mövzusunda texnika üzrə fəlsəfə doktoru dissertasiyası üzərində çalışır.

Ailəlidir, 2 övladı var.



*Bakı şəhəri, Nəsimi rayonu, Hüseynbala Əliyev küçəsi, 3224 məhəllədə çoxmərtəbəli yaşayış binası*









*Qaradağ rayonu, Qobu qəsəbəsi ərazisində, məcburi köçkünlər üçün yaşayış binaları*



**Qəhrəmanov**
**Ağakişi**
**Bədəl oğlu**

09 iyun 1937-ci ildə Ağdam rayonunun Mərzili kəndində anadan olmuşdur. 1945-ci ildə ailəsi Bərdə rayonunun Kələntərli kəndinə köçmüşdür. O, 1948-ci ildə Kələntərli kənd 7 illik məktəbin 1-ci sinfinə getmiş, 1953-cü ildə həmin məktəbin 7-ci sinfini bitirmiş və həmin il Kirovabad Neft Texnikumuna daxil olmuşdur. 1955-ci ildə Kirovabad Neft Texnikumu ləğv olunub, yerində Kirovabad İnşaat Texnikumu təşkil edilmişdir. 1955-ci ildə həmin texnikumun Sənaye və mülki tikinti şöbəsində təhsilini davam etdirmişdir. 1957-ci ildə həmin texnikumun Sənaye və mülki tikinti şöbəsində tam kursu bitirmişdir.

O, 1957-ci ilin noyabr ayında hərbi xidmətə çağırılmış, 1960-cı ilə qədər o vaxtkı "Çelyabinsk-50" şəhərində hərbi-inşaat hissəsində xidmət etmişdir.

Ağakişi Qəhrəmanov 1960-cı ildə Çelyabinsk Politexnik İnstitutunun İnşaat mühəndisləri fakültəsinin Sənaye və mülki tikintilər şöbəsinin axşam şöbəsinə qəbul olmuş, 29 avqust 1960-cı il tarixdə "Çelyaboblproyekt" Layihə Kontorunda böyük texnik vəzifəsinə işə qəbul olunmuş, 09 sentyabr 1960-cı ildə mühəndis vəzifəsinə keçirilmişdir.

O, daha sonra 09 fevral 1962-ci il tarixdə SMU-1 "Çelyabstroy"da inşaat ustası vəzifəsinə keçmiş, 04 dekabr 1962-ci il tarixdə yenidən "Çelyaboblproekt"ə qayıdaraq böyük mühəndis vəzifəsinə qəbul olmuşdur.

RSFSR Nazirlər Sovetinin 778 saylı 26.06.1963-cü il tarixli qərarı ilə "Çelyaboblproyekt" Layihə İnstitutu "Çelyabinskqrajdaproyekt" adlandırılmışdır.

A.B. Qəhrəmanov "Çelyabinskqrajdanproyekt"də layihənin baş mühəndisi (1964-cü il), layihələrin baş mühəndisi (1965-ci il) vəzifəsinə keçirilmişdir.

Ağakişi Qəhrəmanov 21 sentyabr 1967-ci ildən 4 yanvar 1968-ci ilə qədər Azərbaycan SSR Sənaye Tikinti Nazirliyinin 11 nömrəli Tikinti İdarəsində iş icraçısı vəzifəsində işləmişdir.

Ağakişi müəllim 16.01.1968-ci ildə "Çelyabqrajdaproyekt"in 3 saylı layihə emalatxanasına layihələrin baş mühəndisi vəzifəsinə qəbul edilmiş, 8 iyun 1972-ci ildən həmin emalatxananın rəisinin müvəqqəti icraçısı, 01 iyun 1973-cü ildən isə 3 saylı layihə emalatxanasının rəisi vəzifəsinə təyin edilmiş və 1976-cı ilə kimi burada çalışmışdır.

Ağakişi Qəhrəmanov 25 oktyabr 1976-cı ildə "Azərdövlətlayihə" DBLİ Kirovabad filialına baş mütəxəssis vəzifəsinə işə qəbul olunmuş, az sonra baş mütəxəssis, baş konstruktor vəzifələrinə yüksəlmişdir. (02 yanvar 1978-ci il tarixdə baş konstruktor filialın baş mühəndisi adlandırılmışdır.)

A.B. Qəhrəmanov 03 may 1979-cu il tarixdə Kirovabad İK-nin Əsaslı Tikinti şöbəsinə baş mühəndis, 13 may 1979-cu il tarixdə isə Kirovabad İK-nin Mənzil Təsərrüfatı İdarəsinin müdiri vəzifəsinə keçirilmiş və 18.08. 1987-ci ilə qədər orada işləmişdir.

Ağakişi Qəhrəmanov 01 sentyabr 1978-ci ildə "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutunun Kirovabad Filialında konstruktor qrupunun rəhbəri vəzifəsinə qəbul olmuş, 10 oktyabr 2008-ci il tarixindən filialın baş konstruktoru vəzifəsinə təyin edilmişdir. Hazırda həmin vəzifədə çalışır.

Ailəlidir, üç övladı var.



**Quliyev Anar Telman oğlu**

1979-cu ildə Qazax rayonu, Ağstafa şəhərində anadan olmuşdur. Orta təhsilini 1986-1996-cı illərdə Bakı şəhəri, Binəqədi rayonu, 7-ci mikrorayon 244 saylı tam orta məktəbdə almışdır. Orta təhsili başa vurduqdan sonra, 1996-2000-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Memarlıq" fakültəsinin "Memarlıq" ixtisası üzrə bakalavr təhsili almışdır. 2000-ci ildə isə həmin Universitetin "Şəhərsalma" ixtisası üzrə magistraturaya daxil olmuş, 2002-ci ildə həmin ixtisas üzrə məzun olmuşdur.

Universiteti bitirdikdən sonra 2002-2003-cü illərdə hərbi xidmətdə vətənə xidmət borcunu layiqincə yerinə yetirmişdir.

İş fəaliyyətinə 2003-2004-cü illərdə "Falez Memarlık" MMC-də memar, 2004-2008-ci illərdə "MDM GROUP" MMC-də memar, Ali Məhkəmə, Milli Onkoloji Mərkəz, Qəbələ rayon məhkəmə binası və bir çox yüksəkmərtəbəli yaşayış binalarının layihələndirilməsində; 2008-2011-ci illərdə "KON-LAY" MMC-də baş memar, "SDN-PLAZA" biznes mərkəzinin layihə müəllifi və bir çox yüksəkmərtəbəli yaşayış binalarının layihələndirilməsində; 2011-2013-cü illərdə "MESSENAT" Holdingdə baş memar, Heydər Əliyev Gənclər Mərkəzləri, otel binasının, Heydər Əliyev adına parkın layihə müəllifi olmuşdur. 2012-ci ildə İmişli Rayon İcra Hakimiyyəti başçısı tərəfindən "Fəxri Fərman"-la təltif olunmuşdur.

2013-cü ildən etibarən isə "SMTS" MMC-də baş memar və 2015-ci ildən paralel olaraq "AFF PROJECT GROUP" MMC-də baş memar vəzifəsində çalışır. Hal-hazırda da həmin şirkətdə öz fəaliyyətini davam etdirməkdədir.

"SMTS" MMC-də işlədiyi müddətdə bir çox beynəlxalq layihələrdə işləmiş, dünyanın qabaqcıl şirkətlərindən "Obermeyer", "Hill İnternational", "Turner" menecment şirkətlərinin nəzarət etdiyi layihələrdə məsul vəzifələri yerinə yetirmişdir. İşlədiyi müddət ərzində "Property Tower Baku", "Galaalty Hotel and Spa", "Baku Tower"," Kapital Bank Badamdar", "Hillside Aparments" layihələrində koordinator və memarlıq layihələndirməyə rəhbərlik etmişdir.

Ailəlidir, iki övladı var.



*"SDN-Plaza" biznes mərkəzi*



**Quliyev Mənsur Kamal oğlu**

1985-ci il iyul ayının 20-də Füzuli rayonunun Qaraxanbəyli kəndində anadan olmuşdur. 1991-ci ildə Füzuli rayonunun Qaraxanbəyli kənd orta məktəbinə daxil olmuş, lakin təhsilini davam etdirə bilməmişdi. Köçkünlük həyatı keçirdiyindən 1993-cü ildə Bakı şəhəri 116 saylı orta məktəbdə təhsilini davam etdirərək 2001-ci ildə tam orta təhsil almışdır.

Mənsur Quliyev 2001-2005-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin inşaat fakultəsinin sənaye və mülki tikinti ixtisasına yiyələnmişdir.

2008-2010-cu illərdə Bakı şəhəri İstiqlaliyyət küçəsində yerləşən "Respublika" mehmanxanasının rekonstruksiyası layihəsində "Kontinent İnşaat" MMC şirkətində iş icraçısının köməkçisi kimi işə başlamış, 2010-cu ildə isə Bakı şəhəri Xətai rayonu Cavanşir küçəsində 5 bloklu 16 mərtəbəli yaşayış binasının tikintisində iş icracısı vəzifəsini yerinə yetirmiş, yüksək səviyyədə binanı tikərək təhvil vermişdir.

2010-2017-ci illərdə Bakı şəhəri Yasamal rayonu Zərdabi prospekti 74 ünvanında yaşayış binaları kompleksində, Bakı şəhəri Səməd Vurğun küçəsi 306 ünvanında yerləşən çoxmərtəbəli yaşayış kompleksinin yenidənqurma layihəsində, Bakı şəhəri İstiqlaliyyət küçəsində qaraj binasında, çoxlu sayda dövlət əhəmiyyətli qeyri-yaşayış binalarının tikintisində bilavasitə iştirak etmiş və texniki nəzarəti həyata keçirmişdir.

Mənsur Quliyev 2017-cı ildən bu günədək "Kontinent İnşaat" MMC şirkətində Tikinti Departamentinin rəhbəri vəzifəsində çalışır. Hal-hazırda "Gülüstan" sarayı, Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti 2942A ünvanında yerləşən "Xətai Park"yaşayış kompleksinin tikintisinə nəzarət edir.

Ailəlidir, 2 övladı var.



*Bakı şəhəri Xətai rayonu Cavanşir küçəsində 5 bloklu 16 mərtəbəli yaşayış binası*



*Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti 294 2A ünvanında yerləşən "Xətai Park"yaşayış kompleksi*



**Quliyeva Tamilla Yaqub qızı**

25 fevral 1951-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1958-ci ildə Bakı şəhərindəki 72 nömrəli orta məktəbin birinci sinfinə qəbul olunmuş, üçüncü sinifdən təhsilini 74 nömrəli orta məktəbdə davam etdirmişdir.

O, 1968-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirmiş və həmin ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin memarlıq bölməsinə daxil olmuşdur (memarlıq fakültəsi sonra təntənəli surətdə açılmışdır). Tamilla Quliyeva 1973-cü ildə həmin institutu bitirərək memarlıq ixtisasına yiyələnmişdir.

T.Y. Quliyeva əmək fəaliyyətinə təyinatla "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutuna memar vəzifəsinə qəbul olunaraq başlamışdır.

1973-1992-ci illər arası "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutunda çalışaraq sıravi memar vəzifəsindən Layihənin Baş Memarı vəzifəsinə qədər yüksəlmişdir.

T.Y. Quliyeva 1992-1996-cı illər arası Hərbi Layihə İnstitutunda qrup rəisi, 1996-1998-ci illər arası "Bayinşaat"Azəri – Türk birgə müəssisəsində (BM) memar, 1998-2004-cü illər arası Türk Tikinti QTSC-də Baş memar, 2004-2008-ci illər arası "Dərya ltd" MMC, "Mogobs" MMC şirkətlərində memar vəzifəsində çalışmışdır.

Tamilla Quliyeva 2008-2011-ci illərdə Fövqəladə Hallar Nazirlyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutunda Layihənin Baş Memarı, şöbə müdiri vəzifəsində çalışmışdır.

T.Y. Quliyeva daha sonra – 2011-2013-cü illər arasında "Bakı İnşaat Layihə "QSC-də Baş memar, 2013-2016-cı illər arası "RENAISSANCE CONSTRUCTİON AZERBAIJAN" MMC şirkətində Baş memar vəzifəsində çalışmışdır.

Tamilla Quliyeva 2016-cı ildən bu günə qədər "ARTI İNŞAAT DİZAYN" MMC şirkətində Baş memar vəzifəsində çalışır.

Tamilla xanım Quliyevanın bir memar olaraq əmək fəaliyyəti müddətində işlədiyi bütün layihələr müəllifinə başucalığı gətirmişdir.

Bu layihələrdən – Bakı şəhəri, Sabunçu rayon Prokurorluğunun inzibati binası, Bakı şəhəri, Türkan qəsəbəsində 1 saylı Ağ Ciyər Vərəm sanatoriyasının yeni korpusu, M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası binasının rekonstruksiyası və bərpası, "Kolosseo" Su möcüzələri kompleksi, Bakı şəhəri,



*Lənkəran İstisu və Sağlamlıq Mərkəzi*

Qaradağ rayonu, Müşfiqabad qəsəbəsi ərazisində 1410 məcburi köçkün ailəsi üçün çoxmərtəbəli yaşayış binalarından ibarət məhəllə, Bakı şəhəri, Tbilisi prospekti 57 ünvanında yerləşən Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun inzibati binasının genişləndirilməsi layihəsi, Lənkəran uşaq xəstəxanası, Salyan şəhəri, H.Z.Tağıyev küçəsi 35 saylı ünvanda yerləşən yaşayış binası, Bərdə rayonu ərazisində 195 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış qəsəbəsinin və əkin sahələrinin meliorasiya sisteminin layihəsi, Saatlı rayonu ərazisində 230 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış qəsəbəsinin layihəsi, Füzuli rayonu ərazisində 612 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış qəsəbəsinin layihəsi, Bakı şəhəri, Qaradağ rayonu, Ümid qəsəbəsi ərazisində 500 məcburi köçkün ailəsi üçün ( I mərhələ) yeni məhəllə layihəsi, Bakı şəhəri, Qaradağ rayonu, Ümid qəsəbəsi ərazisində 300 məcburi köçkün ailəsi üçün ( II mərhələ) yeni məhəllə layihəsi, Vergilər Nazirliyinin H.Əliyev prospektində yeni inzibati



*Bakı şəhəri, Türkan qəsəbəsində*
*1 saylı Ağ Ciyər Vərəm sanatoriyasının yeni korpusu*



*Saray qəsəbəsində ofis binası*



*M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası*
*binasının rekonstruksiyası və bərpası*

binası, Saray qəsəbəsində ofis binası, "Lənkəran İsti-su və Sağlamlıq Mərkəzi" kompleksi və sair onlarla layihələri göstərmək olar.

Çoxillik səmərləli fəaliyyətinə və qazandığı nailiyyətlərə görə T.Y. Quliyevanın əməyi hər zaman rəhbərlik tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, o, 1974 və 1975-ci illərdə ardıcıl olaraq iki dəfə Azərbaycan SSR Dövlət Tikinti Komitəsinin rəhbərliyi tərəfindən Sumqayıt şəhərində mikrorayonların layihələndirilməsinə görə "Sosializm yarışının qalibi" medalı ilə, 1987-ci ildə Böyük Oktyabr Sosialist İnqilabının 70 illiyi şərəfinə "Azərdövlətlayihə" İnstitutunun rəhbərliyi tərəfindən institutun yaradıcılıq və ictimai həyatında fəal iştirakına görə "Fəxri Fərman"la, 1988-ci ildə 15 illik qüsursuz iş fəaliyyətinə görə "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutunun rəhbərliyi tərəfindən "Fəxri Fərman"la və 2016 – cı ildə Azərbaycan Respublikası Memarlar İttifaqının idarə heyəti tərəfindən çoxillik yaradıcılıq fəaliyyətinə və Mİ-nin işində aktiv iştirakına görə 65 illik yubileyi münasibəti ilə "Fəxri Fərman"la təltif edilmişdir.

Tamilla Quliyeva ailəlidir, bir oğlu, bir qızı və Azər, Ruqiyyə, İlyas və Aliyə adlarında dörd nəvəsi var.

O, yaradıcı memar olaraq bu gün də ölkənin tikinti-memarlıq ictimaiyyətini öz maraqlı layihələri ilə sevindirmək əzmi ilə çalışır.



*Vergilər Nazirliyinin inzibati binası*




*"Colosseo" Su Möcüzələri kompleksi*

## Quba rayonunun tarixi abidələri

### Alpan

Alpan kəndi Quba rayonunda yerləşir. Alpan Azərbaycanın ən qədim kəndlərindən biri hesab olunur. Tarixçilərə görə Alpan adının mənşəyi qədim Albaniyanın adı ilə bağlıdır. Kənddə 2000-dən artıq ev var. Həmçinin Alpanda qədim qəbirstanlıqlar, XVI əsrə aid Subaba türbəsi və Qalacıq kimi tarixi abidələr var. Kəndin əhalisi etnik olaraq əsasən türk mənşəlidir. Kəndin qədimdən bu günümüzə qədər gələn özünəməxsus adət-ənənələri var. Novruz bayramı ərəfəsində son çərşənbə axşamı ("Şamqoyulan" günü) kənd əhalisi tərəfindən özünəməxsus qaydada – pirləri ziyarət edərək, yaxınlarının qəbirləri yanında şam yandırmaqla, xüsusən də gənclərin pirlərdəki ələm ağaclarına ələm bağlaması, onların ətrafında 7 dəfə dövrə vurmaqla murad tutmaları şəklində qeyd olunur. Bunlardan əlavə kəndin toy və yas mərasimlərinin keçirilməsinin də özünəməxsus çalarları var. Eləcə də, kənd özünün qədimdən bu günə qədər gələn mətbəx mədəniyyəti, özünəxas çörək növləri (bozlamac və s.) ilə də tanınır.




*Albanların ilk yurdu Alpan*

Türk xalqlarının, eyni zamanda Azərbaycan xalqının məişətində mövcud olan dil və folklor materiallarını tutuşdurarkən mifologiyamızada xüsusi yer tutan "Al" tapınışı ilə əlaqədar mifoloji toponimlərin olması üzə çıxır. Materialların təhlili göstərir ki, Azərbaycan dilində Al tapınışı ilə bağlı olan toponimlər 3 fonetik variantda işlənir: Al morfemi və digər hissəciklərdən ibarət mifoloji toponimlər: Alban, Alpan, Alpout, Allar, Alar, Alpı Aldədə və s. Ala morfemli və hissəciklərdən ibarət mifoloji topnimlər: Alakol, Alaşa, Alaşar, Alatava, Ala göllər, Alazan, Alagöz, Alaqurşaq. və s. Al Əl fonetik dəyişməsi işlənən mifoloji toponimlər: Ələt, Ələyəz, Dərələyəz, Əlincə və s. Tədqiqatlar göstərir ki, Al tapınışı ilə əlaqədar toponimlər əksər türk xalqlarında geniş yayılmışdır. Biz isə imkanımız daxilində yalnız Azərbaycanda qeydə alınan həmin toponimləri tədqiqata cəlb edəcəyik.

Alpan kəndi Quba rayonunda Quruçayın sahilində, Qusar maili düzənliyindədir. Toponim özündə qədim alban tayfasını adını əks etdirir. Alban – Alpan adı indi də Orta Asiyada türkdilli xalqlarda: qırğızlarda, qazaxlarda, qaraqalpaqlarda, buryatlarda tayfa adı kimi mövcuddur. Adın alban formasına ilk dəfə e.ə. I əsrdən başlayaraq antik mənbələrdə təsadüf olunur. "Kitabi-Dədə Qorqud" dastanında isə alpan şəklində işlənmişdir. Alban – Alpan adının qədim türk dilli etnosun adını bildirməsi heç kimdə şübhə doğurmur. Ancaq onun mə-

nası haqqında tədqiqatçılar müxtəlif fikirlər yürüdürlər. N.Y.Marr, A.Yanovski, K.V. Trever, R.M.Maqomedov, Z.İ. Yampolski və başqaları bu fikirdədilər ki, "alban" adı latın mənşəli söz olub "yüksəkliklər, dağlar ölkəsi" mənasını verir. A.Bakıxanov "Alban" etnoniminin tərkibindəki "alb" hissəsini latın dilindəki "alp" sözü ilə əlaqələndirir və bunun da mənası təxminən "ucalıq, hündürlük" anlayışına yaxındır. K.V.Trever isə bu sözün "dağ" mənasında kelf mənşəli "alp" morfemi ilə bağlı olduğunu göstərmişdir. Şotlandiyanın adının qədim keltcə Albaniya olduğunu və Şotlandiyanın ən dağlıq adalarından birinin Arran adlandığını da qeyd etmişdir. Ə.Dəmirçizadə "50 söz" kitabında "Alban" adının etimologiyasından danışarkən bu sözün mixi yazılarında "al-ban" şəklində yazıldığını, "şimal əyalət", "dağlıq", "dağıstan" mənalarında olduğunu göstərmişdir. K.Əliyev "alban" sözünü Xevusar əyalət kahinlərinin dilində olan "müqəddəs meşə" mənasında "alvani" sözü ilə müqayisə etmiş, lakin "alban" sözünün bu sözdən ola biləcəyini güman etməmişdir. A.Məmmədov və Y.Yusifov isə öz əsərində Altan – Alpan, arran, ağvan sözlərini "işıqlı, parlaq səma" mənalarında izah etmiş və onu mənşəcə avarlara tətbiq olunan halbi sözü ilə əlaqələndirmişlər. O.Kazımov da "Azərbaycan dilinin tarixi" kitabında Albaniya, Alban toponiminin etimologiyası haqqında ətraflı danışmış və onun türk dillərinə məxsus "cəsur, igid" mənalarını verən "alp" və "an" hissələrindən ibarət olduğunu bildirməklə, Albaniya adının "igidlər, cəsurlar ölkəsi" mənasına gəldiyini vurğulayır. Q.Qeybullayev, Q. Məşədiyev, M. Adilov, B. Budaqov, F. Xalıqov və digər tədqiqatçıların da Alban\ Alpan – Alpout toponimi haqqında fikirləri belədir ki, həmin söz "igid, cəsur" mənasını ifadə edən türk sözü "alp" və "an" morfemlərindən ibarətdir. Alban – Alpan toponimi haqqında deyilənləri nəzərdən keçirdikdən sonra belə qənaətə gəlmək olur ki, tədqiqatçıların bu söz haqqındakı fikirlərini iki yöndən araşdırmaq olar: Bir qrup tədqiqatçı hesab edir ki, Alban – Alpan adı türk mənşəli olmayıb, "alp" və "an" hissələrindən ibarətdir ki, bu da "uca, dağlıq yer" mənalarına gəlir. Digər bir qrup araşdırmaçılar isə elə düşünürlər ki, "Alban" toponim "al" və "ban" morfemlərindən əmələ gəlib və türk mənşəli sözdür. Mənası isə əvvəldə qeyd etdiyimiz kimi, hündürlük, yüksəkliklə əlaqədardır. Biz isə Alban – Alpan toponimi haqqında o fikirdəyik ki, bu ad türk mənşəlidir və "al" morfemi ilə "ban"-ın birləşməsindən əmələ gəlmişdir. Burada "al" qədim türklərin mifologiyasından gələn "Al" tanrısı ilə əlaqədardır ki, o da "ucalığı, yüksəkliyi" ifadə edir.Yəni Alban sözündən "ucalıq, yüksəklik" həmin "Al" tanrısından qalan yüksəklikdir. "Ban" morfemi də qədim türklərdə yer mənasını ifadə edən sözdür. Yekün olaraq o qənaətə gəlirik ki, Alban – Alpan toponimi qədim türklərin mifik dünya görüşü ilə əlaqədar olaraq meydana çıxmış və zaman kecdikcə etnonim və toponimə çevrilmişdir.

**Tağlı körpü**

Quba rayonu ərazisində yerləşir. Keçmis mühəndis tikililərindən dövrümüzə qədər qorunub saxlanılan abidələr içərisində mühüm tarixi-memarlıq əhəmiyyətinə malik olanlardan biri də Tağlı körpüdür.

XIX əsrdə Quba qəzasında 7 körpü olmuşdur. Amma onlardan



*Tağlı körpü*

yalnız Tağlı körpü günümüzə qədər qorunub saxlanmışdır. Körpünün salınması zərurəti XVIII əsrin sonlarında, XIX əsrin əvvəllərində yaranmışdır. 1851-ci ildə Qudyalçayda dirəklər üzərində taxta körpü tikilmişdir. Lakin bu körpünün ömrü uzun olmamışdır. Bu səbədən onun yerində yeni körpü salmaq zərurəti yaranmışdır. Yeni körpünün tikintisinə 1894-cü ildə başlanmışdır. Körpünün tikintisi 78.000 manata başa gəlmişdir. Əvvəlcə körpünün 19 dirək üzərində tikilməsi nəzərdə tutulmuşdur. Lakin onun tikintisi zamanı aşırımlar ixtisar olunmuş və o 14 daş dayaq üzərində tikilmişdir. Yarımdairəvi biçimli tağlar sistemi bişmiş kərpicdən hörülmüş və bir-birindən 11,1 metr aralı olan dayaqlara söykənir. Körpünün tağları altından hər iki sahildəki yaşayış məntəqələrinin ecazkar mənzərəsi açılır. Körpünün 70 sm enində tağı əsas kərpic hörgüsü ilə birlikdə inşa edilmişdir. Tağ dayaqlar üzərində dayanan körpünün bünövrəsi yaxşı yonulmuş daşlardan hörülmüşdür. Körpü memarlıq abidəsi kimi dövlətin mühafizə etdiyi abidələr siyahısına daxil edilmişdir.

2007-ci ilin noyabr ayının 1-də Bakı şəhərində Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin"Azərmarka" şirkəti tərəfindən Azərbaycan körpülərinə həsr olunmuş 5 ədəd poçt markası təqdim edilmişdir. Qiyməti 30 qəpik, tirajı isə 20 min ədəd olan həmin markalardan biri Qudyalçay körpüsünə həsr olunmuşdur.

**Ağbil**

Azərbaycan Respublikasının Quba rayonunun inzibati ərazi vahidində kənddir.

Qusar maili düzənliyindədir. XVI əsrə aid Ağbil türbələri bu kəndin ərazisindədir. Yerli əhali bu türbələri Dörd Ağbil adlandırır. Hazırda üçü qalmaqda olan həmin türbələr Şeyxlər üçün tikilmişdir. XIX əsrdə Zeyid kəndindən köçüb gələnlər tərəfindən məskunlaşmış Ağbil kəndi bir müddət Ağbil Zeyid adlandırılmışdır. Oykonim ağ (kiçik) və bil (qəd. bulqar dilində "türbə, məzar daşı") komponentlərindən düzəlib, "kiçik türbə, məzar daşı" deməkdir. Xorasan ərazisində qeydə alınmış Akməzar toponimi ilə sinonimdir.

**Altı günbəz sinaqoqu**

Quba rayonunun Qırmızı Qəsəbəsindəki İsaak Xanukov küçəsində yerləşən, memar Gilel ben Xaimin layihəsi əsasında 1888-ci ildə inşa edilmiş sinaqoqdur. Altı günbəz (sinaqoq həm də 6 guşəlidir) qəsəbədəki Qilqat məhəlləsi sakinlərinin Qələdüz kəndi ətrafından



*Altı günbəz sinaqoqu*

Quba xanı Hüseynəli xanın icazəsi ilə 6 gün ərzində bura köçüb gəlmələrinin rəmzidir. Məbədin 14 əsas pəncərəsi vardır.

Böyük ibadət zalı olan sinaqoq şərq üslubunda tikilmiş qədim memarlıq abidəsidir. İçərisindəki ibadət divarına baxan hissə aronkaduş adlanır. O, hündürlüyünə görə Avropada təkrarı olmayan və Qüdsə baxan qibləgahdır. Hündürlüyü 7 metrdir. Müqəddəs kitab həmin divarda yerləşən dolabda saxlanılır.

Pəncərələri altıguşəli ulduz şəklində palıd ağacından hazırlanmışdır. Sinaqoqun bərpasına 1995-ci ildə başlanılmış və 2000-ci ilin oktyabr ayında başa çatdırılmışdır. Hazırda dindarların istifadəsində olan məbədin zirzəmisində dini mərasimlərin keçirilməsi üçün 60 nəfərlik ibadət zalı və mətbəx də vardır.

**Gərcəi sinaqoqu**

Qubadakı Qırmızı Qəsəbədə yerləşən ibadət evidir.

Məbədin divar yazısında onun, 1906-cı ildə inşa olunduğu qeyd edilmişdir. Amma binanın fasadında başqa lövhə də var. Burada isə başqa tarix – 1816-cı il göstərilmişdir. Tədqiqatçılar hesab edir ki, bu lövhə daha qədim sinaqoqdan gətirilmişdir. Gərcəi dağ yəhudi icmasının sinaqoqu Gilel ben Xaim tərəfindən inşa edilmişdir.

Sinaqoqun fasadı müxtəlif ölçüdə və fərqli formada olan pəncərələrlə bəzədilmişdir. Keçmişdə bu pəncərələrə rəngli şüşələr vurularmış.

Sinaqoqun böyük dua zalı var. Zalı böyük, taxtadan hazırlanmış günbəz örtür. Günbəzin görünüşü Polşadakı taxta sinaqoqların dam örtüklərini xatırladır. Keçmişdə sözügedən sinaqoqun günbəzinin üstündə səkkizguşəli işıq fənəri var imiş.

**Giləki sinaqoqu**

Qubadakı Qırmızı Qəsəbədə yerləşən ibadət evidir. Bu ibadət yeri Cənubi Azərbaycanın Gilan vilayətindən gəlmiş mühacirlər tərəfindən inşa edilmişdir. Məbədin memarı Gilel ben Xaim olmuşdur. Onun adı sinaqoqun kərpic fasadında həkk edilmişdir. Özül daşının üzərindəki yazıdan məlum olur ki, məbəd 1896-cı ildə ucaldılmışdır. Lakin giriş qapısının üzərində başqa lövhə də var. Burada isə fərqli tarix – yəni 1857-ci



*Giləki sinaqoqu*

il göstərilmişdir. Ola bilər ki, bu lövhə gilanlı yəhudi mühacirlərin daha əski məbədindən gətirilmiş və sinaqoqun qapısının üstünə vurulmuşdur.

Dördsütunlu dam üzərində ucalan ensiz, səkkizgüşəli günbəz "Gila" məbədinə xüsusi gözəllik verir. Sinaqoqun binasında İsrail qolunun sayına uyğun olaraq 12 pəncərə vardır. Tarixi qaynaqlardan məlum olur ki, əvvəllər sinaqoqun yanında bulaq var imiş.

**Qusar sinaqoqu**

Qubadakı Qırmızı Qəsəbədə yerləşən məbəddir.

Sinaqoq çayın sahilində, təpənin üzərində yerləşir. Məbədin hündürlüyü 14 metrdir. Sinaqoq hər tərəfdən dörd kiçik bürclə və iki çadır şəkilli qüllə ilə əhatə olunmuşdur. Qüllələrin günbəzi və onların iti milləri Qırmızı Qəsəbənin əsas simvolları sayılır.

Taxta çərçivələrlə və gözəl ornamentlə bəzədilmiş məbəd mükəmməl görünür. "Qusar" sinaqoqunun da böyük dua otağı vardır. Burada Tövratın və digər dini kitabların saxlanılması üçün iri dolab yerləşir. Dolab "Aronhokodeş", yəni "Müqəddəs Mürcü" adlanır. Mürcü doqquz gözdən ibarətdir. Dolabın hər bir gözü ikilaylı qapı ilə örtülmüşdür.

**Gümbəzli hamam**

Quba rayonunda tarixi abidədir. XVIII-XIX əsrlərə aid bir abidədir. El arasında bura "Çuxur hamam", "Gümbəzli hamam", "Bəkir hamamı", "Məşədi Əlimərdan hamamı" adları ilə tanınır. Abidə Şərq memarlığınını incilərindən sayılır.

Fransız yazıçısı Aleksandr Düma Qafqaz səfəri zamanı bu hamamda çimib. Yerli əhalinin söylədiyinə görə, 1918-ci ildə ermənilər Qubada törədilən soyqırımı zamanı adamları hamamın buxarında boğub, sonra isə cəsədləri çalaya töküblər.

Hamam 1985-ci ilə kimi təyinatına uyğun istifadə olunub. Kanalizasiya xətti tutulduğundan buranın fəaliyyətini dayandırmaq qərarına gəliblər.

1986-1987-ci illərdə hamamda təmir bərpa işləri aparılmışdır.

2015-ci ildə hamamı yenidən bərpa etməyə başlayıblar. 26 mart 2018-ci ildə yenidən bərpa olunmuş hamamın açılışı baş tutub. Hamamın bərpası ABŞ Səfirlərinin Mədəni irsin Qorunması Fondunun maliyyə dəstəyi və Mədəniyyət və Turizm Nazirliyi ilə əməkdaşlıq şəklində gerçəkləşib. Açılış mərasimində mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta və xanımı, həmçinin, Quba rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev iştirak ediblər.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi abidə kimi qorunur. Ətrafına vaxtilə UNESCO tərəfindən məhəccərlər inşa edilib.

Hamam Quba şəhərinin mərkəzində Musəbəyov küçəsi ilə Ərdəbil küçəsinin kəsişməsində yerləşir. Şərq memarlığının ən orijinal nümunəsi olan gümbəzli hamam ümumi bir zaldan, bəylər üçün nəzərdə tutulan 4 otaqdan, istirahət və çay içmək üçün planlaşdırılan daha 3 otaqdan ibarətdir. Hamam 1 qapılı, 6 pəncərəli, 1 mərtəbəlidir və qırmızı kərpicdən inşa edilib. Bu səbəbdən bəzən bu hamama qubalılar Qırmızı hamam da deyirlər. Hamamın içərisində milli ornamentlərdən xüsusi ustalıqla istifadə edilib. Böyük və kiçik olmaqla iki tağdan ibarətdir.

Hamamın istilik sistemi ancaq odunla işləyib. Gümbəzlərinin hündürlüyü 9 metrdir. Hamamın qızdırılmasında istifadə edi-

lən soba həm də döşəmənin isidilməsində istifadə olunub. Belə ki, sobadan hamamın döşəməsi boyu istiliyə davamlı kərpicdən kanallar çəkilib və sobadan çıxan istilik həm də döşəməni isidib.

**Kukaş kurqanı və ya Cek kurqanı**

Cek kəndinə aid Kukaş ərazisində kurqandır. Kukaş kurqanı 2011-ci ilin avqust ayında Cek kəndinə aid Kukaş ərazisində aşkarlanmışdır. Eyni zamanda Cek kəndinin Zanqar ərazisində də qədim yaşayış məntəqəsi aşkarlanmışdır. Ərazidə işləyən arxeoloq İdris Əliyevin bildirdiyinə görə, tapıntıların tunc dövrünə – e.ə. III-II minilliklərə aid olması ehtimal edilir. Arxeoloq tapıntıların böyük əhəmiyyətə malik olduğunu deyib. Onun sözlərinə görə, yaşayış məntəqəsi və kurqanın tədqiqindən sonra bu ərazi ilə bağlı bəzi mübahisəli məsələlərə aydınlıq gətirilə bilər. Kurqanın yerləşdiyi ərazidə 15-ə qədər mağara mövcuddur. Mağaraların qədim insanların yaşayış məskəni olması ehtimal edilir. Tezliklə mağaralarda arxeoloji qazıntılar aparılacaq.



*Kukaş kurqanı*

**Quba xanlarının sarayı** – Hüseynəli xan dövründə tikilmiş xan sarayı sonralar bərpa olunmuş və yenidən bəzədilmişdi. Azərbaycanın memarılıq abidələrini tədqiq etmişİ. Şeblıgin qəşəng bəzəkləri, quruluşu etibarı ilə XVIII əsr saray tikililərinə xas olan xüsusiyyətləri özündə cəmləşdirmişdi.

1770-ci ildə Qubada olmuş Rusiya Elmlər Akademiyasının akademiki S.Q.Qmelin şəhərin və xan sarayının quruluşunun qısa şəkildə təsvirini vermiş və yerli əhalinin dediynə əsaslanaraq 30 il əvvəl, yəni, 1740-cı ildə şəhərin ətrafının daş hasarla hörüldüyünü göstərmişdi.

**Quba qalası**

Quba şəhərinin tarixi mərkəzini əhatə etmiş qala divarlarıdır. 1747-ci ildə Hüseynəli xan Qubalı tərəfindən Quba xanlığının mərkəzinin Xudatdan Qubaya köçürülməsindən sonra inşa edilmiş Quba qalası, xanlığın Rusiya İmperiyasına birləşdirilməsindən sonra strateji əhəmiyyətini itirmiş və yerli rus qarnizonu tərəfindən istifadə edilmişdir. 1868-ci ildən sonra Cənubi Qafqazda hərbi qalaların ləğv edilməsinə başlanılmış, 1870-ci ildə isə Quba qala divarlarının sökülməsi və onların yerində əlavə yaşayış məhəllələrinin yaradılması planı hazırlanmışdır. Qısa müddət sonra qala divarlarının söküntüsü və yeni inşaat işlərinə başlanılmışdır.

Qala-şəhər olan Quba, Qudyalçayın yuxarı terrası boyunca qərb-şərq istiqamətində uzanmaqla möhkəm olmayan çiy kərpicdən hörülmüş, hündürlüyü 3-4 sajen, eni bir sajen olan

və 400 sajen uzunluq və 130 sajen eninə uzanan qala divarları ilə əhatə olunmuşdu. Qala divarları üç qapıya malik idi.

Quba qədim yaşayış məskəni olsa da 1747-ci ildə Hüseynəli xan Qubalı iqamətgahını Xudatdan Qubaya köçürməsi ilə şəhərin strateji əhəmiyyətli artmış və elə həmin dövrdə də qala divarları inşa edilmişdir. 1811-ci ildən etibarən Quba qalasında ciddi möhkəmləndirmə işləri aparılmışdır. Qərb və şərq tərəfdən qala divarları fleşlər vasitəsiylə möhkəmləndirilir. Cənub divarının mərkəzində bastion inşa edilir, bütün köhnə divarlar bərpa və təmir edilir.

Rusiya-İran müharibəsi zamanı 1826-cı ilə kimi davam edən Quba qalasının iranlılar tərəfindən mühasirəsi və 1837-ci il Quba üsyanı qalanın möhkəmləndirilməsi və inkişaf etdirilməsinə təkan verməmişdi. Buna baxmayaraq, 1834-cü ildə Quba qalasında "məhəllələrin düzgün inşa edilməsi və küçələrin qubada yerləşən qarnizon tərəfindən rahat istifadə ediləcək hala gətirilməsi üçün" inşaat layihəsi təsdiqlənir. 1830-cu illərin sonlarında Quba qalası artıq strateji əhəmiyyətini itirir, qala divarlarını əhatə edən xəndəklər doldurulur və şəhər ətrafında meyvə bağları salınır. Həmin dövrdə Qraf Vasilçikov yazır ki, "Quba şəhəri demək olar ki, müdafiə olunmur, bir zamanlar şəhəri əhatə edən qala divarları qismən zamanın təsiri ilə, qismən də şəhərin yenidən planlaşdırılması zamanı yarımdağılmış vəziyyətə düşmüşdür."

1840-cı illərdə hakimiyyətin sabitləşməsindən sonra Qubada mütəşəkkil təşkil edilmiş planlaşdırma və inşaat işlərinə başlanılır. Qısa zamanda şəhərdə tikilmiş kərpic və daş binaların sayı 780-ə çatır ki, bu da o zaman Lənkəran şəhərində olan oxşar tikililərin sayından (298) iki dəfədən artıq çox idi.

1868-ci ildən sonra Cənubi Qafqazda hərbi qalaların ləğv edilməsinə başlanılır, qala divarları sökülür və dağıdılır, səngərlər isə doldurulur. Qala və forştadt ərazilərinin yaxınlaşdırılması və birləşdirilməsinə təkan verən bu tədbir Quba qalasına da toxunmuş, 1870-ci ildə qala divarlarının sökülməsi və onların yerində əlavə yaşayış məhəllələrinin yaradılması planı hazırlanmışdır. Qısa müddət sonra qala divarlarının söküntüsü və yeni inşaat işlərinə başlanılır.

**Xınalıq kurqanları**

Xınalıq Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğunun Xınalıq kəndinə aid ərazisində aşkarlanmış kurqanlar.

Xınalıq kurqanları 2011-ci ilin iyul ayında Xınalıq Dövlət tarix-memarlıq və etnoqrafiya qoru-



*Xınalıq tarix-etnoqrafiya muzeyi*

ğunun Xınalıq kəndinə aid ərazisində aşkarlanmışdır. Burada aşkarlanan iri kurqanların sayı 5 ədəddir. Bu iri kurqanların e.ə. III-II minilliklərə aid olması ehtimal edilir. Bu məqsədlə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və etnoqrafiya institutunun əməkdaşı Qəhrəman Ağayev və institutun digər əməkdaşları Xınalıq kəndinə ezam olunub və əraziyə baxış keçiriblər. "Kurqanların qədim Tunc dövrünə, e.ə. III-II minilliklərə aid olması ehtimal edilir. Kurqanlardan birini sel suları yuduğundan onun üst hissəsi dağılıb" deyə Qəhrəman Ağayev bildirmişdir. Onun sözlərinə görə, kurqanların tədqiqindən sonra Xınalıq kəndilə bağlı bəzi mübahisəli məsələlərə aydınlıq gətirilə bilər. Arxeoloq kurqanlar tapılan ərazidə tezliklə arxeoloji qazıntıların aparılacağını bildirib.

# M



**Məmmədov**
**Əliş**
**Zabit oğlu**

10 fevral 1958-ci ildə Şəki rayonunun Oraban kəndində doğulub.

O, orta məktəbi bitirdikdən sonra Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olub. 1979-cu ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Sənaye və mülki tikinti fakültəsini (indiki Memarlıq və İnşaat Universitetinin) inşaatçı-mühəndis ixtisası üzrə bitirib.

Əmək fəaliyyətinə "YakutSənayeTikintiMaterialları"nda ("ЯкутПромСтройМатериал") başlayıb və 1979-1980-ci illərdə bu müəssisədə təmir-tikinti sexində usta vəzifəsində çalışıb.

1980-1981-ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olub.

Əliş Məmmədov 1981-ci ildə hərbi xidməti başa vurduqdan sonra yenidən Saxaya geri dönüb və 1981-1982-ci illərdə Verxnebestyaxsk tikinti bölgəsində iş icraçısı kimi fəaliyyətə başlayıb. 1982-ci ildən 1989-cu ilə qədər isə "Yakutsement" İstehsalat Birliyinin əsaslı tikinti şöbəsinin rəisi olaraq fəaliyyət göstərib.

Əliş Məmmədov 1989-cu ildən bu günümüzə qədər "Yakutsement" İstehsalat Birliyi ASC-nin baş direktorudur.

Ə.Məmmədov yeni ideyalarla zəngin, qeyri-standart düşüncə tərzinə malik təcrübəli və peşəkar yeni formasiya rəhbəridir. Onun rəhbərliyi, işini mükəmməl bilməsi, problemlərin optimal həlli yollarını tapmaq və müəssisənin işgüzar tərəfdaşlıq əlaqələrini qurmaq bacarığı sayəsində müəssisənin kollektivi bazar iqtisadiyyatına keçidlə bağlı ağır sınaqlardan şərəflə çıxıb. "Yakutsement" İB ASC tənəzzüldən qurtulub və məhsul istehsalını genişləndirməyə başlayıb. Sement və əmtəəlik çınqıl istehsalını ildən-ilə artırmaqla bərabər, kollektiv Ə. Məmmədovun təşəbbüsü ilə baş podratçı rolunda çıxış edib, Saxa Respublikasının (Yakutiya) Xanqalas, Lena, Nyurbin, Amgin uluslarında sosial-mədəni təyinatlı obyektlər, o cümlədən məktəb və xəstəxana binaları, evlər, idman qurğuları inşa etməyə başlayıb.

Respublikanın nümayəndə heyətlərinin tərkibində tez-tez başqa ölkələrdə səfərlərdə olan Ə.Məmmədov xarici təcrübədən faydalanır və istehsalata yeni texnologiyalar tətbiq etməyə çalışır. 2003-cü ildə "Yakutsement" dünyada analoqu olmayan sulfata və şaxtaya davamlı texnologiya işləyib



Xanqalassk ulusunun Pokrovsk qəsəbəsində 350 şagird yerlik 3 nömrəli məktəbin açılış mərasimindən xatirə foto-şəkil...



"Yakut ədəbiyyatının ən yaxşı sponsoru"



Xanqalassk ulusunun Pokrovsk qəsəbəsində 350 şagird yerlik 3 nömrəli məktəb



Tədris Laboratoriya kompleksi

hazırlayıb. Yeniliyin müəlliflərindən biri zavodun direktoru Ə.Məmmədov idi. Opoka (silisiumlu gil) yerinə narın üyüdülmüş kvars qumu tətbiq etmək qərarı elm-istehsalat axtarışlarında inqilab edib. Amgin ulusundan gətirilən kvars qumunun təcrübi üyüdülməsinin nəticələri bütün gözləntiləri geridə qoyub. Mütəxəssislərin hesablamalarına görə, müəssisənin köhnə daşqıranı üçfaizli üyütmə verməli idi, amma faktiki olaraq birfaizli üyütmə əldə olunur. Başqa sözlə desək, üyüdülmüş təbii şistdən daha keyfiyyətli "un" əldə olundu. Bu, prinsipcə yeni xammal sobada bişiriləndən sonra eksperimentatorların əldə etdiyi opoka təkcə sulfata deyil, həm də şaxtaya davamlı sementi, habelə yol tikintisi üçün xüsusi sementi sənaye miqyasında istehsal etməyə imkan verir.

12 iyun 2018-ci ildə Rusiya Günündə Хангаласск

ulusunun Moxsoqolloh qəsəbəsində “Yakutsement” İB ASC-nin gücü ildə 500 min ton klinker sement istehsalı olan üçüncü texnoloji xəttinin təntənəli açılışı oldu. Müəssisədə üçüncü fırlanan sobanın istismara verilməsi ilə zavod artıq respublikanın sementə olan tələbatını 100% təmin edə biləcəkdir. Həmçinin, üçüncü texnoloji xəttinin işə salınması ilə Xanqalassk ulusunun: Pokrovsk, Bestyax və digər yaşayış məskənlərinin sakinləri olan 868 nəfərin sırasına ötən il 70 nəfər işçi əlavə olunub.

Əliş Zabit oğlu sərhədsiz xarizması ilə seçilən, məqsədyönlü şəkildə insanlara kömək etmək istəyi olan əsl liderdir.

Əliş Məmmədov hər zaman yeni layihələr axtarışındadır. İndi onlar sement və çınqıl alan yol işçiləri ilə fəal əməkdaşlıq edirlər. Sement asfalt istehsalatında tətbiq olunur. Bir layihə qurtarır, o biri başlayır. Onlar bazarda öz yerlərini həmişə tapırlar. “Yakutsement” çınqıl və yol plitələri də istehsal edir. Yeni növ məhsul – ПАГ-14 “Yakutsement” üçün yol ПДН плитələri və dəmir-beton plitələri aerodromların uçuş-enmə zolağı üçün nəzərdə tutulub. ПДН плитələrinin böyük hissəsi "Sibirin gücü" qaz kəməri-



*Pokrovsk qəsəbəsində doğum evi*



*Çapayev kəndində Texniki Lisey*



*Sinsk kəndində 176 şagird yerlik məktəb*



*Xanqalassk ulusunun Çapayev kəndində sərgi zalı ilə birlikdə kitabxana*



*Yakutsk şəhərində 500 şagird yerlik məktəb*



*Xanqalassk ulusunun Ulaxan-An kəndində 165 şagird yerlik məktəb*

nin inşaatçılarına göndərilir. Amma plitələrin tətbiq sahəsi daha genişdir və zavodun məhsulları üçün həyətyanı ərazilərdə, sosial obyektlərin tikintisində, körpülərdə, meydança bünövrələrinin tikintisində tətbiq oluna bilər. Qeyd edək ki, bu plitələr 2017-ci ildə modul tipli qazanxanalar altında uğurla tətbiq olunmuşdur.

Uluslararası İnşaat Akademiyasının müxbir üzvü olan Ə. Məmmədov dəfələrlə Saxa (Yakutiya) Respublikasının müxtəlif dövlət, hökumət təltiflərinə layiq görülüb. Saxa (Yakutiya) Respublikasında xeyriyyəçi kimi geniş şöhrət qazanıb.

Azərbaycanımızın adını həmişə uca tutan, Saxa (Yakutiya) Respublikasındakı diasporumuzun təşkilatlanmasında, Saxa ilə Azərbaycan arasında ictimai-mədəni ilişkilərin güclənməsində, habelə saxalılara Azərbaycan mədəniyyətini tanıtmaq sahəsində Əliş Məmmədovun böyük xidmətləri var.

Əliş Məmmədov Saxa Respublikası IV, V və VI çağırış Dövlət Məclisinin deputatıdır. Əliş Məmmədov 9 sentyabrda keçirilən son seçkilərdə böyük fərqlə qalib gələrək, 3-cü dəfə Saxa Dövlət Məclisinin – İl Tümen-in üzvü seçilib. Onun topladığı səs faizi

(89,2%, 25 saylı Xanqalasskiy Seçki Dairəsi, ilkin hesablama) Saxa (Yakutiya) üzrə ən yüksək göstəricilərdən biridir.

Əliş Məmmədov Saxa Respublikasının Fəxri Vətəndaşı və Əməkdar İnşaatçısıdır. Beynəlxalq Mühəndislik Akademiyasının müxbir üzvüdür.

2012-ci ilin mayında onun adı "Ən Yaxşı insanlar" Beynəlxalq Ensiklopediyasına daxil edilib.

Əliş Məmmədov sahibkarlıq, turizm və infrastrukturun inkişafı iqtisadi, investisiya və sənaye siyasəti üzrə (Daimi komitə) komitəsinin sədrinin müavini, partiyanın Tikinti və Mənzil-kommunal Təsərrüfatı üzrə Daimi komitəsinin üzvü və Saxa Respublikasının (Yakutiya) Dövlət Toplantısında (il Tümen) "Vahid Rusiya" Ümumrusiya siyasi partiyasının fraksiyasının üzvüdür.

Yakutiyanın inşaat sənayesində əldə etdiyi nailiyyətlərə görə 1995-ci ildə Ə.Məmmədova "Saxa Respublikasının (Yakutiya) Əməkdar İnşaatçısı" adı verilib. O, SR(Y)in "2000-ci ilin iki min xeyirxah işi", "Yakutiyanın Rusiya ilə 375 ili", "Saxa Respublikasının (Yakutiya) fəxri vətəndaşı" xatirə nişanları, habelə SR(Y) prezidentinin fəxri fərmanı, "Vətəndaşlıq



*Xanqalassk ulusunun Moxsoqollox qəsəbəsində İdman zalı*



*Xanqalassk ulusunun Ulax-An kəndində 50 yerlik uşaq bağçası*



*Xanqalassk ulusunun Çapayev kəndində Texniki lisey*



Moxsoqollox qəsəbəsində kilsə



Xanqalassk ulusunun Kerdem kəndində Tullukçan" məktəbəqədər tədris müəssisəsi



Moxsoqollox ulusunun Mira küçəsi 13 ünvanında yaşayış evi

şücaəti", "SR(Y)in təhsil əlaçısı" nişanları, "Stroitelnaya slava" fəxri nişanı, "Yakutiyanın fəxri inşaatçısı" idarə fərqlənmə nişanı ilə mükafatlandırılıb.

Ə.Məmmədova maddi istehsal sahəsində 2007-ci ilin Saxa Respublikasının (Yakutiya) Yuri Nikolayeviç Prokofyev adına Dövlət Mükafatı verilib. Ə.Məmmədov 2009-cu ildə "SR(Y) da bədən tərbiyəsi və idmanın inkişafına töhfəyə görə" fəxri nişanı ilə təltif edilib.

Əliş Məmmədov Xanqalasski ulusunun və Moxsoqolloh qəsəbəsinin fəxri vətəndaşıdır.

11 yanvar 2019-cu il tarixində Yakutiya Yazıçılar İttifaqı İdarə Heyətinin 2018-ci ilin yekunlarına həs olunmuş iclasında yeni təsis olunan nominasiyalardan biri üzrə – 2018-ci ildə "Yakut ədəbiyyatının ən yaxşı sponsoru" adına "Yakutiyasement" ASC-nin əvəzedilməz rəhbəri, İL Tümenin deputatı Əliş Məmmədov layiq görülüb. O, yakut yazıçılarının Azərbaycana yaradıcılıq ezamiyyətlərinin təşkilinə kömək etmiş və bundan başqa Platon Oyunsкinin Azərbaycan dilinə tərcümə olunmuş kitabının nəşrini maliyyələşdirmişdir. Nəinki yazıçılar, bütün ölkə ictimaiyyəti Əliş Məmmədova minnətdarlıq

edirlər. Onun bu addımı bütün respublika ictimaiyyəti üçün böyük bir töhfə olmaqla yanaşı, xalqlarımızın və ədəbiyyatların dostluğu baxımından da faydalıdır.

Yakutiya MSSR-in xalq deputatı Əliş Məmmədovu regionda tanımayan yoxdur. Bu çox əzmkar və açıq insan hər zaman çətin tapşırıqların həlli üçün konkret həll variantları tapır. Onun həyatı – böyük əmək yoludur, öz işinə məhəbbət, ən başlıcası, ona inanan sadə Yakutiya sakinlərinin vacib məsələlərinin həllinə özünü nəhəng həsretmə bacarığı onu region əhalisinin sevimlisinə çevirmişdir.

25 ildən çoxdur ki, o, "Yakutiyasement" İB ASC-nin baş direktoru vəzifəsindədir. Xalq deputatıdır. Əliş Məmmədov regionun təsərrüfat həyatının tikinti və infrastrukturla bağlı problemlərinin həllinə aid bütün məsələlərin həllinə real köməklik göstərir. Sözdə yox, əməldə, işdə, real həyatda. Rəhbərlik etdiyi müəssisənin resursları və öz kommunikasiya imkanlarından istifadə edərək, o artıq neçə illərdir bir çox mühüm layihələr həyata keçirir, sosial obyektlər təmir edilir, həmçinin Saxa Respublikasının (Yakutiya) Mənzil-Kommunal Təsərrüfatı və iqtisadiyyat sahəsində köməklik edir.



*Moxsoqollox ulusunun Molodyojnıy küçəsi 12 ünvanında yaşayış evi*



*Çurapçinsk ulusunun Çurapça kəndində 220 yerlik Gimnaziya*



*Pokrovsk qəsəbəsində idman kompleksi*



**Məmmədov Dilbazi Məsim oğlu**

02 mart 1954-cü ildə Kəlbəcər rayonunda anadan olmuşdur. O, 1960-cı ildə Kəlbəcər şəhərindəki 1 nömrəli orta məktəbin birinci sinfinə getmiş və 1969-cu ildə həmin orta məktəbi müvəffəq qiymətlərlə bitirmişdir.

Dilbazi Məmmədov 1969-cu ildə Bakı şəhərinə gəlmiş, sənədlərini Azərbaycan Politexnik İnstitutunun tikinti fakültəsinə verərək əyani şöbəyə qəbul olunmuş və 1975-ci ildə bu ali təhsil ocağında tam kursu bitirərək inşaat mühəndisi ixtisasına yiyələnmişdir.

O, bu arada Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur.

Dilbazi Məmmədov ali təhsilini tamamladıqdan sonra 01 oktyabr 1975-ci ildə Kiyev "Qiproximmaş" Layihə İnstitutunun Sumsk filialında tikinti-arxitektura şöbəsində mühəndis vəzifəsinə işə qəbul olunmuş, 01 iyul 1976-cı il tarixə kimi burada çalışmış və ailə vəziyyəti ilə əlaqədar öz xahişi ilə işdən azad olunmuşdur.

Dilbazi Məmmədov sonra 22 noyabr 1976-cı ildən Kənd Tikintisi Nazirliyinin 5 nömrəli "Azərkəndtikinti" trestinin Texniki İstehsalat şöbəsinə mühəndis vəzifəsinə işə qəbul olunmuş və bir müddət burada işlədikdən sonra 15 aprel 1977-ci ildə öz xahişi ilə işdən azad olunmuşdur.

Bundan sonra Dilbazi Məmmədovun əmək bioq-



*Nərimanov rayonunun ərazisində yaşayış binaları kompleksi*

rafiyasının respublikamızın paytaxtında mənzil tikintisinin əsas yükünü çiyinlərində daşıyan Bakı Baş Tikinti İdarəsinin idarə və təşkilatları ilə bağlı dönəmləri başlayır.

D.M. Məmmədov 19 aprel 1977-ci ildə Bakı Baş Tikinti İdarəsinin Hündür Mərtəbəli Yaşayış Binaları Tikintisi tresitinin 302 nömrəli Tikinti İdaərsinə iş icraçısı kimi işə qəbul olunmuş və burada paytaxtda eksperimental yaşayış binalarının tikintisində çalışaraq böyük təcrübə qazanmışdır. 02 noyabr 1978-ci ildə isə o, köçürmə yolu ilə BBTİ-nin Bakı Şəhər Tikini Trestinin 3 nömrəli Tikinti İdarəsinə iş icraçısı kimi işə qəbul edilmiş, az sonra baş iş icraçısı və mühəndis vəzifələrinə yüksələrək 03 yanvar 1983-cü ilə kimi burada gərgin əmək sərf etmişdir.

D.M. Məmmədov 01 avqust 1983-cü ildə köçürmə yolu ilə Bakı Baş Tikinti İdarəsinin 11 nömrəli Sosial Mədəni Binalar Tikintisi trestinin 23 nömrəli Tikinti İdarəsinə baş mühəndis vəzifəsinə təyin olunmuşdur. Bu, o zaman onun üzərinə qoyulan böyük bir məsuliyyət idi və Dilbazi müəllim ilk vaxtlardan peşəkar mühəndislik bacarığını ortaya qoyaraq etimadı doğrulda bilmişdir. O, 1986-cı ildə 23 nömrəli Tikinti İdarəsinin rəisi vəzifəsinə təyin olunmuş və BBTİ-nin mövcud olduğu son günlərəcən burada çalışaraq 1998-ci ildə öz xahişi ilə işdən azad olunmuşdur.

Dilbazi Məmmədovun peşəkar inşaatçı – mühən-



*Suraxanı rayonunda yataqxana binası*



*Suraxanı ATS*



*Bilgəh qəsəbəsində Qocalar evi*



*Günəşli qəsəbəsində poliklinika kompleksi*



*Maştağa qəsəbəsində orta məktəb binası*

dis fəaliyyətinin 21 ildən çox bir dövrü Bakı Baş Tikinti İdarəsində keçmişdir və o, burada sözün əsil mənasında püxtələşmiş, özünü təsdiq etmişdir. Bu, o illər idi ki, paytaxt sakinlərinin mənzil problemi ölkə rəhbərliyinin gündəlik nəzarətində idi. Həmin illərdə "Növbə-86" və "Mənzil-2000" proqramları qəbul olunmuşdu və bu dövlət sənədlərinin icrasının əsas ağırlığı BBTİ-nin üzərinə düşürdü. Bu illərdə mühəndis, baş mühəndis və idarə rəisi vəzifələrində çalışan Dilbazi Məmmədov minlərlə Bakı sakininin mənzil sevincini bölüşmüşdür.

D.M. Məmmədovun tikintisinə rəhbərlik etdiyi yaşayış binalarının və sosial tikililərin boy sırası o qədər genişdir ki, onların hamısını sıralasaq böyük bir siyahı alınardı. Onlardan, Razin (indiki Bakıxanov) qəsəbəsində yaşayış binaları, məktəb və uşaq bağçaları, Günəşlidə xəstəxana kompleksi, Suraxanı qəsəbəsində uşaq bağçaları, 9 mərtəbəli yaşayış (yataqxana) binası, ATS, inzibati binalar, Binə qəsəbəsində ATS binası, Mərdəkanda Əlillər üçün Pansionat, Prokurorluq binası, əlil uşaqlar üçün Pansionat, Buzovna qəsəbəsində

xəstəxana binası, "Gənclik" sanatoriya kompleksi, Bilgəh qəsəbəsində qocalar üçün Pansionat, Maştağa qəsəbəsində məktəb, xəstə uşaqlar üçün pansionat, ATS binası, 8-ci KM qəsəbəsində uşaq bağçası və xidmət obyektləri, Əhmədli qəsəbəsində yaşayış evləri və yataqxana kompleksi, Nəsimi rayonunda uşaqlar üçün yetimlər evi, Nərimanov rayonunda 20 nömrəli məktəb binası, yaşayış binaları və sair tikililəri qeyd etmək olar.

Aradan neçə illər keçsə də Dilbazi müəllim bu gün həmin binaların yanından keçəndə sövq-təbii ayaq saxlayır, bütün həyatını həsr etdiyi o möhtəşəm illəri xəyalən yenidən yaşayır, tikdiklərindən qürur duyur.

D.M. Məmmədov BBTİ-dən getdikdən sonra 1997-1998-ci illərdə "Vemliniton" şirkətində tikinti meneceri vəzifəsində çalışmışdır. Burada işlədiyi zaman BBTİ-də qazandığı zəngin təcrübə onun uğurlarına qarant olmuşdur.

O, 1999-2003-cü illərdə "Fels Baku" şirkətində tikinti meneceri, 2003-2005-ci illərdə isə "Forum – 95" MTK Mənzil Tikinti Kooperativində baş mühəndis vəzifəsində çalışmış, respublikamızın özəl tikinti sektorunda yüksəkmərtəbəli yaşayış binalarının tikintilərinə rəhbərlik etmişdir.

Bütün quruculuq fəaliyyəti dövründə Dilbazi müəllimin əməyi hər zaman rəhbərlik və baş idarə tərəfindən yüksək qiymətləndirilmiş, o, fəxri fərmanlarla, qiymətli hədiyyələrlə və pul mükafatları ilə təltif olunmuşdur.

D.M. Məmmədov bu gün də iş başındadır. O, özəl tikinti şirkətlərində məsləhətçi kimi çalışaraq öz zəngin mühəndislik təcrübəsini cavan inşaatçılarla bölüşür, onların kamil mühəndis kimi yetişmələri üçün köməyini əsirgəmir.

D.M. Məmmədov gözəl ailə başçısıdır, üç övladı, dörd nəvəsi var. Övladları ali təhsilli mütəxəssislər kimi öz sahələrində vətənə sədaqətlə xidmət edirlər.



*Suraxanı rayonunda prokurorluq binası*



*Suraxanı rayonunda uşaq bağçası*



**Məmmədov Fariz Faiq oğlu**

1984-cü il avqust ayının 1-də Kürdəmir rayonunda anadan olmuşdur. 1991-2001-ci illərdə Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində yerləşən 285 saylı Bünyadəli Qulamoğlu adına orta məktəbdə təhsil almışdır. 2001-2006-cı illərdə "Xəzər" Universitetinin Humanitar və Sosial Elmlər fakültəsində ali təhsilini ingilis dilində almışdır. 2008-2009-cu illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Neft-Qazın hasilatı, nəql olunması və saxlanması fakültəsində mühəndis ixtisası üzrə ixtisasartırma kursunu bitirmişdir.

İş fəaliyyətinə 2005-ci ildən BP-nin Şah Dəniz 1-Şah Dəniz Qaz alfa platformasının tikintisi layihəsində "MQS" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə SƏTƏM Departamentinin nəzdində Yanğın Nəzarətçisi kimi başlamışdır. Eyni Layihədə 2005-2006-ci illərdə "SWIFT Engineering LTD" şirkətində Şah Dəniz-1 Layihəsinin quruda və dənizdə İşlərə İcazə Kordinatoru vəzifəsinə qədər yüksəlmişdir.

2006-2009-cu illərdə AİOC-BP "SWIFT Tehnical LTD" şirkətində Səngəçcal Terminalının Genişləndirilməsi Proqramı çərçivəsində sahə rəisi vəzifəsini icra etmişdir. Bu müddət ərzində Səngəçal Teminalında torpaq və infrastruktur layihələri icra olunmuş, eyni zamanda neft-lay sularının yığılması üçün çənlər tikilmiş, 7-ci neft qızdırıcı qurğu və bir neçə inzibati binaların tikintisində fəal iştirak etmişdir. BP layihələrində işlədiyi müddət ərzində xeyli sayda SƏTƏM sahəsi üzrə maarifləndirici və biliklərin artırılması yönümlü təlimlərdə və xüsusi treyninqlərdə olmuş və sertifikatlar almışdır.

Bundan sonra ölkənin müxtəlif iri layihələrində, məsələn 2009-2010-cu illərdə "Strabag Azerbaijan LTD" şirkəti "JW Marriott Absheron Hotel Baku" layihəsində SƏTƏM mühəndisi, eyni zamanda Paşa İnşaat Mace şirkəti Port Baku Layihəsində Loqistik və SƏTTƏM işlərini icra etmişdir.

2011-ci ildə Çıraq Neft Layihəsi çərcivəsində "ATA-Yard" da-Azfen-Tekfen-Amec Consortium" Azfen Birgə Müəssiəsində İşə İcazə Koordinatoru olmuşdur.

2011-2014-cü illərdə SOCAR-Dövlət Neft Şirkətinin Neft-Qaz Tikinti Trestinin nəzdində olan Sənaye Tikinti İdarəsində Bakı Gəmiqayırma Zavodunun tikintisi layihəsində Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi Departamentinin rəhbəri olaraq çalışmışdır.

2014-cü ildə qısa müddətlik "Azertexnolayn" şirkətinin Polad Boru Se-



*ƏMDK-nin 33 mərtəbəli yeni inzibati binası*

xində SƏTƏM Departamentinin rəhbəri olmuş və 2014-2016-cı illərdə Azfen Birgə Müəssisəsi Şah Dəniz 2 Layihəsində Treyninq mərkəzdə SƏTTƏM Təlimçisi və SƏTTƏM Qiymələndiricisi vəzifələrini icra etmişdir. Bu müddətdə layihəyə cəlb olunan yerli və xarici mütəxəssislərə treyninq vermişdir.

2016-2017-ci illərdə Sumqayıt şəhərində yerləşən "Socar Ammonia and Urea Project" – Karbamid və Gübrə zavodunda Prokon şirkətində SƏTTƏM rəhbəri olaraq çalışmış və layihədə olan təqribən 60-dan artıq SƏTTƏM nümayəndəsinə rəhbərlik etmişdir.

2018-ci ilin yanvar ayından bu günə qədər "SMTS" şirkətində Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Təhlükəsizlik, Ətraf Mühitin Mühafizəsi Departamentinin rəhbəri vəzifəsini sevə-sevə icra edir.

Qısa zaman kəsiyində işlər yenidən qurulmuş, SƏTTƏM Sistemi yenidən yaradılmış və beynəlxaq İSO sertifatları-İSO-9001-2015 Keyfiyyət, İSO 14001-2015 Ətraf Mühit və İSO 45001-2018 Əməyin Təhlükəsizliyi Sertifikatları alınmışdır.

Ailəlidir, 2 övladı var.



**Məmmədov Mirzalı Hacımurad oğlu**

14 iyun 1960-cı ildə qədim Borçalı mahalında – indiki Gürcüstanın Marneuli rayonunun 2-ci Kosalı kəndində anadan olmuşdur. Orta təhsilini 1968-1978-ci illərdə Marneuli rayonunun 2-ci Kosalı kənd orta məktəbində almış, məktəbi müəvəffəq qiymətlərlə bitirmişdir.

1978-1980-ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur.

Mirzalı Məmmədov 1981-1988-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Sənaye və Mülki Tikinti fakültəsində təhsil almış və bu ali təhsil ocağını İnşaat mühəndisi ixtisası üzrə bitirmişdir.

Mirzalı Məmmədov ilk əmək fəaliyyətinə 1982-ci ildə "Jiloy" seysmik stansiyasının tikintisində 2-ci dərəcəli fəhlə kimi başlamış, az sonra tikinti ustası, Plan İstehsalat şöbəsinin rəisi, iş icraçısı (1991-ci il) vəzifələrində çalışmışdır. 1992-1995-ci illərdə isə Müdafiə Nazirliyi Mərkəzi Hərbi Hospital Kompleksində işləmişdir.

M.H. Məmmədov 1997-ci ildə "Bərpa-Tikinti" MMC-də iş icraçısı kimi 18 mərtəbəli yaşayış kompleksinin tikintisində, 2005-ci ildə TİLİ "Az.Koop-Layihə" müəssisəsində mühəndis vəzifəsində



*Zaqatala rayonunda 2 nömrəli orta məktəbin 4 mərtəbəli 970 yerlik monolit konstruksiyalı məktəb kompleksi*



*18 mərtəbəli yaşayış kompleksi*

21 mərtəbəli monolit konstruksiyalı yaşayış kompleksinin, baş iş icraçısı kimi isə Şuraabad Broyler Kompleksinin tikintilərinə rəhbərlik etmişdir.

2008-ci ildən sonra Mirzalı Məmmədovun tikinti-quruculuq fəaliyyətində yeni səhifələr açılır. O, artıq tikintidə özünü təsdiq etmiş peşəkar inşaat mühəndisi kimi respublikamızdan kənarda da tikinti fəaliyyəti ilə məşğul olmağa başlayır. Belə ki, o, 2008-2010-cu illərdə OOO "Rossi-S" şirkətində sahə rəisi vəzifəsində Rusiya Federasiyasının Volqaqrad şəhərində 16 ədəd 3+7 mərtəbəli monolit konstruksiyalı yaşayış komplekslərinin, Rusiya Federasiyasının Surqut şəhərində isə 25 mərtəbəli monolit konstruksiyalı yaşayış kompleksinin tikinti-



*"MİDA" yaşayış kompleksi üçün Beton zavod qurğusu*

lərinə rəhbərlik etmiş, bir Azərbaycan mühəndisi kimi respublikamızın adına ucalıq gətirən quruculuq işləri görmüşdür.

M.H. Məmmədov 2010-cu ildə yenidən doğma respublikamıza qayıtmış, burada mühəndislik fəaliyyətini yüksək şövqlə və həvəslə davam etdirmişdir. Belə ki, Mirzalı müəllim ANKZ "Tikinti Quraşdırma" İdarəsində sahə rəisi kimi Badamdar qəsəbəsində 12 mərtəbəli 2 girişli monolit konstruksiyalı yaşayış kompleksinin, 2012-ci ildə Salyan və Neftçala rayonlarının təbii fəlakət bölgəsində Kür çayı sahilində bənd atma işlərinin, Zaqatala rayonunun zəlzələ bölgəsində 116 ədəd (1, 2 mərtəbəli) fərdi yaşayış evlərinin, Zaqatala rayonunda 2 nömrəli orta məktəbin 4 mərtəbəli 970 yerlik monolit konstruksiyalı məktəb kompleksinin, yenə də ANKZ "Tikinti Quraşdırma" İdarəsinin sahə rəisi kimi 2013-cü ildə Qaradağ rayonunun Lökbatan qəsəbəsində 5 ədəd 9 mərtəbəli monolit konstruksiyalı yaşayış kompleksinin tikintilərinə rəhbərlik etmişdir.

M.H. Məmmədov 2015-ci ildə "Laura" Firmasında iş icraçısı kimi Ukrayna dairəsində 16 mərtəbəli 2 girişli monolit konstruksiyalı ya-



*Kür çayı sahilində bəndatma işləri*



*Lökbatan qəsəbəsində hündürmərtəbəli yasayiş binası*



*Tələbə Qəbulu üzrə Dövlət Komissiyası üçün 9 mərtəbəli monolit konstruksiyalı inzibati bina*

şayış kompleksinin, 2016-cı ildə "MAQ LTD" MMC-nin iş icraçısı kimi Yasamal rayonunda Zərgərlik zavodunun yerində 3 mərtəbəli yeraltı monolit konstruksiyalı avtomobil dayanacaq kompleksinin tikintilərini həyata keçirmişdir.

M.H. Məmmədov 2016-cı ildən tikinti-quruculuq fəaliyyətini "SMT İnşaat" MMC-də davam etdirir. O, şirkətin baş mühəndisi kimi Yasamal rayonu "MİDA" yaşayış kompleksi üçün Beton zavod qurğusunun quraşdırılması işlərini müvəffəqiyyətlə həyata keçirmişdir.

Mirzalı Məmmədov hazırkı vaxtda "SMT İnşaat" MMC-nin baş mühəndisi kimi Nəsimi rayonu ərazisində Tələbə Qəbulu üzrə Dövlət Komissiyası üçün 9 mərtəbəli monolit konstruksiyalı inzibati bina kompleksinin tikintisinə rəhbərlik edir.



*Badamdar qəsəbəsində 12 mərtəbəli 2 girişli monolit konstruksiyalı yaşayış kompleksi*

Ailəlidir, iki qızı, bir oğlu var. Həyat yoldaşı Natella xanım Azərbaycan Müəllimlər İnstitutunun Məktəbəqədər Təhsil İxtisasartırma Kurslarını bitirib, hazırkı vaxtda 193 saylı körpələr evində musiqi rəhbəri vəzifəsində çalışır.

Qızı Göyçək Məmmədova Azərbaycan Dövlət İqtisad Universitetinin Uçot-iqtisad fakültəsini Mühasibat Uçotu və Audit ixtisası üzrə (Bakalavr) bitirib və Özəl Konsaltinq şirkətində mühasib işləyir.

Qızı Aytən Məmmədova Bakı Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və İqtisadiyyat fakültəsini (Bakalavr), Azərbaycan Dövlət İqtisad Universitetini (Magistr), İsveçrə Biznes və Beynəlxalq Tədqiqat Universitetini (Magistr) bitirib və hazırda Özəl Konsaltinq şirkətində mühasib işləyir.

Atasının adını daşıyan oğlu Hacımurad Məmmədov Azərbaycan Memarlıq və İnşaat Universitetini Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi ixtisası üzrə bitirib, tikinti mühəndisidir və özəl tikinti şirkətində mühəndis köməkçisi vəzifəsində çalışır.

M.H. Məmmədovun əməyi istər Rusiya Federa-

siyasında çalışdığı müəssisələrdə, istərsə də respublikamızda işlədiyi bütün idarə və təşkilatlarda hər zaman rəhbərlik tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, o, tikinti quruculuq yönümündəki çoxillik səmərəli fəaliyyətinə və qazandığı nailiyyətlərə görə dəfələrlə fəxri fərmanlarla, pul mükafatları və qiymətli hədiyyələrlə təltif olunmuşdur.

M.H. Məmmədov bütün əmək fəaliyyəti dövründə ictimai fəallığı ilə seçilmiş və respublikanın inkişafı üçün əzmlə çalışmışdır və o, bu gün də eyni amalla çalışır. O, yüksək təşkilatçılıq keyfiyyətlərinə malik mühəndis, nümunəvi ailə başçısı, saf əqidəli, torpağına, vətəninə, dövlətə bağlı bir insandır.

M.H. Məmmədov sənətini sevir və 35 ildən çoxdur ki, tikib yaratmaqla xalqına və dövlətinə şərəflə xidmət edir. O, bu gün də on, on beş il əvvəllərdə olduğu kimi işə həvəslə gəlir, əzmlə çalışır və işindən zövq alır.



*Ukrayna dairəsində 16 mərtəbəli 2 girişli monolit konstruksiyalı yaşayış kompleksi*



*Yasamal rayonunda Zərgərlik zavodunun yerində 3 mərtəbəli yeraltı monolit konstruksiyalı avtomobil dayanacaq kompleksi*



**Məmmədova Xatirə Qalamirzə qızı**
19 oktyabr 1964-cü ildə İmişli rayonunda anadan olub.

Orta təhsilini Bakı şəhəri N.Nərimanov rayonunda 57 saylı 8 illik məktəbdə almışdır.

1982-ci ildə orta məktəbi bitirdikdən sonra Bakı Baza Energetika Texnikumuna daxil olub.1986-cı ildə həmin texnikumu fərqlənmə dipomu ilə bitirib.

1986-cı ildə "Azərdövlətsənayelayihə" İnstitutunda texnik işləyib.

1987-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun energetika fakültəsinin axşam şöbəsinə daxil olmuşdur.

İnstitutda oxuduğu illərdə (1990) gündüzlər "Azərdövlətsənayelayihə" İnstitutunda texnik işləyib.

1993-cü ildə institutu bitirdikdən sonra isə "Azərdövlətsənayelayihə" İnstitutunda mühəndis kimi işini davam etdirib.

2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərdövləttikintilayihə" Dövlət Layihə İnstitutunun Elektrotexnika və Zəif cərəyanlar şöbəsinin elektrikləşdirmə və elektrik təchizatı sektorunda aparıcı mütəxəssis işləyir.

İşlədiyi illərdə institutun bütün layihələrində mühəndis kimi iştirak etmişdir.

Xızı şəhərində Xızı rayon İcra Hakimiyyətinin inzibati binası, Şəki, Kürdəmir, Lənkəran rayonlarında qarışıq rejimli cəzaçəkmə müəssisələri, FHN-nin Biləcəri qəsəbəsində Mülki Müdafiə Qoşunlarının Hospital binası, Sumqayıt şəhəri, Corat bağ sahəsində, 1935 saylı ərazidə yerləşən istirahət binası, Goradil qəsəbəsində 500 yerlik sanatoriya kompleksi, Ağcabədi, Goranboy, Bərdə, Qazax, Tərtər, Kürdəmir rayonlarında, Gəncə şəhərində, Masazır qəsəbəsində və s. məcburi köçkünlər üçün qəsəbələr, Olimpiya idman kompleksləri, yüksək mərtəbəli yaşayış binaları, 6kV,10kV-luq yarımstansiya və elektrik veriliş xətləri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İnzibati binası, Sumqayıt Kimya Sənaye Parkı ərazisində Sənaye istifadəsi üçün FFS polietilen kisələrinin istehsalat sahəsi, eləcə də respublika üzrə kino-teatr binalarının yenidənqurulması layihələrində yaxından iştirak etmişdir.

Xatirə Məmmədova 2005-ci ildə nümunəvi işlərinə görə FHN-nın 5 illik yubiley medalı ilə təltif olunmuşdur.

2017-2018-ci ildə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisdənkənar Dövlət Ekspertiza Baş idarəsində müqavilə əsasında kömək məqsədi ilə elektrik bölməsi üzrə ekspert işləmişdir.



*Gəncə şəhəri ərazisində yataqxanalarda müvəqqəti məskunlaşan 1500 məcburi köçkün ailəsi üçün hündür mərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsinin layihəsi*



**Mənsimov Vahabəli Məhəmmədəli oğlu**

22 dekabr 1949-cu ildə Biləsuvar rayonunun Ağalıkənd kəndində kolxozçu ailəsində anadan olmuşdur.

1957-ci ildə Biləsuvar şəhərində yerləşən Nizami adına orta məktəbin birinci sinfinə getmiş, 1967-ci ildə həmin məktəbin onuncu sinfini bitirmişdir. Məktəbdə oxuyarkən bütün fənlərə xüsusi həvəs göstərmiş və dərs əlaçısı olmuşdur.

Vahabəli Mənsimov təhsilini ali səviyyədə davam etdirmək üçün sənədlərini Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə vermiş və 1967-ci ildə istəyinə nail olmuş, qeyd olunan institutun birinci kurs tələbəsi olmuşdur. Həmin illərdə İnşaat fakültəsində ("Sənaye və mülki tikinti" ixtisası üzrə) 6 qrupda təhsil alan 150 tələbədən xüsusi əlaçılar qrupu yaradılmış ("Sənaye və mülki tikintilərin konstruktorları" ixtisası üzrə) və Vahabəli Mənsimov həmin qrupda təhsil alan 23 tələbədən biri olmuşdur.

Qrup nümayəndəsi (starosta) Rauf Məmmədzadənin verdiyi məlumata görə həmin qrupda əlaçı tələbə kimi təhsilini davam etdirmək çox ağır, zəhmət və yüksək səviyyəli bilik tələb edən bir işə çevrilmişdi. Bəzən elə olurdu ki, bir imtahandan 23 tələbənin 18-i əla qiymət, 15 tələbə isə semestrlər üzrə əlaçı təqaüdü alırmış. Bütün təhsil illərində gənc və enerjili Vahabəli Məhəmmədəli oğlu həmişə qabaqcıl tələbələr sırasında öz mövqeyini qorumuşdur.

1972-ci ildə institutu müvəffəqiyyətlə başa vurub inşaatçı-mühəndis ixtisasına yiyələnən V. Mənsimov təyinatla, zabit kimi, o zamankı SSRİ-nin Müdafiə Nazirliyinin sərəncamına göndərilmişdir.

1972-1974-cü illərdə Uzaq Şərqdə (Komsomolsk-Amur şəhərində) leytenant kimi xidmət edən Vahabəli hərbi qulluqdan sonra Vətənə qayıtmış və respublikamızın tikinti sektorunda əmək fəaliyyətini davam etdirmişdir.

Vahabəli Mənsimov 1974-1994-cü illər arasında Biləsuvar rayon Aqrar Sənaye Birliyinin Əsaslı Tikinti şöbəsində mühəndis, böyük mühəndis və şöbə müdiri, sonra isə Biləsuvar rayon Aqrar Sənaye Birliyinin sədr müavini işləmişdir.

Onun sonrakı 10 illik tikinti-quruculuq yolu isə Kənd Tikinti Nazirliyi ilə bağlı olmuşdur. Belə ki, o, 1994-2004-cü illərdə Kənd Tikinti Nazirliyinin Biləsuvar rayonunda yerləşən iki idarəsində (300 və 85 nömrəli SMD-lər) rəis vəzifəsində çalışmışdır.

V.M. Mənsimov 2004-2016-cı illər arasında "Azərsu" ASC-nin Biləsuvarda yerləşən Su Kanal İdarəsində müxtəlif məsul vəzifələrdə çalışmışdır. Hal-hazırda təqaüddədir.

Vahabəli Mənsimov ailəlidir, iki oğlu, iki qızı və on bir nəvəsi vardır.

Böyük oğlu Azər Mənsimli ixtisasca politoloqdur, AR Energetika Nazirliyinin Mətbuat xidmətinin rəhbəri işləmiş, hazırda sahibkarlıq fəaliyyəti ilə məşğuldur, ailəlidir və iki övladı var.

Kiçik oğlu Zaur Mənsimli ixtisasca iqtisadçıdır, Azərbaycan Respublikası Vergilər Nazirliyinin məsul işçisidir, ailəlidir, iki övladı var.

Böyük qızı Gülnar Mənsimli ali təhsilli müəllimədir, ailəlidir, üç övladı var. Kiçik qızı İlahə Mənsimli müəllimədir, ailəlidir və dörd övladı var.

Ailəsi, övladları və nəvələri ilə fəxr edən Vahabəli Mənsimov bu gün təqaüddə olsa da bir müəllim və təcrübəli inşaat mühəndisi kimi zəngin təcrübə və biliklərini gənc nəslə həvəslə öyrədir.



**Mir-Bağırov Altay Seyid Hüseyn oğlu**

4 oktyabr 1934-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1941-1949-cu illərdə Bakı şəhəri Nizami rayonunun 201 saylı orta məktəbini əla qiymətlərlə bitirib, 1947-1949-cu illərdə Pionerlər sarayında təsviri sənət dərnəyində məşğul olmuşdur. O, 1949-1953-cü illərdə Bakı Neft texnikumunda Neft quyularının qazınması texniki ixtisas üzrə tam təhsil almışdır. Altay Mir-Bağırov 1953-1955-ci illərdə Stalinqrad (Volqoqrad) şəhərində Sovet Ordusu sıralarında xidmət göstərmiş və leytenant rütbəsi almışdır.

Altay Mir-Bağırov 1956-1962-ci illərdə Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) Memarlıq fakültəsində oxumuş, "Çoxmərtəbəli ramplı qaraj" mövzusunda diplom işinini müvvəffəqiyyətlə müdafiə etmişdir. 1962-1963-cü illərdə təyinat üzrə Novokuznetsk şəhərində "Sibir Promproekt" layihə institutunda memar vəzifəsində işləmişdir. O, 1963-1965-ci illərdə "Azərenerji" idarəsində tikinti sahəsində çalışmışdır. 1966-cı ildə SSRİ Memarlar İttifaqının üzvü olmuşdur.

Altay Mir-Bağırov 1965-ci ildə Mir-Bağırova Validə Baladadaş qızı ilə ailə qurmuşdur.

1965-2002-ci illərdə Moskva "Kurortlayihə" institutunun Azərbaycan şöbəsində memar, layihələrin baş memarı, memarlıq və tikinti emalatxanasının rəisi vəzifələrini icra etmişdir. 2002-ci ildən 2009-cu ilə qədər "Azərinşaatlayihə" institutunda memarlıq şöbəsində rəis vəzifəsində işləmişdir.

21 noyabr 2011-ci ildə Bakı şəhərində dünyasını dəyişmişdir.

1966-cı ildə Bakı şəhəri Novxanı qəsəbəsində "Sarı Qaya" adlı 2400 yerlik Pioner düşərgəsi (Altay Mir-Bağırov və Akif Qasımov Balad oğlu ilə birlikdə), 1966-1967-ci illərdə Qəbələ rayonunda 400 yerlik "Qafqaz" turbazası, 1967-1980-ci illərdə Bakı şəhəri ASPS-in 400 yerlik Təhsil kurs bazası (Altay Mir-Bağırov və Akif Qasımov Balad oğlu ilə birlikdə), 1966-1970-ci illərdə Dağıstan AR Mahaçqala şəhərində "Manas"-da 700 yerlik "Çayka" istirahət evi, 1973-1975-ci illərdə Naftalan kurort şəhərində 50 sərnişinlik (aeroport) hava limanı (Altay Mir-Bağırov və K.Səidov ilə birlikdə), 1974-1980-ci illərdə Türkmənistan Respublikasının Marı şəhərində 120 yerlik sanatoriya-profilaktoriya kompleksləri, 1975-1981-ci illərdə Türkmənistan Respublikasının Çarjoy şəhərində 120 yerlik sanatoriya-profilaktoriya kompleksləri, 1976-1980-ci illərdə Türkmənistan Respublikasının Taşauz şəhərində 120 yerlik sanatoriya-profilaktoriya kompleksləri, 1981-ci ildə Pirşağı qəsəbəsində Veteran sanatoriyasında əyləncə oyun və yay kinoteatrı, 1981-ci ildə Pirşağı qəsəbəsində Qızılqum sanatoriyasında 500 yerlik müalicə korpusu, 1982-1983-cü illərdə Naftalan kurort şəhərində "Geran" sanatoriyası, 1985-ci ildə Bakıda Respublika stadionun yanında Dövlət Təh-

lükəsizlik Komitəsi üçün 120 yerlik ixtisaslaşdırılmış yataqxana, 1985-ci ildə Horadil qəsəbəsində genişləndirilmiş 360 yerlik “Rabitəçi” pioner düşərgəsi, 1989-1993-cü illərdə Naftalan kurort şəhərində “kurort sanatoriyasının poliklinikası”, 1998-2004-cü illərdə Bakı, Sumqayıt, Naxçıvan, Gəncə şəhərlərində, Zığ, Xırdalan, Əhmədli, Sabunçu, Günəşli qəsəbələrində, Yasamal, Nərimanov, Nizami, Əzizbəyov rayonlarında, Biləcəri və başqa yerlərdə şəhid və əlil ailələri üçün 4 mərtəbəli, 3 seksiyalı, 36 mənzilli yaşayış binaları (36 yerdə təkrar tikilib), 2003-2004-cü illərdə Azərbaycan Respublikasının ayrı-ayrı regionlarında 15 yerdə məktəb binaları, 2003-2004-cü illərdə Bakı, Sumqayıt, Naxçıvan, Gəncə şəhərlərində, Zığ, Xırdalan, Əhmədli, Sabunçu, Günəşli qəsəbələrində, Yasamal, Nərimanov, Nizami, Əzizbəyov rayonlarında, Biləcəri və başqa yerlərdə (36 yerdə təkrar tikilib), 3 bloklu, 4 mərtəbəli əlil və şəhid ailələri üçün yaşayış evi, 2003-2004-cü llərdə Bakı şəhəri, Qutqaşenlı 79 küçəsində, 1 bloklu, 17 mərtəbəli, 12 maşın üçün qaraj və 2 səviyyəli mağazaları olan yaşayış binası, 2003-2004-cü illərdə Xanlar rayonunun Çaykəndi kəndində xəstəxana, 2004-cü ildə Yasamal rayonunda Arxiv binasının yeməkxana və oxu zalı, 2005-ci ildə Nərimanov rayonu, 1938 məhəllə, Hidayyətzadə küçəsi Ofis-yaşayış binası, 2005-ci ildə Ziya Bunyadov prospektində “Relax” Mebel salonu, 2006-cı ildə əlil və şəhid ailələri üçün 9 mərtəbəli 81 mənzilli yaşayış evi, 2006-ci ildə Şəmkir rayonunda İdman Olimpiya kompleksi, 2007-ci ildə Şəmkir rayonunda İdman Olimpiya Kompleksi üçün Kottej – yaşayış evi, 2007-ci ildə Salyan rayonunda çayxana, mehmanxana və şadlıq evi, 2007-ci ildə Dağıstan AR Mahaçqala şəhərində şəxsi hamam-sauna, 2007-ci ildə Cəlil Məmmədquluzadə 3-də Müdafiə Nazirliyinin Hərbi Hospitalı, 2007-ci ildə Fövqəladə Hallar Nazirliyi üçün Biləcəri kazarmasında 500 nəfərlik yeməkxana, 2008-ci ildə Fövqəladə Hallar Nazirliyi üçün Türkan, Lənkəran və Gəncə şəhərlərində adminisrtativ bina, Fövqəladə Hallar Nazirliyi üçün Türkan qəsəbəsində, Lənkəran və Gəncə şəhərlərində əsgər-növbətçi üçün müşahidə qülləsi, Fövqəladə Hallar Nazirliyi üçün Türkan qəsəbəsində xüsusi təyinatlı əsgərlər üçün yataq korpusu, Fövqəladə Hallar Nazirliyi üçün Lənkəran şəhəri və Türkan qəsəbəsində Hərbi ştab, 2008-2009-cu illərdə Dənizkanarı bulvarın – Zığ, Bibiheybət, Bayıl və Şıxov daxil olmaqla yeni tikintisinin eskiz layihəsi, Şəhid və əlil ailələri üçün 4 mərtəbəli 36 mənzilli yaşayış evi (yeni variantda), Əlil və şəhid ailələri üçün 9 mərtəbəli 81 mənzilli yaşayış evləri yeni variantda Azərbaycan və onun rayonlarda tikilmişdir.

Azərbaycan Respublikası Dövlət Elm və Texnika sənədləri Arxivində Azərbaycan memarı Altay Səid Hüseyn oğlu Mir-Bağırova həsr olunmuş 162 №-li şəxsi fondu açılmışdır. Altay Mir-Bağırovun sənədlərinin şəxsi Arxivi fondunda Azərbaycan və keçmiş SSRİ məkanında 1965-2009-cu illəri əhatə edən layihələri elmi-texniki ekspertizadan keçirilmiş, onun fəaliyyətinin tarixi əhəmiyyəti nəzərə alınaraq, Arxivin zəngin və qiymətli materiallarının fonduna daxil edilmişdir.



**Musayev Məmmədəli Muxtar oğlu**

10 mart 1945-ci ildə Qazax rayonunun Muğanlı kəndində ziyalı ailəsində anadan olmuşdur. 1963-cü ildə Muğanlı kənd orta məktəbini birtirib Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə daxil olmuşdur.

İnstitutun 2-ci kursundan hərbi xidmətə çağrılan Məmmədəli Musayev təhsilini yarımçıq saxlamış, 1964-1967-ci illərdə hərbi xidməti başa vurub, zabit kimi leytenant rütbəsində Bakı şəhərinə qayıtmışdır.

Təhsilini Azərbaycan Politexnik İnstitutunda davam etdirən Məmmədəli Muxtar oğlu Musayev 1972-ci ildə həmin institutun İnşaat fakültəsini "Sənaye və mülki tikinti" ixtisası üzrə bitirmişdir.

Məmmədəli Musayev 1972-ci ildə təyinatla Azərbaycan Respublikası Sənaye Tikinti Nazirliyinin, o zaman çox məşhur olan 4 nömrəli trestinin 46 nömrəli Tikinti İdarəsinə iş ustası vəzifəsinə göndərilmişdir.

O, 1972-1975-ci illərdə Qaradağ rayonunun Ələt qəsəbəsində inşa olunan Ağac Emalı Kombinatının tikintisində, gənc mütəxəssis kimi, iş icraçısı işləmiş, 1975-1976-cı illərdə sahə rəisi olaraq Bakı Dəmir Yolu Vağzalının və Bakı Dəmir Yolu Poçtamtının tikintilərini başa çatdırmışdır.

Sonrakı illərdə Məmmədəli Musayevin iş fəaliyyətində yeni və uğurlu mərhələ başlamışdır. Belə ki, o, 1977-ci ildə Sənaye Tikinti Nazirliyinin 4 nömrəli trestinin 43 nömrəli Tikinti Quraşdırma İdarəsinə baş mühəndis vəzifəsinə təyin edilmiş, 1979-1983-cü illərdə isə həmin idarənin rəisi vəzifəsində çalışmışdır. Bu illərdə Məmmədəli Musayev çoxlu sayda mühüm dövlət əhəmiyyətli obyektlərin tikintilərinə bilavasitə rəhbərlik etmiş və onların təhvil verilməsində onun və rəhbərlik etdiyi kollektivin böyük zəhməti olmuşdur.

BEMZ (Bakı elektro-mexaniki zavod), KMZ (Keşlə Maşınqayırma zavodu), Səttarxan adına Maşınqayırma zavodu, Musa-




*Sumqayıt dəmir yolu vağzalı*

bəyov adına Maşınqayırma zavodu, EHMZ (Elektron Hesablayıcı Maşınlar zavodu), Heydər Əliyev adına Bakı Dərin Özüllər zavodu, "AZON" zavodu, Kirov adına Neft Maşınqayırma zavodu, Şirvan şəhərində Cihazqayırma zavodu, Bakı Aqreqat İstehsalat Birliyinin binası və digər dövlət əhəmiyyətli obyektlər Məmmədəli Musayevin tikintilərinə rəhbərlik etdiyi obyektlərdən bir qismidir.

M.M. Musayev 1983-1997-ci illərdə Azərbaycan Respublikası Dövlət Plan Komitəsinin təmir-tikinti idarəsində rəis vəzifəsində işləmiş, 1985-1990-cı illərdə Nərimanov rayon Xalq Deputatları Sovetinin deputatı olmuşdur.

1997-2010-cu illər ərzində müxtəlif tikinti şirkətlərində və müəssisələrində məsul vəzifələrdə işləmiş Məmmədəli Musayev 2010-cu ildən "Körpü Bina Tikinti" (KBT) MMC-də sahə rəisi vəzifəsində işləyir.

2010-2014-cü illərdə Bakı Dəniz Limanı və "Abşeron" mehmanxanası arasındakı, "Sahil" metrosunun yanındakı, "Hilton" Oteli ilə Bulvar arasındakı, "Azneft" meydanındakı, Bakı Funikulyoru ilə "Xalça Muzeyi" arasındakı və "Neftçilər" xəstəxanasının qarşısında yerləşən yeraltı piyada keçidlərinin tikintilərində Məmmədəli müəllimin xüsusi əməyi vardır.

M.M. Musayev həmçinin 2016-cı ildə Gəncə şəhərinin "Giriş qapısı"nın sağ və solunu birləşdirən yeraltı piyada keçidinin inşasını yerinə yetirmiş, 2016-2017-ci illərdə Gəncə şəhərinin Heydər Əliyev prospektində tikilən yeraltı piyada keçidinin inşaat işlərinə rəhbərlik etmişdir.

O, 2017-ci ildə Zaqatala şəhərində təhvil verilmiş




*Bakı dəmir yolu vağzalı*



*Bakı Dərin Özüllər zavodu*

yeraltı piyada keçidinin tikinti işlərinin rəhbəri olmuş, 2018-ci ildə Sumqayıt şəhərində inşa olunmuş yeni dəmir yolu vağzalının tikintisinin fəal iştirakçısı olmuşdur.

Atası Muxtar Məhəmməd oğlu 1906-cı ildə Qazax rayonunun 1-ci Şıxlı kəndində anadan olub, 1930-cu ildə Muğanlı kəndinə köçüb orda yaşamış və kəndin hörmətli kişilərindən olub, anası Gülsənəm Rəfi qızı qəhrəman ana olub, bu ailədə 10 oğul, bir qız böyüyüb tərbiyə alıb. 11 övlad dünyaya gətirən Gülsənəm Rəfi qızına "Qəhrəman Ana" fəxri adı verilmişdir.

Məmmədəli Musayevin həyat yoldaşı Elza İsa qızı Qazax Tibb Texnikumunu bitirib, 2018-ci ildə haqq dünyasına qovuşub.

Məmmədəli müəllimin üç övladı var, hər üçü ali təhsillidir. Qızı Roza N. Tusi adına Pedaqoji Universiteti bitirib. İkinci qızı Səbinə isə Azərbaycan Tibb Universitetinin məzunudur. Oğlu Fərid Azərbaycan Memarlıq və İnşaat (AzMİU) Universitetini bitirib. Məmmədəli Musayevin Məmmədəli, Səməndər, Fidan, Nihad, İlahi, Rəsul və Arzu adında yeddi nəvəsi vardır.

Məmmədəli Muxtar oğlu Musayev hazırkı vaxtda işlədiyi Cəmiyyətin müxtəlif obyektlərində xüsusi mühəndislik keyfiyyətləri tələb edən işlərin yerinə yetirilməsində bilavasitə iştirak edir və çoxillik zəngin mühəndislik təcrübəsini gənc inşaatçı kadrlara həvəslə öyrədir və bundan zövq alır.





*"Azneft" meydanında, Bakı Funikulyoru ilə "Xalça Muzeyi" arasında yerləşən yeraltı piyada keçidindən görüntülər...*



**Müttəhirov**
**Fəzail**
**Səfər oğlu**

1961-ci ilin may ayının 26-da Qəbələ rayonunun Məmmədağalı kəndində anadan olmuşdur. 1968-1972-ci illərdə Məmmədağalı kənd ibtidai məktəbini bitirdikdən sonra 1972-1976-cı illərdə Qəbələ rayon internat məktəbində təhsilini davam etdirmişdir. O, 1976-cı ildə Bakı şəhərinə gəlmiş və Binə qəsəbəsində 112 nömrəli texniki peşə məktəbində maşinist-ekskovatorçı peşəsini öyrənmişdir. Eyni zamanda 1979-cu ildə 168 nömrəli orta məktəbin axşam şöbəsində orta təhsilini davam etdirmişdir.

Fəzail Müttəhirov 1977-ci ilin oktyabr ayından 8 nömrəli tikinti trestinin 86 nömrəli tikinti idarəsində fəhlə kimi işə başlamış, 1978-ci ildən isə həmin idarədə dülgər işinə keçib.

1979-1981-ci illərdə hərbi xidmətdə olub. Hərbi xidmətdən qayıdandan sonra 1981-ci ilin dekabrında yenidən 8 nömrəli tikinti trestinin 86 nömrəli tikinti idarəsində dülgər işləməyə başlayıb. 1982-ci ilin yanvar ayında 8 nömrəli tikinti trestinin 86 nömrəli tikinti idarəsindən işdən çıxaraq Bakı Baş Tikinti İdarəsinin 2 nömrəli Evtikmə Kombinatında dülgər işləməyə başlayıb. Eyni zamanda o, 1984-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnsititunun axşam şöbəsinə qəbul olunmuş və 1990-cə ildə Azərbaycan İnşaat Mühəndisləri İnsititunu Sənaye və mülkü tikinti ixtisası üzrə bitirmişdir.

Fəzail Müttəhirov 1988-cı ildə Bakı Baş Tikinti İdarəsinin 2 saylı Evtikmə Kombinatından işdən çıxaraq Nəsimi rayonu 49 saylı Mənzil İstismarı sahəsində texniki nəzarətçi vəzifəsində işləməyə başlamış və 1998-ci ilə qədər bu vəzifədə işləmişdir. 1998-2002-ci illərdə şəxsi əmək fəaliyyəti ilə məşğul olmuş, 2002-2004-cü illərdə “Qızılqum” MMC-də təchizatçı vəzifəsində çalışmışdır.

O, 2005-ci ildən 2011-ci ilə qədər “Azkommunlayi-











hə" Layihə İnsititutunda istehsalat şöbəsində mühəndis vəzifəsində işləmiş və bu müddət ərzində bir neçə layihənin reallaşmasında iştirak etmişdir. Bu sıradan – Azərbaycan Respublikası "Milli Arxiv" binasının yenidən qurulması və əsaslı təmiri, Füzuli rayonunun Horadiz qəsəbəsində və cəbhə xəttinə yaxın kəndlərdə müharibədən dağılmış evlərin və məişət obyektlərinin yenidən tikilməsi və bərpası, Şəki və Haftalan şəhərlərində idman meydançalarının yenidən qurulması və əsaslı təmiri, cəbhə bolgəsinə yaxın yaşayış məntəqələrində əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün texniki-iqtisadi planın hazırlanması və sair layihələrin işlənilməsində bir təcrübəli mühəndis olaraq Fəzail Müttəhirovun böyük əməyi olmuşdur.

O, 2011-ci ildə "Azkommunlayihə" Layihə İnsititutundan işdən çıxaraq "Azərsu" ASC-nin Layihə İdarəetmə Qrupunda mühəndis vəzifəsinə işə qəbul edilmişdir. Bu vəzifədə işləyərkən Fəzail Müttəhirov respublikamızda su və kanalizasiya sistemlərinin layihələndirilməsinə və tikintisinə nəzarət etmişdir. Eyni zamanda Tərtər və Samux şəhərlərinin su təchizatı və kanalizasiya sistemlərinin

yenidən qurulması layihələrini hazırlamışdır.

2012-2013-cü illərdə o, "CBMC" MMC-də Layihələndirmə Departamentində baş mühəndis vəzifəsində işləmiş, Saatlı və Sabirabad şəhərlərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələrini hazırlamışdır.

Fəzail Müttəhirov 2013-cü ilin avqust ayından "Akkord Sənaye Tikinti İnvestisiya Korparasiyası" ASC-nin Su və Kanalizasiya Departamentinin layihələndirmə işlərinin təşkili və nəzarət şöbəsinə dizayner vəzifəsinə qəbul edilmişdir. 2014-cü ilin fevral – iyun aylarında ASC-in tender xidməti şöbəsində hidrotexniki qurğuların tender sənədlərini hazırlamışdır.

F.S. Müttəhirov 2014-cü ilin iyun ayından Hidrotexniki Tikinti Departamentində böyük mühəndis vəzifəsində işləyir. 2016-cı ilin may ayından "Akkord Sənaye Tikinti İnvestisiya Korparasiyası" ASC-nin təsisçiliyi ilə yaradılmış "Akkord Hydrotechnical Construction Company" MMC-də böyük mühəndis vəzifəsində işləyir.

Ailəlidir, 3 övladı var. Böyük qızı Memarlıq və İnşaat Universitetini bitirib. FHN Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərdövlətlayihə" DBLİ-da memar vəzifəsində işləyir. Ortancıl qızı Slavyan Universitetinin rus dili müəlliməliyini bitirib. Oğlu isə Bakı Mühəndislik Universitetində İnşaat mühəndisi fakültəsində təhsil alır.







*Azərbaycan İnşaat Mühəndisləri İnsititunu Sənaye və mülkü tikinti ixtisası üzrə bitirirərək Bakı Baş Tikinti İdarəsində məktəb keçən Fəzail Müttəhirov bu obyektlərin tikintisinə "Akkord Sənaye Tikinti İnvestisiya Korparasiyası" ASC-də çalışdığı son illərdə rəhbərlik etmişdir.*



*"Akkord plaza"nın axşam görüntüsü*




*4 ulduzlu "Sun Rise" oteli.*
*("Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC)*

# N



**Nəhmədov Namiq Əsəd oğlu**

21.09.1972-ci ildə Cəlilabad şəhərində anadan olmuşdur. 1979-1989-cu illərdə Cəlilabad şəhər 1 saylı orta məktəbində orta təhsil almışdır. 1989-1993-cü illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Əmtəəşünaslıq" fakültəsində "Ərzaq məhsullarının əmtəəşünaslığı" ixtisası üzrə təhsil almışdır. 2015-2016-cı illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetində "inşaat mühəndisliyi" ixtisası üzrə ixtisasartırma kursu keçmişdir.

İş fəaliyyətinə 1996-cı ildə Saxnovşina Kənd Təsərrüfatı Məhsulları Zavodunda (Xarkov, Ukrayna) əmtəəşünas vəzifəsində başlamış və 2001-ci ilə kimi sex rəisi vəzifəsində çalışmışdır.

2002-2003-cü illərdə Saxnovşina Süd Zavodunda (Xarkov, Ukrayna) operator-texnoloq və növbə rəisi vəzifələrində işləmişdir.

2003-2012-ci illərdə Ukrayna Sahibkarlıq Fəaliyyəti Subyekti kimi "KVED-4" iqtisadi fəaliyyət növü üzrə fərdi sahibkarlıqla məşğul olmuşdur.

2013-cü ildən etibarən "SMTS" MMC şirkətində iş icraçısı, keyfiyyətə nəzarət mütəxəssisi, Texniki İstehsalat Departamentinin menecer müavini, layihə meneceri vəzifələrində çalışmışdır və hal-hazırda Texniki İstehsalat Departamentinin meneceri vəzifəsini yerinə yetirir. "SMTS" MMC-də işlədiyi dövrdə müəssisənin həyata keçirdiyi dövlət və özəl sektora aid mühüm layihələrin, "Property Tower Baku" layihəsi adlandırılan ƏMDK-nin 33 mərtəbəli İnzibati Binası, "Qala-altı Otel və SPA" İstirahət Kompleksi, ƏMDK-nin İT və Mİ Mərkəzinin İnzibati Binası, "Baku Tower" layihəsi adlandırılan 50 mərtəbəli Biznes Mərkəzi binasının tikinti layihələri, "Kapital Bank" ASC-nin İnzibati binasının tikintisi və təmiri, "Azadlıq 3" layihəsi üzrə Binaların Mansardında Gücləndirmə işləri, "Hillside Apartments" Layihəsi adlandırılan yüksəkmərtəbəli yaşayış binalarının təmir və tikintisi layihələrinin inşasına cəlb edilmiş, müəssisənin "Mülki və Sənaye Tikinti-Quraşdırma İşləri" sahəsində Beynəlxalq İdarəetmə sisteminin ISO 9001:2015, ISO 14001:2015, ISO 45001:2018 tələblərinə uyğunluğunun audit və sertifikatlaşmasında bilavasitə iştirak etmişdir.

Ailəlidir, bir övladı var.



**Nərimanov Toğrul Xanəhməd oğlu**

02 mart 1981-ci ildə Cəlilabad rayonunun Seyidbazar kəndində həkim ailəsində anadan olmuşdur. 1998-ci ildə Cəlilabad rayon Seyidbazar kənd orta məktəbini bitirib və elə həmin il indiki Azərbaycan Memarlıq və İnşaat Universitetinin STMKS-nin Hidrotextiniki tikintilər ixtisasına qəbul olunmuşdur və 2002-ci ildə bakalavar pilləsini bitirmişdir. Sonra, 2004-cü ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin İnşaat fakültəsi üzrə Çay və yeraltı hidrotexniki qurğuların tikintisi ixtisasının magistratura pilləsinə yiyələnmişdir.

Təhsil illərində institutun ictimai həyatında fəal iştirak edən gənc Toğrul bir çox elmi konfranslarda iştirak etmişdir. Həmçinin tələbəlik illərində 2 elmi məqaləsi çap olunmuşdur.

Toğrul Nərimanov 2005-2006-cı illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələri sıralarında hərbi xidmətdə olmuş və bu müddətdə nizam-intizam və hərbi hazırlıq üzrə fəxri fərmanlara layiq görülmüşdür.

T.X. Nərimanov əmək fəaliyyətinə 2007-ci ildə fərdi yaşayış evlərinin, su anbarları və bir çox hidrotexniki qurğuların tikintisində müstəqil mühəndis olaraq başlamış və qısa müddətdə bir sıra uğurlara imza atmışdır.

2012-2014-cü illədə “Akkord Sənaye Tikinti İnvestisiya Korporsiyası” ASC-nin inşa etdiyi “Cəlilabad rayonunun içməli su və kanalizasiya xətlərinin yenidən qurulması” layihəsində sahə mühəndisi və sahə rəisi vəzifəsində çalışmışdır.

2014-2016-cı illərdə “Avesta” Konserninin “Xəzər adaları” layihəsində Su və kanalzasiya şöbəsində mühəndis və baş mühəndis vəzifəsində çalımışdır. Çalışdığı müddətdə su, kanalizasiya, suvarma sistemləri, havalandırma sistemləri, mərkəzi isitmə, inzibati və yaşayış binalarının daxili montajı və təmizləmə qurğusunun tikintisində baş mühəndis kimi fəaliyyət göstərmişdir.

T.X. Nərimanov 2016-2017-ci illərdə “Akkord STİK” ASC-nin “Cəlilabad rayonunun içməli su və kanalizasiya xətlərinin yenidən qurulması” layihəsində sahə rəisi olaraq fəaliyyət göstərmişdir. İşlədiyi müddətdə 260 km su xətti, 210 km kanalizasiya xətti, 2 ədəd 5000 kub metr su anbarı kompleksi, 1 ədəd 500 kubmetr su anbarı, 5 ədəd kanalizasiya nasos stansiyaları, 1 ədəd su nasos stansiyası və



1 ədəd 10000 kub metrlik çirkab su təmizləyici qurğular kompleksi tikintisində sahə rəisi kimi çalışaraq üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmiş və rəhbərliyin etimadını doğrultmuşdur.

Toğrul Nərimanov hal-hazırda "Akkord STİK" ASC-nin "Akkorda Georgia" LLC şirkətində "Çiatura şəhərinin içməli su xətlərinin bərpası" layihəsində sahə rəisi olaraq çalışır.

Ailəlidir, iki övladı var.

Onun əməyi çalışdığı bütün müəssisələrdə hər zaman rəhbərlik tərəfindən qiymətləndirilmişdir. Belə ki, o, tikinti sahəsində çoxillik səmərəli fəaliyyətinə və qazandığı nailiyyətlərə görə dəfələrlə fəxri fərmanlarla, pul mükafatları və qiymətli hədiyyələrlə təltif olunmuşdur.

Bu gün Toğrul Nərimanov tikinti kompleksində fəaliyyətini davam etdirir. O, sənətini sevir və bu gün də on, on beş il əvvəlki kimi işə həvəslə gəlir, əzmlə çalışır və işindən zövq alır.

Tikib istifadəyə verdiyi hər obyektə bütün mühəndislik bacarığını sərf edən bir inşaatçı-mühəndis olaraq Toğrul müəllimin bundan sonra da ölkəmiz və xalqımız üçün daha böyük işlər görəcəyi şəksizdir.









*"Cəlilabad Şşəhərinin Su Təchizatı və Kanalizasiya Sistemlərinin Yenidən Qurulması" layihəsi obyektinin tikintisindən görüntülər...*



**Novruzov Xaqani Müdəhət oğlu**

20 oktyabr 1955-ci ildə Ermənistan Respublikasının Masis rayonunda anadan olmuşdur. 1973-ci ildə Masis rayonunun Zəngilər kənd orta məktəbini bitirmişdir. 1978-ci ildə Gəncə Kənd Təsərrüfatı İnstitutuna (hazırkı Azərbaycan Dövlət Aqrar Universiteti) daxil olmuş və 1983-cü ildə həmin institutu bitirmişdir. Sonrakı illərdə o, Masis rayonunda müxtəlif vəzifələrdə çalışmışdır.

O, 1990-1994-cü illərdə Bakı şəhər Yaşıllaşdırma İdarəsində aqronom, 1994-1998-ci illərdə Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasında Baş həkimin Təsərrüfat işləri üzrə müavini vəzifəsində işləmişdir. O, işlədiyi dövrdə daim üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmişdir. 1998-2005-ci illərdə "Azərsu" ASC-də İnzibati binanın direktoru, 2005-2006-cı illərdə Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti başçısının M.Ə.Rəsulzadə qəsəbəsi üzrə nümayəndəsi vəzifələrində işləmişdir.

2006-cı ildən hal-hazıra kimi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 7 nömrəli Avtomobil Yollarının Yaşıllaşdırılması MMC-nin direktoru vəzifəsində işləyir. O, üzərinə düşən vəzifələri yüksək məsuliyyətlə yerinə yetirir və göstərilən etimadı işi ilə doğruldur. Xaqani Novruzov hələ üzun illər ərzində ölkə iqtisadiyyatının hərtərəfli inkişafında mühüm rol oynayan avtomobil yolları sahəsinin inkişafına daha böyük töhfələr vermək əzmindədir.

Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının əsas hədəflərindən biri ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa nail olmaqdır. Biomüxtəlifliyin qorunması, yanacaq-enerji kompleksinin ətraf mühitə mənfi təsirinin neytrallaşdırılması, təbiətin çirklənməsinin azaldılması və qorunması, yaşıl ərazilərin bərpası və mövcud resursların səmərəli mühafizəsi istiqamətində zəruri tədbirlərin gələcəkdə də davam etdirilməsi, yolkənarı ərazilərdə atmosfer havasının çirklənmədən qorunması, eləcə də nəqliyyatın hərəkətindən yaranan səs-küyün azaldılması məqsədi ilə yolqoruyucu yaşıllıqların



*7 nömrəli AYY MMC-nin inzibati binası*

salınması nəzərdə tutulur. Bu baxımdan avtomobil yollarının qorunma (mühafizə) zolağında yaşıllıqların salınması, becərilməsi, bərpası və artırılması, salınmış yaşıllıqların mühafizəsi ilə bağlı zəruri işlər aparılır. Belə ki, yerli bitmə şəraitinə uyğun yerli və introduksiya olunmuş ağac və kol cinslərindən istifadə etməklə, müasir dizaynla hazırlanmış layihələr əsasında yaşıllıqlar salınır, salınmış yaşıllıqlara xidmət və suvarma işləri təşkil edilir, onların xəstəlik və ziyanvericilərdən, eləcə də yanğından və digər təsirlərdən qorunması ilə bağlı müvafiq tədbirlərin həyata keçirilir. Bu işlərin aparılmasında əsas məqsəd ərazidə yaşıllıq zolağını genişləndirmək, ərazinin ekoloji tarazlığının bərpasına, ekoloji mühitin sağlamlaşdırılmasının sürətlənməsinə, buradakı mövcud torpaq qatının münbitləşdirilməsinə töhfə vermək, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə qayğı hissini təbliğ etməkdən ibarət olmuşdur.

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Azərbaycan Respublikası Prezidentinin 27 fevral



*7 nömrəli AYY MMC-nin xidməti ərazisi*



*7 nömrəli AYY MMC-nin tinglik sahəsi*

2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədlərdən biri də ekoloji tarazlığın təmin olunması, indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin qorunması və təbii sərvətlərdən səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir. Buna görə də, regionlarda meşəsalma və meşəbərpa tədbirlərinin davam etdirilməsi, yaşıllıq sahələrinin artırılması əsas istiqamətlərdən biridir. Dövlət Proqramının icrası ilə əlaqədar, İsmayıllı, Qəbələ və Oğuz rayonlarında avtomobil yollarının kənarında yaşıllıq sahələrinin həcminin dəfələrlə artırılması, yolkənarının yaşıllıqlar məskəninə çevrilməsi də Xəqani müəllimin rəhbərlik etdiyi "7 nömrəli Avtomobil Yollarının Yaşıllaşdırılması" MMC tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər hesabına mümkün olub. Avtomobil yollarının istismarında mühafizə və ayırıcı zolaqlarının yaşıllaşdırılması ilə onların külək və su eroziyasından, qar yığıntısından mühafizəsi, ətraf mühitin sağlamlaşdırılması və avtomobil yollarının estetik görünüşünün yaxşılaşdırılması təmin edilir, mənfi təbii, antropogen və texnogen hallardan mühafizə olunur. Ekoloji balansın bərpası, ətraf mühitin qorunması, atmosferin oksigenlə zənginləşdirilməsi də 7 nömrəli Avtomobil Yollarının Yaşıllaşdırılması MMC-nin diqqətdə saxladığı mühüm məsələlərdən biridir. Bu məqsədlə, MMC tərəfindən yolkənarının yaşıllaşdırılması istiqamətində vacib addımlar atılır. Xaqani müəllim tərəfindən İsmayıllı, Qəbələ və Oğuz rayonları ərazisində avtomobil yollarının kənarında bu istiqamətdə də bir sıra tədbirlər həyata keçirilmiş və bu kimi tədbirlər bu gün də davam etdirilir. Bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, mövcud problemlərin həlli istiqamətində görülən tədbirlər davamlı xarakter almışdır.



*7 nömrəli AYY MMC-nin xidməti ərazisi*

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində uzunmüddətli, səmərəli əmək fəaliyyəti və Azərbaycanda yol infrastrukturunun inkişafında xidmətləri nəzərə alınaraq, Novruzov Xaqani Müdəhət oğlu "Azərbaycan avtomobil yolları – 100 il (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilmişdir.

1998-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

Ailəlidir. Beş övladı – dörd qızı, bir oğlu, beş nəvəsi vardır. Qızlarının hamısı ali təhsillidir. Oğlu Orxan 1990-cı ildə Bakı şəhərində anadan olub, ali təhsillidir, iqtisad elmləri üzrə fəlsəfə doktorudur.

# P



**Pirimov Zöhrab Ziyəddin oğlu**

21 noyabr 1949-cu ildə Qusar rayonunun Aşağı Ləyər kəndində anadan olmuşdur. 1956-cı ildə birinci sinfə daxil olmuş, 1966-cı ildə Qusar şəhər 1 nömrəli orta məktəbini bitirmişdir. 1967-ci ildə Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuş, 1969-cu ildə Azərbaycan Politexnik İnstitutuna köçürülmüş və 1975-ci ildə həmin institutun İnşaat fakültəsini sənaye və mülki tikinti ixtisası üzrə bitirmişdir.

Zöhrab Pirimov 1967-ci ildən 1977-ci ilə qədər Azərbaycan Politexnik İnstitutunun, sonralar isə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun "İnşaat materialları" kafedrasında laborant və laboratoriya müdiri vəzifələrində çalışmışdır.

O, 1977-ci ildən 2001-ci ilə qədər Bakı Şəhər İcra Hakimiyyətinin Baş Əsaslı Tikinti və Təmir İdarəsində mühəndis, şöbə müdiri, baş mühəndis, idarə rəisi vəzifələrində fəaliyyət göstərmişdir.

9-cu mikrorayon, Əhmədli, Günəşli, Qanlı Göl, Hövsan yaşayış massivlərinin tikintisində və Bakı şəhərinin bir sıra sosial, mədəni, məişət və kommunal obyektlərinin tikintisində iştirak etmiş, gərgin əmək sərf etmişdir.

Z.Z.Pirimov 2002-ci ildən 2004-cü ilə qədər Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyində tikinti və nəqliyyat şöbəsinin rəisi vəzifəsində çalışmışdır. Burada çalışdığı zaman o, Respublika Atıcılıq kompleksinin tikintisində iştirak etmişdir.

Z.Z.Pirimov 2004-2007-ci illərdə Qusar rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini icra etmişdir. O, bu illərdə Qusar rayonunun tikinti-quruculuq sahəsində böyük uğurlara imza atmışdır.

Zöhrab Pirimov 2008-ci ildən Mədəniyyət və Turizm Nazirliyinin İnvestisiya və Texniki Proqramlar şöbəsində sektor müdiri vəzifəsində, 01.08.2008-ci ildən Nazirliyin Tikilən Obyektlərin Birləşmiş Müdriyyətinin baş mühəndisi, 05.01.2015-ci ildən Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində rəis müavini vəzifəsində fəaliyyət göstərir.

Heydər Əliyev Sarayı, Azərbaycan Dövlət Aka-

medik Milli Dram Teatrı, Azərbaycan Dövlət Musiqili Komediya Teatrı, Şəki Dövlət Dram Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı, Nizami adına kinoteatr binalarının əsaslı təmiri və yenidən qurulmasında, Bakı şəhərində Muğam Evinin, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin, Azərbaycan Dövlət Film Fondunun, Qobustan Dövlət Tarix-Bədii Qoruğunun muzey və inzibati binalarının tikintisində fəal iştirak etmişdir.

Bunlardan başqa Zöhrab Pirimov Bakı şəhərində və respublikamızın rayonlarında musiqi və incəsənət məktəblərinin, mədəniyyət evlərinin yeni binalarının tikintisində və mövcud mədəniyyət obyektlərinin əsaslı təmiri və yenidənqurulmasında iştirak etmişdir.

Ailəlidir, iki oğlu, bir qızı var.

# S



**Sərdarov Buniyat Sərdar oğlu**

1966-cı ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirdikdən sonra həmin institutda qalıb işləmişdir. 1969-cü ildə o, Moskva İnşaat Mühəndisləri İnstitutunun aspiranturasına daxil olmuş və 1973-cü ildə orada namizədlik disertasiyasını müdafiə etmişdir.

1975-1976-cı illərdə isə B.S.Sərdarov London universitetində elmi iş aparmışdır.

1978-ci ildə Buniyat Sərdarov keçmiş Azərbaycan KP Mərkəzi Komitəsində elmi-təhsil müəssisələri şöbəsinin müdir müavini vəzifəsində çalışmışdır. Burada işlədiyi illər ərzində o, özünü bacarıqlı, qabiliyyətli, respublikamızda elm və təhsilin səriştəli təşkilatçısı olduğunu bir daha sübut etmişdir.

1981-ci ildə respublikamızın o zamankı rəhbərliyinin göstərişi ilə Buniyat Sərdarov Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun rektoru təyin olunmuşdur. Buniyat Sərdarov on iki ilə yaxın bir dövrdə, 1981-1993-cü illərdə univeritetə rəhbərlik etmişdir. Rəhbərlik etdiyi o dövrdə institut güclü maddi-texniki bazaya malik olmuşdur. Tədris işi sahəsində qarşıya qoyulan əsas məsələ tədris prosesinin keyfiyyəyinin artırılmasına və istehsalatla əlaqəsinin genişləndirilməsinə nail olmuşdur. Tikinti kompleksinin qabaqcıl müəssisələrində kafedraların filialları yaradılmış, respublikanın qabaqcıl təcrübəli mütəxəssisləri tədris prosesinə cəlb edilmiş, diplom layihələrinin istehsalatda müdafiəsi həyata keçirilmişdir.

İstehsalat və tədris təcrübələrinin nəinki Azərbaycanın, eləcə də Sovet İttifaqının qabaqcıl müəssisələrində, habelə Çexoslovakiya, Polşa və Almaniyada keçirilməsi təşkil edilmişdir. İnstitutun tələbələri Polşa, Çexoslovakiya və Almaniya institutlarına təhsil almaq üçün göndərilirdi.

İnstitutun metodik bazası xeyli dərəcədə gücləndirilmiş və tədris prosesində tətbiq edilən metodik vəsaitlərin miqdarı xeyli artırılmışdır.

Fakültələrin, kafedraların və elmi-tədqiqat laboratoriyaların texniki təchizatının artırılmasına xeyli diqqət yetirilmiş-

dir. İnstitutun kadr tərkibi xeyli yaxşılaşdırılmışdır. 1984-cü ildə institutda xarici tələbələr üçün hazırlıq şöbəsi açılmış, artıq 1993-cü ildə institutda Asiya, Afrika və Latın Amerikasının 32 ölkəsindən təhsil alan tələbələrin sayı 350 nəfərə çatmışdır. İlk dəfə olaraq instituta Türkiyə və İrandan tələbələr qəbul edilmişdir.

Onun rektorluğu dövründə Azərbaycanda memar və inşaatçı kadrların hazırlanmasına xüsusi diqqət yetirilmiş, universitet məzunları nəinki ölkəmizdə, habelə onun hüdudlarından kənarda da işləməklə bu təhsil ocağının kadr coğrafiyasını xeyli genişləndirmişdir.

1990-1995-ci illərdə Buniyat Sərdarov Füzuli dairəsi üzrə Ali Sovetin deputatı olmuşdur. Hərbi döyüşlərin getdiyi vaxtda o, rayon əhalisinə dəfələrlə humanitar yardım göstərmiş, köçkünlərin yataqxanalarda mənzillə təmin olunmasını təşkil etmişdir.

Buniyat Sərdarovun bir alim kimi də xidmətləri böyükdür. 40 illik elmi və elmi-pedaqoji fəaliyyətinin nəticələri onun Azərbaycan dilində çap olunmuş 15 dərsliyində, 300-ə yaxın elmi-metodik əsərlərində əks olunmuşdur.

Professor B.S.Sərdarov parlaq şəxsiyyət, əqidəli vətəndaş, yüksək mədəniyyətə malik bir insan idi. Onun fədakar əməyi və yaradıcılıq fəaliyyəti hökumətimiz və digər ölkələrin elmi-təhsil mərkəzləri tərəfindən layiqincə qiymətləndirilmişdir. Təkcə onu demək kifayətdir ki, o, respublikamızın ali məktəb işçisi fəxri adına layiq görülmüş, “Tərəqqi” medalı, Meksikanın Mexiko-Siti Universitetinin Fəxri medalı ilə təltif olunmuşdur.

Professor Buniyat Sərdar oğlu Sərdarov həyatının 74-cü baharında dünyasını dəyişdi.

Təbiətin bir qanunu var. Bu dünyaya gələn hər kəs zamanı gəldiyində bu dünyanı tərk edir. İnsan bu dünyadan köçdükdə özü ilə heç nə aparmır, yaşayıb, yaratdığı qurduğu və qazandığı hər şeyi bu dünyada qoyub gedir. Xöşbəxt o insandır ki, öz nəcib əməlləri, xeyirxah işləri, alicənablığı ilə sağlığında onu tanıyan hər kəs, öz əzizi kimi sevir və dünyasını dəyişdikdə isə hər zaman onların ürəyində yaşayır. Buniyat Sərdar oğlu Sərdarov belə insanlardan idi.



**Sucayev Rüfət Qulam oğlu**

17 fevral 1967-ci il tarixində Lerik rayonunda ziyalı ailəsində anadan olmuşdur.

O, 1984-cü ildə Lerik qəsəbə orta məktəbini müvəffəq qiymətlərlə bitirmiş və 190 saylı orta texniki peşə məktəbinə daxil olmuşdur. 1985-1987-ci illərdə hərbi xidmətdə qulluq keçmişdir.

R.Q. Sucayev 1987-ci ildə Azərbaycan Dövlət İqtisad İnstitutuna daxil olmuş və 1992-ci ildə həmin institutu “Mühasibat uçotu və təsərrüfat fəaliyyətinin təhlili“ ixtisası üzrə bitirmişdir.

O, 1987-1990-cı illərdə “Aqrartikinti İdarəsi”nin 33 saylı trestinin metal konstruksiya sahəsində quraşdırıcı-qaynaqçı vəzifəsində işləmişdir.

R.Q. Sucayev 1992-1997-ci illərdə “Miskər” Müəssisəsində (Metal Kon-

struksiya zavodu) direktor vəzifəsində çalışmışdır.

1997-2012-ci illərdə Qaradağ rayon MKTB-nin Kommunal İstismar İdarəsinin müdiri vəzifəsində çalışmışdır.

O, 2005-2006-cı illərdə "Azəroksigen" ASC-nin əvəzçiliklə baş direktoru olmuşdur.

R.Q. Sucayev 2011-ci ildən "Azəri Çoxprofilli Firması" MMC – "Qaradağ Metal Konstruksiyaları" Zavodunun Direktorlar Şurasının sədridir.

Ailəlidir, bir övladı var.

Qeyd edək ki, R.Q. Sucayevin rəhbərliyi altında həyata keçirilən bütün sosial layihələr hər zaman sifarişçilər tərəfindən yüksək qiymətlə qəbul olunmuşdur. Həmçinin ölkənin metal konstruksiya sahəsində yüksək ixtisaslı mühəndis heyətinin yetişdirilməsində Rüfət Sucayevin böyük rolu olmuşdur. Bu gün onun yetirmələri respublika tikinti kompleksinin bütün qollarında aparıcı mütəxəssislər kimi metal konstruksiya sahəsi üzrə inşaatımızın bütün ağırlıqlarını çiyinlərində şərəflə daşıyırlar.

"Caspian Waterfront" layihəsi, Bakı Olimpiya Stadionunun layihəsi, Su İdmanı Sarayı, Bakı Atıcılıq Mərkəzi, Boks Federasiyasının Yeni İnzibati Binası və idman zalı, Neft Fondunun yeni İnzibati binası, "Rixos" Otel – Quba, Xəyal Adası, Trump Tower, Aktau Logistik Mərkəzi, "Ağ şəhər" Bulvar Otel, Park Azure – Körpü, Lökbatan Logistik Mərkəzi, Karton zavodu, Aztol Plaza, "Azfen" İstehsalat zavodu, Azərsu Tover, 20 000 tonluq Sanqaçal Yanacaq Çəni, Astara Çay Fabriki, Şəmkir Aqroparkı, Yalama Heyvandarlıq Kompleksi, Bosshelf yenidənqurma işləri, Qaradağ Metal Konstruksiyalar zavodu, Araz Marketin Logistik Deposu, Bravo Hipermarketi, Türkan Gəmiqayirma Zavodu, Gəncə Mall Layihəsi, Bakı Metropoliteni Vaqon Deposu, "Azərbaycan" Kinoteatrının binası və digər layihələr Rüfət Sucayevin rəhbərliyi altında həyata vəsiqə almışdır.

R.Q. Sucayev bütün əmək fəaliyyəti illərində ictimai fəallığı ilə seçilmiş və respublikanın inkişafı üçün əzmlə çalışmışdır.

Ölkənin tikinti quruculuq yönümündəki çoxillik səmərləli fəaliyyətinə və qazandığı nailiyyətlərə görə onun əməyi hər zaman rəhbərlik və dövlət tərəfindən yüksək qiymətləndirilmişdir.

R.Q. Sucayev yüksək təşkilatçılıq keyfiyyətlərinə malik rəhbərdir, o, rəhbərlik etdiyi kollektivi qarşıya qoyulan tapşırıqların tez və keyfiyyətli həll olunması üçün asanca bir araya gətirə bilir, kollektivi vahid məqsəd ətrafında birləşdirməyi bacarır. Özünə və ətrafındakı insanlara qarşı çox diqqətcil və qayğıkeşdir, nəzakətli, ciddi və saf əqidəli insandır.

R.Q. Sucayev bacarıqlı tikinti müətəxəssisi və mühəndis kimi Azərbaycanın tikinti-quruculuq tarixində əməlləri ilə öz yerini tutmuş inşaat rəhbərlərindəndir.

Tutduğu vəzifədən asılı olmayaraq o, hər zaman sözün əsil mənasında respublikamızın inşaatçıları üçün, eləcə də ölkənin bütün tikinti ictimaiyyəti üçün örnək bir insan olub və bu gün də belədir.

O, daim kollektivlə sıx təmasdadır, görülən işlərin mütəmadi olaraq hesabatı aparılır, bütün sənədlərə şəxsən özü baxır, yoxlayır, iradlarını bildirir, səhvləri göstərir. O, bunu ona görə edir ki, kollektivin hər bir üzvünə yaradıcılıq stimulu versin, onları daha yaxşı işləməyə, yeni axtarışlara ruhlandırsın.

R.Q. Sucayevin ölkənin tikinti sektorunda həyata keçirəcəyi böyük işlər hələ qabaqdadır.

SMTS
INDUSTRIAL AND CIVIL CONSTRUCTION SERVICES

## "SMTS" Məhdud Məsuliyyətli Cəmiyyəti

05.02.2007-ci ildə Bakı şəhərində 0107-P294-477553 saylı qeydiyyat nömrəsi ilə qeydiyyatdan keçmişdir və baş ofisi Bakı şəhəri, H.Əliyev prospekti 152 ünvanında yerləşir. "SMTS" MMC şirkəti Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən tam paket (İSN/L-99/2016) lisenziyaya əsasən Tikinti Quraşdırma İşlərinin bütün bölmələri üzrə Baş Podratçı və Podratçı funksiyasını yerinə yetirir. Eyni zamanda "SMTS" MMC şirkəti nüfuzlu "BSİ" şirkəti tərəfindən verilən "Mülki və Sənaye Tikinti-Quraşdırma İşləri" sahəsində Beynəlxalq İdarəetmə sisteminin ISO 9001:2015, ISO 14001:2015, ISO 45001:2018 sertifikatlarına malikdir. Bu lisenziya və sertifikatların tələblərinə uyğun Tikinti Quraşdırma İşlərinin təşkil olunması "SMTS" MMC-yə mürəkkəb yerli və beynəlxalq layihələri uğurla həyata keçirməyə imkan verir.

"SMTS" MMC fəaliyyəti dövründə müxtəlif beynəlxalq memarlıq və layihələndirmə, mühəndislik, keyfiyyətə nəzarət-məsləhətçi və s. (Hoffmann Janz, Gensler, TAGO mimarlık, HİLL İnternational, Obermeyer, Turner, SGS, RWDİ, Wacker Ingenieure və s.) şirkətlərlə əməkdaşlıq etmişdir. Bu təcrübəyə əsaslanaraq "SMTS" MMC sifarişçiyə ilkin layihə şərtinin hazırlanması, layihəçi şirkətin seçilməsi, layihələndirmədə sifarişçinin mənafeyinə uyğun olaraq binanın daha az vəsaitlə və keyfiyyətli inşaası, binanın istismarı zamanı daha az vəsaitin sərf olunması və s. nəzərə alan layihə həll yollarının axtarılmasında kömək edir. Belə ki, layihələn-



*"Baku Tower"*

dirmə gələcəkdə Tikinti Quraşdırma İşlərinin vaxtında və keyfiyyətlə həyata keçirilməsi üçün əsas amil olduğundan "SMTS" MMC layihələndirmənin gedişində layihəçi şirkətlə əlaqəli şəkildə işləyərək daha dolğun layihələrin işlənib hazırlanmasına nail olur.

"SMTS" MMC dəmir-beton və metal-konstruksiya işlərinin həyata keçirilməsində lazımı maddi texniki bazaya və mühəndis-texnik heyətə malikdir. Bu səbəbdən dəmir-beton və metal-konstruksiya işlərini şirkət birbaşa özü həyata keçirir. Şirkət mexanika, elektrik, zəif axın və s. işləri birbaşa həyata keçirmək imkanına malik olsa da, əsasən beynəlxalq layihələrdə bu işləri tender əsasında seçim edərək podratçı sirkətlərə verir. Şirkətin malik olduğu maddi-texniki baza, mühəndis-texniki heyət, keyfiyyətə nəzarət sistemi, qabaqcıl idarəetmə üsullarının köməyi bütövlükdə sifarişçi, layihəçi, podratçı şirkətlər, dövlət orqanları və s. ilə koordinasiya işini quraraq obyektiv, keyfiyyətlə və vaxtında inşa edilməsini həyata keçirir. Belə ki, layihələr hazır olduqdan sonra podratçılara veriləcək sahələr müəyyən olunur və Tender Sorğu Sənədləri (TSS) tərtib edilir. TSS layihələr, iş həcmləri, müqavilə şərtləri, SƏTƏM və keyfiyyətə nəzarətlə bağlı tələblər, işin başlanma və bitmə vaxtı və s. ibarət olur. Tender keçirildikdən və potensial podratçılar müəyyən edildikdən sonra müfəssəl İş Qrafiki və İş Metodu hazırlanır.



*"PROPERTY TOWER BAKU" layihəsi. Əmlak Məsələləri Dövlət Komitəsinin 33 mərtəbəli yeni inzibati binası*

Şirkət öz fəaliyyətini yüksək ixtisaslı və peşəkar işçi heyətindən ibarət struktur bölmələrinin (Texniki İstehsalat Departamenti, Keyfiyyə-



*Əmlak Məsələləri Dövlət Komitəsinin "İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzi*

tə Nəzarət Departamenti, SƏTTƏM Departamenti, Satınalma və Planlama Departamenti, Hüquq və Sənədlərə Nəzarət Departamenti, İnsan Resursları Departamenti, Maliyyə Deparamenti və s.) koordinasiyalı şəkildə və belə fəaliyyəti tənzimləyən prosedurlarının tələblərini nəzərə almaqla həyata keçirir. Bu struktur bölmələrinin əsas vəzifələri və fəaliyyət istiqamətləri aşağıdakı kimi xarakterizə oluna bilər.

Texniki İstehsalat Departamenti (TİD) şirkətin "texniki beyni" olaraq tikintiyə hazırlıq mərhələsi, yəni tikintiyə başlanılması üçün sənədlərin (sifarişçi təşkilatlardan layihə-smeta sənədlərinin təhvil alınması, işlərin istehsalata başlanılmasına icazələrin alınması və s.) təsdiqlətdirilməsindən başlayaraq tikinti obyektlərinin istismara verilməsi haqqında təhvil-təslim sənədlərinin təsdiqlətdirilməsinə kimi olan proseslərdə birbaşa iştirak və nəzarət edir. TİD, Tikinti obyektinin idarə olunması yönündə tikinti obyektlərinin təsdiqlənmiş layihə-smeta sənədləri və iş planları ilə təmin olunması, yaranan texniki sualların cavablandırılmasında köməklik edilməsi və zəruri qərarların qəbul olunması, eləcə də tikinti obyektlərinin material təminatının təşkili, tikinti obyektlərinin maşın və mexanizmlərlə təminatına nəzarət, tikinti obyektlərində yerinə yetirilən işlərin layihə-smeta sənədlərinə uyğun yerinə yetirilməsinə nəzarət, podratçı təşkilatlarla işlərin təşkil olunması və işlərin icrasına nəzarət, tikintisi yekunlaşmış obyektlərdə işlərin yoxlanılması və obyektlərin istismara verilməsini təmin edir. TİD əməkdaşları əsasən beynalxalq layihələrdə təcrü-

bə toplamış, yerli və beynalxalq tikinti norma və qaydalarına hakim yüksək ixtisaslı mühəndis-texniki heyətdən ibarətdir.

Keyfiyyətə Nəzarət Departamenti (KND) şirkətin keyfiyyət sahəsindəki siyasəti, onun fəaliyyətinin istiqamət və məqsədlərinin təşkil olunması, keyfiyyətin müəyyən olunması üzrə işlərin inkişaf etdirilməsi yollarının müəyyən edilməsi, sifarişçilərin tələb və gözləmələrini ödəyən xidmətlərin keyfiyyətinin sabit surətdə təmin edilməsini həyata keçirir. KND, şirkətin fəaliyyətini artıran prosedurlar, hesabatlar, material tətbiqi, yerinə yetirilmiş işlərin keyfiyyətinin yoxlanılması məqsədilə müxtəlif yoxlama vərəqləri hazırlanmasını, armatur, qəlib quraşdırma, beton işlərinin yoxlanılması işlərinin aparılmasını, beton qarışığının müxtəlif göstəricilərinin yoxlanılmasını, müasir tələblərə cavab verən xarici ölkə istehsalı olan ölçü vasitələrilə qaynaq tikiş-





*"Qalaaltı Hotel & Spa" kompleksi*

lərinin vizual, ultrasəs defektoskop və maqnit üsulu ilə yoxlanılması, metal elementlərdə boya qalınlığının yoxlanılması və s. müxtəlif nəzarət inspeksiyalarının həyata keçirilməsini təmin edir. Həmçinin KND-nin geodeziya qrupu tərəfindən müasir ölçü avadanlıqlarından istifadə olunmaqla müxtəlif geodeziya ölçmə işləri yerinə yetirilir. Belə ki, bina və qurğular yerləşdirildiyi və tikildiyi zaman geometrik parametrlərin dizaynına, koordinatlarına və yüksəkliklərinə dəqiq uyğunluğunu təmin edən, tikinti istehsalının texnoloji prosesinin ayrılmaz bir hissəsi kimi bir geodeziya işlərinin kompleksinin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi məhz geodeziya bölməsi tərəfindən icra olunur. KND, şirkətin Keyfiyyəti İdarəetmə Sisteminin (KİS) yaradılması, tətbiqi, daima işlək vəziyyətdə saxlanılması, auditlərin aparılması, mütəmadi olaraq təkmilləşdirilməsi, müştəri məmnuniyyəti və şikayətlərinin ələ alınması və yaxşılaşdırılması, həmçinin bütün növ tikinti-quraşdırma işlərinin (giriş, istismar və qəbul) keyfiyyətlə yerinə yetirilməsinə nəzarət edir. KND-nin İSO sertifikatlı mütəxəssisləri tərəfindən daxili auditlərin keçirilməsi, auditin nəticəsi barədə hesabatların hazırlanması, keyfiyyət səmərəlilik göstəricilərinin müəyyən olunması, müəssisənin güclü və zəif tərəflərinin aşkarlanması və analiz olunması, yerinə yetirilmiş işlərin prosedura uyğun aparılmasının yoxlanılması, yoxlama nəticəsində aşkar olunmuş uyğunsuzluqlar barədə düzəldici və önləyici fəaliyyətin təmin olunması yerinə yetirilir.

Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Təhlükəsizlik və Ətraf Mühitin Mühafizəsi Departamenti (SƏTTƏM) şirkətin fəaliyyəti ərzində əməyin mühafizəsi, texniki təhlükəsizliyin ətraf-mühit siyasəti üçün nəzərdə tutulmuş standartlara və şərtlərə, o cümlədən qanunvericilik və normativ aktlara uyğun şəkildə həyata keçirilə bilməsi, təhlükəsizlik analizi, tədqiqi, hesabatı, qeydlərin aparılması, işlərin yerinə yetirilməsi zamanı meydana gələ biləcək hər hansı fövqəladə hallar, insidentlər zamanı işçilərin məlumatlandırılması üçün SƏTTƏM planlarının hazırlanması, gündəlik işlərin inkişaf etdirilməsi, tullantıların idarə olunması və minimuma endirilməsi, beynəlxalq və yerli şikətlərlə əməkdaşlıq vasitəsilə SƏTTƏM prosesində aktiv iştirak etməyi təmin edir. SƏTTƏM Departamenti şirkətin işçiləri və podratçı heyət üçün müvafiq və təhlükəsiz iş yerinin təmin edilməsi, qəza və hadisələrin, xəsarətin və sağlamlığa dəyən zərərin qarşısının alınması, işlərə başlamazdan öncə təhlükələrin müəyyən edilməsi, müvafiq risklərin qiymətləndirilməsi və nəzarət tədbirlərinin yerli qanunvericiliyin və beynəlxalq standartların tələblərinə uyğun tətbiqini, işə cəlb olunan bütün personalın müvafiq treyninqlərdən keçməsi və bilik səviyyələrinin qənaətbəxş olmasını davamlı şəkildə təkmilləşdirməyi öz öhdəsinə götürür. SƏTTƏM Departamenti şirkətdə əməyin mühafizəsi və texniki təhlükəsizlik ilə bağlı qarşıya yüksək və real məqsədlər qoyaraq həmin məqsədlərə nail olunması istiqamətində görülən işlərin monitorinqini aparır və analiz edir. Bütün göstəricilər SƏTTƏM Departamentinin səmərəlilik göstəricisində tam dolğun əks olunur. Bura iş sahə-

lərinin vizual, ultrasəs defektoskop və maqnit üsulu ilə yoxlanılması, metal elementlərdə boya qalınlığının yoxlanılması və s. müxtəlif nəzarət inspeksiyalarının həyata keçirilməsini təmin edir. Həmçinin KND-nin geodeziya qrupu tərəfindən müasir ölçü avadanlıqlarından istifadə olunmaqla müxtəlif geodeziya ölçmə işləri yerinə yetirilir. Belə ki, bina və qurğular yerləşdirildiyi və tikildiyi zaman geometrik parametrlərin dizaynına, koordinatlarına və yüksəkliklərinə dəqiq uyğunluğunu təmin edən, tikinti istehsalının texnoloji prosesinin ayrılmaz bir hissəsi kimi bir geodeziya işlərinin kompleksinin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi məhz geodeziya bölməsi tərəfindən icra olunur. KND, şirkətin Keyfiyyəti İdarəetmə Sisteminin (KİS) yaradılması, tətbiqi, daima işlək vəziyyətdə saxlanılması, auditlərin aparılması, mütəmadi olaraq təkmilləşdirilməsi, müştəri məmnuniyyəti və şikayətlərinin ələ alınması və yaxşılaşdırılması, həmçinin bütün növ tikinti-quraşdırma işlərinin (giriş, istismar və qəbul) keyfiyyətlə yerinə yetirilməsinə nəzarət edir. KND-nin İSO sertifikatlı mütəxəssisləri tərəfindən daxili auditlərin keçirilməsi, auditin nəticəsi barədə hesabatların hazırlanması, keyfiyyət səmərəlilik göstəricilərinin müəyyən olunması, müəssisənin güclü və zəif tərəflərinin aşkarlanması və analiz olunması, yerinə yetirilmiş işlərin prosedura uyğun aparılmasının yoxlanılması, yoxlama nəticəsində aşkar olunmuş uyğunsuzluqlar barədə düzəldici və önləyici fəaliyyətin təmin olunması yerinə yetirilir.

Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Təhlükəsizlik və Ətraf Mühitin Mühafizəsi Departamenti (SƏTTƏM) şirkətin fəaliyyəti ərzində əməyin mühafizəsi, texniki təhlükəsizliyin ətraf-mühit siyasəti üçün nəzərdə tutulmuş standartlara və şərtlərə, o cümlədən qanunvericilik və normativ aktlara uyğun şəkildə həyata keçirilə bilməsi, təhlükəsizlik analizi, tədqiqi, hesabatı, qeydlərin aparılması, işlərin yerinə yetirilməsi zamanı meydana gələ biləcək hər hansı fövqəladə hallar, insidentlər zamanı işçilərin məlumatlandırılması üçün SƏTTƏM planlarının hazırlanması, gündəlik işlərin inkişaf etdirilməsi, tullantıların idarə olunması və minimuma endirilməsi, beynəlxalq və yerli şikətlərlə əməkdaşlıq vasitəsilə SƏTTƏM prosesində aktiv iştirak etməyi təmin edir. SƏTTƏM Departamenti şirkətin işçiləri və podratçı heyət üçün müvafiq və təhlükəsiz iş yerinin təmin edilməsi, qəza və hadisələrin, xəsarətin və sağlamlığa dəyən zərərin qarşısının alınması, işlərə başlamazdan öncə təhlükələrin müəyyən edilməsi, müvafiq risklərin qiymətləndirilməsi və nəzarət tədbirlərinin yerli qanunvericiliyin və beynəlxalq standartların tələblərinə uyğun tətbiqini, işə cəlb olunan bütün personalın müvafiq treyninqlərdən keçməsi və bilik səviyyələrinin qənaətbəxş olmasını davamlı şəkildə təkmilləşdirməyi öz öhdəsinə götürür. SƏTTƏM Departamenti şirkətdə əməyin mühafizəsi və texniki təhlükəsizlik ilə bağlı qarşıya yüksək və real məqsədlər qoyaraq həmin məqsədlərə nail olunması istiqamətində görülən işlərin monitorinqini aparır və analiz edir. Bütün göstəricilər SƏTTƏM Departamentinin səmərəlilik göstəricisində tam dolğun əks olunur. Bura iş sahə-

sində olan rəhbərlik tərəfindən yoxlamaların sayı, təlim saatları, SƏTTƏM iclasları, ümumi layihə üzrə iş saatları, qəzaya yaxın hal, qəza və bədbəxt hadisə, Ətraf Mühitə dəyən ziyan, insident zamanı ilk yardım, tibbi müayinə, ciddi xəsarət, məhdudlaşdırılmış iş qabiliyyəti, xəsarətə görə vaxt itkisi və s. kimi tədbirlər daxildir. SƏTTƏM Departamenti daim cari layihələrin qaydalara və standartlara uyğunluğunu yoxlayaraq sənədləşdirir. Bu prosesdə departamentə aid olan İSO 14001:2015 Ətraf Mühit, İSO 45001:2018 Təhlükəsizlik Standartları əsas kimi götürülür. SƏTTƏM Departamentinin nəzdində eyni zamanda Təhlükəsizlik xidməti də fəaliyyət göstərir ki, "SMTS" MMC tərəfindən idarə olunan qurğu və mülkiyyətin, tikinti sahəsinin təhlükəsizliyini təmin etmək üçün təlimatlarla və SMTS maraqlarına zidd təsir edəcək şəxsi və iş məlumatlarının və ya mülkiyyət maraqlarının oğurlanması, sənaye və tikinti sabotajları və qərəzlilik hallarının qarşısını almaq üçün tədbirlərlə təmin etməkdir. Həmçinin təhlükəsizliyi təmin etmək, qayda pozuntularının maddi dəyərlərini saxlamaq və SMTS sahəsini yanğın, vandalizm, qayda pozuntuları və sahəyə icazəsiz daxil olma hallarına qarşı qorumaqdan ibarətdir.

Şirkət ISO Beynəlxalq standartın tələblərinə uyğun olaraq sənədlərə nəzarət və məlumatların idarəolunması sistemini yüksək səviyyədə tətbiq edir. Belə ki, qovluqların vahid struktur-system formasında təşkili, şirkətə məxsus bütün növ sənədlərin yeri və əhəmiyyətinə, onların təsnifatına və şərtlərinin tələblərinə uyğun şəkildə sənədlərlə işin aparılması, onların hərəkətinin nizamlanması, istifadə olunması və saxlanması, arxiv işinin təşkili və aparılması, sənədlərin uyğunluğu və keyfiyyətinin yoxlanılması, reyestrin saxlanması və elektron sənəd dövriyyəsi sisteminin effektiv istifadəsi şirkətin sənədləşmə ilə bağlı bütün fəaliyyətində öz əksini tapır.

Tikintinin layihəyə uyğun aparılması, vəsaitin planlaşdırıldığına uyğun sərf olunması, maliyyə uçotunun qanunvericiliyə uyğun aparılmasının düzgün təmin edilməsi üçün şirkət, müasir və xüsusi İdarəetmə proqramlarından biri olan LOGO lisenziyalı proqram təminatının tətbiqini həyata keçirir. Bu xüsusi proqramların köməyi ilə Tikinti şirkətinin obyektləri, departamentlərini idarə edir və hər hansı proses düzgün aparılmadıqda növbəti prosesin aparılmasına imkan vermir. Beləliklə bu xüsusi sistemlər vasitəsilə şirkətin tikinti obyektlərindən maliyyə departamentinədək bütün proseslərin düzgün qaydada yerinə yetirilməsi təmin olunur.

Şirkət üçün işçi heyətinin, yəni "insan amilinin" əsas götürülməsi və onların peşəkar idarə edilməsinin əhəmiyyəti idarəetmədə əsas vəzifələrdən biridir. Əməkdaşı vaxtında, zamanında, uyğun vəzifəyə cəlb etmək, onları düzgün mükafatlandırmaq, təlim keçmək, inkişaf və həvəsləndirmək, ruhlandırmaq şirkətin çox vacib hesab etdiyi sahədir. Şirkətin İnsan Resursları Departamenti (İRD) məhz öz funksiyasında kadr məsələləri üzrə düzgün istiqamət göstərməklə müəssisənin öz məqsədlərinə nail olmasına xidmət göstərir. İRD həmçinin əməkdaşlara öz bacarıqlarını, imkanlarını tam istifadə etmək və potensiallarını üzə çıxarmaq üçün lazımi iş şəraitinin yaradılmasında əsas rol oynayır.

**Sədərək orta əsr şəhərtipli yaşayış yeri**

Araz çayının sol sahilində Naxçıvan MR eyni adlı kəndindən cənub-şərq tərəfə geniş bir ərazini əhatə edir.

Abidə ərazisində kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar nəticəsində daş və bişmiş kərpicdən inşa edilmiş yaşayış evlərinin qalıqları, külli miqdarda maddi mədəniyyət nümunələri aşkar edilmiş, yaşayış məskəninin su təchizatına dair maraqlı materiallar əldə olunmuşdur. Tapıntılar arasında şirli və şirsiz saxsı məmulat daha çoxdur. Buradan pəncərə şüşələrinin qırıqlarının tapılması da qeyd olunmalıdır. Arxeoloji kompleks Sədərək orta əsr şəhərtipli yaşayış yerinin IX-XVIII yüzilliklərdə mövcud olduğuna dəlalət edir.




**Sədərək sultanlığı**

Sədərək XVI əsr mənbələrində sultanlıq kimi göstərilir. Fransız səyyahı J.Şarden də təsdiqləyir ki, bu dövrdə Sədərək ayrıca bir hakimlik – sultanlıq olmuş, Qars, İğdır və Sədərək əraziləri bir sultanlıqda birləşmişdir. Şarden yazır: "Çox düzən və barlı-bəhərli bir ölkə ilə beş lyö getdik. O, dağlarla əhatə olunmuşdu. Sağdakı dağları Nuh dağı adlandırırlar. Biz Qaynar adlı kiçik bir şəhərdə mənzil saldıq. Biz həmin yolla gedib səkkiz lyö qət etdik. Yolun yarısında, sol tərəfdə Sədərək adlı şəhərciyin yanından ötüb keçdik. Mahalın sultanı da bu şəhərcikdə yaşayır". Qeyd edək ki, Səfəvilər dövründə daha kiçik inzibati vahidlərin hakimləri sultan titulunu daşıyır və onlar yerli hakimiyyət orqanlarını müstəqil surətdə yaradırdılar. Sultanlar müvafiq vilayətin qolbəyilərinə və bəzən birbaşa bəylərbəyisinə tabe idilər.

**Sədərək düzü**

Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu ərazisində maili düzənlik. Arazboyu düzənliklərdən biri.

Cənub-şərqdə Dəhnə və Vəlidağ yüksəklikləri vasitəsilə Şərur düzündən ayrılır. Şimal-qərbdə Ağrı düzənliyi ilə birləşir, cənub-qərbdə isə Araza qovuşur. Allüvial və allüvial-provülial çöküntülərdən təşkil olunmuşdur. 800-940 m mütləq yüksəkliyə malik olan Sədərək düzü şimaldan cənuba və qərbdən şərqə doğru meyillidir. Sədərək düzünün mərkəzi hissəsindən kənd təsərrüfatı məqsədləri üçün istifadə olunur. Üzümçülük inkişaf etmişdir.

**Sədərək qalası**

Sədərək rayonu ərazisində, Sədərək qəsəbəsinin cənubunda, Araz çayına doğru uzanan Vəlidağın cənub – qərb silsiləsi üzərində Son Tunc və İlk Dəmir dövrlərinə aid (e.ə. V–IV minilliklər) qala-şəhər.

Abidə 2001-ci ildə Naxçıvan Arxeoloji Ekspedisiyası tərəfindən aşkar edilmişdir. Qala-şəhərin salındığı yüksəklik əlverişli strateji mövqeyə malikdir. Anadolu-Sədərək-Naxçıvan istiqamətindəki qədim karvan yolu buradan yaxşı müşahidə olunur və nəzarətdə saxlanılırdı.

Qala divarı boyunca bir neçə yerdə daş tikinti qalıqları və zəngin mədəni təbəqə vardır. Buradan e.ə. II minilliyin II yarısı – I minilliyin əvvəllərinə aid boz, qara və açıq çəhrayı rəngli gil qab qırıqları və obsidian lövhələr əldə edilmişdir.

Dağın cənub, şərq və qərb ətəklərindən aşağı terraslarda buraya çıxmaq mümkün olan bütün keçidlərin qarşısını kəsən 2,5 metr enində siklop tipli möhtəşəm müdafiə səddi ucaldılmışdır. Həmin möhtəşəm sədd 1,5-2 metr hündürlüyündə salamat qalmışdır. Səddin cənub-qərb hissəsində eni 5 metr olan giriş qapısı var. Girişin hər iki tərəfindən içəriyə doğru 3 metr uzunluğunda kontur-fors divarlar hörülmüşdür.

Vəlidağ üzərində 40 hektara yaxın yamaclı sahə çoxbucaqlı plana malik möhtəşəm qala divarları ilə əhatələnmişdir. Dağın hündür yerində divarlar boyunca dairəvi və düzbucaqlı bürclər – gözətçi qüllələri, daxili terraslarda isə dördkünc binalar inşa edilmişdir. Qala şəhərin müdafiə sistemi qədim Naxçıvan qalatikmə memarlığı üçün səciyyəvi olan üslubda inşa edilmişdir. İri həcmli qara mərmər bloklar hörgüdə kənar cərgələrdə düzülmüş, aralarındakı boşluq isə xüsusi memarlıq üslubunda orta və xırda həcmli qaya parçaları ilə doldurulmuş, istehkamların inşasında bərkidici məhluldan – palçıqdan istifadə edilmişdir.

**Sədərək məscidi**

Naxçıvan Muxtar Respublikasının Sədərək kəndində 18-19 əsrlərə aid memarlıq abidəsi.

Məscid böyüklüyü, abadlığı və kitabələrinin zənginliyinə görə fərqlənir. Məscidin baş fasadında, önündə sütun başlığında taxta üzərində, birinci cərgə, ikinci cərgə və digər sütun başlıqlarında nəstəliq xətti ilə memar və xəttatların adları, Qurandan ayələr həkk olunmuşdur. Kitabələrdə bir necə tarix göstərilmişdir: hicri 1112 (1700-1701), hicri 1259 (1843), hicri 1315 (1897). Hicri 1112 il məscidin tikilmə tarixi sayılarsa, binanın hicri 1259-cu ildə əsaslı təmir olunduğunu söyləmək mümkündür. Çünki bina 18 əsr memarlıq-konstruktiv formalarını saxlamamışdır. Hicri 1315-ci ildə yenidən təmir işləri aparılmışdır. Hazırki binanın memarı sədərəkli Abbasın oğlu Məhəmməd olmuşdur. Məsciddəki taxta işləri, yaraşıqlı nəbatı ornament və kitabə motivləri ilə işlənmiş sütun başlıqları sədərəkli memar və nəccar Məhəmmədə məxsusdur. 1259/1843 il tarixli kitabəyə əsasən, Təqi oğlu Məşədi Əhmədin memar Məhəmmədlə eyni vaxtda işləməsi, Məhəmmədin yüksək peşəkar memar, Məşədi Əhmədin isə bənna olması qənaətinə gəlmək olar. Digər kitabələrdə göstərilən Şahbaz oğlu Məhəmmədə və Məhəmməd xanın oğlu Salehə gəldikdə isə, onların xeyriyyə məqsədi ilə məscidin tikilməsinə vəsait verdikləri məlum olur.





*Metronun "Avtovağzal" stansiyasının ətrafında salınan yeni yol.*
*(Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi)*

# Ş



**Şəfiyev Etibar Lətif oğlu**

01 yanvar 1949-cu ildə Cəlilabad şəhərində anadan olmuşdur. 1955-ci ildə Cəlilabad şəhər Nizami adına orta məktəbin birinci sinfinə daxil olmuş və 1966-cı ildə həmin məktəbin onbirinci sinfini bitirmişdir.

Etibar Şəfiyev orta məktəbi bitirdikdən sonra bir il Cəlilabad rayon Zona Təcrübə müəssisəsində fəhlə kimi çalışmış və 1967-ci ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə qəbul olmuşdur. Beş il müddətində institutun ictimai-siyasi həyatında da aktiv fəaliyyət göstərən Etibar Şəfiyev 1972-ci ildə ali təhsilini müvəffəqiyyətlə başa vurub inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir.

Qeyd edək ki, institutda təhsil alarkən 1969-cu ilin qəbul imtahanlarında komsomol qrupuna rəhbərlik edərək qəbul komissiyasında işləmişdir. Həmin il Ulu Öndər respublika rəhbərliyinə gəlmiş və institutun rektoru dəyişdirilmişdir. Qəbulun düzgün və şəffaf keçirilməsi üçün o zaman görülmüş işlərdə uğurlu əməyinə görə Etibar Şəfiyevə rəhbərlik tərəfindən "Tərifnamə" verilmişdir.

Təyinatla Azərbaycan Respublikası Kənd Tikinti Nazirliyinin cənub bölgəsində yerləşən təşkilatına göndərilən gənc mütəxəssis nazirliyin Masallı şəhərində yerləşən 3 nömrəli trestinin müdirinin əmri ilə Cəlilabad şəhərində yerləşən 35 nömrəli SMD-də əmək fəaliyyətinə başlamışdır. Dəstədə tikinti briqadiri kimi işə başlayan Etbar Şəfiyev sonrakı 1973-1978-ci illərdə Cəlilabad RİK-də mühəndis və rayonunun Baş memarı vəzifəsində işləmişdir.

E.L. Şəfiyev 1978-ci ildə Respublika Kənd Tikinti Nazirliyinin Cəlilabad şəhərində yerləşən 31 nömrəli SMD-də baş mühəndis, 1981-ci ildə isə Azərittifaqın Cəlilabad rayonunda yerləşən 2 nömrəli Rayonlararası Tikinti İdarəsinə rəis vəzifəsinə təyin olunmuş və 1981-1982-ci illərdə Cəlilabad şəhərində 16 mənzilli yaşayış evi, "Uşaq aləmi" mağazası, ticarət mərkəzi, 2 mərtəbəli univermaq, 2 mərtəbəli "Gənclik" mağazası, Cəliabad şəhərinin ətrafında yerləşən çoxsaylı iaşə obyektləri, Masallı

şəhərində gündəlik tələbat malları mağazası, mərkəzi anbar, çörək zavodu və sair, Biləsuvar raonunun mərkəzində və müxtəlif kəndlərində mağaza və iaşə obyektləri, çörək zavodu, 2 mərtəbəli restoran, avtomobillər üçün qaraj, inzibati binalar və sair obyektlərin tikintilərini həyata keçirmişdir.

1982-ci ildə isə yenidən 31 nömrəli SMD-yə bu dəfə rəis kimi göndərilmişdir. O, burada çalışdığı illərdə R.Axundov adına sovxozda 80 min tonluq ilkin şərab emalı zavodunun, Cəlilabad şəhərində iki ədəd beşmərtəbəli yaşayış evinin, Cəlilabad şəhərinin mərkəzində yerləşən məişət evinin və Mərkəzi bazarın, Cəlilabad rayonunun Göytəpə şəhərində məktəb, uşaq bağçası və digər bir sıra sosial təyinatlı obyektlərin tikintilərinə rəhbərlik etmişdir.

Etibar Lətif oğlu 1984-1986-cı illərdə Azərbaycan SSR Dövlət Üzümçülük və Şərabçılıq Komitəsinin Cəlilabad şəhərindəki 5 nömrəli Səyyar Mexanikləşdirilmiş Dəstəsində baş mühəndis və rəis vəzifələrində çalışmışdır. Onun bu kollektivdəki fəaliyyəti də çox uğurlu olmuş, 3 il ərzində Cəlilabad rayonunun müxtəlif kəndlərində şərab zavodları və kişmiş sexləri, Cəlilabad rayonunun R. Axundov adına sovxozunda uşaq bağçası, xəstəxana və digər obyektlər tikilərək sifarişçi təşkilata təhvil verilmişdir.

O, 1986-cı ildə yenidən "Azərittifaq"ın 2 nömrəli idarəsində rəis vəzifəsinə təyin olunmuş və 1989-cu ilə kimi burada böyük uğurlara imza atmışdır.

E.L. Şəfiyev 1989-cu ildə Yerli Sənaye Nazirliyinin Cəlilabad rayonunda yeni istifadəyə verilmiş Kərpic zavoduna direktor təyin olunmuşdur. 2003-cü ildə zavod səhmdar cəmiyyətinə çevrilmiş, Şəfiyev Etibar Lətif oğlu isə cəmiyyətə sədr təyin olunmuşdur.

2003-2006-cı illərdə isə Abşeron rayonunun Xırdalan şəhərində yerləşən "Azbentonit" zavodunun sədrinin tikinti işləri üzrə müavini vəzifəsində çalışmışdır.

E.L. Şəfiyev 2006-cı ildən bu günə kimi özəl sektorda tikinti-quruculuq fəaliyyətini davam etdirir.

Etibar müəllimin atası Lətif Razzaq oğlu Şəfiyev də uzun illər "Azərittifaq"ın Cəlilabadda yerləşən obyektlərində çalışıb. Anası Sidiqə xanım evdar qadın olub. Bu ailədə doqquz övlad böyüyüb, üç qardaş, altı bacı olublar.

E.L. Şəfiyev ailəlidir, dörd övladı, beş nəvəsi var. Həyat yoldaşı Şəfiqə xanım Bakıdakı 2 nömrəli Tibb Texnikumunu fərqlənmə diplomu ilə bitirib, uzun müddət öz ixtisası üzrə Cəlilabad rayon Mərkəzi Xəstəxanasının ginekologiya şöbəsində işləyib. Qızı Vüsalə Azərbaycan Xarici Dillər Universitetini ingilis dili ixtisası üzrə biririb, müəllimədir və ailəlidir, bir övladı var. Qızı Elnurə N. Tusi adına Pedaqoji Universitetini bitirib, ailəlidir, iki oğlu var. Oğlu Razzaq hüquq təhsili alıb, hazırda biznes fəaliyyəti ilə məşğuldur, ailəlidir, iki övladı var. Oğlu Rəşad isə Ukraynada ali təhsil alıb, ixtisasca iqtisadçıdır, biznes fəaliyyəti ilə məşğuldir, ailəlidir.

E.L. Şəfiyev inanır ki, yaxın zamanda torpaqlarımızı yağı düşməndən azad edəcəyik və o, ömrünün bu yaşında da həyatda qazandığı şərəfli inşaatçı peşəsinin əzəmətindən azad olunmuş torpaqlarımızda aparılacaq bərpa-quruculuq işlərində yenidən istifadə edəcəkdir.

**Şabran**

V–XVIII əsrlərdə mövcud olmuş qədim Azərbaycan şəhəri, Məsqətin və Şirvanın mərkəzi

Ptolomeydə (II əsr) bu şəhərin adı Sapothrenae kimi çəkilir. Onun qalıqları Şabran rayonunun Şahnəzərli kəndinin yaxınlığındadır. Burada şumlama zamanı gil və saxsı qab qırıqları, Sasanilər dövrünə aid kərpiclər, təknə qəbirlər və erkən orta əsrlər şəhərinə məxsus digər maddi mədəniyyət əşyaları üzə çıxır.

Şabran qalası müasir Qubadan cənuba doğru axan eyniadlı çayın üstündə idi. Şəhər yerinin arxeoloji tədqiqi bu qədim şəhərin erkən dövr həyatı haqqında bir söz deməyə imkan verməmişdir. S.T.Yeremyanın fikrincə, Şabran şəhəri erkən orta əsrlərdə Şərvan vilayətinin mərkəzi və Massaget Arşakilərinin siyasi mərkəzi olmuşdur.

Şəbəran (Şaburan) vilayəti və onun əsas şəhəri Şəbəran (Şəburan, Şəbran) Məsqətdən cənubda, Xəzər dənizinin sahilində yerləşirdi. Şəbəran şəhərinin qalıqları və xarabalıqları indiki Şabran rayonunun Şahnəzərli kəndinin yaxınlığında, Padar-Şəbran kəndindən azca aralı aşkar edilmişdir. Ərəb müəllifləri Şəbəranı Sasani



*Şabran, qədim şəhər*

hökmdarı I Xosrov Ənuşirəvanın (531-579) saldırdığını qeyd edirlər. Görünür, Şəbəran adı (1124-cü ilə aid gürcü salnaməsində qeyd olunmuş forma) onun Azərbaycanda rast gəlinən Şapur İran adı ilə bağlılığına işarədir.

İstəxrinin Qota nüsxəsində (təqribən 930-cu il) və Yaqutda deyilir ki, Xəzər dənizinin sahilində, Məsqətdən aşağıda kiçik, lakin

möhkəmləndirilmiş Şəbəran şəhəri yerləşir. Onun çoxlu rustaqları (kənd nahiyələri) var. Ondan üstdə Çeşmədən (Xaçmataka Xaçmasa) rustağıdır. Onun digər tərəfində Bakı, Dərnik və Ləkzə qədər kəndlər (diyə), Cəbəl (Qafqaz sıra dağları) və Şirvan dağları yerləşir. Burada yoxa çıxmış şəhərin yeri çox dəqiq lokallaşdırılır. "Hüdud əl-aləm"ə görə (982/3-cü il) Şəvəran (Şəbəran) Şirvanın inzibati mərkəzi (qəsəbə) olub, dəniz sahilində yerləşən səfalı bir yer idi.

Şabran şəhərində arxeoloji qazıntı zamanı nəfis keramika məmulatının qalığı aşkarlanmışdır. Oradan zərgərlərin qızılın əyarının təyin olunmasında istifadə etdikləri məhək daşı (sangi mihakk) ixrac olunurdu. "Tarix-i əl-Bab"a görə, Şirvanın əsas gəlirini Şəbəran və onun kəndlərindən, habelə Bakının neft quyularından və duz mədənlərindən yığılan vergilər təşkil edirdi. Müqəddəsi sonra Şəbəranın adını çəkir. "Şəbəran qalasız yerdir. Əhalisinin əksəriyyəti xristiandır, sərhəddədir. X əsrin ikinci yarısında Şəbəran və ətrafındakı kəndlər varlı və münbit yerlər idi. Əl-Bab əmiri h.357 (968)-ci ildə oradan saysız-hesabsız qənimət aparmışdı.

"Tarix-i əl-Bab"da Şirvanşah Əbu Nəsrin h.392 (1002)-ci ildə əl-Bab əmirinin qardaşını həbsdə saxladığı Şəbəran qalasının adı çəkilir. Şəbəran şəhəri indiki Qubadan cənuba doğru axan eyniadlı çayın sahilində idi. Ehtimal ki, Şəbəran üç Şirvan nahiyəsindən biri olan Xursanın inzibati mərkəzi olmuşdur. Burada şüşə bilərziklər, çoxlu miqdarda şirli və şirsiz saxsı qab qırıntıları və kürə aşkara çıxarılmışdır ki, bu da sənətkarlığın inkişafından xəbər verir. "Tarix-i əl-Bab"ın verdiyi xəbərə görə, Şəbəran şəhərinin divarını h.373 (983)-cü ildə Şirvanşah Məhəmməd ibn Əhməd çəkdirmişdir. XI əsrdə Şirvanşahların ailə məqbərəsi Şəbəranda olmuşdur. H.418 (1027)-ci ildə ölmüş Yezid ibn Əhməd və onun h.459 (1067)-cu ildə Gülüstanda (Şamaxı yaxınlığında) ölmüş qızı Şəmkuyyə burada dəfn edilmişdir. Ehtimal ki, Şamaxı böyüyənədək Şirvanın paytaxtı olmuşdur.

XVIII əsrin sonlarında Şəbəran ərazisində olmuş Biberşteyn yazır: "Vaxtilə mühüm şəhər olub, indi isə yalnız xarabalıqları qalmış Şəbəran şəhəri düzənlikdə onun adını daşıyan çayın sol sahilində yerləşmişdir".

Hələ 1254-cü ildə Cənubi Qafqaz yolu ilə Monqolustandan qayıdarkən Şəbəranda olmuş fransız rahibi Rubruk burada xeyli yəhudi yaşadığını göstərmişdir. Rubrukun sözlərinə görə, onlar çox halda Şəbəranla Şamaxı arasındakı dağ qalalarında məskən salmışdılar. Şəbəranın adı Teymurun yürüşləri təsvir edilərkən də çəkilir. 1395-ci ildə Dəşti-Qıpçağa yürüşdən qayıdan Teymuru bu səfərdə müşayiət edən Şirvanşah Şeyx İbrahim bu şəhərdə onun şərəfinə ziyafət vermişdi.

Türkiyəli səyahətçi Evliyə Çələbi 1647-ci ildə Şabranda olarkən yazırdı:...İranın Təbrizdən sonra ikinci şəhəri sayılır. Şəhərdə 70 məhəllə, Tokmaq xanın, Əfşar xanın və Uzun Həsənin məscidləri yerləşir. Məscidin divarları incə, buqələmun dərisi kimi, cürbəcür rənglərə çalan ornamentlə bəzədilib. Mərmər üzərində naxışlar isə hətta memarlıq işinin ustalarını təəccübləndirir.

A.A.Bakıxanov ilk dəfə Dəvəçi rayonunun Şahnəzərli kəndinin yaxınlığında Gülüstan-İrəm şəhərinin qalıqları sayılan orta əsr şəhərinin Şabranın yerləşməsi barədə deyib.

Şəhərin əhalisinin əsas hissəsini müsəlmanlar təşkil edirdi, şəhərdə xristianlar və yəhudilər də yaşayırdı.

1979-1989-cu illərdə şəhərin ərazisində beş yerdən aparılan arxeoloji qazıntılar nəticəsində 4500 kv. km-dən çox sahə aşkar edilmişdir. Material mədəniyyət qalıqlarının yaylanma qalınliği 5 m-ə qədərdir. X əsrə aid olan qala aşkarlanıb. Alimlər tərəfindən sübut edilib ki, bu qala müdafiə məqsədi ilə tikilib. Qalanın divarları yarımdairəvi qüllələrlə bərkidilib. Tikinti zamanı əhəngdaşı, çay daşı və yandırılmış kərpicdən istifadə olunub. Qala XIII əsrin yarısına qədər mövcud olub. XIV əsrdə monqollar tərəfindən dağıdılmış qalanın qərb hissəsində kiçik qəsr tikilir. O, dördbucaq şəklində idi və Mərdəkan qalalarını xatırladırdı. Memarlar tikinti zamanı qarışıq hörmədən istifadə edirdilər. Qazıntılar şəhərin məhəlləli planlaşdırılmasından xəbər verir. Evlər yandırılmış kərpicdən çay daşından olan bünövrənin üzərində tikilirdi. Şəhərdə su kəməri xətti mövcud idi.

Şabranın iqtisadiyyatı keramikanın istehsalında qurulmuş idi. Arxeoloji qazıntılar nəticəsində 10 əşyadan ibarət saxsı dəst tapılıb. Dağıntılar altında dulusçuluq emalatxanası aşkarlanıb. Şabranın saxsı əşyaları öz formasına və ornamentinin zənginliyinə görə fərqlənirlər. Metal emalında da uğurlar əldə edilmişdir. Buna görə də, şəhərdə tökmə işi, mis işi, zərgərlik, silahqayırma və s. inkşaf etmişdir. Möhürlü qızıl və gümüş üzüklər tapılıb. Şəhərdə həmçinin şüşə istehsal olunurdu. Yerli ustalar şüşənin müxtəlif növlərindən istifadə edirdilər. Məhsulun bir hissəsi xarici ölkələrə ixrac olunurdu. Şabran ustalarının hazırladığı ipək, yun məhsullarına, müxtəlif növ xalçalara da dünya bazarlarında tələbat böyük idi.

Şəhər Suriya, Misir, Çin, Maldiv adaları və s. ölkələr ilə ticarət əlaqələri saxlayaraq, keramika, farfor, fayans məhsulları ixrac edirdi. Aşkar edilmiş mis sikkələr daxili ticarətin də mövcudluğundan xəbər verirlər. Sikkə zərbində istifadə olunan ştempelə oxşayan əşya da tapılmışdır .

## Şeyx Heydər türbəsi

Şirvanşah Fərrux Yasarla döyüşdə məğlub olan Şeyx Heydər elə öldüyü yerdə də dəfn olunub. Hər iki qoşun arasında döyüş Ruzbihan Fəzlullahın yazdığına görə Elbrus (Qafqaz) dağlarının ətəklərində getmişdir. V.F. Minoriskiyə görə Elbrus Şahdağdır. Şeyx Heydər 9 iyul 1488-ci ildə baş vermiş vuruşmada məğlub olaraq döyüş meydanında qəhrəmancasına həlak olur və müridləri tərəfindən orada da dəfn olunur. Onun məqbərəsi Xızı rayonunun Tıxlı kəndindən 3-4 km şimal-şərqdə, Beşbarmaq dağının arxasındadır. Türbə üzərində aşkar edilmiş daş lövhədəki üçsətirlik farsca kitabə (1,21x0,67m) süls elementli nəsx xətti ilə həkk olunmuşdur. Kitabənin birinci sətri iri, aydın nəsx xətti ilə, ikinci, üçün-



*Şeyx Heydər türbəsi*

cü sətirdəki sözlər 5-6 cərgədə, yuxarı qaldırılaraq üst-üstə süls elementli xırda nəsx xətti ilə yazılmışdır. Mətnin tərcüməsi belədir: 1 "Böyük məzar Allah yolu ilə gedənin müqəddəs şəhidgahı, həqiqət yolunun yolçusunun qəbri, hikmətli Quran dininin həqiqət axtaran şeyxi, Şeyx Sultan Cüneydin oğlu Şeyx Sultan Heydərindir. 2. Şirvan, Ruman, İran (Ağqoyunlu dövləti nəzərdə tutulur) müharibəsində öldürülmüşdür. (Məqbərə) o ildən min otuz birinci ilə kimi xarab vəziyyətdə idi. Etibarlı imam Əmir əl-möminin Əli ibin Əbu Talib (ə) Şeyx Cüneydin oğlu Şeyx Heydərin başına gələn hadisənin doğruluğunu (bilib) qəbrin parlaqlığını və möhkəmləndirilməsi üçün həqiqi nökəri Şah Ismayılın yanına gəlib buyurdu ki, uzun müddət bu bərəkətli, böyük qəbir Şirvan dağlarında bir dağın ortasında gizli qalıb 3. Fərman verdi ki, onu bu cəfa dolu quyudan və alçaqlıq zülmündən qurtarıb, aşkar edib, qəbir üzərində bina tiksinlər. Mərhəmətlə o ali və yüksək cavanın dəfin olduğu dağın ətəyini 50 zər (1 zər 107 sm-dir.) eninə çapıb, dərinliyə getdilər. Qədim qəbrin yerini aşkara çıxarıb, ona təzim etdilər. Şah Səfi Bahadur xan əl-Hüseynin hakimiyyəti vaxtında bu qəbir üzərindəki bina yenidən təmir və bərpa olundu. Uzun müddət məlayikələr astanası olan bu dərgahda çoxları şəfa tapdı. Rəcəb ayı min qırx doqquzuncu il tarixdə".

Kitabənin mətnində məlum olur ki, Səfəvi şeyxlərindən Şah İsmayıl Xətainın atası olan Şeyx Heydər "Şirvan dağlarından birində gizlicə dəfn olunmuş və onun məzarı uzun müddət gizli qalmışdır". Sonralar Qızılbaşların Şirvan ərazisinə yürüşləri zamanı Şah İsmayıl Səfəvi atası Şeyx Heydərin qəbrini axtarıb tapmış, üzərində türbə binası tikdirib orada müridləri tərəfindən Təkəli və Şıxlar kəndlərini saldırmış və məqbərəni müqəddəs ziyarətgah elan etmişdir. Hazırda kəndlərin xarabalıqları qalmışdır. Sonralar kəndin əhalisi buranı tərk edərək sənaye mərkəzlərinə köçmüşdür.

Şeyx Heydərin qəbri üzərində bişmiş kərpicdən tikilmiş məqbərə binası iki otaqdan ibarətdir, üstü uçmuşdur. Günbəzin dayandığı tağ oturacaqları və günbəz dairəsinin qalığı görünməkdədir. Naxçıvan-Marağa memarlıq məktəbinə xas üslubda tikilmiş binanın bəzəklərində yaşıl, qara, qəhvəyi, abı rəngli kaşılı kərpiclərdən istifadə olunmuşdur.

## Şeyx Səfi kompleksi

İranın Ərdəbil şəhərində yerləşən tarixi-dini memarlıq kompleksidir. Kompleks Səfəviyyə sufi təriqətinin şeyxi Səfiəddinin məzarı üzərində inşa edilmiş kompleks ətrafında formalaşmışdır. Səfəvilər sülaləsindən olan şahlar kompleksə böyük əhəmiyyət verərək onun genişləndirilməsi və zənginləşdirilməsini təşviq etmişlər. Şah İsmayıl Xətainin dövründə Şeyx Səfinin türbəsinin (sonradan şah özü də bu türbədə dəfn edilmişdir) fasadı nəfis kaşı işləmələrlə bəzədilmişdir. Onun oğlu I Təhmasibin dövründə Şeyx Səfinin xatirəsinə möhtəşəm memarlıq abidəsi olan məscid inşa edilmişdir. I Şah Abbasın dövründə isə kompleksə Çinixana binası əlavə edilmişdir. Nəfis çiniçilik nümunələrinin toplandığı və sərgiləndiyi bina böyük kitabxanaya ev sahibliyi etməklə yanaşı, I Abbasın dövründə həm də rəsmi görüşlərin keçirilməsi üçün istifadə edilmişdir. Kompleksin həyətlərindən birində isə Çaldıran döyüşü şəhidləri (həmin məzarların bir çoxu Pəhləvilərin hakimiyyəti zamanında dağıdılmışdır) dəfn edilmişdir.



*Şeyx Səfi kompleksi*

Kompleksin şimal-qərb tərəfində zəngin bəzədilmiş giriş portalı vardır. Həmin portaldan sonra yerləşən daha sadə dizaynlı, soldan üç tağlı, sağdan isə bir tağlı nişlərlə əhatələnmiş portal geniş bağa aparır. Tikili bağ tərəfdən də bazar meydanı tərəfdən olan görünüşünü təkrarlayır. Bağ həyətinin qarşı tərəfində yerləşən digər bir portal bağı böyük həyətlə əlaqələndirən kiçik həyətə açılır. Kiçik həyətin girişi 31 metr uzunluğa və 16 metr enə malik böyük həyətə açılır. Daşlarla döşənmiş bu həyətin mərkəzində hovuz yerləşir. Böyük həyət ətrafında səkkizbucaqlı plana malik məscid, ona birləşən dairəvi plana malik Şeyx Səfi türbəsi yerləşir. Çinixana binası birbaşa həyətlə əlaqələndirilməsə də bir tərəfdən məscid binasına bitişir. Məscidin arxasında, Şeyx Səfi türbəsi ilə yanaşı daha bir neçə türbə binası, o cümlədən Şah İsmayıl Xətainin türbəsi yerləşir.

Şeyx Səfi kompleksi Bakıdakı Şirvanşahlar saray kompleksi ilə birlikdə Azərbaycanda orta əsr memarlıq komplekslərinin dövrümüzə tam şəkildə çatmış nadir nümunələridir. 2010-cu ildə kompleks UNESCO tərəfindən Ümumdünya irsi siyahısına daxil edilmişdir.

XIV əsrdə Ərdəbil şəhəri yerli şeyxlərin iqamətgahına çevrilir. Ərdəbil şeyxlərinin əvvəl Azərbaycanda, daha sonra isə bütün İranda siyasi hakimiyyəti ələ keçirmələrindən sonra isə, XVI əsr boyunca şəhərin əhəmiyyəti daha da artır. Həmin dövrlərdə şəhərə səfər etmiş səyahətçilər onu onu böyük və canlı ticarət mərkəzi kimi təsvir

edirlər. 1623-cü ildə İrana səfər etmiş rus tacir Afanasi Kotov yazır ki, "...qonaq evlər və qala divarları Şamaxıdan daha böyükdür, bütün tikililər daşdan inşa edilmişdir, mağazalar da çoxdu, qonaq evləri də çoxdu, tərəvəzlər də gətirirlər, balıq da gətirirlər..." Fransız tacir Jan Batist Tavernye (XVII əsrin ortaları) isə qeyd edir ki, Ərdəbil böyük ticarət yollarının kəsişmə məntəqəsi idi. Buraya 800-900 dəvədən ibarət iri karvanlar üz tuturdu.

Səfəvilər sülaləsinin (1501-1736) ailə nekropolunun Ərdəbildə yerləşməsi də şəhərin əhəmiyyətinin artmasına təsir göstərən mühüm faktorlardan biri idi. XVI əsr ərzində Şeyx Səfinin şəhərdə yerləşən türbəsi ətrafında geniş dini-memarlıq kompleksi formalaşır. Bu memarlıq kompleksi şiə müsəlmanlar arasında böyük nüfuz qazanmaqla mühüm ziyarətgaha çevrilir. Böyük vəqf torpaqlarına malik olan kompleks təkcə Ərdəbilin deyil, həm də ətraf ərazilərin iqtisadi inkişafında mühüm rol oynayır. Şəhər karvansarayları, bazarları və ticarət sıralarından başqa Şeyx Səfi kompleksi həm də çoxsaylı kəndlər və əkin ərazilərinə malik idi.

## Şeyx Yusif türbəsi

Mövlana Şeyx Yusifin türbəsi ikiotaqlıdır. Türbədə bir neçə qəbir var. Bir məzarın başdaşında yazılıb: "Bu qəbir Mövlana Şeyx Yusif oğlu mərhum Məhəmməd Əlinindir. Səkkiz yüz altıncı il" (1403-1404-cü il). Bir müddət İbrahimxəlil və Umsələməd adlı ər-arvad bu türbənin qorunub saxlanması üçün böyük zəhmət çəkiblər. Buna görə İbrahimxəlili 1937-ci ildə Sibirə göndərib əmlakını müsadirə ediblər. Lakin ondan törəmələr abidənin bərpasını davam etdiriblər. Nəvəsi Əflatun Məmmədov camaatın köməkliyi ilə burada aman evi tikdirib. Şeyx Yusifin nəvəsi Teyyub Seyid Hacıbala oğlu 1986-cı ildə türbəni bərpa etdirib.

Azərbaycanda ən çox ziyarət edilən övliyalardan biri də Şeyx Yusif əfəndidir.

Haşimilər nəslindən olan və soykökü Həzrət Əli və Həzrət Fatimə vasitəsi ilə Peyğəmbər əfəndimizə bağlanan Şeyx Yusifin şəcərəsi bu gün Xaçmaz rayonunun Seyidlər kəndindəki törəmələrinin evində saxlanmaqdadır. Tam adı Yusif ibn Əli əl-Fazil əl-Hüseyni, künyəsi Əbül-Füyuzat, ləqəbi Ziyaəddindir.

Abbasqulu ağa Bakıxanov Mövlana Şeyx Molla Yusif haqqında "Gülüstani-İrəm" əsərində belə məlumat verir:

"Onun ulu babaları Qubanın Müskür nahiyəsinə Qarabağdan gəlmişlər.



*Şeyx Yusif türbəsi*

Şeyx cənabları hicri səkkizinci əsrin ortalarında dünyaya gəlmişdir. Təriqət mərasimini təkmil etdikdən sonra, Seyid Yəhya Bakuvidən (XIV-XV əsrlər) irşad xirqəsi almış və təriqət saliklərinin üzünə feyz və təbliğ qapılarını açmışdır. Şeyxin məzarı və onların yurdu olan kənd Şıxlar adı ilə adlanmışdır. Bakıda (Əlyazmalar fondunda) qorunan və ona aid edilən "Bəyanül əsrar lit-talibin" və "Silsilətül-uyun" adlı əlyazma əsərlərində adı Yusif əl-Şirvaniəl Müsküri kimi qeyd edilib. Bir müqəddimə və 24 fəsildən ibarət olan "Bəyanül-əsrar" kitabı əşyanın maddi və mənəvi xüsusiyyətlərinə, təriqət sahibləri və füqəranın adət və ədəbinə aid olan geniş mövzuları müxtəsər bir surətdə izah edir.

Hicri səkkizinci əsrin axırlarında vəfat etmişdir.

Tədqiqatçı Mehmet Rıhtımın araşdırmalarına görə Şeyx Yusifin vəfat tarixi 1485 miladi ilidir. Onun atası Şirvanın qazilquzatı və dövrünün nüfuzlu alimlərindən olub. İlk təhsilini atasından alaraq, doqquz yaşında Quranı oxumağı tam öyrənib başa çatıb; həddi-buluğa yetəndə dərs deməyə başlayıb.

Sonralar Həccə gedərək Misir, Qüds, İsgəndəriyyə, Bağdad və Şamda olub; buradakı böyük alimlərdən dərs alaraq, elmi biliklərini təkmilləşdirib. Daha sonra Şamaxıya gələrək elm tədrisi ilə məşğul olub.

Seyid Yəhya Bakuvidən dərs almağı Yusifə Həzrət Peyğəmbərimiz yuxusunda tövsiyə etmişdir. Yusif Əfəndi dərhal Bakıya gələrək, Seyid Yəhyaya yetişdi və ona mürid oldu. Yeri gəlmişkən, qeyd edim ki, sufilikdə uca məqam (dərəcə) qazanmaq üçün mürid mütləq ildə bir dəfə xəlvətə girməlidir. Yəni, qırx gün qaranlıq otaqda tək-tənha qalaraq, ancaq su və xurma ilə qidalanır və "Quran" oxuyur. Bu müddətdə mürid ancaq tualet ehtiyacını ödəmək üçün bir neçə dəqiqəliyə otaqdan çıxır və onda da heç kəslə danışmır. Şeyxinin əmri ilə Yusif əfəndi də xəlvətə girərək, çətin riyazətlər ilə böyük mərtəbələr keçdi və xəlifəlik məqamına çatdı.

Seyid Yəhya onu irşad üçün Şamaxıya göndərdi. Burada onun ətrafına yüzlərlə mürid toplandı.

Nəzminin yazdığına görə Seyid Yəhya Bakuvi ölümündən əvvəl xəlifələri və müridləri toplayaraq: "Məndən sonra səccadə və Allahın əmanəti Məxdumundur"- dedi (Bakuvi əzizləmə mənasında Yusifə "Məxdum" təxəllüsü vermişdi).

Lakin Seyid Yəhya dünyasını dəyişəndə onun ortancıl oğlu Fətullah atasının səccadəsində oturdu. Yusif Məxdum da ona güzəştə gedərək, müridləri sakitləşdirdi.

Daha sonra Şeyx Yusif Şamaxıya gələrək, burada irşad etdi. Bir müddətdən sonra isə, Qubanın Müskür nahiyəsində fəaliyyətini davam etdirdi.

Qəbri-şərifi Xaçmazın Şıxlar kəndindəki günbəzdədir. Həmin günbəzdə Şeyxin oğlu Məhəmməd Əminin və digər şeyxlərin də qəbirləri vardır.

AMEA-nın Arxeologiya İnsitutunun professoru Məşədixanım Nemətova Məhəmməd Əminin qəbrinin üstündəki ərəbcə yazını bu cür tərcümə edir:

"Bu qəbir Mövlana Şeyx Yusifin oğlu, mərhum Məhəmməd Əminindir. Səkkiz yüz altmışıncı il" (1455-1456 miladi ili).

M.Nemətovanın tədqiqatlarından o da məlum olur ki, Şeyx Yusifin digər övladları və nəvələri də onun yolunu davam etdirərək, şeyxlik titulu qazanıblar.

Şeyx Yusif əfəndinin mənalı həyat yolu və fəaliyyəti bütün dövrlərdə tədqiqatçılar üçün maraq kəsb edib.

## Şəkinin tarixi abidələri

### Kiş kilsəsi

Şəki rayonunun Kiş kəndi ərazisində yerləşir. Bəzi müəlliflərə görə Qafqazın ilk kilsəsidir. Müxtəlif dövrlərdə alban və gürcü kilsəsi kimi fəaliyyət göstərməsi haqqında bəzi fikirlər var.

Kiş kilsəsi Ay ilahəsi Selenayahəsr edilmiş paqan məbədinin özülləri üzərində inşa edilmişdir.

"Alban ölkəsinin tarixi"nə görə İsanın din qardaşı müqəddəs Yakov tərəfindən xristianlığı təbliğ etmək üçün Albaniyaya göndərilmiş Müqəddəs Yelisey əvvəlcə bir müddət Çola və Utivilayətində missionerlik etmiş, sonra isə "Giş" adlı kəndə gedərək orada kilsə tikmişdir. Müasir xristian ilahiyyətçiləri bu hadisənin 60-cı ildən az sonraya təsadüf etdiyinə inanmaqdadırlar.

Nəinki Qafqaz Albaniyasının, hətta bütün Cənubi Qafqazın bu ilk xristian kilsəsinin tikildiyi yer, bir çox tədqiqatçıların fikrincə, məhz indiki Şəki rayonunun Kiş kəndidir və həmin səbəbdən də indi Şəkinin Kiş kəndindəki kilsə "Müqəddəs Yelisey kilsəsi" adı ilə tanınmaqdadır.

Alban apastol kilsəsi Qafqazda, eləcə də bütün xristian dünyasında ən qədim kilsələrdəndir. Albaniyada xristianlığın yayılması, ilk kilsəsinin yaradılması apostolların adı ilə bağlıdır ki, qədim mənbələrdə də bu kilsənin Kiş kəndində (Gis) tikilməsi haqda məlumatlar var.

"Alban ölkəsinin tarixi"ndə göstərilir ki, ""Ədalət Günəşi"nin zühur olan günlərində və bizim xilaskarımız, Dərkedilməz Varlığın şöhrət və mahiyyəti olan Atamızın zühur edib, bütün insanların qeydinə qalmaqla və heç bir zaman ayrılmadığı öz varlığının şöhrətinə sahib olması zamanda o, öz müqəddəs və sevimli şagirdlərinin (havarilərini) bütün dünyaya təbliğatçı kimi göndərir və biz Şərq xalqına müqəddəs havari Faddey təyin olunmuşdur. Faddey Artaz vilayətinə gəlir və burada çar Sanatürkün əliylə şəhid olur. Faddeyin şagirdi müqəddəs Yelisey Qüds şəhərinə qayıdıb, öz dindaşı havarinin həsəd oyadan şəhidliyi haqda söhbət edir. Bundan sonra Yelisey Qüdsün birinci patriki Ağamızın qardaşı müqəddəs Yakovun tövsiyəsiylə müqəddəs Ruh naminə Şərqə təyin edilir. Yelisey öz sərəncamına Şərqi (Albaniyanı) alır. Qüdsdən ayrılıb İrana gedir və oradan ermənilərin gözündən qaçaraq Məsküt elinə keçir. Öz təbliğini o, Çolada başlayır və müxtəlif yerlərdə şagird toplayaraq, onlara xilaskarı andırmağa çalışırdı. Müqəddəs patrik Gisa gəlir, burada kilsə tikir və qansız qurban verir. Bu yer Şərqin bütün kilsələrinin və şəhərlərinin başlanğıcıdır və biz şərqlilərə xristianlığı qəbul edilməsi mənbəsidir."

1824-cü ildə Şəki əyalətində əhalinin ilk siyahıyaalınması zamanı Kiş kəndində 1 nəfər də olsun xristian, o cümlədən xristian din xadimi qeydə alınmamışdır. Rəşid bəy Əfəndiyevin şəhadətinə görə də 20-ci əsrin əvvəllərində Kiş kəndində 1 nəfər də olsun xristian yox imiş, amma o, qeyd edir ki şəhərdə, yəni Nuxa (Şəki) şəhərində məskən salmış Zuğ (Tuğ?) erməniləri kilsəni "... mənimsəmişlər və



*Kiş kilsəsi*

divarının üzünə suvaq vurub üstünə dəmir çəkmişlər. Bu minvalı zahirisini asarüətiqəlik (tarixi abidə) halından çıxarmışlar". Rəşid bəy həmçinin, bu kilsənin "həvarilər zamanından qalma" olduğunu vurğulamaqla yanaşı, həm də qeyd etmişdir ki, abidənin ətrafında qazıntılar aparılarsa "gözəl nəticələr verməyi şübhəsizdir".

**Giləhli məscidi**

Giləhli məscidi və ya Gileyli məscidi – Şəki şəhərində yerləşən, XVIII əsrdə inşa edilmiş tarixi məsciddir. Gilək məscidi 1749-cu ildə Şəki xanı Hacı Çələbi xan tərəfindən tikdirilmişdir. 1805-ci ildə həmin məscidin yerində Hacı Şəmsəddin bəy yeni məscid tikdirir. Bundan sonra məscid xalq arasında "Hacı Şəmsəddin bəy məscidi" adı ilə tanınmağa başlayır.

Məscidin inşası üçün Şəki şəhərinin şimal-şərq hissəsində çay sahilindəki dərin uçurumun yaxınlığı seçilmişdir. Gileyli məscidi həm planlaşdırma xüsusiyyətlərinə həm də daxili həcminin həllinə – çoxsaylı divar nişləri və divar səthinin polixrom işlənməsi – görə Şəkinin yaşayış tikililərinin memarlığına yaxındır.

Hacı Çələbi xanın 1749-cu ildə Nuxada tikdirdiyi məscidin kitabəsi': "Bu



*Giləhli məscidi*

şərəfli məscidi Hacı Çələpi sultan ibn Qurban, Şəki hakimi, Şirvan əmiri, 1162-ci il Allahın mübarək ramazan ayı tarixində tikdirdi")

XX əsrin 30-cu illərində evləri qəzalı vəziyyətə düşmüş bir ailə məscidin binasında məskunlaşdırılmışdır. Məscidin minarəsi zamanəmizədək gəlib çıxıb.

Vaxtilə, məscidin yaxınlığında qəbiristanlıq da olmuşdur. Lakin Qurcana çayı həmin qəbiristanlığı tamamilə yuyub yox etmişdir. Həmin qəbiristanlıqda mövcud olmuş bəzi baş daşıları hal-hazırda muzeylərdə saxlanılmaqdadır. O cümlədən, məscidi 1805-ci ildə bərpa etdirmiş Hacı Şəmsəddin bəyin baş daşısı da Şəki Tarix-Diyarşünaslıq muzeyində saxlanılır. Hacı Şəmsəddin bəy 1815-ci ildə vəfat etmiş və Gilək məscidinin yanındakı qəbristanlıqda dəfn edilmişdir.

Giləhli məscidi uzun müddət baxımsız qaldığından və qəza vəziyyətinə düşdüyündən onu bərpa etmək əvəzinə, SSRİ dönəmində məscid dağıdılmışdır.

Planda 6x12 metr ölçüyə malik düzbucaqlı formasına malik məscid binasının tavanını binanın mərkəzində yerləşdirilmi dörd taxta sütun saxlayır. Məscidin binası gil və saman qarışığından hazırlanmış çiy kərpic və çaydaşı qarışığından inşa edilmişdir. Divarlar xaricdən səliqə ilə suvanmış, daxildən isə suvanmış və rəngarəng rəsmlərlə bəzədilmişdir. Həmin rəngarəng rəsmlər abidənin əsas dəyərli elementləridir.

Zalın divarları gəc məhlulu ilə üzlənmiş, suvaq qatı üzərində həndəsi və nəbati naxışlar çəkilmiş və sonradan həmin naxışlar rəngarəng boyalarla rənglənmişdir. Daxili divarların səthi kəmərlər vasitəsiylə bir neçə hissəyə bölünmüşdür: döşəmədən 1.5 metr hündürlüyə kimi divarlar gilsaman qarışı ilə suvanmış və nazik gəc məhlulu ilə üzlənmişdir. Bu panellərdən yuxarıda oxvari çoxpilləli nişlər kəməri gedir. Həmin kəmər həndəsi və nəbati naxışlarla doldurulmuşdur. Nişlərin yuxarısında bitki naxışlı nazik lent yerləşir. onun üstündə isə ərəb əlifbası ilə yazı lenti keçir.

Cənub-şərq divarının mərkəzində stalaktitlər, naxışlar və yazılarla zəngin bəzədilmiş oxvari biçimli mehrab yerləşir. Mehrabın yanlarında da çoxpilləli oxvari nişlər vardır.

Giləhli məscidinin minarəsi bu günə kimi gəlib çatmışdır. Qülləyə qədər 13,5 metr olan minarə yüksəklikdə yerləşdiyindən ərazi buradan çox gözəl görünür. Məscidə üfüqi istiqamətdə söykənən istinad divarı onun möhkəmliyini və dayanıqlığını daha da artırır. Onun istinad divarının qurtaracağına qədər olan hissəsi daşla, ondan yuxarı hissəsi isə bişmiş qırmızı kərpiclə hörülmüşdür. Müəzzinlər üçün nəzərdə tutulan və minarəni tamamlayan sahəyə qalxmaqdan ötrü istinad divarının üzərində iyidmidən artıq daş pilləkən hörülmüş, yağışdan, qardan, çovğundan və günəşdən qorunmaq məqsədi ilə kənarına taxta vurulmuş. Üstü örtülmşdür. Buraya işıq düşmək üçün kiçik pəncərələr də qoyulmuşdur. Pilləkənin qurtaracağında minarəyə daxil olmaq üçün tağlı qapı vardır.

**Şəki qalası**

Şəki qalası – əski Şəki şəhəri, yaxud Şəki şəhər-qalası.

Barəsində Övliya Çələbinin (1611–1682) "Səyahətmamə" əsərində məlumat verilir. Övliya Çələbi 1647-ci ildə gördüyü Şəki şəhər-qalasını belə təsvir etmişdir:

Bu qalanı Gürcüstanın şavşad çarlarından Aleksandr tikmişdir. Bundan sonra Dağıstan bəylərinin əlinə keçir, daha sonra isə iranlılar tərəfindən işğal edilir. Amma III Murad xanın vəziri Qara Mustafa paşa onu ələ keçirib Levan xanın oğlu İrakli bəyə bağışladı. Daha sonra Mustafa xanın hakimiyyəti dövründə, qala yenə iranlılar tərəfindən zəbt oundu. Hal-hazırda bu ayrıca sultanlıqdır. Qalada minə yaxın döyüşçü var. Bu gözəl bir daş qaladır, Şirvan əyalətində bir təpənin üzərində yerləşir. Qalanın Gəncə və Şirvan adlanan 2 qapısı var. Qala Dağıstan sərhədində yerləşir, amma gürcülərə aid hesab edilir. Qalada 3 min ev, yeddi cümə məscidi var. Məscidlərdən ən məşhuru Laquş oğlu Əhməd bəyin məscidi (qaladan kənarda) bazarda, III Murad xan məscidi isə qalanın içindədir.

**Ömər Əfəndi məscidi**

Azərbaycan Respublikasının Şəki şəhərində Ömər Əfəndi tərəfindən XVIII-XIX əsrlərdə inşa edilmiş məsciddir.

Məscidin fasadı bişmiş kərpic naxışları ilə diqqəti cəlb edir. Fasaddakı kərpic karniz, divar səthindən qabağa çıxan nazik tağlarla işlənmiş pəncərəüstü, bir-birini əvəz edən kərpic və daş hörgü sıralarından ibarət pəncərəarası divarlar onun memarlıq simasını tamamlayır. Binanın tikintisi özünəməxsusluğuna, bədii ifadəliyinə görə Şəki memarlığı ruhunda yerinə yetirilmişdir. Tikintinin əsas tutumuna daxil edilmiş minarənin üzərində kərpiclə işlənmiş



*Ömər Əfəndi məscidi*

bəzək işləri Şəki sənətkarlarının xüsusi memarlıq üslubunu, bacarıq və qabiliyyətlərini özündə əks etdirir. İnteryerin dekor elementi olan mehrabı xüsusi məharətlə işlənmişdir. Məscidin həyətində hovuz yerləşir. Məscidin həyətindəki hovuzun suyundan dəstəmaz almaq üçün istifadə olunur.



*Zəyzid kilsəsi*

**Zəyzid kilsəsi**

Azərbaycanın Şəki rayonunun Orta Zəyzid kəndində yerləşən X-XI əsrlərə aid alban kilsəsidir.

Zəyzid kilsəsi elmi ədəbiyyatda "sərbəst xaç" tipli alban kilsələrindən biri kimi məlumdur. Sadə xaçvari kilsələr digər xristian ölkələrində olduğu kimi Qafqaz Albaniyasında da çox inşa edilmişdir. Artıq VII əsrdə bu tip Qafqazda çox geniş yayılmışdır. Orta Zəyit kəndindəki məbəd kifayət qədər inkişaf etmiş konstruktiv və dekorativ xüsusiyyətlərinə görə XII–XIII əsrlərdə Qafqaz Albaniyasında xristian memarlığının ikinci çiçəklənmə dövrünün əvvəllərində inşa edilmiş abidələrə aiddir. Zəyzid kilsəsi birinci mərhələdə tikilmiş belə kilsələrə nisbətən daha zərif və dekorativ olmaqla estetik tələblərin yüksəldiyini əks etdirir.

Kilsə kiçik xaçvari tikilidir. Şərqdəkindən başqa xaçın bütün qolları düzbucaqlıdır. Şərq qolunda yarımdairəvi planlı apsida yerləşir. Qərb qolu şərq qolundan bir qədər uzundur və qapı açırımına malikdir. Xaç ortasının küncləri düzbucaqlı kapitelli kürəkilərlə tərtib olunmuşdur. Bir - birinin üstündən asılmış yarımdairəvi tağlara yuxarıda dairəvi qurşaq söykənir. Onun üstündə isə dövrümüzə çatmamış baraban və günbəz yüksəlirdi. Günbəzaltı məkandan günbəzə keçid vaxtilə konik tağ qıyacıları (paruslar) vasitəsiylə yerinə yetirilmişdir.

Altar hissə xaricdən üç pəncərə açırımı olan beşüzlü kimi həll olunmuşdur, xaçın digər qollarında da bir açırım vardır. Qolların örtməsi bayır tərəfdən orta hissədə yuxarıya qaldırıldığı üçün onlar bazilika siluetini təqlid edir. Yuxarı qaldırılmış bu hissənin altında, tağbəndlərin üstündə, qapalı kiçik yerləşgələr vardır. Tikilinin divarları butbeton doldurucu ilə təmiz yonulmuş iri əhəngdaşı – şirindaş bloklardan tikilmişdir. Pəncərələr xaricdən üç yarımlülə profilli haşiyə ilə tərtib olunmuşdur. Cənub qolunun qərb divarında dekorativ tağlı dərin taxça vardır.

Sərbəst xaç tipli xristian kilsələrinin genetik kökləri xaçvari bütpərəst sərdabələrə gedib çıxır. Maraqlıdır ki, yetkin orta əsrlər dövründə Azərbaycanın müsəlman türbələrinin memarlığında da xaçvari plan öz yerini tapmışdır. Bərdədə (XIV əsr), Sərifan (XIII əsr), Aşağı Veysəlli (XIV əsr) kəndlərindəki və s. Türbələrin yeraltı-sərdabələri xaçvari planda həll olunmuşdur.

**Aydınbulaq qülləsi**

Ağcaqala; Meydanqala; Qız qalası – Şəki rayonunun Aydınbulaq kəndinin şimalında qüllə.

Qüllə IX–XIII əsrlərə aiddir. Çay daşından dördkünc formada tikilib və üç mərtəbəlidir. Hündürlüyü 10.5 metrdir.

Quruluşca Abşeron qəsrlərinin düzbucaq planlı qüllə tipinə – Dördbucaqlı Mərdəkan və Ramana qəsrlərinin qüllələrinə bənzəyən tək bir abidə Şəkinin Aydınbulaq kəndi yaxınlığındadır. Küncləri dairəvi bürclərlə qapanan bu qüllənin içəridə (iç ölçüləri 4,50 x 4,50 m) taxta döşəmələrlə üç qata bölünməsinin izləri aşkarlanmışdır. Qüllənin həm divarları, həm də bürcləri yuxarıya doğru daralıb ensizləşir. El arasında bir neçə adı olan Aydınbulaq qülləsi ətrafında əvvəllər qapalı quruluşlu qala divarlarının olması ehtimalı var.

Geniş düzənliyin ortasında yarıuçuq vəziyyətdə yüksələn qüllə bu yerlərdən keçən karvan yolu üstündəki keşikçi qalasının son nişanəsidir. Çay daşından Şəkinin tikinti üslubunda ucaldılan Aydınbulaq qülləsinin Abşeron qüllələrindən seçilən özümlü və daha saya görünüşü var.

**Dairəvi məbəd**

Dairəvi məbəd, Nuxa Üçmüqəddəs kilsəsi və ya Nuxa Müqəddəs kilsəsi" – Şəki şəhərindəki Nuxa qalasında yerləşən ölkə əhəmiyyətli memarlıq abidəsi. Hazırda bu tikilinin içində Şəki Xalq Tətbiqi Sənət Muzeyi yerləşir.

Dairəvi məbədin əsas hisəsinin (artırmalarsız) üstü günbəzlə tamamlanır və bu ilkin hissə memarlıq üslubuna, tikintisində istifadə edilmiş inşaat materiallarının növünə görə qaladakı digər tikililərdən xeyli fərqlənir. Həmin səbəbdən də bəzi tədqiqatçılar onun tarixini Qafqaz Albaniyası dövrünə aid edirlər. Lakin XX əsrin ortalarında mütəxəssislər Nuxa qalası ərazisinə baxış keçirərkən bu qənaətə gəlmişlər ki, 6 ha ərazini əhatə edən qalanın içində məscid və Şəki xan sarayı istisna olmaqla, bütün tikililər rus dövrünə aiddir. Dairəvi məbəd XIX əsrin ən geci 1853-cü ildən XX əsrin əvvəllərinə qədər indiki Şəki şəhərində fəaliyyət göstərmiş yeganə pravoslav kilsəsi idi.

Kilsə binası təmiz yonulmuş əhəngdaşı ilə əvvəl dairəvi planda tikilmiş və üstü günbəzlə tamamlanmışdı. Sonralar isə ona üç tərəfdən çay daşı və kərpic hörgüsü ilə əlavələr edilərək genişləndirilmiş və o xaç formasına (yuxarıdan baxdıqda) salınmışdır. Bu iş 1853-cü ilə qədər baş vermişdir. Belə ki, Nuxa qalasının 1853-cü il planında artlq kilsə binası xaç şəklinə salınmış əlavələri ilə birlikdə göstərilir.


*Dairəvi məbəd*

Məlum olduğu kimi Nuxa qalasının divarları elə tikilmişdir ki, yuxarıdan baxdıqda adı ərəb əlifbası ilə "Məhəmməd... (xan)" kimi oxunur. Deyilənə görə bu oxunuşda kilsə binası ilkin dairəvi görkəmi ilə "Nun" hərfinin nöqtəsi imiş. Kilsənin ilkin dairəvi hissəsi memarlıq üslubuna və tikintisində istifadə edilmiş inşaat materiallarının növünə görə qaladakı digər tikililərdən xeyli fərqlənir. Ya ruslar bunu 1819-cu ildən sonra dairəvi formada kilsə kimi tikmiş və bir müddət sonra, 1853-cü ilə qədər onu daha da genişləndirərək xaç şəklinə salmışlar. Ya da bu tikili 1819-cu ilə qədər Nuxa qalasında mövcud olmuşdur, ruslar 1853-cü ilə qədər onu xaç formasına salaraq pravoslav kilsəsinə çevirmişlər.

Nuxa qalasının 1819-cu il təsvirində kilsə haqqında heç bir qeyd yoxdur. Lakin təsvirdə Nuxa qalasındakı bir çox tikililərin özləri və

koordinatları barədə məlumat verildikdən sonra, həm də qeyd edilir ki, "qaladakı Şəkinin rəhbərlərinə aid olmuş digər tikililər əsgərlər və xoylular tərəfindən tutulmuşdur". Bu qeyddən isə məlum olur ki, həmin vaxt qalada mövcud olmuş tikililərin bəziləri təsvirdə göstərilməyə də bilər və bu səbəbdən də, kilsənin 1819-cu ildə Nuxa qalasında mövcud olub-olmamasını təsvir əsasında dəqiqləşdirmək mümkün deyil.

Hal-hazırda keçmiş pravoslav məbədi "Dairəvi məbəd" adı ilə dövlət qeydiyyatındadır və ölkə əhəmiyyətli memarlıq abidəsi statusuna malikdir. Keçmiş kilsə binasının içində isə Şəki Xalq Tətbiqi Sənət Muzeyi yerləşir.

**Küdürlü kurqanları**
Şəki şəhərindən 18 km cənub-qərbdə, Küdürlü kəndi ərazisində yerləşən tarixi abidədir.

1980-ci ildə Yevlax-Balakən dəmir yolunun çəkilməsilə əlaqədar olaraq, yolun keçdiyi ərazilərin arxeoloji cəhətdən öyrənilməsinə başlanıldı. İ.F.Cəfərov tərəfindən aparılan axtarış-kəşfiyyat işləri nəticəsində Küdürlü kəndi ərazisində 7 kiçik kurqan aşkar olundu. 1983-cü ildən burada arxeoloqlar T.İ.Axundov, N.M.Muxtarov, Q.X.Ramazanov, İ.Q.Nərimanov qazıntılar apararaq kurqanların öyrənilməsinə başladılar. Bu tədqiqatçılar Küdürlü kəndində çoxlu sayda kurqan və yaşayış məskənini arxeoloji cəhətdən tədqiq ediblər.

**Nuxa qalası**
indiki Şəki şəhərindəki qaladır.

Şəki şəhəri 1969-cu ilə qədər "Nuxa" adlandığına görə bu qala da "Nuxa qalası" adı ilə məşhur idi. Hal-hazırda Azərbaycan Respublikası ərazisindəki salamat qalmış ən böyük orta əsr istehkamı olsa da, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Qala divarları" adı altında memarlıq abidəsi kimi inventarlaşdırılmışdır (inventar № 330).

Bəzi mənbələrə görə qala 1765-ci ildə tikilmişdir. Qala divarlarının ümumi uzunluğu 1300 m, şimal tərəfdəki divar 4 m hündürlüyündə, cənub tərəfindəki divar isə 8 m hündürlüyündədir. Qala divarlarının qalınlığı 2.2 m-dir. Qalanın cənub və şimal tərəflərdən iki darvazası və mühafizəsi üçün nəzərdə tutulmuş bürcləri vardır.

1825-ci ilə aid mənbədə göstərilir ki, qala divarları bişmiş kərpiclə tikilmişdir, lakin hal-hazırda divarlar əsasən çay daşından hörülmüş vəziyyətdədir. Firidun bəy Köçərlinin şəhadətinə görə, qalanın divarları elə tikilmişdir ki, yuxarıdan baxdıqda adı ərəb əlifbası ilə "Məhəmməd... (xan)" kimi oxunur. Xanlıq dövründə qalada xanın özü, ailəsi, qohumları yaşayırdılar. İndi "Şəki xan sarayı" adlanan bina isə o vaxt Divanxana idi. 1819-cu ildə ruslar Şəki xanlığını ləğv etdikdən sonra Divanxana Şəhər məhkəməsi (городской суд) adlandı. Qalanın 1819-cu ildə tərtib edilmiş təsvirində göstərilir ki, Divanxana və yanındakı hissə (alkov) (1-ci korpus), İsmayıl xanın anasına aid (2-ci korpus), arvadına aid (3-cü korpus) hissələr birlikdə Məhəmmədhəsən xanın evi idi və bu ev 3 tərəfdən mazğallı divarlarla, mazğallı bürclərlə əhatə olunmuşdu. 1-ci korpusun alkov hissəsi istisna olmaqla, bütün evi Məhəmmədhəsən xan tikdirmişdir. Alkov isə Cəfərqulu xanın dövründə tikilmişdi. Mə-



*Nuxa qalası*

həmmədhəsən xanın evi ilə yuxarı qapı arasında Hacı xana (Hacı Çələbi xan, yaxud Hacı Əbdülqadir xan?) aid 3 otaqlı ev və digər yardımçı tikililər, yuxarı qapının sağında isə onun bişmiş kərpiclə tikdirdiyi məscid vardı... 1819-cu ildən sonra qalada rus əsgərlərinin qalması üçün kazarmalar və digər təyinatlı binalar tikildi. 1828-ci ildə ruslar xanın şəxsi ev məscidini kiçik kilsəyə çevirdilər. Qalada hal-hazırda mövcud olan və "Dairəvi məbəd" adlanan tikili isə Şəki qəzası ərazisində yeganə pravoslav kilsəsi idi. Bu kilsənin arxasındakı torpaq sahəsində isə Nuxada vəfat etmiş rus məmurları dəfn olunurdu. Rəşid bəy Əfəndiyevin yazdığına görə qalanın 4 küncündəki 4 böyuk dairəvi bürcü də ruslar topdan atəş açmaq üçün tikmişdilər. 1895-ci ildə qalada türmə binası inşa edilmiş və bu, XX əsrin 60-cı illərinə qədər öz təyinatı üzrə fəaliyyət göstərmişdi.

1867-ci ildə çap olunmuş mənbədə göstərilir ki, qalada Şəki xan sarayından başqa, pravoslav kilsəsi və 14 bina mövcud olmuşdur.

Lakin XX əsrin ortalarında mütəxəssislər qala ərazisinə baxış keçirərkən bu qənaətə gəlmişlər ki, 6 ha ərazini ədatə edən qalanın içində məscid istisna olmaqla, Şəki xan sarayından başqa, xana aid heç bir tikili saxlanılmamışdır.

Nuxa qalasının adı Lev Tolstoyun məşhur "Hacı Murad" povestində də çəkilir. Belə ki, Şeyx Şamilin ruslara əsir düşmüş ən yaxın silahdaşlarından biri olan Hacı Murad 1851-1852-ci illərdə bu qalada saxlanılmışdı.

2014-cü ilin əvvələrindən qaladakı müxtəlif təyinatlar üzrə istifadə edilən tikililərin əksəriyyəti həmin təşkilatlardan (xəstəxanalar və s.) boşaldılmışdır. Məqsəd həmin tikililərin təmiri və bərpasıdır.

**Bideyiz kilsəsi**

Şəki rayonun Bideyiz və Baş Küngüt kəndləri yaxınlığında yerləşən alban kilsəsidir. Kilsə şirindaşdan inşa edilmişdir. Yarımdağılmış vəziyyətdə olan kilsə vaxtilə yarımdairəvi tağ formalı örtüyə malik olmuşdur. Kilsənin interyeri arka və nişlərlə bəzədilmişdir. Apsidanın şimal tərəfində kiçik köməkçi tikili yerləşir. IV-V əsr alban kilsələri üçün xarakterik olan bu xüsusiyyət Bideyiz kilsəsini Azərbaycan ərazisindəki digər alban kilsələri – Mingəçevir və Govurqala məbədləri ilə yaxınlaşdırır.

**Yuxarı Karvansara**

Şəki şəhərinin Mirzə Fətəli Axundov küçəsində yerləşir.

Gürcənçayın qövsvari sahilində bir sıra obyektlər-şəhərin biznes mərkəzi olan Yuxarı və Aşağı Karvansaralar yerləşir. Karvansaralar feodal Şərqin labüd hissəsi olub, bura gəlib-getmiş bütün tarixçi və səyyahlar həmişə Azərbaycan haqqında danışarkən karvansaralara ayrıca yer ayırmış, çox vaxt isə onları təsvir etmişlər.

Ərazisindən Böyük İpək Yolunun keçdiyi Azərbaycanın ən qədim sənətkarlıq, ipəkçilik və ticarət şəhəri olan Şəki karvan yolları vasitəsilə digər xanlıqların və bir çox xarici ölkələrin ticarət mərkəzlərini özündə birləşdirirdi. Əlbəttə ki, belə bir təbii-coğrafi və strateji şəraitə malik şəhərdə karvansaraların olmaması mümkün deyildir.

XVIII-XIX əsrlərdə şəhərdə inşa edilmiş karvansara binaların təkcə karvanların və səyyahların qalması üçün deyil, həm də müxtəlif ticarət əməliyyatlarının aparılması üçün də nəzərdə tutulurdu.

Özünün böyüklüyü və ticarət üçün əlverişliliyi ilə bütün Zaqafqaziyada məşhur olan Yuxarı Karvansara XVIII-XIX əsrlərdə Şəkidə olan 5 böyük karvansaradan (“İsfahan”, “Təbriz”,



*Yuxarı Karvansara*

"Ləzgi", "Erməni", "Təzə Karvansara") dövrümüzə qədər gəlib çatmış iki karvansaradan biridir. Digəri – Aşağı Karvansara.

XVIII əsrə aid olan hər iki abidə yerli ustalar tərəfindən tikilmişdir. Bu abidələr həm tikiliş həm də şərait baxımından çox rahat və gözəl olub, iri miqyaslı sövdələşmələrin, alış-verişlərin aparılması üçün əlverişli şəraitə sahib olmuşdur.

Ümumi sahəsi 6000 kvadratmetr olan Yuxarı Karvansaraya Şəki memarlığı üçün səciyəvi olan kərpic və çay daşının birlikdə işlədilməsi xüsusi kalorit verir.

Tikili relyefə uyğun olaraq küçəyə baxan hissədə 14 metr, içəri üzdən isə 8 metr hündürlükdə inşa edilmişdir. 300-dən artıq otaq və zirzəmidən ibarət olan karvansaranın 2 giriş darvazası vardır. Bina üç mərtəbəlidir. Tacir öz malını zirzəmiyə yığar, birinci mərtəbədə alver edər, ikinci mərtəbədə yaşayardı.

Darvazaların içəri hissəsinin tavanı kərpicdən tağlı günbəzlərdir. Yaxın Şərqdə ən böyük kərpic tağlı günbəzlərdən biri sayılan əsas girişin zəngin bəzənmiş tağı relyefin çox mailliyi üzündən binanın küncündə, üçüncü mərtəbə səviyyəsində inşa edilmişdir.

Sadə həyəti, tağbəndlərlə örtülü eyni ölçülü hücrələri, həyət eyvanları, hovuz və onları əhatə edən yaşıllıq karvansaranın ümumi kompozisiyasını tamamlayır.

Bu günə kimi öz gözəlliyini, memarlıq üslubunu qoruyub saxlayan və hazırda mehmanxana kimi istifadə olunan Yuxarı Karvansara Şəkinin zəngin maddi və mənəvi irsə malik bir şəhər olmasının bariz nümunəsidir.

**Aşağı Karvansara**

Şəki şəhərinin Mirzə Fətəli Axundov küçəsində yerləşir.

Aşağı Karvansara tarixi abidənin XVI-XVIII əsrlərə aid olunmağı da iddia olunur. Hal-hazırda tikilinin təxminən 35-40 faizi itirilmişdir.

Özünün ümumi sahəsinə görə Yuxarı Karvansaradan bir qədər böyük olan Aşağı Karvansara küçəyə



*Aşağı Karvansara*

baxan hissədə 12 metr, şərq və qərb tərəfdə isə 10 metr hündürlükdədir.

8000 kvadratmetrlik bir ərazini əhatə edən Aşağı Karvansaranın 242 otağı və dörd giriş darvazası vardır. Bu karvansara da həmçinin şəkili sənətkarlarin özünəməxsus memarlıq üslubu özündə əks etdirir.

Cənub-şərq hissədə üç, həyət tərəfdə isə iki mərtəbəli olan karvansaranın baş fasadı çaya baxır. Bu isə binaya sakitlik və fəravət bəxş edir.

Karvansaranın fasadı horizontal bölümlərlə səciyyələnir, onlar divar müstəvisini tağlı pəncərələrlə tərtib olunmuş üç yarusa ayırır, pəncərələrin tağları şəklinə görə bir qədər fərqlənir.

Tağlı eyvan aşırmaları ilə dövrəyə alınmış həyətin mərkəzində hovuz yerləşir.

Karvansaranın tikintisi zamanı uzaq ölkələrdən gələn tacirlərin rahatlığı, özünün və malının təhlükəsizliyi üçün hər şey nəzərə alınmışdır. Darvazalar qonaqpərvərliklə yolçuların və tacirlərin üzünə açılsa da, bağlandıqda alınmaz bir qalaya çevrilir. Bu isə bir daha Şəki sənətkarlarının nə qədər yüksək dünyagörüşünə, əvəzsiz zövqə, müqayisəsiz memarlıq üslubuna, maddi və mənəvi dəyərlərə malik olduqlarını təsdiqləyir.

# V



**Vəkilov**
**Sənan**
**Sahib oğlu**

1975-ci il fevral ayının 16-da Qazax rayonu Yuxarı Salahlı kəndində anadan olmuşdur. 1992-cı ildə Yuxarı Salahlı kənd orta məktəbini bitirmiş, 1997-ci ildə isə Azərbaycan İnşaat Mühəndisləri Universitetinin "Sənaye və mülki tikinti" ixtisasına yiyələnmişdir.

Sənan Vəkilov 1997-ci ildə əmək fəaliyyətinə fəhləlikdən başlamış, 1997-1999-cu illərdə Bakı şəhər "20 saylı ixtisaslaşmış tikinti idarəsi"ndə 2-ci və 3-cü dərəcəli rəngsaz işləmişdir. 1998-1999-cu illərdə Azərbaycan ordusunda həqiqi hərbi xidmətdə olmuşdur.1999-2001-ci illərdə qısa fasilə ilə "Стандарт" şirkətində əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə mühəndis və tikinti mühəndisi vəzifələrində çalışmışdır.

O, 2000-ci ildə 4-5 ay müddətində ,,Erol-FN" EİF müəssəsinin sahə rəisi vəzifəsini yerinə yetirmişdir. 2002-2003-cü illərdə ,,Tikinti Servis LTD" MMC şirkətində mühəndis işləmişdir.

Sənan Vəkilov 2004-2010-cu illərdə tikinti sahəsində böyük iş təcrübəsi olan "Bakı Dövlət Layihə İnstitutu"nun baş konstruktoru, texnika üzrə fəlsəfə doktoru Poluxov Nazim Şamil oğlunun rəhbərliyi altında özəl şirkətlərdə konstruktor kimi işləmiş, böyük iş təcrübəsi qazanmışdır. Bu illər ərzində onlarla yüksək mərtəbəli yaşayış binaları, sənaye, istehsalat, bağça və məktəb binalarının konstruktiv layihələrini yerinə yetirmiş, tikintisinə nəzarət etmişdir.



*Ağdam Muğam evi*



*Bakı şəhəri, Həsən Əliyev prospekti, 7a ünvanında yüksək mərtəbəli yaşayış binası*

2010-2012-ci illərdə Tikilən Obyektlərin Birləşmiş Müdriyyəti "Azərbərpa" Elmi Tədqiqat Layihə İnstitutunda Lahiyələndirmə və ekspertiza şöbəsində, 2012-2014-cü illərdə "Expert Architect Desing" MMC-də baş konstruktor vəzifəsində işləmişdir.

Sənan Vəkilov 2012-ci ildə ISO 9001 ISO 14001 OHSAS 18001 (Integrated) Internal Auditor Course sertifikatını almışdır.

2015-2017-ci illərdə "ARCHITECT WORLD" MMC-də konstruktor vəzifəsində işləyərək bir çox yüksək mərtəbəli binaların konstuksiya layihələrini yerinə yetirmişdir. "Kristal Abşeron" Tikinti Şirkətinin Sumqayıt şəhər dənizkənarı bulvarda tikdiyi 8 mərtəbəli yaşayış binaları kompleksinin, Bakı şəhərində



*Goranboy şəhəri, Civəzadə küçəsi, 17 ünvanında yaşayış binası*

Həsən Əliyev prospekti 7a ünvanında 16 mərtəbəli yaşayış binasının, Xətai rayonunda yerləşən Yeni Azərbaycan Partiyasının baş ofsinin, Ağdam rayonunda Muğam evinin, Goranboy şəhəri, Civəzadə küçəsi 17 ünvanında yaşayış binasının konstruksiya layihəsini yerinə yetirmişdir.

Sənan Vəkilov 2017-ci ildə "HİMMEN CONSTUCTİON" MMC-ni təsis etmişdir. Hal-hazırda həmin müəssisənin baş konstruktoru vəzifəsində çalışır.

O, Azərbaycan Memarlıq və İnşaat Universitetinin doktorantı kimi elmi işlə də məşğul olur. "Müxtəlif dinamiki yüklərin svay özül konstruksiyalarına təsirinin tədqiqi" mövzusunda texnika üzrə fəlsəfə doktoru dissertasiyasını yazır.

Ailəlidir, iki övladı var.



*YAP-ın baş ofisi*



*Sumqayıt şəhəri, dəniz kənarı bulvarda 8 mərtəbəli yaşayış binası*





*"Zaqatala" hava limanı*
*("AzVirt" MMC)*

# Z



**Zeynalova Könül Elman qızı**

10 oktyabr 1986-cı ildə Ağsu şəhərində anadan olmuşdur. 1993-cü ildə Qazaxıstan Respublikasının Manqistau vilayətinin Aktau şəhərində 17 saylı orta məktəbin birinci sinfinə getmiş, 1994-1997-ci illərdə Ağsu şəhərində 3 saylı orta məktəbdə, 1998-2004-cü illərdə Qazaxıstan Respublikasının Manqistau vilayətinin Aktau şəhərində 15 saylı orta məktəbdə təhsil almış və burada orta məktəbi bitirmişdir. 2004-2008-ci illərdə Ş. Esenov adına Aktau Dövlət Universitetinin "Neft və Qaz" İnstitutunun "Üzvü maddələrin kimyəvi texnologiyası" fakültəsində "Mühəndis-Texnoloq" ixtisası üzrə bakalavr təhsili almış və institutu fərqlənmə diplomu ilə bitirmişdir. 2008-2010-cu illərdə Ş. Esenov adına Aktau Dövlət Universitetinin "Neft və Qaz" İnstitutunun "Üzvü maddələrin kimyəvi texnologiyası" fakültəsində "Mühəndis-Texnoloq" ixtisası üzrə magistratura dərəcəsini almışdır.

Əmək fəaliyyətinə 2011-ci ildən Ağsu şəhərində yerləşən "Az-Granata" MMC Şirə və Şərab emalı zavodunda Keyfiyyətə nəzarət şöbəsində Ekokimya laborantı vəzifəsində başlamışdır.

2014-cü ildən hal-hazıradək ISO 9001:2015 Keyfiyyəti İdarəetmə Sistemi, ISO 14001:2015 Ətraf Mühiti İdarəetmə Sistemi və İSO 45001:2018 Əməyin Mühafizəsi və Təhlükəsizliyi İdarəetmə Sisteminin tələbləri ilə çalışan "SMTS" MMC-də Kadrlar Departamentinin meneceri, indiki adı İnsan Resursları Departamentinin meneceri vəzifəsində çalışmışdır. "SMTS" MMC-də çalışdığı müddət ərzində Əmlak Məsələləri Dövlət Komitəsinin 33 mərtəbəli İnzibatı Binası "Property Tower Baku", "Baku Tower" 50 mərtəbəli Biznes Mərkəzi, "Kapital Bank" ASC-nin İnzibati binası", ""Azadlıq 3" Mansarda sahəsi", "Hillside Apartments" layihələrində fəaliyyət göstərmişdir.

Könül Zeynalova paralel olaraq layihələndirmə şirkəti olan "AFF Project Group" MMC-də İnsan Resursları üzrə mütəxəssis vəzifəsində çalışmaqdadır.

Ölkə üzrə keçirilən bir çox seminarlarda iştirak etmiş və İnsan Resursları sahəsində keçirilən təlimləri uğurla başa vurmuşdur.

Subaydır, ailə üzvləri ilə birlikdə Bakı şəhərində yaşayır.



**Zeynalova Şəfiqə Mikayıl qızı**

Azərbaycan tarixində respublikanın əməkdar memarı fəxri adına layiq görülmüş ilk qadın memar olmuş, təkcə maraqlı memarlıq layihələrinin müəllifi kimi yox, həm də möhkəm, sarsılmaz xüsusiyyətləri özündə birləşdirən şəxsiyyət kimi yadda qalmışdır.

Şəfiqə Zeynalova 26 iyun 1922-ci ildə Azərbaycan ziyalılarının ailəsində dünyaya göz açmışdır. Onun atası Mikayıl Zeynalov Sövet hakimiyyətinin qəti əleyhdarı idi. O, öz prinsipləri və həyati baxışlarına görə 1937-ci ildə Stalin repressiyasının qurbanı oldu. Mikayıl Zeynalov bir neçə il, ömrünün sonunadək həbsxanada oldu. Amma bu ona doğmaları ilə əlaqə saxlamağa və üç qızının taleyində iştirak etməyə mane olmadı.

Zeynalovlar ailəsi çox çətin vəziyyətə düşdü. Ailənin maddi rifahdan məhrum olduğu həmin günlərdə Şəfiqənin çox sevdiyi dayısına da haqsız olaraq "xalq düşməni" yarlığı vuruldu. 1942-1943-cü illərdə orta məktəbdə riyaziyyat müəllimi işləyən Şəfiqənin memar olmasını, M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olmasını məhz o məsləhət görmüşdü.

Şəfiqə Zeynalova ali məktəbi bitirəndən sonra əmək fəaliyyətinə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında memar kimi başladı.

Onu xatırlayan həmkarlarının dediyinə görə, Şəfiqə Zeynalovanın qəlbində sovet hakimiyyətinə, xüsusilə Azərbaycanda azərbaycanlıların milli mentalitetinə və mədəniyyətinə yad olan cəhətləri daxil etmək cəhdinə qarşı etiraz vardı. Zaman keçdikcə həmin cəhətlər – özünün milli özünəməxsusluğunu qabartmaq – onun memarlıq layihələrində də nəzərə çarpmağa başladı.

Şəfiqə Zeynalova işlədiyi layihələri rəhbərliyə təqdim etməzdən əvvəl daim axtarışlar aparır, tapdıqlarını milli koloritlə canlandırmağa çalışırdı. Bununla yanaşı, o, yalnız zahiri elementlərlə, məsələn, daş üzərində oyulmuş milli naxışlar və freskalarla kifayətlənmirdi. Şəfiqə xanım qədim Azərbaycan memarlıq tikililərinə dair əsərləri öyrənir, bu yolla memarlıq abidələrinin tikilişinin forma və quruluşunu, məkan kompozisiyasını dərk etməyə çalışırdı.

Şəfiqə Zeynalova tez-tez deyirdi ki, qədim Azərbaycan mədəniyyət abidələrinin əsas cəhəti onların zahiri görünüşləri yox, mürəkkəb daxili quruluşlarıdır.

Şəfiqə Zeynalovanın həyata keçirilmiş ilk layihəsi uşaqlara həsr olunmuşdur. 1946-1948-ci illərdə tikilmiş Uşaq dəmir yolu ("Gənclik" metrosu rayonunda, Zooparkın yanında yerləşirdi, indi sökülüb) memarın sevdiyi işlərdən biri idi. O, uzun illərdən sonra artıq tikilmiş və uşaqlara, onların valideynlərinə sevinc bəxş edən dəmir yolu estakadasının yaınndan keçəndə qəlbi qürur hissi ilə aşıb-daşırdı.

Ş. Zeynalova 1945-1949-cu illərdə "Azərdövlətlayihə" İnstitutunda fəaliyyətini davam etdirdi.

O, 1946-cı ildə SSRİ Memarlar İttifaqı üzvlüyünə qəbul edildi.

Şəfiqə Zeynalova 1949-1952-ci illərdə Moskva Memarlıq İnstitutunun Me-

marlıq təkmilləşdiilməsi fakültəsinin dinləyicisi oldu. O, Moskva Memarlıq İnstitutunu bitirmiş ilk azərbaycanlıdır.

O, Moskvada təhsilini başa vurandan sonra 1952-ci ildə "Azərdövlətlayihə" İnstitutundakı işinə qayıtdı və ömrünün axırınacan orada çalışdı.

O, qısa ömründə bu gün də şəhərimizin sakinlərini və qonaqlarını sevindirən çoxlu binaların layihəsini işləyib hazırlamış və tikintisinə rəhbərlik etmişdir.

"Bakı Soveti" (indi yenidən qurulmuş və "İçərişəhər" adlandırılmışdır) metro stansiyasının, Tarix arxivinin, Sənaye Nazirliyinin binaları, Bakı, Sumqayıt, Mingəçevir, Lənkəranda yaşayış binalarının, eyni zamanda Sevil Qazıyeva, Mikayıl Müşfiq, Həzi Aslanovun heykəllərinin layihəsi və digər işlər onun peşəkarlığının, böyük və məsuliyyətli fəaliyyətinin nəticəsidir. Ş.Zeynalovanın layihələri incə zövqü, düzgün tapılmış miqyası və memarhq həllinin yeniliyi ilə fərqlənir.

Dəmirdən və şüşədən ucaldılmış ilk 17 mərtəbəli göydələnlərdən biri məhz Lüdviq Mis Van Der Roenin yaradıcılığından ilham alan Şəfiqə Zeynalova tərəfindən düşünülmüşdür. Bina "Nizami" metro stansiyasının yaxınlığında, “Azad qadın” heykəlinin arxa tərəfində yerləşir.

Ş. Zeynalova Şıx çimərliyi yaxınlığında ucaldılmış Xəzər bioloji stansiyası binasının layihə müəllifidir. Layihə bəyənilsə də, gerçəkləşdirilməmişdir. Bu təkcə Cənubi Qafqazda deyil, bütün SSRİ-də balıq və digər dəniz heyvanları yetişdirmək üçün ən böyük və müasir stansiya olmalı idi. Memarın ideyasına görə, binalar kompleksinə laboratoriya, istehsalat korpusu, hətta delfinlərin buraxılması nəzərdə tutulmuş nəhəng hovuz və akvarium daxil olmalı idi. Bundan başqa orada dəniz faunası muzeyi açmaq və mehmanxana tikmək də planlaşdırılmışdı.

Memar Şəfiqə Zeynalovanın son əsərləri indi Azərbaycan Republikası Xarici İşlər Nazirliyinin yerləşdiyi binanın və Bakı Dəmiryol Vağzalının binasının layihəsidir. 28 Aprel (indi 28 May) küçəsi onun peşəkar karyerasının zirvəsi olmalı idi. Memar həmin küçədə çoxmərtəbəli binaların tikilməsi üçün layihələr hazırlamaq barədə düşünürdü.

Amma ağır xəstəlik ona düşündüklərini həyata keçirməyə imkan vermədi.

Şəfiqə Zeynalova 11 may 1979-cu ildə, 57 yaşında vəfat etmişdir.

## Zaqatala rayonunun tarixi abidələri

**Çingizqala** – Azərbaycanın Zaqatala rayonu ərazisində qala. Xalq arasında daha çox Cingözqala adı ilə tanınıb. İlkin görünüşünü saxlayan qala dördkünc planda inşa edilib. İnşa tarixi naməlum olan qalanın gözətçi məntəqəsi olduğu güman edilir.

Yerli əhali tərəfindən Çingizqala adlanan bu abidə Zaqatala rayonun Car kəndinin bir neçə km-də yerləşmişdir. Bərk daşlardan tikilmiş bu qalanın planı daxildən və xaricdən düzbucaqlıdır. Qala 3 mərtəbədən ibarət olmuşdur. İndi mərtəbələrin arxası taxta döşəmələr ilə kəsilmişdir. Hər mərtəbədə yuxarıda olan mağazalar qalanın müdafiə xarakterinə mailk olduğunu göstərir.



*Çingizqala*

Kitabənin xəttinə əsaslanaraq qalanın tikilmə tarixini XIII əsrə aid etmək olar. Qala bərk daşdan tikilmiş hasarla əhatə olunmuşdur.

Kitabələrin biri belədir: "Doğurdan da bu qalanın tikilməsinə qadir Allahın rəhmətinə möhtac olan Çingiz oğlu Murtuza Əli 1175-ci ilin əvvəlində başladı".

Qala hasarlarının birinin üzərində yazılan kitabənin mətni belədir: "Bu qala hasarını Hüseyn oğlu Hacı və ev sahibi İbrahim oğlu Tuba tikmişdir. Allah onların günahlarını bağışlasın".

Çingizqalanın XIII əsrdə təmir edilməsi təsadüfi deyildir. Belə istehkamlar orta əsrlərdə feodallara bir-birinin hücumundan, kəndli üsyanından, xarici iğtişaşlardan qorunmaq üçün lazım idi. Nadirin Azərbaycana yürüşü zamanı Car və Tala əhalisinin istehkamlarının məhz Cingiz qala olduğu güman edilir.



*Ləkit məbədi*

**Ləkit məbədi** – Qax rayonunun Ləkit kəndinin 1 km uzaqlığında yerləşən qədim alban məbədi. İnşaat texnikası baxımından mütəxəssislər kilsənin inşa tarixini IV–VI əsrlərə aid edirlər. Məbədin təqribən IV əsrdə Albaniya hökmdarı III Mömün Vaçaqanın hakimiyyəti dövründə kilsəyə çevrildiyi güman edilir.

Məbədin dairəvi divarları xaricdən pilyastrlar vasitəsilə 28 hissəyə bölünür. Ləkit kilsəsində daxili məkanın təşkili də xüsusi diqqət cəlb edir. Bu pilonlar günbəz və barabanı saxlamaqla yanaşı, həm də tetrakonxun hər eksedrası üç sütun vasitəsilə formalaşdırılmış künclərini vurğulayır. Bu sütunlar kvadrat formalı özüllər üzərində durmaqla hər biri bir metr diametrə malik olmuşdur.

İnşaat texnikası baxımından mütəxəssislər kilsənin inşa tarixini IV–VI əsrlərə aid edirlər. Ləkit məbədi Cənubi Qafqaz tetrakonxlarının təşəkkül tapması üçün əsas olmuşdur. Kilsə qədim zərdüşt məbədi əsasında yaradılmışdır. Məbədin elmi cəhətdən öyrənilməsi və bərpa işləri XX əsrin 40-cı illərində P.D.Baranovskinin rəhbərliyi ilə aparılmışdır. Məbədin ətrafı meşəlikdən təmizlənmiş və dağılmaqda olan divarlardan biri möhkəmləndirilmişdir.

Məbədin təqribən IV əsrdə Albaniya hökmdarı III Mömün Vaçaqanın hakimiyyəti dövründə kilsəyə çevrildiyi güman edilir. Belə ki, Moisey Kalankatlı məhz bu hökmdarın dövründə Albaniyada xristianlığın geniş təbliğ edilməsi, digər dinlərin isə təqib edilməsi haqqında məlumat verir. Belə bir dövrdə Qafqaz Albaniyasında bir çox əski dinlərə məxsus məbədlər xristian elementləri əlavə edilərək kilsələrə çevrilirdilər.

Mütəxssislər müəyyən etmişlər ki, Ləkit məbədi kilsəyə çevrilərkən onun əsas memarlıq quruluşuna

toxunulmamış (özündə güclü bütpərəstlik elementləri əks etdirməsinə rəğmən), yalnız xristian dininin ehkamlarına uyğun olaraq səcdəgah əlavə edilmişdir.

Məbədin tikilmə tarixi haqqında isə müxtəlif tədqiqatçılar fərqli fikirlər söyləmişlər. Rus alimi P. D. Baranovski məbədi VII əsrə aid edir. K. M. Məmmədzadə isə Ləkit kilsəsinin Kilsədağ kilsəsindən sonrakı dövrdə, təxminən VI əsrin ortalarında inşa edilməsini qeyd edir.

Ləkit dairəvi məbədi Cənubi Qafqazın ən qədim dolama hissəli tetrakonxlarından biridir. Ləkit məbədindən əvvəl Qafqaz Albaniyasında artıq dairəvi məbədlərin inşa ənənəsi var idi. Həmin dövrdə inşa edilmiş dairəvi kilsələrdən ikisi – Kilsədağ və Mamrux kilsələri xaraba formasında dövrümüzə çatmışdır. Bunlar 10.40 və 10.70 m daxili diametrə malik məbədlər idi. Lakin, xristianlığın geniş yayılması daha böyük məbədlərin inşasını tələb edirdi. Çoxsaylı dini abidələrlə zənginliyinə görə Qafqaz Albaniyasının şimal-qərb hissəsində xüsusi əhəmiyyətli ərazi olması güman olunan Ləkitdə kilsə inşa edən memarın qarşısında da belə bir tələb qoyulmuşdu.

Ərazinin seysmik aktivliyə malik olması tikilinin günbəzinin diametrinin genişləndirilməsi imkanını məhdudlaşdırmaqla, daxili həcmin genişləndirilməsi imkanlarını daha da çətinləşdirirdi. Buna görə də daxili strukturun xaçvari həlli, məbədin konstruktiv və kompozisiya quruluşuna daha uyğun gəlirdi. Tağvari örtüyün tətbiq edilməsi ilə məbədin mərkəz hissəsində daha əlverişli konstruktiv imkan yaradılmış və bu da lazımi ölçüdə günbəzin inşa edilməsində böyük rol oynamışdır. Bununla yanaşı, xaçvari quruluşun xristianlıq üçün ideya-məna və simvolik əhəmiyyətini də nəzərə almaq lazımdır.

Ləkit dairəvi məbədi Qax rayonunun Ləkit kəndinin cənubunda, fındıq ağacları ilə zəngin yüksəkliyin kənarında yerləşir. Xarabalıqlar, bir zamanlar əzəməti ilə diqqət çəkmiş məbədin plan quruluşunu dəqiq müəyyənləşdirməyə imkan versə də, onun yuxarı mərtəbələrinin quruluşunu haqqında bu və ya digər dərəcədə əsaslandırılmış nəzəriyyələr mövcuddur. Digər dairəvi alban məbədləri kimi, Ləkit kilsəsi də xaricdən dairəvi formaya malik divarlara malikdir. Lakin, sələflərindən fərqli olaraq, onun diametri daha böyük olmaqla 18.8 metrə bərabərdir.

Məbədin dairəvi divarları xaricdən pilyastrlar vasitəsilə 28 hissəyə bölünür. 1.4 metr enə malik divarlar daxildən bir-birindən 3 metr məsafədə yerləşdirilmiş 20 yarımdairəvi sütun vasitəsilə dəstəklənir. Kilsənin şərq tərəfində iki kiçik yan otağı yerləşir. Digər dairəvi alban kilsələrində olduğu kimi, Ləkit kilsəsində də yan otaqlar kilsənin əsas binasına kənardan birləşən strukturlar kimi inşa edilmişdir. Kilsədağ və Mamrux kilsələrində kiçik yan otaqlar məbədin əsas binasının formasını təkrarlasalar da, Ləkit kilsəsində onlar daha yetkin forma alaraq, müstəqil apsidaya malik tikililər şəklində inşa edilmişdir. Həmçinin onların binanın ümumi konstruksiyasında oynadıqları rol da dəyişmişdir.

Ləkit kilsəsində daxili məkanın təşkili də xüsusi diqqət cəlb edir. Ümumilikdə həcmlərin ətrafında qruplaşan bütün kompozisiya mili, Mamrux məbədində olduğu kimi, planda daxilləri kəsilmiş dördkünc formaya malik olan və yarımdairəvi profillərlə tərtib edilən dörd ədəd pilonun köməyi ilə yaradılmışdır. Bu pilonlar günbəz və barabanı saxlamaqla yanaşı,

həm də tetrakonxun Hər eksedrası üç sütun vasitəsilə formalaşdırılmış künclərini vurğulayır. Bu sütunlar kvadrat formalı özüllər üzərində durmaqla hər biri bir metr diametrə malik olmuşdur. Digər Cənubi Qafqaz və Bizans dairəvi tetrakoxlarından fərqli olaraq Ləkit kilsəsində eksedraların cüt olmayan sütun sayı da diqqət cəlb edir. Bununla yanaşı orta sütun düz əsas giriş qapısının qarşısında yerləşməklə qapı qədər enə malikdir. D.D. Axundov məbədin bu xüsusiyyətini mərkəzi ibadətgah hissəsinin xaricdən görünməməli olmasına əsaslanan qədim politeist ənənəsi ilə izah edir. G.Məmmədova isə qeyd edir ki, ola bilsin ki, binada cüt olmayan sütun sayı tələb edən konstruktiv tələblər də olmuşdur.

Tetrakonxun dairəvi məbəd kompozisiyasına uyğunlaşdırılması dairəvi məbədlər üçün yeni bir problem – qeyri-ənənəvi genişlik əldə etmiş dolama hissənin dam örtüyünün həll edilməsi – yaratmışdır. Bu problemin həll edilməsi üçün hər pilonun raxasında bir sütun yerləşdirilmişdir. Ekserin sütunları ilə birlikdə onlar səkkizbucaqlı fiqur formalaşdırırdılar ki, bu fiqur üzərində də dolama hissənin çatmatağ tavanı dayanırdı.

**Mamrux məbədi** – Qax rayonunun Güllük və Zaqatala rayonunun Mamrux kəndləri yaxınlığında Armatay dağının zirvəsində inşa olunmuş qədim alban kilsəsi. Bəzi tədqiqatçıların fikrincə, kilsə Ay və Günəş tanrıları məbədi əsasında inşa edilmişdir.

Mamruxdakı məbəd mütəxəssislər tərəfindən, kompozisiya baxımından Kilisədağdakı rotonda (dörd tərəfi bərabər olan bina) ilə Qax rayonunun Ləkit kəndindəki tetrakonx arasında bilavasitə vəsilə kimi qiymətləndirilir. Kilsənin kiçik yan otaqlarla əhatə olunmuş altar hissəsi daha yaxşı saxlanmışdır. Lakin, digər hissələrin divar qalıqları da ən azı yerdən bir metr hündürlüyə qalxır.

Məbədin planlaşdırma strukturu onu, üçyaruslu məkan kompozisiyası ilə təmin edir. Mamrux məbədinin kompozisiya özəlliyini kvadratşəkilli günbəzaltı məkan təşkil edir və bu, onunla Kilsədağ məbədi arasındakı prinsipial fərqi müəyyən edir. Dörd əzəmətli pilon sütunları əvəz etmişdir, onlardan xarici divarlara doğru geniş ölçülü tağlar salınmışdır.

Məbədin təqribən IV əsrdə Albaniya hökmdarı III Mömün Vaçaqanın hakimiyyəti dövründə kilsəyə çevrildiyi güman edilir. Belə ki, Moisey Kalankatlı məhz bu hökmdarın dövründə Albaniyada xristianlığın geniş təbliğ edilməsi, digər dinlərin isə təqib edilməsi haqqında məlumat verir. Belə bir dövrdə Qafqaz Albaniyasında bir çox əski dinlərə məxsus məbədlər xristian elementləri əlavə edilərək kilsələrə çevrilirdilər.

Məbədin planlaşdırma struktur və həcm-məkan



*Mamrux kilsəsinin qalıqları*

həllini tədqiq edən mütəxəssislər onun inşa tarixini IV-V əsrlərə aid edilər.

Mamrux kilsəsinin memarlıq xüsusiyyətləri Cənubi Qafqaz və Yaxın Şərqin mərkəzi günbəzli tikililəri üçün xarakterik xüsusiyyətlərə malikdir. Ətraf ərazilərdə səpələnmiş daş divarların hörgü qalıqları bir zamanlar bu ərazidə böyük bir dini kompleksin mövcudluğundan xəbər verir. Monastır kompleksindən dövrümüzə məbədin qalıqları, kompleksi əhatə edən qala divarlarının qalıqları, və üç dairəvi plana malik qüllə – kontrfors çatmışdır.

Kilsənin kiçik yan otaqlarla əhatə olunmuş altar hissəsi daha yaxşı saxlanmışdır. Lakin, digər hissələrin divar qalıqları da ən azı yerdən bir metr hündürlüyə qalxaraq, abidənin planının müəyyənləşdirilməsini təmin edir. Cənub, şimal və qərb tərəfdən girişə malik olan əsas dairəvi kilsə binasına şərq tərəfdən altar hissəsi birləşir.

Məbədin girişləri dərin, hündür portallar şəklində həll edilmişdi. Kilsədağ və Ləkit dairəvi məbədlərindən fərqli olaraq, Mamrux məbədinin memarı fərqli yolla gedərək yan otaqlar və əsas kilsə binasının şərq divarı arasındakı hissəni də divarla hörürək əlavə iki otaq da yaratmışdır. Bu otaqlar funksionallığı ilə yanaşı həm də struktur baxımından da mühüm əhəmiyyətə malik olmaqla konstruktiv təzyiq daşımış, binanın əsas kütləsinə birləşən iki kənar hissəni də vahid həcmdə birləşdirmişdir. G. Məmmədova hesab edir ki, bu, məbədin yerləşdiyi ərazinin yüksək seysmik aktivliyini nəzərə alan memarın tikilini daha davamlı və kompakt etmək cəhdinin göstəricisidir.

**Pəriqala –**
Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndində yerləşən qədim qala. İlkin görünüşü saxlanaraq dövrümüzə qədər gəlib çata bilmişdir.

Qala strateji baxımdan çox mükəmməl yerdə tikilmişdir. Qalaya sıldırım qaya yolları ilə yalnız bir yol gedir. Qalanın dəqiq tikilmə tarixi bəlli deyil. Ancaq tikilmə üslubuna görə tədqiqatçılar qalanın Qafqaz Albaniyası dövründə inşa edildiyini güman edirlər.

Tarixən bir çox xalqlar yadellilərin hücumundan qorunmaq üçün yaşadıqları ərazinin ətrafına sədd çəkmişlər. Azərbaycanın müxtəlif bölgələrində də müdafiə məqsədilə tikilmiş sədlərə – istehkam qalalarına və ya onların qalıqlarına rast gəlmək olar. Dağ və ya qaya zirvələrində yerləşən bu qalalar düşməni uzaqdan görə bilmək üçün inşa edilirdi. Şəhərə gələn yolları nəzarətdə saxlamaq və düşmən həmlələrini dəf etmək üçün qala divarları üzərində bürclər tikilirdi. Qalanın giriş qapıları daim keşikçilər tərəfindən qorunurdu. Azərbaycanda yalnız dağlıq ərazilərdə deyil, həm də dənizə yaxın yerlər-



*Pəriqala*

də tikilmiş qalalar var. Belə qalalara misal olaraq 12-14-cü əsrlərdə Abşeronun kəndlərində tikilən Mərdəkan qalasını, Nardaran qalasını, Şağan qalasını, 16-cı əsrə aid Ramana qalasını göstərmək olar.

Bu qalalar Xəzər dənizi tərəfdən hücumların qarşısını almaq üçün tikilirdi. Vaxtilə Bakı yaxınlığında Bayıl qalası da mövcud olmuşdur. Lakin dəniz səviyyəsinin qalxması ilə əlaqədar bu qala suyun altında qalmışdır. Əsrlər boyu bir çox yadelli basqınlarına sinə gərən qalalar tariximizin gözəl yadigarları, qeyrət, namus, azadlıq, əbədiyyət rəmzidir.

Zaqatala rayonunun Yuxarı Çardaqlar kəndinin yaxınlığında yerləşən Pəri qalası Azərbaycanın qeyri-adi qalalarından biridir. Pəri qalası Qala strateji baxımdan çox mükəmməl yerdə tikilmişdir. Qalanın dəqiq tikilmə tarixi bəlli deyil. Ancaq tikilmə üslubuna görə tədqiqatçılar qalanın Qafqaz Albaniyası dövründə inşa edildiyini güman edirlər. "Qala" dedikdə ilk olaraq təsəvvürümüzdə dörd tərəfdən qala divarları ilə əhatə olunmuş qəsr canlanır.

Lakin Pəri qalası tamam başqa memarlıq üslubuna malikdir. Bu qalanı eramızın 4-cü əsrində qaya daşlarını çaparaq tikmişlər. Bu qalanın təyinatı haqqında müxtəlif mülahizələr vardır. Qala elə bir mövqedə yerləşmişdir ki, əraziyə gələn bütün yollar qaladan aydın görünür. Ehtimal olunur ki, düşmən ordusunun yaxınlaşdığını görən gözətçilər dərhal elin gəlin və qızlarını, uşaqları bu qalaya qaldırar, düşmən getmədən aşağı endirməzdilər. Əfsanəyə görə qalanın adı da elə bununla bağlı olmuşdur: elin pərilərini – qızlarını qoruyan qala. Pəri qala ilə əlaqədar bir çox əfsanələr var.

Başqa əfsanədə isə qeyd olunur ki, Teymurləng 14-cü əsrin axırlarında bu əraziyə hücum edəndə ona qalanın alınmaz olması haqqında məlumat verirlər. Qalaya isə Pəri adlı qızın başçılıq etdiyi bildirilib. Bu zaman Teymurləng qalanın hücumuna şəxsən özünün rəhbərlik edəcəyini və həmin qadını da özünün xanımı edəcəyini elan edir. Qalaya hücum zamanı Pəri ələ keçəcəyini gördükdə özünü qayadan atır. Elə o zamandan da qala Pəri qala adı ilə tanınır. Müasir dövrdə də Pəri qalası yerli əhalinin ən çox fəxr etdiyi tarixi abidədir. Bu qalanın təyinatı haqqında müxtəlif mülahizələr də vardır.

## Diqqət!

Kitab keçmiş Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsində 2003-cü ilin yanvar ayında tərtib və təsdiq edilmiş siyahı, hazırda ölkə tikinti kompleksində təmsil olunan səhmdar cəmiyyətlərinin, MMC-lərin, tikinti yönümlü firma və müəssisələrin rəhbərlərinin təqdim etdikləri siyahı, tanınmış alimlərin, peşəkar inşaatçıların rəyi ilə “İnşaatçı” – “Stroitel” qəzetlərinin arxiv materiallarından və Vikipediyadan istifadə edilməklə hazırlanmışdır.

Kitabın ideya müəllifi 50 ildən çox bir müddətdə “İnşaatçı” qəzetində şöbə müdiri vəzifəsində çalışan tanınmış jurnalist və arxivşünas İbrahimov Bəhram Məhəmməd oğludur.

Ensiklopediyanın əvvəlki 5 cildi Bəhram müəllimin rəhbərliyi və iştirakı ilə nəşr olunmuşdur. Bu gün haqq dünyasında olan Bəhram müəllimin başladığı xeyirxah işi qələm dostları davam etdirir.

Kitab fiziki şəxs
**Allahverdiyev Zərbalı Mirzə oğlu**
tərəfindən çapa hazırlanmış və nəşr olunmuşdur.
**(VÖEN 1002057802)**

## Minnətdarlıq

"Azərbaycan Tiknti Kompleksinin Ensiklopediyası" kitabının VIII cildi artıq hazırdır. Və biz materialların toplanmasında yaradıcı kollektivə hərtərəfli dəstək verən inşaatçılarımıza, kitabın çapında xüsusi rolu olan inşaat kollektivlərinin rəhbərlərinə sonsuz minnətdarlığımızı çatdırmaq istərdik. Hansı ki, bu kitab onların sırf vətəndaş təəssübkeşliyi və təmənnasız maddi-mənəvi dəstəkləri ilə çap olunmuşdur.

Biz hər zaman sənətinin fövqündə dayanan, ən xeyirxah peşə sahibləri olan inşaatçı və memarlarımıza güvənmişik və bu gün də güvənirik.

Hər zaman belə olacaq.

*Kompüter səhifələyicisi,*
*üz qabığının dizaynı:* **Niyazi Sadıqov**

*Operator:* **Həmid Allahverdiyev**

*Məsul korrektor:* **Niyazi Sadıqov**

*Korrektor:* **Xalidə Qafarova**

ŞƏRQ-QƏRB

Çapa imzalamışdır: 01.03.2019
Formatı 54x84 1/8. Fiziki çap vərəqi 27
Sifariş № 3555. Tiraj 400.

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17
Tel: (+99412) 374 73 84, 374 83 43
Faks: (+99412) 370 18 49